www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

“Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı” seriyası. N 31 (07 - 2017)

Tofiq Xəzər

“Bərdədən görünən dünya...”

Roman-epopeya. 16 cilddə. I cild

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

20.06.2017
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı". Elektron Kitab N 31 (07 - 2017)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2017-ci ildə maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən bir hissəsi maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər Qurumunun - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın "Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı" kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurumlar

Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası:

http://cssn.gov.az/

Feysbukda "Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı" kulturoloji-bədii layihəsi çərçivəsində rəsmi səhifə:

https://www.facebook.com/kreativlayihe/?ref=bookmarks

Yeni Yazarlar və Sənətçilər Qurumu - http://www.yysq.org

Tofiq Xəzər

"Bərdədən görünən dünya"

Roman-epopeya

On altı cilddə. I cild

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. I cild. Bakı, 2010. "Gənclik" nəşriyyatı. 274 səhifə.

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. I cild. Azərbaycan və çağdaş dünya ədəbiyyatında bir ilk olaraq 16 cilddə qələmə alınmış bu roman-epopeyanı XX və XXI əsr Azərbaycan tarixinin - mənəviyyatının ədəbi ensiklopediyası da saymaq olar...

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.


TOFİQ XƏZƏR
Bərdədən
görünən
dünya...

Tofiq Əli oğlu Babayev 1951-ci ildə Bərdə şəhərində anadan olmuşdur. 1967-ci ildə Bərdə 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunu və 1984-cü ildə Moskva Ümumittifaq Yeyinti Sənaye İnstitutunu bitirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Qızıl qələm" və 2011-ci il üzrə "İlin Nəsr kitabı" mükafatlarına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı var.

Tofiq Xəzər

"Bərdədən görünən dünya"

Roman-epopeya

On altı cilddə

I cild

Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

Т70 Тофиг Хязяр. **«Бярдядян эюрцнян дцнйа…»** Б.: «Эянълик» няшриййаты, 274 səh. 2011

Тофиг Хязярин охуъулара тягдим етдийи 8-ъилддян ибарят «Бярдядян эюрцнян дцнйа…» адлы автобиографик романы онун эениш охуъу кцтляси иля илк эюрцшцдцр.

Мцяллиф китабда ССРİ адланан няцянэ бир империйанын ейбяъярликлярини, совет забитинин тамащкарлыьыны, рцшвятхорлуь- уну, юзбашыналыьыны, миллятчилийини вя 18-19 йашлы азярбайъанлы ясэярляря гаршы щагсыз щярякятлярини мящарятля ачыб охуъуйа эюстярир.

Китабда йцз илляр бойу Дяряляйяз мащалынын Тарп, Терп, Дямирчиляр, Ъул вя Алмалы кяндляриндя йашамыш Хяляфлиляр тай-фасынын ермяни дашнакларына гаршы апардыглары сону эюрцн-мяйян мцбаризясиндян də эениш бящс едилир.

$T\frac{470206020_2}{M653\ (07)}$ qrifli nəşr

© Tofiq Xəzər

Biləcəri

06.12.1970, Базар эцнц, Бакы, Биляъяри

Axırıncı gələn İbrahim oldu.

-Deməli gedirsən? – dedi. Görüşdük. Məni özünə sıxıb başımı sığalladı.

- Dostların kimi sənin də kəsirin qalmadı ki? – soruşdu.

- Yox! – dedim və bir az da kövrələn təhər olub evə girdim. İki gün əvvəl hazırladığım köhnə pal-paltarı geyinib, anamın ərzaqla doldurduğu çantanı çiynimə atıb, sonuncu məni yola salanlarla qucaqlaşıb öpüşəndən sonra həyətə çıxdım.

Həmid əmim – 5, bibim – 10, anam – 20, atam isə cibimə 58 manat pul qoydu. Özümdə də 5 manat var idi.

Atam son dəfə məni qucaqlayıb öpəndə gördüm ki, kişi çox pis olub.

Bibim məni ürəkləndirmək üçün:

- Əsgərliyə kişilər gedər! – dedi. Elə atama da toxtaqlıq, ürək-dirək verdi bu sözləriylə.

Qapıda gözləyən taksiyə əyləşdim. Atam sürücünün pulunu verdi. Nənəm özünü yetirib əlindəki isti gödəkçəni zorla pəncərədən içəri saldı. Taksi tərpənəndə geriyə döndüm. Hamısı mənə əl eləyirdi. Anam yenə kövrəlmişdi. O ağlayıb həyətə girdi. Mənə əl eləyə bilmədi. Ancaq əlində bir vedrə su çölə çıxıb arxamızca yola səpdi. Nənəm beli bükülü halda, zorla əlində tutduğu bir ləyən su ilə çölə çıxanda, artıq biz döngəni dönürdük.

Gəldim Biləcəriyə. Burada insan əlindən tərpənmək mümkün deyildi, iynə atsan, yerə düşməzdi. “Povestka” dedikləri – “çağırış vərəqəsini” ona-buna göstərib harada duracağımı öyrəndim. Adımı siyahıda yoxladılar. Hər şeyi dəqiqləşdirəndən sonra hərbi zabit və "praporşik " dediklərindən biri məni sorğu-suala tutdu. Eşi- dəndə ki, institut tələbəsiyəm adımın qarşısına “quş” qoydular.

Mitinq başlandı. Yüksək rütbəli zabitlərin və bir neçə valideynlərin çıxışından sonra pionerlər bizi təbrik elədi. Böyük qardaşlarımız və s. dedilər və vətəni qorumağın şərəf olmasından danışdılar. Düzü burada da bir az

kövrəldim. Vətənə görə, şərəfə görə yox, rayonda qonşumuzdakı təzə vurulduğum qırmızı qalstuklu qıza görə. Axı o da pioner idi! Nəysə, keçək əsas məsələyə.

Mitinq qurtardı. Bizi elə mülkü paltarda boy sırasına uyğun cərgəyə düzüb, Biləcəri "hərbi-çağırış məntəqə"sinin yeməkxanasına apardılar. Yeməkxanada uzun basabasdan sonra özümə birtəhər yer elədim. İyrənc, dadsız, duzsuz, sulu bir yemək gətirdilər. Yeməyi görəndə ürəyim bulandı, yemədim.

Yeməkxanadan çıxıb yenə cərgəyə düzüldük. Uzunlar qabaqda, gödəklər arxada... Orkestr çalmağa başladı.

Bu ilk oyanış idi.

Biz kişi idik və vətən bizə tapşırılırdı. Qürurla addımlayırdıq.

Birdən orta məktəb dostum Aydını gördüm. O da məni görüb sevincək üstümə atıldı. Cərgə pozuldu. Hərbi geyimli rus zabiti və bir serjant rusca söyüş söyə-söyə bizi zorla araladı. Qışqıra-qışqıra dedim:

- Bəs qardaşın Yunis, Vaqif Baharoğlu niyə gəlməyiblər?

Aydın heç dediklərimi eşitmədi də. Əl elədik bir-birimizə... O izdihamın içində itənə qədər çönüb arxaya baxdım...

Biləcəri stansiyasının mərkəzi sayılan Şaumyan küçəsi ilə addımlayırdıq. Yolun hər iki tərəfi iri, tozlu şam ağacları ilə sıralanmışdı. Yağış görməyən uzun yayın toz-torpağı bu ağacların üzərinə hopub, rəngini soldurmuşdu.

Bir orta yaşlı başı aerodrom kepkalı kişi bizi görən kimi hırıldayıb: “Gedin, gedin “paxat” eləyin”, – dedi.

Biz boy sırası ilə serjantın saydığı “raz, raz, raz... raz-dva-tri...” kəlmələrinin ahəngi ilə irəliləyirdik.

Bir nurani, yaşlı qadın isə bizi görəndə elə bil yazığı gəldi:

- “Can bala can, əsgər gedirlər”, – dedi öz-özünə.

Balaca məktəb uşaqları yol boyu səkilərlə qaçışır, bizə baxır, oynaşır, ləzzət alırdılar... Bir kiçik oğlan uşağı yerdən daş götürüb “raz, raz, raz... raz-dva-tri” deyən serjanta tərəf atdı. Ayaq tappıltılarına, səs-küyə hürkmüş bir neçə küçə iti zibillikdən çıxanda küçənin balaca uşaqları bizi unudub, itləri daşlamağa başladılar.

Yanımızdan keçən yük maşınlarının sürücü- ləri isə ağızlarında kazbek siqareti uzun siqnallar verib bizi ruhlandırır, əl eləyirdilər.

Deyəsən, işimiz ciddi idi!

Nəhayət, “Eşalon” dayanan yerə çatdıq. Hərbi geyimli bir zabit, sənədləri bir-bir “praporşik”in qucağından götürüb qeydlərini aparır və bizə hansı vaqonlara minməyimizi elan eləyirdi.

- “Tofik Babaev Ali oqlı”. Elə-belə də, – dedi.

Rusların dili bizim “ə, h, c, ğ” hərflərini yaxşı götürmür axı. İrəli çıxdım.

- “trinadsatıy vaqon!” – əmrlə qışqırdı.

Çantamı götürüb özümü tələsik 13-cü vaqona saldım. Vaqona girəndə nəsə içimdə bir rahatlıq hiss elədim. Özümə yer tapıb oturdum. İçəri toz idi. Girib-çıxanlar, itələşənlər, səs-küy...

Qatar eşalon

Düz səkkiz saatdan sonra qatar-eşalon tər- pəndi.

Görünür institut tələbəsi olduğum üçün gecənin yarısı məni çağırıb üçüncü komandaya komandir təyin elədilər. Mənim himayəmə verilən 20 nəfərin ad, familiyasını yazıb, dəftərimə köçürdüm. Zabit məni fərqləndirmək üçün va- qonda daha yaxşı yer verib göz vuraraq, hətta yorğan-döşək də təklif elədi. Ancaq "dva rubl" lazım olduğunu da qulağıma pıçıldadı. Mən də ona göz vurub iki manatı gizlincə ovcuna basdım. Getməyi ilə yorğan-döşəyi gətirməyi bir oldu, ancaq rusların “belyo” dediyi ağ mələfələr-siz...

Soruşanda, – “bəs ağlar?”

Zabitin əvəzinə bu dəfə serjant göz vurub, – onu "çast"da verəcəklər, – dedi.

Qatar-eşalon gecənin qaranlığında taqqıltıyla, fit verə-verə, ağır-ağır irəliləyir, elə bil gücü çatmır, zorla gedirdi.

Vaqonda mülkü geyimli kənd uşaqları yatmaq bilmirdi. Kimi siqaret çəkir, kimisi tanı- dıqlarını başına yığıb nakam məhəbbətindən danışır, kimisi özü kimilərini tapıb kart oynayır, kimisə də vaqonun pəncərəsindən qaranlıq çöl- lərə baxıb göz yaşı axıdırdı. Hərənin özünün öz dərdi vardı. Səsi olanların bəziləri isə çox yanıqlı halda taleyindən şikayətlənən sözlərlə dolu muğam oxuyurdu. Üzüüstə yatanlar, elə oturduqları yerdə yorğunluqdan yuxulayanlar da çox idi.

Beləcə ilk gecəni keçirdik...

07.12.1970, I gün.

Bütün günü yol getdik. Haraya getdiyimizi hələlik bizə demirlər. Hərdən böyük stansiyalarda dayananda yalnız özləri təyin elədikləri komandirlərə icazə verirdilər ki, düşüb zəruri şeyləri alsınlar.

- İçki olmaz! – demişdilər.

“Pit nelzya!” sözünü işlədəndə “praporşik” mənə hər dəfə nədənsə göz vururdu.

Öz “uşaqlarım”dan pul yığıb onlara siqaret, qələm, dəftər, “konvert”, müxtəlif növ ərzaqlar alırdım.

Gün ərzində otuz dörd nəfərə qısa məktublar yazıb “Proxladnaya” stansiyasından yola saldım.

Qatar-eşalon çox yavaş sürətlə gedir, dayanacaqlarda həddən artıq, bəzən saatlarla dayanırdı. Pəncərədən uzanıb gedən meşələrə, kəndlərə baxırdıq. Bakıdan çıxıb Dağıstan sərhəddini keçəndən göz işlədikcə hər yan ağ-appaq qarla örtülmüşdü. Bakıda ildə bir-iki dəfə qar yağar, o da yerdə qalmazdı...

Hiss edirdik ki, Rusiya ərazisi ilə gedirik. Yazılar artıq rus dilində idi.

Kaşa, qoz boyda yağ və qara çörək payla- dılar. Eşalon dayanmışdı. Yeməyi başqa vaqon- dan gətirirdilər. Qarın üstünə bir "buxanka" qara çörək düşdü.

Qar və qara çörək!

Bu məni təsirləndirdi, yenə boynu qalstuklu o qonşu qız yadıma düşdü. Ancaq hiss elədim ki, artıq qürbətdəyəm...

08.12.1970, II gün.

İki nəfəri axşamdan gözətçi qoymuşduq. On- lar bütün gecəni yatmamışdılar. Mənə tapşır- dılar ki, onları dəyişdirim. Gəlib şamxorlu Vahi- də dedim. O getmək istəmədi. Serjant onun boynundan yapışıb "pastel"li-zadlı ikinci yarus- dan yerə çırpdı. Hamı gülüşdü. Onu aparıb, cəza olaraq tualeti də təmizlətdirdilər.

Rostova yaxın "Bataysk" stansiyasında iki vaqon uşağı düşürüb cərgəyə düzdülər. Onları harayasa aparırdılar...

Eşalonumuzun üstündən yazılar çıxarıldığı üçün haradan gəlib haraya gedəcəyimiz bilin- mirdi. Məxfilik qorunurdu.

Bu köhnə vaqonlar həddən artıq çirkli, içərisi bıçaq yazıları ilə doluydu. Ürək şəkillərinin və ortasından keçən oxların sayı-hesabı yox idi. Bu vaqonlarda bütün ölkə boyu gürcü, tacik, özbək, türkmən, bir sözlə müxtəlif millətlərdən olan əsgərlər daşınmışdı. Odur ki, ortası oxlu ürəklərdə Belarus, Litva, bir sözlə bütün on beş respublika vətəndaşlarının adlarından vardı.

Sevgi hissləri 50 ildən çox idi ki, bu vaqon- larda oxlu ürəklərdə qərbdən-şərqə, cənubdan-şimala fit verə-verə, takka-tukla gedə-gedə bı-çaqlarla vaqonun hər yerinə yazılmışdı. Köhnə yazıların içindəki çirkin qalınlığına görə bu aşiqlərin sevgi tarixlərinin ilini də təyin etmək olardı.

“Pit nelzya” sözündən sonrakı “göz” məsə- ləsinin mənasını başa düşəndə əslən moldovan olan serjantdan 5 manat pul verib araq aldım. Yasamaldakı evimizdən çantama qoyduğum soyutma çolpanı laçınlı Mürşüd, ağcabədili Na -zim və kəlbəcərli Sahib oturub yedik, arağı da içib qurtardıq.

Mən elə də içən deyildim. Araq məni tez tu- turdu. Duyğulanırdım. O saat da qonşuda qo- yub gəldiyim pioner qız yadıma düşürdü...

Rostov-Don, Donetsk, Krasnoarmeysk şə- hərləri arxada qaldı.

Başım ağrıyırdı. İçəridə hava çox ağır idi. Qış olduğu və görünür həm də əsgər daşındığı üçün vaqonların pəncərələri açılmırdı.

Pul verdiyim zabit və serjantdan da nə qədər elədim, haraya gedəcəyimizi öyrənə bilmədim...

Hamının demək olar ki, evdən gətirdiyi ye- mək-içməklər qurtarıb. Qatarda isə verilən borş, kaşa və qara çörəyi yemək olmur...

Uşaqlara bütün vaqonu yudurdurdular. Mən komandir olduğuma görə bu işdən azad idim.

İlk “ÇP” baş verdi.

Vaqonu yuyan uşaqlar bir sirrin üstünü açdı-lar: Bizim üstümüzdə duran leytenant gedib başqa vaqonda bir mayora məruzələr eləyirmiş. Həmin mayorun yanında bir gözəl cavan mə-şuqəsi də varmış. Bütün günü kupedə oturub, yeyib-içib kef çəkir və bizim uşaqlardan da giz-lənmək istəyirmişlər.

İncə bir səhvə yol veriblər. Qız qapıdan çölə nə səbəbdənsə boylananda uşağın biri onları görüb. Görən də sonradan məlum oldu: Bakılı Gera Arutyunov. Ancaq bizə nə? Bizə oxumaq qalırdı. Kimsə zil səslə:

Gülşəndə fəqan eylər ikən bülbülü şeyda,

Gül bülbülə, bülbül gülə, gül xarə dolaşmış.

Gül-gülündən ayrı, bülbülündən ayrı,

Heç yaşarmı ayrı?

“Səmayi-şəms” təsnifi oxuyurdu. Yanındakı uşaqlar da vaqonun divarına, dizlərinə döyəc- ləyib ritm tuturdular.

Hərdən qonşu vaqonlardan da muğam oxu-yanların yanıqlı səsi gəlirdi. Bizim vaqonda arsız-vecsiz uşaqlar da vardı. Elə bil heç bir dərd-sərləri yox idi. Yığışıb əl çalır, oxuyur, oy-nayırdılar. Onların paltarlarından tökülən toz-torpaq yeni yuyulmuş vaqonu tozlandırır, əllə- rinə gələn lazımsız nə varsa kim hara gəldi tullayır, səs-küydən və siqaret tüstüsündən yat- maq da olmurdu.

Pəncərədən baxırdım. Hər yan göz işlədikcə ağappaq qar idi. Meşələr uzanıb gedir, yol kə- narlarında kəndlər görünürdü...

Gecələr pəncərədən bu kəndlərə baxanda qüssələnirdim. Kənd evlərinin qarda, qiyamətdə işıqları yanırdı. Otaqların içərisi isti olduğundan pəncərələrdə

yaranan buğlar bayırdakı soyuq- dan dərhal da damla halına düşüb şüşə boyu süzülürdü.

Kənddəki həyətləri hündürlüyü bir metrə çatan taxta reşotkalar bir-birindən ayırırdı.Baca- lardan çıxan tüstülər, yağan lopa qarlar küçənin işıq direklərindən düşən işığın fonunda nağıla bənzəyirdi.

Lap uzaqlardan qatarın səsinə hürüşən, ula- yan itlərin səsləri də qarışırdı. Ayaqları valinkalı, qulaqlı papaq qoyan, qalın kürklər geyən kənd kişiləri at arabaları ilə kənd yollarında görü- nəndə onlara baxıb həsəd aparırdım. Elə bilir- dim ki, belə azad həyat bir də bizə qismət olmayacaq.

Qarşıda bizi çox uzun “iki il” əsgər həyatı gözləyirdi...

Hərdən gündüzlər pəncərədən baxarkən kənd yollarında cavan qızlar görünəndə bütün eşalon bir-birinə qarışardı. Papaq yelləyən kim, “devuşka, devuşka”, – deyib çığıran kim, fit çalan kim...

Qızlar da gülüşüb bu eşalona baxar, əl elə- yərdilər.

Gecələr qatar taqqıltısı bəzən, xüsusən də yatanda adama elə bil lay-lay çalırdı. Ancaq kaş qatar dayanmayaydı. Dayananda, ritm pozular və yuxudan ayılardım. Ayılan kimi yuxunun içindəki azadlığı itirdiyimə elə peşiman olurdum! Dərhal gözümü yumurdum ki, şirin

yuxuya, azadlığa bir də qovuşum. Ancaq sonra yuxuya getmək çətin olurdu, alınmırdı...

Mən ilişmişdim!

Axşamtərəfi xəbər verdilər ki, “yemək üçün verilmiş qabları yığın, sabah çatırıq”. Sevindi- yindən hamı bir-birini qucaqlayır, qışqırır, fit çalırdılar...

Bircə çatsaydıq!

Vaqonun zəif işığında leytenant, praporşik və serjant hamını bir-bir növbə ilə otaqlarına çağırır, kimin nə sənətin sahibi olduğunu soru- şub şəxsi sənədlərində qeydlər aparırdılar.

Hərə bir sənət bilirdi, kimi “plotnik”əm, kimi hörgü ustasıyam, kimi suvaqçıyam və s.... peşələri olduqlarını dedikcə mən də fikirləşirdim ki, bəs mən kiməm? Bu peşələrdən heç birini mən bilmirdim. Odur ki, peşəm yoxdur- dedim. Tələbəyəm...

Leytenantın məndən nədənsə əvvəldən xoşu gəlirdi. Dedi ki, səni öz dəftərimə yazdım, xid- məti bir yerdə edəcəyik. Yəqin həm də 2 manatı unutmamışdı...

Kəlbəcərin, Laçının uzaq kəndlərindən gələn uşaqların heç biri rus dilini bilmirdi. Mən onlara tərcüməçilik eləməyə başlamışdım.

Qəflətən uşaqlardan biri özünü ağıllı hesab eləyib, – “mən idmançıyam”, – dedi.

Zabit təkəbbürlə: – İdmançı bizə lazım deyil, biz “voyenni-stroitel”lərik. Sən yaxşı “rastvor” daşıyarsan, – deyib onu da dəftərinə yazdı...

Bütün gecəni fikirləşdim. Deməli, biz "voyenni-stroyitel" olacağıq. Bu əsgərlik olmadı ki... Fəhlə işləməyə gedirik.

09.12.1970, III gün.

Səs-küydən, xorultudan, ağır havadan yat- maq olmurdu. Vaqonların hamısı “obşi”dir, bir-iki kupesi var ki, o da zabitlər üçündür. "Pos-tel"lər nəmli və köhnədir. Nə yastıq var, nə də "belyo". Hamı elə paltarlı yatıb paltarlı da durur. Uşaqların üzünü tamam tük basıb...

Bu gün səhər açılanda əvvəlki günlərə nis- bətən uşaqların səsi də zəifləmişdi. Hamı elə bil halsız idi. Daha ağlayan, oxuyan da yoxuydu...

Leytenant "komandir otdeleniya"ları çağırıb, növbəti tapşırıqlarını verdi: – Dörd-beş saatdan sonra düşürük, hərədən iki manat pul yığın.

Qısa və konkret.

Düzü yaman sevindik. Yol getməkdən təngə gəlmişdik. Pulları yığdıq.

Dnepropetrovskini keçdik. Kirovoqrod da arxada qaldı. Düşürtmədilər bizi. Eşalon ölə-ölə gedir. Fit çalır, buxar püskürür. Tak-tuk, tak-tuk... getdiyindən də çox dayanır. Sürünür, can verirdi elə bil...

Uşaqların da yemək-içməyi qurtardığından elə bu köhnə qatar-eşalon kimi əldən düş- müşdülər. Əvvəlki günlərdəki təmtəraq onlarda daha qalmayıb. Üzlərindən əzginlik, yorğunluq, süstlük açıq-aydın sezilirdi...

Yemək bircə məndə qalmışdı. Bütün vaqon bunu bilirdi. Odur ki, həm komandirliyimə, həm də yeməyə görə hamı məni sayır, məndən çəkinir və mənimlə hesablaşırdı.

Ağcabədili Nazimlə kart oynadıq. O, danı- şanda “r” hərfini tələffüz edə bilmirdi. Onun 4 manatını uddum. Ümumi pullarımı ehtiyat üçün bir də sayıb döş cibimdə gizlətdim: 96 manat pulum vardı.

Göndərdiyim otuz dörd məktubdan sonra ürəyim soyumadığı üçün ikisini də yazıb gön- dərdim.

Leytenantın soyadını öyrəndim – Bryusov.

Məni özü xidmət elədiyi yerə yazdığını bir də vurğuladı və tərifləyib gülümsəyəndən, xırda si-çan dişlərini göstərəndən sonra, – gedin, uşaq-ları bir yerə yığın, çatırıq, – dedi.

Gecə idi. Canlanma başladı. Hamı vurnuxur- du. Siyahı ilə uşaqlarımı son dəfə yoxladım...

Nədənsə bərk sevinirdik.

Nəhayət qatar-eşalon böyük bir ləngərdən, şakka-şukdan sonra silkələnib dayandı. Hara- dansa bir mayor çıxdı. Göy gözləri və donuza oxşar sifəti vardı.

- Bura Pervomoysk şəhəridir, – dedi.

Bu o idi! Məşuqəsi ilə kef çəkən. Qız görün- mürdü.

Bizi dəstələrə bölüb, üstü çadırlı hərbi maşın-lara doldurdular. Hər yan ağappaq qar idi. Gecə olmasına baxmayaraq maşınların işığında qar ağarırdı. Bərk külək əsirdi və güclü şaxta vardı.

Köhnə papağımı alnıma basıb buz kimi maşı-nın kuzovuna çıxdım. Nənəmin taksiyə zorla bas-dığı isti gödəkçə olmasaydı, sətəlcəm olardım. Soyuqdan uşaqlar bir-birinin qarnına girirdi ki, isinsinlər. Hamının ağzından-burnundan buğ çı- xırdı.

Maşınlar dolsa da, tərpənmək bilmirdi. Qatar-eşalonda çoxlu uşaq qaldı. Görünür onlar başqa yerlərdə düşəcəklər...

Ayağımdakı köhnə ayaqqabı dabanımı yaralamışdı. Yaranın qaysağı qopdu. Məni bərk üşütmə tutdu. Qışın bu şaxtasında üstü çadırlı maşında da yol gedərlər? Bu, əsl cəhənnəm əzabı idi...

Yaxşı ki, tez çatdıq. Heç on dəqiqə keçmə- mişdi. Qaranlıq olduğundan hələ yan-yörəni yaxşı görə bilmirdik. Dedilər:

- Bura sizin "çast"ınız olacaq, hərbi xidməti burada çəkəcəksiniz.

Onlara heç fikir verən də yox idi...

Pervomaysk

Bizi hərbi hissənin klubuna yığdılar. Bura nisbətən isti idi. Hər şey planlaşdırılıbmış...

Klubun ortasında 10 stul qoyulmuşdu. Hər birinin yanında da əsgər formasında səbirsiz- liklə gözləyən

dəlləklər. Qoymadılar nəfəsimizi dərək. Baş qırxan maşınlar işə düşdü.

Ucqar dağ kəndlərindən gələn uşaqlar “qo- yun-quzu qırxını” başladı - deyib, zarafatlaşıb qışqırışırdılar.

Kluba bitişik yardımçı binalardan biri hamam idi. Başı daz qırxılanları serjantlar hamama qo-vurdu. Hamamda başqa serjantlar gələnləri qəbul eləyir, mülki paltarlarımızı soyundurub, bi-zi “lüt” çimilən yerə ötürürdü. Köhnə mülki pal-tarlar xüsusi kisələrə yığılıb nömrələnir, üstünə sahibinin ad və familiyaları yazılırdı. Arxayın-laşmaq üçün yazını özüm təkrar oxudum.

Saçımı xidmətinin artıq ikinci ilini qulluq edən siravi belarus əsgər-dəllək qırxdı. Heç beş də-qiqə keçməmişdi ki, qurtardı. Yolun yorğunlu-ğu, çölün sazağı, baş qırxan maşının nəğmə dolu zümzüməsində yenicə canımdan çıxırdı ki, serjant ayağını yerə çırparaq: - Qalx, – deyib hamamın qapısını göstərdi.

Paltarlarımı soyunub lüt hamamın çimilən yerinə girəndə gözlərimə inanmadım. Hamı lüt idi. Bir əlimdə doxsan altı manatımı bükmələyib tutmuş, bir əlimlə də həya elədiyimdən qabağı- mı örtmüşdüm...

İçəri duman kimi idi. Su kranlarından “par” çıxır, içəri soyuq olduğundan tez də damcılara çevrilib tavandan iri göz yaşları kimi asılırdılar.

Baxdım ki, heç kim qabağını tutmur, heç utanan da yox idi. Ruslar bizim sünnət olunmuş pülüksüz cinsi orqanımıza baxıb gülür və bir-birlərinə göz vurub, – "musulmani" – deyirdilər. Hamamda başı daz qırxılmış bu ruslar görünür bizimlə eyni vaxtda Rusiyanın harasındansa gəlmişdilər.

“Ruslarınkı” pülüklü idi.

Əvvəl maraqla hamı bir-birinə baxırdı. Sonra “tazik” üstündə qiyamət qopanda hər şey adiləşdi, heç kim heç kimin bu ayıb yerinə fikir vermədi daha. “Tazik” davası başlamışdı. Bu alüminium ləyənə onlar “tazik” deyirdilər. Alü- minium ləyənləri krantda su ilə doldurur və paltar sabunları ilə yuyunurdular.

Bu hamam deyilən yer beton döşəməsi olan, divarları suvaqdan sonra əhənglənmiş, pəncə- rəsinin şüşələri ağ rənglə rənglənmiş bir yer idi. Bəzi qırıq pəncərə şüşələrinin yerinə qalın kar- tonlar taxılmışdı.

İyrənc bir yer! Gözlərimə inanmırdım.

Yorğun uşaqlar, xəstələnib soyuqlayanlar hara gəldi tüpürür, burunlarını silirdilər. Yenicə qırxıl- mış saçların yuyulmasından sonra kanaliza- siyanın gözü tutulur, sabun köpüyünün içində su döşəmədə göllənirdi.

Bərk-bərk əlimdəki pulu sıxıb, o biri əlim “ayıb” yerimin üstündə, canıma su vurmamış, iyrənə-iyrənə

pəncələrimin üstündə o biri tə-rəfdən çimib çıxanlara qoşulub mən də çıx- dım. Guya çimmişəm.

Növbəti otaqda bizi Biləcəridən gətirən pra- porşik qarşıladı. O, boy-buxunumuza baxıb “razmer”lərimizi təyin eləyir, tez-tez “sorok vo-sem-sorok şest”, – deyirdi. Başqa bir serjant da dərhal o “razmer”ləri tapıb verirdi.

Uşaqlar geyindikcə bir-birlərini dəyişik salır- dı. Əsgər paltarında kənd uşaqları bir-birini yal- nız üzdən görəndə tanıyırdılar. Növbə mənə çatanda praporşik xırda yaşıl gözlərini qıyıb diq- qətlə baxdı. Əlini başıma, canıma sürtüb rusca bir söyüş də əlavə edərək məni geri qaytardı ki:

- “İdi kupaysiya, yop tvoy mat”.

Əlimi cinsi orqanımın üstündən götürüb acıqlı halda dala qayıtdım. O iyrənc yerə təkrar girib altı deşik bir “tazik” tapdım. Özümü sulayıb geri qayıtdım.

Əsgər paltarını geyinib, pulu “rubaşka” -mın cibində gizlədəndən sonra təzə sapoqlara, dəmir başlıq hissəsi qızılı rəng par-par pa- rıldayan beşulduzlu toqqaya baxıb nədənsə sevindim bir az...

Praporşik elan elədi:

- “Qrajdanski” paltarını kim istəyir, götürsün, sonra evlərinə “pasılka” eləyə bilər.

Nənəmin verdiyi “kurtka” və papağımı götü- rüb qalanlarını köhnə olduğundan atdım.

Gecə saat iki idi. Gözləyirdik. Klub isti oldu- ğundan yuxu məni öldürürdü. Nəhayət, hamı hazır oldu. Bizi sıraya düzüb “stolova”ya apar- dılar. Yeməkxanaya gedəndə hiss elədim ki, elə doğrudan da acından ölürəmmiş. Çölün soyu- ğu, yolun yorğunluğu bizi əldən salmışdı.

Yeməkxanada 10 nəfərlik uzun taxta stollar və stolların hər iki tərəfində uzun taxta oturacaq qoyulmuşdu. On-on hamı oturdu. “Qreçka” ilə kartof püresi, qara çörək, isti çay və fındıq boyda qənd verdilər. Burada boşqab da, çəngəl də, bıçaq da, “kruşka”lar da, hamısı əzik-üzük aliminiumdan idi. Hiss olunurdu ki, bu qab-qacaqlar uzun ömür sürüblər. Bəlkə də SSRİ qurulandan bu qablar işlədilir. Çünki nə qədər yuyulubsa, əzik yerlərdə illərin çirki qara rəng alıb ərp bağlamışdı.

Yeməkdən sonra bizi sıraya düzüb, yatacaq yerimiz olacaq “kazarma” deyilən yerə gətirdilər. Gecə dördün yarısı idi. Bəxtim gətirdi, birinci “yarus”dan özümə yer tutdum. “Odboy” verildi. Hamı soyunub yerinə girdi. İşıqları söndürdülər.

“Padyom” oldu. Cəmi beş saat yatmışdıq. “Padyom” sözünü serjant necə bərkdən qış- qırdısa dik atıldım. Qışqıran serjant bizimlə Ba- kıdan, Biləcəridən gələn moldovan idi. O, uzun, qaraşın, göyçək, elə azərbaycanlılara oxşar bir oğlan idi. Artıq xidmətinin altıncı ayını qur-tarmışdı. Qısa saçı, badamı gözləri vardı. Va-qondakına nisbətən səsi inamlı və bir qədər də qətiyyətli çıxırdı...

Qışqırtıya hamı qalxıb, tez-tələsik geyinib sı- raya düzüləndə baxdıq ki, iki nəfər daş kimi ya-tıb... Serjant onları sürüyüb yerə salanda hamı-mız gülməkdən uğunurduq.

Cərgəylə çölə çıxdıq. Qar yağırdı. Elə cər-gəylə də bizi tualetə apardılar. Oradan yemək-xanaya, sonra kazarmaya gətirib:

- Yatın! – dedilər.

Uzun yol gəldiyimizə görə yatmağa icazə verdilər. Sonra yenə “padyom”, yenə sıra, yenə yeməkxana və yenə kazarma.

Dedilər:

-Azadsınız. Axşam yeməyinə qədər kim nə işlə istəyir, məşğul ola bilər...

Hamı məktub yazmağa başladı.

Ünvanımızı dəqiqləşdirdik. “Ukrainskaya SSR, Nikolayevskaya oblast, qorod Pervo- maysk-8, voyskovaya çast 11741 “k”.” Bəli, ömrümüzün növbəti iki ilini keçirəcəyimiz bu yer Rusiya yox, Ukrayna imiş...

“Lenkomnata” deyilən yerdə oturub çoxlu məktublar yazdım. Demək olar hamıya.Ünva- nımı bilsinlər ki, bu iki ili məktublaşaq. Əsgər- liyinki məktubdur. Kim nə deyir desin. Qon- şudakı pioner qıza da məktub yazıb qohumum Zeynəbə yazdığım məktubun içinə qoydum. Əvvəldən Zeynəblə belə şərtləşmişdik. Görək indi məktubu “o qıza” çatdıra biləcəkdimi?

İlk dəfə əsgər formasında şəklimi də çəkdir- dim. Klubda iclas oldu. “Çast” üzrə komandirlə bizi tanış elədilər: - podpolkovnik Bezlepkin!

Əslən bakılı imiş:

- Siz inşaat “çast”ında hərbi xidmətdəsiniz, – dedi.

Sonra rusca o qədər danışdı ki, heç kim də qulaq asmadı. Heç onu başa düşən də yox idi. Rus dilini az-çox bilən iki-üç nəfər idik.

Axşam klubda kino verdilər. “Qonşular” filmini. Film qurtarıb işıqlar yananda gördüm ki, hamı yatıb. Elə şirin

yatmışdılar ki, adamın oyatmağa ürəyi də gəlmirdi. Ancaq praporşikin nərəsi onları yuxudan dik qaldırdı...

Sıra ilə tualetə getdik. Tualet çox geniş və uzun idi. Otuz-qırx adam birdən içəri girə bilirdi. Hər bir göz o birindən bir metr hündürlüyü olan taxta arakəsmələrlə ayrılırdı...

Bizi öyrətdikləri kimi taxta gözün birinə girib, əvvəl remenimi çıxarıb boynuma saldım. Elə yenicə çömələb oturmuşdum ki, onda gördüm kim isə remenimi və beşulduzlu papağımı gö- türüb qaçdı. Şalvarımı cəld yuxarı çəkib qaça- nın dalınca götürüldüm ki, onu tutam, ancaq əsgər-əsgərə qarışdığından hamı bir-birinə oxşadığından qaçıranı itirdim.

Yaman pərt olmuşdum. Remensiz və papaq- sız qalmışdım. Az qaldım ağlayam. Ora-bura baxıb bir az vurnuxandan və əlim hər şeydən üzüləndən sonra qəflətən ağlıma bir ideya gəldi və tez tualetə qaçdım.

Eyni üsulla elə biri yenicə çömələmişdi ki, mən də onunkuları götürüb qaçdım. Toqqanı tez belimə bağlayıb, ortası qızılı beş ulduzlu papağı başıma qoyub əsgərlərə qarışdım. Ortalıq nə qədər işıqlı olsa da ətraf qaranlıq idi. Soyuq, qar, külək də öz yerində.

Sıraya düzülüb “kazarma”ya gəldik. Bir az sonra pıçapıç düşdü ki, kimsə Əliquliyevin papağını və toqqasını qaçırıb.

Yaxınlaşıb ona dedim:

- Də niyə ağlayırsan? Necə ki, sənin başına oyun açıblar, get tualetdə sən də elə et, qaç, sonra da qarış əsgərlərə...

Xülasə, bu gün bizi yenidən “otdeleniya”lara böldülər. Mən ikinciyə düşdüm. Mamışevi bizə komandir təyin elədilər. O, Kirovabadda institut qurtarmışdı. Bir il xidmət eləyəcəkdi. Özü də ki- rovabadlı idi..

Bu gün bizə yatağımızı yığışdırmağı, necə geyinməyi, necə soyunmağı da öyrətdilər.

“Kamera xraneniya”dan zəruri şeylərimi gö- türdüm. Üzqırxan, “konvert”ləri, dəftər, qələm və s. bir də o pioner qızın qırmızı qalstuklu şəklini.

Səhər 07:00-da dururuq. Gündə üç dəfə ye- mək yeyirik. 08:00-da, 14:00-da, bir də axşam.

Yeni “otdeleniya”da ikinci yarusda yer ver- dilər mənə.

- Sabahdan “karantin” başlayacaq, – dedilər.

Heç fikir də vermədim.

Bu gün Alfred Nobelin dünyasını dəyişdiyi günüydü. İsveç akademiyası bu ilin qızıl meda- lını yeni laureata – Çilinin şair və diplomatı Pab- lo Nerudaya təqdim elədi. Və elan eləyəndə: - “bütöv qitənin taleyini fövqəltəbii güclə poe- ziyasında ifadə etdiyinə görə” ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü, – dedilər. “Lenkomnata”da televizorda eşitdim bunu. Bəx- təvərdi kimdisə, – ürəyimdə bu sözləri, fikirləşib düşünəndə... sıraya düzülmək əmri verildi.

Karantin

11.12.1970, V gün.

"Padyom" əmrini serjant çığıranda elə dərin, elə gözəl yuxuda idim ki, yuxunun şirin-liyindən gözümü açıb tez də yumdum. Yaman hirsləndim düzü. Tez də başa düşdüm ki, kimə acıq eləyirəm, bura evimiz deyil ki... Öz-özümə tüpürüb, ayağa qalxdım. Cəld geyinib sırada ye-rimi tutdum.

- Soyunun, – dedilər.

Soyunduq. Elə tuman-köynəkdə bizi cərgəyə düzüb, boy sırası ilə bayıra çıxartdılar. "Maroz" idi. Şaxta adamı kəsirdi. Başladılar səhər gim- nastikası elətdirməyə. Çölün qaranlığında, ağ tuman-köynəkdə idman yaman yaxşı şey imiş. Ağız-burnumuzdan buğ çıxırdı. Canımız istilə- nirdi. Yuxu tamam qaçmışdı. Sonra kazarmaya qayıtdıq.

- Üzünüzü qırxın, yuyunun, – dedilər.

Uşaqlardan köhnə bir britva aldım. Ömrüm-də ilk dəfə üzümü qırxdım. Güzgü də köhnə olduğundan yaxşı göstərmirdi. Bir sözlə, yaxşı bacarmadım, ala-bula tük qalmışdı üzümdə...

Ayağımın yarası da bir tərəfdən məni inci- dirdi. İndi də qrip tutmuşam. Canım eləcə kirdir. Bakıda Yasamalda evimizdə çimdiyimdir.

Səhər yeməyindən sonra bizə geyimlərimizi yazdırdılar. Remen, papaqdan tutmuş sapoqa qədər bütün pal-paltarlarımızın içəri hissəsin- dən xlorla yazdıq. Familiya, ad və atamızın adı- nı. Daha heç kim tualetdə heç kimin papağını və ya toqqasını qaçıra bilməyəcək. Xlor düş- düyü yeri yandırıb ağardır və yazılar aydınca oxunurdu.

Kazarmanın həyətində bir əsgər mağazası vardı. Üzərinə böyük hərflərlə “Voyentorq” sözü yazılmışdı. Oradan 3 ədəd “şotka” aldım –pal-tar, toqqa və sapoq üçün. İki cür maz – toqqa-nın qızılı ulduzlu yerini daim parıldatmaq və sa-poq üçün ayrıca. Üz qırxmaq üçün krem, ode-kalon, lezva və iynə, sap... 6 manat getdi.

Hara gediriksə, dəstə ilə gedirik. Mağazaya da, tualetə də.

Qəzetlərə abunə yazılmaq məcburi idi. Rus dilində "Kommunist" qəzetinə yazıldım.

"Rubaşka"ların boynuna təmiz ağ tikdirdilər. Kiminki çirklənsə, tez özü yusun. Yoxsa, cəza alacaq dedilər. Həyatımda ilk dəfə iynə sapla ti- kiş tikdim. Bacara bildim bunu.

Çəkdirdiyim fotoşəkilləri aldım. 3 manat da pul verdim. Şəkillər əla çıxmışdı. Düz 10 ədəd. Qapıda qarşıma bir kapitan çıxdı.

- Pul verdin şəkillərə? – soruşdu.

Dinmədim. Necə qışqırdısa, 3 manatımı qay- tardılar.

Yatıb-durmağı bizə məşq elətdirdilər.

Təkrar-təkrar gülməkdən uğunduq. Ağcabə- dili Nazim pəltək idi. "R" hərfini "y" kimi tələffüz eləyirdi. Bütün günü gülürdü. Nazimlə dostluq eləyirik. Çöldə şaxta, qar olmasına baxmayaraq "stolova"ya, tualetə gedib gələndə sapoqları- mızın yanları palçıq olurdu. Axşam ayağımı hə- kimə göstərdim. Məni sabah yeddiyə "sançast"a yazdı.

12.12.1970, VI gün.

Saat 07:00-da serjant məni “sançast”a apar- dı. Həkim yaramı soydu. Bərk göynəyirdi. Uful- dayırdım. Yaranı “rivanol”la yuyub, dərmanla- yıb sarıdı. “Sançast” xəstə “soldat”larla dolu idi. Orada bir azərbaycanlı həkim gördüm. O danış- dı ki, bu əsgərlərin çoxu özlərini xəstəliyə vu- ranlardır. Türmə yatıb çıxan, sonra əsgərliyə göndərilən bir rusu mənə göstərib dedi:

- Görürsən bunu. Donuzun tükünü buduna soxub. Özünü yoluxdurub. İndi bədəni tamam şişib. Yara tökür. Nədi-nədi buralarda bir neçə ay beləcə boş-bekar hərlənib vaxtını keçirə- cək...

Biz qayıdanda “vzvod” yemək yeyirdi. Serjant yuyunmağa da qoymadı.

Klubda iclas oldu. Sabah böyük bayramdır. Bizdən on- on iki gün əvvəl gələnlər “prisyaqa” qəbul edəcəklər. Deyirlər, – təntənəli olacaq.

Bu gün o qədər təpik vurduq ki! Sağa, sola, “kruqom”, dönməyi, yeriməyi öyrətdilər. Hər ya-rım saatdan bir on dəqiqə fasilə olurdu. Rus- lar vaxt tamam olan kimi “perekur” deyib qışqı-rırdılar...

Sonra kino oldu. Filmin adı tam yadımda qal-madı. “Predsedatel” sözündən sonra deyəsən “plenya” idi. Ya da “pesnya”ya oxşar bir söz.

“Varatnik”lərimizin boynunun ağlarını dəyiş- dik. Üç nəfər növbə ilə “pol”u yudu. Sonra “padyom”, “odboy” məşqi keçdilər. Sonra da for-ma 4 məşqi, yəni qırx saniyəyə soyunub ge-yinmək.

13.12.2009, *Bazar günü.*

Səhər “padyom” veriləndə elə şirin yuxuda idim... Sonra nə qədər fikirləşdim, yuxumu ya- dıma sala bilmədim.

Bu gün səsvermə vardı. Hərbi biletlərimizi axşamdan vermişdilər. Bülletenləri alıb qutulara saldıq. İki nəfərə səs verdik.

Ancaq heç birini tanımırdıq!

Qutular qırmızı parça ilə örtülmüşdü. Səsver- mə qurtaran kimi də hərbi biletlərimizi yığdılar.

Birinci və ikinci “vzvod” “Leninski komna- ta”da “prisyaqa” qəbul elədi. Bizi baxmağa qoy- madılar.

İstirahət günü olmasına baxmayaraq bizə o ki, var təpik döydürdülər.

Bakıdan bizimlə gələn Arutyunov cəza olaraq altı "naryad" aldı...

Sonra, - dincəlin, – dedilər. İki saat boş vaxtı- mız vardı. Kazarmada hərə bir küncə çəkilib məktub yazırdı. Yanıqlı oxuyanlar da vardı. Pəl- tək Nazim də züm-zümə eləyirdi. "Maqazin" - dən "pryannik" və konfet alıb yedim.

"Onlar birinci gedirdi" filmini verdilər. Hamı yatdı kinoda. Pəncərələri bağlı olduğundan və istilik sistemi qoşulduğundan kino-zal qaranlıq və isti idi. Çöldə isə çovğun, şaxta...

Təpik vurmaqdan gələn əsgər, kinoya baxa bilər? Kino qurtarıb işıqlar yananda heç kimin xəbəri olmur. Elə şirin yatırlar ki, əsgərləri lentə alan olsa, bu mənzərə kinodan da maraqlı çı- xardı.

Kinodan çıxıb tualetə getdik. Kazarmaya gələndə xəbər yayıldı ki, "starik"lər kinoda elə içi xlorla yazılı vəziyyətdə iki, tualetdə isə üç uşağın papağını aparıblar…

14.12.1970, I gün.

Bu gün Bərdədə pioner qızın musiqi məktə-bində dərsi var. Gecə hesablamışdım. 404 gün-dür ki, onu sevirəm.

Dəftərimə başlıq qoydum: “404-76”. Yetmiş altı onu gördüyüm günlərin sa-yıdır...

“Hərbi and”ın sözlərini yazdırdılar bizə. Əz- bərlədim. Serjant soruşanda necə danışdım- sa, elə dəstənin qabağında mənə “blaqodar- nost” elan eləyib, dəftərinə nəsə yazdı.

Həkim gəldi. Boyumuzu ölçdülər. Sonra bizi tərəzidə çəkdilər. 168 sm. boyum, 58 kq. çəkim oldu. Güləşçi olduğumu da qeyd elədilər.

Texniki təhlükəsizliyə aid mühazirə oxudular. Heç kim də heç nə başa düşmədi. Heç qulaq asan da yox idi. Sonra ucdantutma hamıya üç kağıza qol çəkdirdilər. Gördüm mənim adımın qabağına “ştukaturşik” sözü yazıblar. Məəttəl qaldım.

Bizi sıraya düzüb, hamama apardılar. Vaxt o qədər az oldu ki, heç on dəqiqə çimməyə imkan vermədilər. On dəqiqənin də yarısını “tazik” davasına istifadə elədik. Canım kir idi. Elə kirli də qaldı. Yaxşı ki, heç olmasa tuman-köynəyi dəyişdilər. Komsomol iclası vardı. Ona görə də ildırım sürətli çimməyi araya salmışdılar.

Axşam “osmotr”unda remeni gen bağladığı- ma görə iki, ulduzlu qızılı hissəsini yaxşı pa- rıldatmadığıma görə də iki “naryad na rabotu” aldım. Yaman pis oldum.

Hamı yatandan sonra “naryad” alanları işlə- dirlər. Mənə ayağım yaralı olduğu üçün hörmət eləyib “suşilka”nı təmizləməyi tapşırdılar. “Su- şilka” uzun, ensiz otaq idi. Bütün kazarmanın is- tilik boruları buradan keçirdi. Odur ki, içəri əla isti idi. Kim paltarlarını yusa gətirib bu boruların üstünə sərərdi. Əsas da “portyanka”larını. Otaq- dan “portyanka” iyi gəlirdi. Yuyulmuş yaş sa- poqlar da burada qurudulurdu. Maz iyi buraya bir özəllik qatırdı. Burada ac, yorğun adamı uzanan kimi yuxu dərhal aparırdı. Uşaqların çoxu üşüyəndə gecə gəlib elə bu isti “turba”ların üstündə yatardı.

Nəysə, otağı tələm-tələsik səliqəyə salıb, “pol”unu yuyandan sonra növbətçi serjanta təh-vil verdim. O da barmağını ora-bura sürtüb, tə-mizliyinə tam əmin olandan sonra mənə yat-mağa icazə verdi.

İlk aldığım cəzamı çəkəndən sonra yatmağa gəldim. Bütün kazarma yatırdı. Hamı yorğun olduğundan elə şirin yatmışdı ki...

15.12. 1970, II gün.

“Padyom”, tualet, səhər gimnastikası, yerlərin yığışdırılması, səhər yuyunması, sonra yemək, yeməkdən sonra yarım saat dincəlib təpik döy-mək başladı.

Gera Arutyunov hər gün “naryad” alır. Hər gün işləyib kazarmanı təmizlədikcə yenilərini alır və artıq 10 “naryad”ı ehtiyatda durur.

Təpik döyməkdən, ora-bura dönüb, “kruqo- voy” fırlanmaqdan, “zdrave jelayu tovariş” ... deməkdən bu gün də təngə gəldik...

“Politika”dan iki saat dərs keçdilər. Dedilər ki, müəyyən vacib məsələləri dəftərinizə qeyd elə-yib öyrənin. Elə bu vaxt məlum oldu ki, Kəlbə-cərin, Laçının uzaq kəndlərindən olan uşaqların çoxu heç öz ana dilində yazmağı bacarmır, on-da qala rusca siyasətdən nəsə yaza.

Sən demə ağcabədili Nazim də yazmağı bacarmırmış. Mənə bu yazı yazmağı bacarma-maq çox təəccüblü gəldi. Bərdədə orta mək-təbdə oxuyanda cəbr dərsindən kəsri ya vurub-bölməyi, ya da toplayıb-çıxmağı bacarmayan vardı. Ancaq yazı yazmağı hamı bilirdi.

Gecə “naryad”ı olanları klubu yumağa apar-dılar. Mənim də ikinci “naryad”ım dururdu. Yed-di nəfər idik. Uşaqlar işləmək istəmirdi. Gecə isə keçirdi. Bilalov familiyalı bir bakılı əli belin-də özü işləmir, ona-buna

göstəriş verirdi. Onun-la dalaşdım. Çox dalaşa bilmədik. Bizi rus fo-toqraf və yerdə qalan beş uşaq ayırdı.

Bizi işlədən fotoqrafa dedim:

-Mənə konkret yer ver, təmizləyib gedim...

O razılaşdı. O deyən yeri on iki dəfədən çox yuyub qan-tərə batdım. Palçıqlı "pol"u tər-təmiz yuyub təhvil verəndə gecə saat bir idi.

Onları orada qoyub kazarmaya gəldim.Qapı- da "dnevalnı" duran əsgər oturduğu yerdə bir qolunun üstünə başını qoyub yatmışdı. Papağı yerdə idi. Əyilib götürdüm və ehmalca qarşı- sındakı stolun üstünə qoyub keçdim. Hərdən xoruldayır, mışıl-mışıl yatırdı...

Yerimə girməyimlə yuxunun məni aparması bir oldu.

16.12.1970, III gün.

"Stroyevoy şaq" getməkdən, təpik vurmaq- dan bu gün də cana gəldik.

Sonra həkim gəldi. Bizə növbə ilə özü də be-limizdən "nəyəsə qarşı" iynə vurdular. Çox ça-lışdım ki, bu iynənin nə üçün vurulduğunu öy-rənəm. Demədilər. Bir az bizdən

yaşlı çeçen “starik” əsgər bizə başa saldı ki, “şəhvətə” qar-şıdır. Sonralar uşaq bir-birinə daraşmasın de-yə...

Mülki ayın-oyunlarımı evə “pasılka” eləmək üçün 3 manatlıq ağ parça aldım.

Atamın dayısı Yevlaxda yaşayan Təhməz kişidən tutmuş Bərdədə “sberkassa”da işləyən “xalturşik” Zabilə kimi hərəyə bir məktub yaz- dım. Elə oldu ki, bir evdən, məsələn: bibimə ay-rı, əri Çərkəzə ayrı, qızlarına ayrı, oğlanlarına da ayrı məktublar yazdım. Deyəsən divin canı şüşədə olan kimi əsgərlərin də canı məktublar- da imiş...

Hərdən uşaqların yanıqlı muğam oxuması da əsgərlik həyatına bir rəng qatırdı.

“Ruskiy les” filminin birinci “seriya”sına guya baxdıq. Hamı yatmışdı yenə.

Belimizə iynə vurulduğuna görə axşam saat 21:00-da kim istəsə yata bilər, – dedilər.

Bakı ermənіləri və rusları “suşilkaya” yığışıb, məşhur ara mahnısı “Madam Popuqay”ı oxu -yurdular. Gera oxuyur, yerdə qalanları isə əl ça-lır, təpik döyür, nəqarət hissəsini birgə oxuyur-dular...

Xoçu razvoditsya, pomenyat jenu.

Na sude sprosili zaçem, poçemu

U neyo xarakter kak u tısyaç zmey

Ala, yesli ni veriş, sam jenis na ney.

Ay balam, taş-tüşüm

Taş-tüşüm “Madam Popuqay”

Taş-tüşüm, taş-tüşüm pesnyu prodoljay.

Sonra keçdilər “Dolya voravskaya” oxumağa:

Vot kakaya “Dolya voravskaya”

Jizn odna tyuremnaya reşotka

İ pişu tebe moya rodnaya

Ay mamacan vot takaya “Dolya voravskaya”

Ya v tyurme ne voraval ne malo,

A v Batume zalojili qadı,

İ teper pişu tebe rodnaya.

Ay mamacan vot takaya “Dolya voravskaya”

Bu gecə ilk dəfə yerimə tez girdim...

17.12.1970, ***IV gün.***

“Padyom”da heç kim durmaq istəmirdi. Ha-mını zorla durquzurdular.

Sıraya duranda bakılı Əliquliyevin ürəyi getdi. Uşaq bir-birinə dəydi. Sıra pozuldu. “Sançast”-

dan həkim gələnə kimi o ayıldı.

Həqiqətən iynənin təsirindən hamının beli ağ-rıyırdı. Məndə də ağrı vardı. Ancaq az idi. Çöldə şaxta-sazaq tüğyan eləyirdi. Bir ucdan da elə hey qar yağırdı.

Bu gün iynə məsələsinə görə təpik döymədik. Bütün günü fasilələrlə “Lenkomnata”da iclaslar oldu...

Rus dilini yaxşı bilənlər, boyları uzun olanlar səhərə kimi növbə ilə “dejurnu” qalırlar.

Axşam kəlbəcərli Sahibə “blaqodarnost” ver- dilər. O, “çest” verib, “Karantin Akberov” de- yəndə gülməkdən uğunub getdik. Yazıq tələs-diyindən karıxıb, belə demişdi.

Ağcabədili Nazimi “çəkməçi” yazdılar...

18.12.1970, V gün.

Erməni Falya ilə kazarmada güləşdik. Onu yıxdım. Azərbaycanlı uşaqlar hamısı mənə əl çaldılar.

Bu gün də təpik vurdurmadılar bizə.

Kazarmanın altmış faizi azərbaycanlılardır. “Lenkomnata”ya yığışıb qapını arxadan bağ- ladıq. Meyxana, segah bir-birinə qarışdı. Oxuya bilməyənlər əllərini sinələrinə, dizlərinə çırpıb, ritm tutur, bəziləri arada bir fit çalır, məclisə rəng qatırdılar.

Dodağı nə vaxtsa çəpinə kəsilib izi kobud şəkildə qalmış ağdamlı Telman qəflətən qış- qırdı: “Pomidor yastı bitər, bəs bu niyə dikdi, xanım?”... Yenə hamı bir-birinə dəydi. Kim nə bilirdi oxuyurdu.

Bir maraqlı iş də çıxmışdı. Uşaqların çoxu rus dilini bilmədiyi üçün serjantla danışanda kənardan bilənlər tərcüməçilik eləyirdi. Onlar da gülmək üçün tərsinə sözlər işlədirdilər. Serjant birinə deyəndə ki, keç otur. Yalandan deyirdilər ki, çıx çölə. Bu uşaq da çölə çıxmaq istəyəndə serjant təəccüblənir, hamı da gülüşürdü.

Axşam bizi “şinel” daşımağa apardılar.Soyu- ğun qabağında bir saata qədər gözlədik. Dişim-dişimə dəyirdi. Papağımın qulaqlarını da saldım. Ancaq yenə üşüyür, ayaq barmaqlarım, əllərim donurdu.

Kazarmaya gələndə başımın içi tərpənir, gözlərim qaralırdı. Yerdəki qar şaxtadan donub buz olmuşdu. Ağdamlı Telman qəflətən sıradan çıxıb sürüşməyə başladı və birdən səndələyib yerə dəydi. Ayağa qalxanda gördük çənəsi pa- ralanıb, qan aparırdı onu...

19.12.1970, VI gün.

Başım bərk ağrıyır. Titrəyirdim. Səhər yemə- yinə getmədim. Dəstə gedəndən sonra əl-üz yuyulan otağa gəldim. Güzgünün qabağında dayanıb öz-özümə xeyli baxdım. Əziyyət çək- diyim, qürbətçilik, qəribçilik üzümdən oxunurdu. Xəstəlik, qızdırma da bir tərəfdən. Gözlərim doldu.

“Sançast”a getdim. Qayıdanda bərk külək və şaxta vardı. Külək qarı adamın üzünə çırpırdı.

İlk dəfə olaraq ərazimizə diqqətlə baxdım. Bir neçə hektar yeri hasara almışdılar. Burada yan-yana iyirmiyə qədər uzun tövləyə oxşar “ka- zarmalar” düzülmüşdü.

Hamısının da giriş his- səsi gün çıxana idi. Giriş hissənin qarşısı çox geniş olduğundan burada təpik döymə məşqləri keçirilirdi. Xüsusi təlim işlərini yerinə yetirmək üçün ağ əhənglə xətlər çəkilmişdi. Hasarların kənarı ilə şam ağacları əkilmişdi. Ağacların aşa-ğı hissələri çox səliqəli idi və əhənglənmişdi. Əraziyə giriş bir yerdən idi. Orada da "KPP" deyilən otaq yerləşirdi. Bura nəzarət-buraxılış məntəqəsi adlanırdı. Gecə-gündüz bu otaqda bir zabit və bir əsgər növbə çəkərdi. Qarşı- sında "Şlaqbaum" da vardı. İçərisində telefon şəbəkəsi olduğundan həm daxili, həm də istənilən yerlə buradan əlaqə saxlamaq müm- kün idi. Hər iki kazarmanın bir yeməkxanası vardı. Ərzaq anbarları da ayrı idi. Kartofu, so- ğanı, kələmi buraya xüsusi buraxılış vərəqələri olan yük maşınları daşıyardı. Kazarmaların giri- şində yanğından mühafizə üçün xüsusi hissə vardı. Qum, qırmızı rəngli köpüklü su balonları, külüng, lom, lopatka və s...

Sapoqların altının palçığını təmizləmək üçün yerdən tininə qoyulmuş iti dəmir lövhələr vardı. Altında palçığın toplanması üçün qutu yerləş- dirilmiş, qutunun üstü isə "reşotka" ilə örtül- müşdü. Bu giriş hissəni hər an təmiz saxlamaq lazım idi. Çünki yüksək rütbəli komandirlər gə-ləndə yoxlayırdılar. Hər yan tər-təmiz olmalıdır. Vəssalam. Başqa cür ola da bilməzdi. Klub isə bir idi. Və bütün iclaslar, konsertlər, kinolar da növbə ilə hər bir kazarma üçün ayrı-ayrı vaxt-larda, lazım olanda isə bir yerdə keçirilirdi. Ka-zarmaların üstündə yazılmışdı:

“Vstretim XXIV syezd KPSS vısokimi poka- zatelyami v uçyebe i distsipline.”

“XXIV syezd KPSS sostoitsya 30 marta 1971 qoda, qorod Moskva...” və s...

20.12.1970, ***Bazar gụnụ.***

İstirahət günü olduğu üçün 08:00-da "pad- yom” verildi. Axşam da tez yatmışdıq. 22:35-də.

Fasilə vermədən davamlı qar yağır, yerimə- yimizə mane olurdu. Ancaq əsgər sapoqlarının altında qar elə gözəl xırçıldayırdı ki...

Çovğuna və fasiləsiz yağan qara görə “mar- şirovka” olmadı. Göy üzü görünmürdü. Hər yanı elə bil qar dumanı bürümüşdü.

Kino verdilər. Deyəsən, adı “Kreşane oqne” idi səhv etmirəmsə. Başdan bir az baxıb yat- mışdım.

Gecə klubda şahmat oynayıb, Mamışevi ud- dum.

21.12.1970, ***I gün.***

Çox soyuq, çovğun olduğundan bu gün isti əlcəklər payladılar. “Stroyevoy şaq” məşqini elətdirdilər. Əvvəl üzümüz, əllərimiz, ayaq bar- maqlarımız donurdu. Sonra o qədər təpik vur- duq ki, tərlədik.

Laçınlı Mürşüdün “tumboçka”sından araq çıxdı. Müsəlmanların hamısı birləşib arağı ta- pan serjantın özünü şərlədi.

- Arağı özün qoymusan, əclaf, – deyib, üzündə anadangəlmə gözünün altına qədər tük bitən Mürşüd uşaqların onu müdafiə etməsin- dən şeşələnib serjantın üstünə toqqa çəkdi. Əvvəl-əvvəl moldovan serjant duruxdu. Heç gözləmirdi yazıq. Ancaq birdən o da arxaya çəkilib öz remenini açdı.

Praporşik necə qışqırdısa, dava bitdi. “St- roitsya” əmri verildi. Hamı əmrə tabe olub sıra-ya düzüldü.

- “Stroyevoy Mamedov vıyti iz stroya”... deyi-ləndə rus dilini yaxşı bilmədiyindən və hirsin-dən ağappaq ağaran Mürşüd bərkdən qışqırdı:

- “Vıyıtmıram!”

Əvvəl heç kim bu sözə əhəmiyyət vermədi. Praporşik də nə baş verdiyini bir an sonra başa düşdü və birdən hamı şaqqanaq çəkib gülməyə başladı. İlk konflikt beləcə çözüldü.

Uşaqlar özlərini yaman açıb.

Axşam üç uşağın 20 yaşı tamam oldu. On -lardan hansının cərimə "naryad"ı vardısa, götür-dülər və əvəzində təbrik eləyib, təşəkkürlərini bildirdilər.

Bu gün ilk məktub aldım!

Serjant bərkdən elan eləyəndəki Babayevə məktub var, əvvəl qulaqlarıma kimi qızardım. Sevindiyimdən qanad açıb uçurdum. Özümü serjanta yetirib, məktubu alanda ürəyim az qalırdı dayansın. Cavanşirdən idi. Orta məktəb dostumdan. O da əsgərlik çəkirdi. Özü də Ukraynada. Ünvanı belə idi:- "Sumskaya oblast qor., Şostka v\ç 3423 "j" ." Yaxın olduğu üçün onun cavab məktubu tez gəlmişdi. Azərbay- candan isə hələ bir xəbər yoxuydu... Məktubu oxuyub yaman həyəcanlanmışdım.

Nənəmin verdiyi "kurtka"nı, güləş "zaçotka"- mı, "znaçok"umu, papağımı, çəkdirdiyim ilk əs- gər şəkillərimi "pasılka" düzəldib Bərdəyə evə göndərdim.

"Politzanyatiya" oldu: "Tema" belə idi: "Zaşita oteçestva, slujba sovetskix voorujennix sil vıso- kaya i

poçetnaya obyazannosti kajdoqo qraj- danina Sovetskoqo Soyuza”.

22.12.1970. *II gün.*

Külək vıy-vıy vıyıldayır, kazarmanın üstün- dəki qarı havaya sovururdu. Küləyin sərtliyinə görə “marşirovka” olmadı.

Günorta yeməyindən sonra poçt gəldi. Dedi- lər, Azərbaycandan ilk üç məktub gəlib... Biri mənəymiş.

Orta məktəb dostum Aydından. Sevincimdən uçurdum. Məktubu açanda gördüm içində sarı rəng 1 manatlıq pul var.

Dost payı! Bu hissləri keçirməyənlər bəlkə də məni yaxşı başa düşməzlər. Ancaq əsgərliyin ürəyi məktubdu, o da qala içindən pul çıxa!

Axşam bizi dəstəyə düzüb, kartof təmiz- ləməyə apardılar. Hər yanı taxtadan olan bu otaqda bir yük maşını kisələrə doldurulmuş palçıqlı kartof vardı. Çöldə külək tüğyan eləyirdi. Hərəni bir tərəfdə yerdən oturdub, kartofu təmizlətməyə başladılar. Bıçaq əvəzinə alümi-

niumdan düzəldilmiş ucu küt, arxası enli əl tutacağı olan kəsilmiş xətkeşə bənzər bir şey idi. Heç yaxşı kəsmirdi də... Saatlar keçir, kartof kisələri azalmaq bilmirdi. Əllərim, barmaqlarım, ayaqlarım soyuqdan donmuşdu. Arada gəlib yemək yedik. Gecə keçir, soyuq iliyimizə işləyir, palçıqlı kartof isə qurtarmaq bilmirdi. Axırda təngə gəlib dedim:

- Gəlin bıçaqları atıb gedək.

Uşaqların yarısı bıçaqları atdı, yarısı isə qorxdu. Yenidən işləyəsi olduq. Düz səhərə ya- xın kazarmaya qayıtdıq. Özümüzü "suşilka"ya verib, gecənin yerdə qalan hissəsini də elə bu "suşilka"nın isti borularının üstündə canımızı qızdırmaqla keçirdik...

23.12.1970, ***III gün.***

Səhər "marşirovka"sında əvvəl soyuqdan tir-tir əsirdik. Təpikdən o ki var döyüb qızışdıq.

Xəttim yaxşı olduğu üçün məni "rota"mızın buraxdığı "Divar qəzetinə" rəssam təyin etdilər. Bu mənim üçün lap sürpriz oldu.

“Navstreçu novomu qodu-1971” sözlərini şriftlə rəngli və kölgəli necə yazdımsa, baxanlar mat qaldı. İnstitutda çəkdiyim çertyojlar karıma gəlmişdi.

Qolovatır familiyalı serjantımız məndən 20 manat borc pul istədi. Verdim. Bu yaxşı oldu. Nə qədər olmasa, bizim komandirlərimizdən biri də Qolovatırdır.

Axşamtərəfi yeni il şənliyi üçün hərədən 50 qəpik pul yığıldı. Kazarmada “yolka” qurulacaq-dedilər.

Divar qəzetinin 6 nəfər redaksiya üzvləri ilə pul yığdıq. Mən ərzaq almaq üçün mağazaya getdim. Tələsdiyimdən remen bağlamamışdım. Qayıdanda yolda başqa rotadan olan bir mayor məni tutdu. 4-cü “vzvod”un uşaqları və serjan- tının yanında üstümə nə qədər qışqırdı, dedim:

- Xəstə üçün almışam.

Dedi:

- Bəs remen hanı?

Dillənmədim. Rəngim qaçmışdı. Serjanta de-di:

- Onun ad və familiyasını yazın. Aparın ro- taya.

Serjantlar məni Qolovatırın yanına gətirdi. Bu vaxt rota komandirimiz leytenant Bryusov gəl- di. Qolovatır Bryusovu görən kimi məni çölə çı-xartdı.

Bu da 20 manatın qüdrəti!

İlan ağzından qurtaran qurbağa yerindəydim.

Poçt gəldi. Azərbaycandan xeyli məktub var-dı. Uşaqlar sevincdən bir-birini qırırdı. Səs-küyə Bryusov özü gəldi. Bizi cərgəyə düzüb, adbaad çağırmağa başladı. Adım düz üç dəfə çəkildi. Atamdan gələn ilk məktubu oxuyanda gözlə-rimdən yaş axırdı. Nazim mənə yaxınlaşıb dedi:

- Gözləyin pay-pay payıldayıb yanıy, nə baş veyib?

Heç nə baş verməmişdi. Sadəcə məktub al- mışdım...

24.12.1970. IV gun.

Klubda bir oğlanın məhkəməsi keçirilirdi. Bu rus əclaf əsgərliyinin qurtarmasına 5-6 gün qal-mış, gecə saat 01:00-da kefli vəziyyətdə 67 yaşlı qoca kimsəsiz bir ukraynalı qadının evinə girib, qocanı zorlayıb. Ona 7 il iş kəsdilər. 7 il oxunanda əclaf gülürdü. Görəsən onun da ana- sının namusuna toxunsaydılar, belə gülərdi?

Hamama getdik. Bu dəfə bizə tuman-köynəyi cüt payladılar. Bu yaxşı oldu. Əlimə deşiyi olma- yan “tazik”

düşmüşdü. İlk dəfə olaraq düz üç dəfə sabunlanıb çimdim.

“Lenkomnata”da uşaqlar dəftər vərəqlərinə müxtəlif sözlər yazıb bəxt yoxlayırdılar. Mənə 49 rəqəmi düşdü. Orada bu sözlər yazılmışdı: “Onu bir başqası da sevir!” Bu sözləri oxuyanda dəli kimi oldum. Canımı bir istilik bürüdü. Pərt olmuşdum tamam...

Divar qəzetinə yeni başlıqlar yazırdım. Parti- zan “Mixaylo”nun çəkdiyi Şultsun portretinə, yüksək rütbəli alman zabiti, eynəkli Şults necə vurğunluqla kətandakı rəsminə baxırdısa, mən də özümü unudub yazdığım şriftlərə eləcə ba- xırdım. Lap uyumuşdum.

Ayılanda gördüm təzə papağımı götürüb, ye-rinə köhnə papaq qoyublar. Əclaflar! Acığım- dan yeməyə də getmədim.

Axşam xəbər gəldi ki, sabah “prisyaqa” qəbul edəcəyik. Nədənsə hamı sevinirdi. Hətta sürəkli əl də çaldıq. Deməli, sabah “karantin”lə vidala-şırıq...

“Lenkomnata”ya gəlib bəxtimi yenidən sına- mağa başladım. Bir kağız çəkib tələsik oxudum: “O yavaş-yavaş səndən uzaqlaşır”. Acığımdan birini də çəkdim: “O sənə xəyanət edir”. Dəli ki-mi çölə cumdum. Şaxtada bir qədər dayanıb, buzlayandan sonra yenidən kazarmaya gəldim.

“Suşilka”da bizim uşaqlar meyxana deyirdilər. “Məmələri” sözünü eşidib dərhal geri qayıtdım.

Bu gün nəysə işim nəhs gətirirdi. Sınadığım, bəxtimə düşən səfeh sözlər və gül kimi təzə papağımın yerinə qoyulmuş çirkli köhnə pa- paq...

Biləcəridən çıxıb əsgərliyə gələndən bu günə qədər heç vaxt belə kədərli olmamışdım.

Gecənin bir əyyamında yuxudan ayıldım. Ye-rim isti idi. Tək-tük xorultu səsləri gəlirdi... Bir-dən yuxudan ayılmağıma peşiman oldum. Və nə qədər elədimsə, elə indicə yuxuda öpüş- düyüm qızın sifətini belə yadıma sala bilmədim. Ancaq rahatlanmışdım. Yana çevriləndə gör-düm bu gün hamamda dəyişdiyim təzə tuma- nımın aşağı hissəsi yaş olub. Kley kimi. Ca- nımda isə bir rahatlıq vardı...

25.12.1970, V gün.

Səhər lap qaranlıqlı “razvod” oldu. Bütün dəstələr gəldi. Podpolkovnik, mayor və orkestr də gəlmişdi...

Bizi təbrik elədilər. Orkestrin sədaları altında “stroyevoy şaq” getdik. Belə musiqi sədaları altında dəstə

ilə addımlamaq adama ləzzət eləyirdi! Yaman qürurluydum. Sonra özümüzü səliqəyə saldıq. “Lenkomnata” da “prisyaqa”nı qəbul elədik. Yaman həyəcanlı idim. Adım çə- kiləndə özümü itirdim. “Çest” verib:

- “Tovariş leytenant ryadavoy Babayev dlya prinyati voyennoqo prisyaqa pribıl.”

Sözləri əzbərdən dedikcə gördüm səsim tit-rəyir... Hətta həyəcandan arada səsim xırıldadı da. Qulağım elə bil batdı... Sonra hər şey adi-ləşdi. “Prisyaqa”nı artıq qəbul eləmişdim! “Çest” verib:

-“Tovariş leytenant ryadavoy Babayev voyen- noqo prisyaqu prinyal” – deyəndə, hamısı məni təbrik edib əl çaldı və mən:

- “Sluju Sovetskomu narodu!”, – dedim.

Beləlikə “karantin”ə əlvida!

Gecə məni növbətçi qoydular. Səhərə qədər yatmadım. Yatmadım deyəndə sakitlik idi, hər- dən gözümü yumub mürgü vurur, bəlkə də huşa gedir, müəyyən qədər yuxulayırdım.

Səhər açıldı. Uşaqlar yeməyə gedəndə leyte- nant gəldi və mən ilk dəfə olaraq ayaqlarımı cütləyərək şappıltı

ilə bir-birinə çırpıb, “smirna” dayanıb, bir əlimlə “çest” verərək “raport” ver- dim:

-“Tovariş leytenant vo vremya moyeqo de- jurstva proisşestviy ne sluçilos. Rota naxoditsya na zavtrake. Dejurnıy po rote voyenno-stroitel ryadavoy Babayev”.

-“Volna”, – deyib o da “çest” verdi və mənim ilk növbətçiliyim beləcə sona çatdı. Qolumdakı qırmızını başqasına təhvil verdim.

Yemək yeyib, bir qədər yatandan sonra bizi sıraya düzüb, hörgüçülərə, suvaqçılara, xarrat- lara bölüb ayırdılar. Üç nəfər qaldıq. Baqda- saryan, mən, Eyvazov.

Gera Arutyunovla birlikdə altı nəfəri də başqa “çast”a apardılar.

Axşam kinoya getdik. “Kobra əməliyyatı” və “Marina”. Kinoda yaxşıca yatdım.

22:00-da “odboy” oldu. 06:00-da duracağıq. Sabah ilk iş günümüzdür.

H/h "11741 B"

"Karantin" qurtardığı üçün ünvanımızdakı "K" hərfini "B" ilə əvəzlədilər. Yəni 2-ci rota...

Yeni illə əlaqədar qardaşım Xəqanidən "ot-krıtka" aldım. Əsgərə isə məktub lazımdır, mək- tub, özü də olduqca sözü çox olsun... "Otkrıtka" gələndə hirslənirəm. Xüsusi ilə də rəsmi təbrik sözləri...

26.12.1970, IV gün

Peşə üzrə hamı bölündü. Rotalara ayrıldıq. Mən 2-ci rotaya düşdüm. Sıraya düzülüb, dəs- tə ilə serjantın saydığı "raz, raz, raz... raz-dva-tri..." ritmik sözləriylə "çast"ın həyətindən, ilk dəfə olaraq "KPP" yazılan yerdən çıxıb şəhər istiqamətində addımladıq. Qar azca əridiyindən sapoqlarımızın altında xırçıldamırdı. Nəhəng bir tikintinin getdiyi yerə gəldik. Yer azca isinsə də hələ buz əriməmişdi. İşlədiyimiz tərəf quzey ol- duğundan yer don idi. Ayağımız sürüşürdü.

Düzü heç düz əməlli səhər də açılmamışdı. Bölünmə prosesi burada da davam etdi. Gözü- mü açanda gördüm hamı gedib. Qalmışdı iki rus və bir də mən.

Xülasə, tikintinin həyətindən rusun biri “na- sılka”ya növbə ilə kubik, qum, sement, bidonda su yığır, türmədən yenicə çıxıb, əsgərliyə gəl- miş Vasilyevlə mən isə bütün bunları 4-cü mər- təbəyə daşıyası olduq...

Nəysə, bu işi mən bir zarafat kimi qəbul edib elə bildim sonralar başqa cür olacaq. Bu iş belə davam etsəydi, doğrudan da acınacaqlı olardı...

Serjant xəbər gətirdi ki, hazırlaşın, yeməyə gedirik. Üst-başımın toz-torpağını çırpıb, aşa- ğıya düşəndə gördüm ki, yüzə qədər əsgər artıq dəstəyə düzülüb, getdik yeməyə...

Yeməkdən sonra dedilər ki, 10 km. aralıda yerləşən bir vaqonda, tikinti ilə əlaqədar “vıs- tavka” keçiriləcək. Dəstəyə düzülüb, “raz, raz, raz...”la “vıstavka”ya baxmaq üçün bir dünya yol getdik...

Mənə qırmızı rəngli balaca bir bayraq verdi- lər. SSRİ-nin bayrağı idi. Arxadan bir rusla söh- bət eləyə-eləyə gedirdik. Asfalt yoldan, ümu- miyyətlə maşın gedən yollardan dəstə keçən- də yüyürüb, bu bayrağı qaldırıb, “dvijeniya”nı saxlayanda nədənsə çox qürur duyurdum.

Əsgərliyin də əsas ləzzəti elə bu idi! Başqa da ləzzətli işləri vardı, ancaq ən ləzzətlisi hələlik elə bu idi.

Ukraynalı sürücülər mənim kimi qarayanız Qafqaz adamını görəndə, müsəlman olduğumu anlayanda nədənsə bir yaxşılıq eləmək istə-yində olurdular. Ancaq mən çox qürurlu idim, gözümün ucu ilə də belə şeyə baxmaz, belə işi qəbul etməzdim.

Xülasə, "dviziya" irəliləyirdi. Qar, çovğun da öz yerində. Bu zalımı çıxmış, Laçın və Kəlbə- cərin ucqar kəndlərindən olan uşaqlar qarla örtülü şumluqda qara, palçığa, dizə kimi bat- dağa batan kimi dayanıb dəstənin səfini pozur- dular. Altı asfalt olub üstündəki qar donan yerdə isə hamı sürüşürdü.

Praporşik və serjantlar da qızışmışdılar.Qaç- mağa başladıq. Kef də onda oldu. Yıxılan kim, tövşüyən kim, qara, palçığa batıb çığıran kim, bir sözlə konsert idi. Nə ara mahnıları "Madam Popuqay", nə də "Dolya vorovskaya" bu qədər ləzzətli deyildi. 27-30 dərəcə şaxtada qan-tərə batmışdıq. Belimin nazik yerindən, papağın altından, başım və canımdan isti buğ çıxırdı.

"Vıstavka"da bir balaca "kino-jurnal" verdilər. Yenə yorğunluqdan bütün müsəlmanlar yatdı. Qayıdanda axşam düşmüşdü. Yenə şumluq, yarım metrlik qar, palçıq, külək, şaxta, ağır sa- poqlar... qaça-qaça, gülə-

gülə 10 kilometr yol. Ləzzət idi. Ləzzət! Yorulub əldən düşmüşdük.

Axşam yeməyini üzürlü səbəbdən gec yedik. Ancaq bu dəfə heç kim doymaq bilmirdi.

Sonra kino. Və kinoda hamımız daş kimi yat- dıq. Klubun kino zalından yeddi müsəlmanın remen və papağını apardılar bu gecə...

27.12.1970, ***Bazar gunu.***

Nə baş verdiyini heç kimdən öyrənə bilmə- dim. Ancaq onu bilirəm ki, rota hamama getdi. Praporşik konkret dedi:

- Beş dəqiqə!

Və dəyişək də vermədilər bu dəfə.

Qayıtdıq kazarmaya. Uşaqlarla neçə həftədir birlikdə bir kazarmada yaşayırıq. Təzə-təzə isi- nişirdik ki, onların yarıdan çoxunu başqa rotaya köçürdülər.

Elə kövrəlmişdim bu gün...

Ümumiyyətlə, köç pis şeydir. Köç qüssə, qəm-kədər deməkdir. Bəlkə də inanmazsınız, ürəkdən ağlamaq

istəyirəm. Bu dəqiqə o qırmızı qalstuklu pionerdən məktub gəlsə, sevinib qış- qırmaq əvəzinə bəlkə də hönkürüb ağlayaram...

Bu nə işdir düşdüm mən. Hanı Tahir, hanı Aydın, hanı Bərdə? Ancaq bu an nədənsə in- stitut heç yadıma düşmədi...

Mamed adlı bir arıq xəstə laçınlı oğlanın yed- di manatını oğurlamışdılar. Oturub elə ağlayır- dı... Dünyanın ən mahir rəssamı belə o ifadəni olduğu kimi çəkib təsvir edə bilməzdi. Mən özümdən deyirəm, bəlkə də təsvir edə bilən var. Bərdədə yaşayanlar bəlkə xəbərsizdilər bu rəs- samlardan. Nyu-Yorkda, Tokioda Moskvada, ya haradasa bəlkə bundan da güclü ağlayanların, quzu kimi mələyənlərin tablosunu yarada bi- liblər.

Gözünün altına qədər tük-çıxan laçınlı Mür- şüd məni huşdan ayırmasaydı, bəlkə də ürə- yimdə çox çərənləyəcəkdim...

Yanağı tüklü olsa da, sifətinin qırmızılığı aşkar görünən Mürşüd qulağıma dedi:

- Xəbərin var, gecə ruslar odekalon içirlər?

Düzü başa düşmədim. Elə bildim o da düz başa düşməyib. Dedim:

- İçmirlər ayə, üzlərini qırxıb yanaqlarına çə- kirlər ki, canlarına mikrob, virus düşməsin.

Mürşüd dedi:

- Canın üçün gecə gözümlə görmüşəm. Bu gecə düz səhərə qədər onları gözümün ucu ilə güdmüşəm. Odekalonu başlarına çəkib içdilər, odekalon qurtardı. Sonra gördüm sapoq mazını sürtdülər çörək diliminin üstünə, bir xeyli göz- ləyib sonra mazı çörəyin üstündən bıçaqla tə-mizlədilər. Və o çörək dilimlərini yeməyə baş- ladılar. Bizimlə Bakıdan gələn sarı, üzü pirişikli Əliquliyev də onlarla rus dilində nədənsə danı-şıb, odekalon içirdi.

Poçt gəldi. Mürşüdü unudub götürüldüm. Qardaşım Rafiqdən ilk məktub aldım. Həm sevi- nirdim, həm də sevinmirdim nədənsə... Məktu- bu açanda gördüm içindən Tahirin mənə yaz- dığı başqa bir məktub da çıxdı. Bir ədəd də fotoşəkil. Fotoşəkil Tahirin idi. Poza verənlər kimi şəkildə gülümsəyirdi. Əsgər paltarındaydı. Sən demə axırıncı dəfə Bərdədə mənim ayrılıq məclisimdə çox öskürəndən sonra xəstələnib, yorğan-döşəyə düşüb. “Voyenkomat”dan gəlib, onu elə “postel”dən qaldırıb, basıblar avtobusa. Başqa bir avtobusla da gətiriblər Gürcüstana. “Pexota”ya düşüb. İndi vəziyyəti yaxşıdır, yəni öskürməyi kəsib. Ancaq Tahirin fotoşəklinə tək-rar baxanda gördüm gözlərinin altı şişdir. Bildim ki, fotoya getməzdən qabaq məni, Aydını ya-dına salıb, babat ağlayıb. Görünür, mənim əsgər ünvanımı bilmədiyindən

yazdığı məktubu Bakıda Neft Kimya İnstitutunda oxuyan qarda-şım Rafiqə göndərib.

Məktubları oxuyub yadıma düşənlərin hamı- sına cavab yazandan sonra "lenkomnata"dan çıxanda gözlərimə inanmadım. Kazarma tamam dəyişmişdi.

Bütün yatdığımız "krovat"ların 2-ci mərtə- bələri sökülüb, hamısı artıq bir mərtəbəli olub. Kazarmadan içəri girəndə sağda bizdən 6 ay qabaq, yəni may 1970-ci ildə gələnlər, solda isə 30 nəfər biz azərbaycanlılar. Kazarma elə bil ki yetimləşib. "Karantin"dəki şuxluq yoxa çıxıb. Bir sözlə: "Lələ köçüb, yurdu qalıb."

Qalan 60 nəfərin siyahısını mənə verdilər ki, rotanın "əsas" dəftərinə köçürüm, sonra da "Əsas kitabı" təzələyim. Biclik işlədib adımı "Əsas kitab"da öz həmyerlilərimin yanında "ştukaturşik" kimi yazdım. Serjantlar başa düş- mədi, çünki heç oxuyub yoxlamadılar da...

4 nəfərlik "tumboçka"lar da dəyişib, indi 2 nə-fərə bir "tumboçka" qoyulub. Belə əladır. Do-dağı tərsinə çapılmış, ağdamlı, qara dodaq Tel-manla "tumboçka"mız indi bir olub.

Axşam kinoya getdik. "Marina" filmini ikinci dəfə verdilər. Lap yüz dəfə versələr belə, heç kim ona baxan

deyil. Eşşək kimi yorulan 18-20 yaşlı oğlan uşaqları qürbətdə, özü də başqa dil-də filmə baxar heç?

Kinoda yatıb, durandan sonra İlk dəfə dəstə- siz-zadsız, pərakəndə halda kazarmaya gəldik. Üç dəqiqəyə soyunub yerimizə girdik. Heç üs- tündən yarım saat keçməmişdi ki, qəflətən "tri- voqa" verildi. İşıqlar yandı, qışqırtı, hay-küy, qi-yamət qopdu... Dedilər:

- Əliquliyev odekalondan çox içib, dəli olub. Onu maşına basıb "sançast" əvəzinə "okruq"un dəlixanasına apardılar.

Mürşüd bu gecə də onları güdürmüş. And içib danışırdı ki, sarı Əliquliyev yenə öz-ozünə əl-qol atıb, sanki kəpənək, milçək, ya ditdili tu-tan adamlar kimi hoppanırmış da... Bir neçə də-fə hoppanandan sonra başı "krovat"ın dəmirinə dəyib partlayıb. Elə üzü-gözü qanın içində gülür, nə isə dodağının altında zümzümə elə-yirmiş.

Bir sözlə, ilk qurbanımızı verdik.

28.12.1970, ***I gün.***

06:00-da “padyom”da biz də ilk dəfə olaraq “starik”lərlə bərabər gec geyindik...

Səhər yeməyindən sonra elə alaqaranlıqda bizi dünənki yerə işləməyə apardılar. Rus “ka- menşik”lər məni işlətməyə çağıranda azərbay- canlı uşaqlar tərəfimi saxladılar və mən onlarla “malyar”lıq eləməyə başladım. Suvaq vurmağı uşaqlar mənə öyrətdilər. “Masterok”u tutmağı, “rastvor”un qum və sementinin bölgü ilə hərə- sindən nə qədər qatılmağını, “otkos”ların taxta “reyka”larla necə işlənməsini və s... Dünənkinə nisbətən bu gün yaxşı keçdi. İşim asan oldu. Salyanlı Adilin yaxşı səsi vardı. O, işləyə-işləyə oxuyurdu:

Dövr eləyən qanımdır,

Kürüm, Arazım mənim,

Küləklər mizrabımdır,

Ağaclar sazım mənim.

Nəqarət hissəsini oxuyunda bir neçə nəfər də ona qoşuldu. Çox gözəl alınırdı:

Xöşbəxtəm ki, Vətənim

Azərbaycandır mənim...

Musiqisi Şəfiqə Axundovanın, sözləri Bəx- tiyar Vahabzadənin olan bu mahnını necə ürək- dən oxudularsa, əslən kürd olan kəlbəcərli Şa-milov da öz kürd dilində başladı təkbaşına ved-rənin arxasına döyə-döyə oxumağa. Onun de-diyi sözlərin çoxunu başa düşməsək də, ürək-dən oxuduğu üçün "həsıko" mahnısı çox ma-raqlı alınırdı:

Yeli ha yeli lo, Həsıko yeli

Yeli ha yeli lo, Mamədo yeli.

Şişxane daqırə dakəvə qeli

Həsık zavayə lo, Nurık bendeli.

Kürd Şamilov mahnının bu yerinə çatanda, bizim salyanlı Adil ağzı açıq təəccüblə ona ba-xanda və biz də hamımız maraqla qulaq asdı-ğımız yerdə 3-cü mərtəbənin pəncərəsiz yerin-dən kimsə başladı oxumağa:

Salamaleyk, kjutanar, kjutanar!

Əleyksalam, kjutanar, kjutanar!

Çun atana, kjutanar, kjutanar.

Hay-küy qopdu. Uşaqlar bir-birinə qarışdı. Öyrənmək istəyirdik ki, bu nə dilində oxuyur? Haradan gəlib? Kimdir? O da açıq pəncərəyə çıxıb dedi ki, ləzgidir, bir ildir burada "slujit" elə-yib sülənir... Əlavə də elədi ki, bir talış da var, onlarla gəlib, lənkəranlıdır. Hamımız xahiş elə-dik ki, o da öz dilində nəsə gəlib bir şey oxusun. Çox minnət-sünnətdən sonra içəridən, 3-cü mərtəbədən bir mahnı səsi eşidildi:

Siyo kijə bənə şori bahande

Ay dili-dili, dili-dili dilavər

Ağaboyli oməy aspi penışte

Ay dili-dili, dili-dili dilavər

Bu mahnını eşidən kimi salyanlı Adilin üzü güldü, cəld “masterok”u tullayıb, “tazik”dəki “rastvor”u yerə əndərib, “tazik”in dalını nağara əvəzi döyəcləyə-döyəcləyə bu mahnını öz ana dilimizdə oxumağa başladı:

Asta yeri kəmər düşər belindən,

Ay dili-dili, dili-dili dilavər.

Nə eşitdin mən yazığın dilindən,

Ay dili-dili, dili-dili dilavər.

Hamı bir-birinə qoşuldu, hərədən bir səs, bir avaz, çox yaxşı alınırdı bu dili-dili... Birinin səsi kal, xırıltılı idi. Qadmalıyev. O da oxuyurdu.

Kefimizi qəflətən başqa bir hadisə pozdu. Dörd nəfər bizim uşaqlardan icazəsiz mağa- zaya gedib qayıdanda başqa rotanın bir ser- jantı onları görüb, əmrlə yanına çağırdı. Çevik olan iki uşaq qaçıb, binanın içində gözdən itdi. Tutulan uşaqlara isə kənardan öz ana dilimizdə qışqırdıq:

- Əəə... adınızı səhv deyin.

Onlar da qorxa-qorxa adlarını səhv dedilər...

Axşam moldovan serjant bizi kazarmada cərgəyə düzüb soruşdu.

- Kim olub mağazaya gedənlər?

Heç kim dillənmədi. O, təkrar-təkrar soruşub qışqırdıqca vəziyyət gərginləşirdi. Mən serjantı başa saldım ki, uşaqlar nə soruşduğunuzu rus dilini bilmədikləri üçün başa düşmürlər. Dedi:

- Sən başa sal.

-İki nəfər mağazaya kim getmək istəyir? – soruşdum.

-Şahmar və İlyas əl qaldırdı.

Serjant hərəsinə 5 “naryad” verdi. Rus dilini bilənlər gülməkdən uğunub gedirdi. Şahmar və İlyas isə heç nə başa düşməyib serjantdan Azərbaycan dilində nəyə görə “naryad” aldıq- larını soruşur, serjant da onların nə dediyini heç dünəndən başa düşmürdü.

Bir günümüz də belə getdi.

29.12.1970, II gün.

06:00-da durduq. İdman, tualet və yeməkdən sonra işə getdik. Yenə sübh açılmamış, yenə alaqaranlıq, yenə donmuş buzun üstü ilə ...

Trasla gedən maşınların işığı düşəndə hava- da dumandan başqa heç nə görünmürdü. Du- manlar sanki topa-topa sürünərək harasa tələ- sirdilər...

Yenicə duyğulanmışdım ki, leytenant məni çağırıb:

- Sən "kamenşik"lərlə getməlisən! – dedi

Yenə azərbaycanlılardan ayrıldım. Bu pis ol- du. Dünən öz uşaqlarımızla yaxşıca kef çək- mişdim. "Yest" deməkdən başqa əlac yox idi...

"Turemşik" Vasilyevlə başladım beton daşı- mağa. Köpəkoğlu qəsdən o biri rusa göz vu- rub, "nasılka"nın yanlarına əlavə taxta vurdurub bir az da həcmini böyütdü. Vasilyevin bədəni ağır atletika üzrə olimpiya çempionlarının bə- dəni kimi "muskul"lu idi. Qabaq tərəfdən zindan kimi ağır "nasılka"nı quş kimi qaldırırdı. Mən arxadan "nasılka"nı zorla yerdən qaldırır, sən- dələyə-səndələyə, ayağım bir-birinə dolaşa-dolaşa güclə yeriyirdim, onun ucaboyunun ar-xasında düzü çox cılız görünürdüm. 3-4 ağır ge-dişdən sonra baxdım ki, binanın bütün mərtə-bələrindən hamı bizə baxıb gülüşür, "ofiser"lər də onlara qoşulmuşdu. Özümü o yerə qoyma- yıb işimi vicdanla görməkdə davam elədim. O vaxta kimi

ki yenə səs-küy qopdu. Qışqırtı. Serjantların əsgərləri səsləməsi...

Əvvəl heç nə başa düşmədim. Nə baş ver- diyini öyrənmək üçün ora-bura döyükəndə gör- düm, mənə daha baxmırlar. Arxadan iki "Kol- xida"ya oxşayan, vaqondan böyük, yük maşın- ları gəlirdi. Yanları və üstüaçıq maşınlara o qə-dər qırmızı kərpic tığlamışdılar ki, elə bil iki iri dağ irəliləyirdi.

Hamını durna qatarı kimi sıra ilə bir-bir-lərindən bir metr aralı düzdülər. Sıranın bir ucu "Kolxida"nın "kuza"sında, o bir ucu isə tikilən bi- nanın dördüncü mərtəbəsində idi. Serjantlar da öz aralarında bölündülər. Sıranın başında, orta- sında və axırında elə durdular ki, nəzarətdən yayınan olmasın.

Bəxtimizdən hava da bozarmışdı. Yerdəki yarım metr qarın üst hissəsinin buz qatı ayaq dəyməyən yerlərdə hələ də sürüşkən idi.

Yer qar, hava boz, başladıq işə...

Əvvəl serjant özü, bir kərpici maşının üstün- dəki qalaqdan götürüb, yanında duran əsgərin qucağına atdı. Və tez də qışqırdı ki, tut, sən də at o birisinə. Başa düşdük. Sola çönüb, kərpici tutursan, sağa çevrilib, əlindəki kərpici yanın- dakına atırsan. Bir saniyə ləngisən, soldan gə- lən kərpic başına düşə bilərdi. Kərpici əlindən

yerə salsan, növbəti kərpic sən yerdən götürən vaxt yüz faiz başına dəyəcəkdi.

"Konveyer" üsuludur, tez-tez işlədirdilər bu sözü. Heç 3 dəqiqə keçmədi nə edəcəyini hamı öyrəndi. Onu bilirəm ki, kərpicləri atdıqca bu şaxtada məndən tər axmağa başladı. Nə qədər ötdü bilmədim. Qışqırtı səsi gəldi:

- "Perekur!"

Baxdım ki, iki dağ boyda, yalan olmasın va-qondan yekə və hündür maşınlar boşalıb. İçin-də qalan qırıq kərpicləri də süpürtdürüb, ma-şınları yola saldılar.

Siqaret çəkənlər daraşdılar siqaretə.

Mən elə qarın, buzun üstünə bir neçə taxta-tuxta yığıb, ocaq qaladım. Yerimi təzəcə isidib, gələcək taleyimin təhlükə altında olduğunu hiss edib fikrə dalmışdım ki... yorğunluqdan yuxu məni basar.

Qışqırtının səsinə dik atıldım. Yuxu məni ka-rıxdırmışdı. Əvvəl elə bildim bura Bərdədir. Üs- tümün, başımın qar, əl-ayağımın qırmızı kərpic tozu olduğunu görüb, rus səslərini eşidəndə özümə gəlib dilxor oldum.

Bir rus əlini belimə vurdu ki, "vstan!" Ayağa qalxanda nə görsəm yaxşıdır? Bayaqkı kərpic gətirib, boşalan iki "Kolxida"nın yerində, növbəti iki kərpic dolu dağ durub. Heç fikirləşməyə vaxt qalmadı.

Durna qatarı hazır idi. Yerimi tutub, ikinci də- fə belimdən, papağımın altından tər axana qədər kərpici soldan alıb sağa tulladım, nəfəs dərməyə belə imkan vermirdilər.

Çox başınızı ağrıtmayım.

Yenə “Perekur!” qışqırtısı. Yenə boş “Kolxi- da”lar...

Özümə oturmağa yer düzəltdim. Vasilyev əli- ni çiynimə qoydu:

- “Nu kak?”

Heç məndən cavab gözləməyib qarşıma tax- ta qırıqları yığdı, gözəl bir ocaq qalayıb yanım- da oturdu. Kərpicin yorğunluğu, ocağın istisi məni təzəcə uyutmuşdu ki, bir rus əsgər bu türemşik Vasilyevdən saatı soruşdu. Bu da ona:

-“Dvadtsat minut dvenadtsatoqo”, – deyəndə elə bil sıçrayıb, yuxudan ayıldım.

Bu nə danışırdı? Bu qədər beton, kərpic da- şıyandan sonra hələ iyirmi dəqiqə işləyib on ikiyə? Aman Allah!

Acından ölürəm. Hələ günorta yeməyinin vaxtı çatmayıb. Dörd “Kolxida” kərpicdən sonra hələ 13:00 yoxdu? Nə vaxt günorta ola, günorta yeməyindən sonra qayıdıb bir də gecəyə qədər işləyək, gecə də hələ bir

“naryad” alıb pol yuyaq və “bir” günümüz gedə, 731 gündən qala 730 günü. Baxdım ki, əsgərlik mənlik deyil...

Biləklərim ağrıyırdı. İstədim qaçam. Bir şeyi bəhanə eləyib məsələn, tualetə getmək bə-hanəsi ilə aradan çıxam. Sonrası nə olar, olar. Məndən əsgərlik çəkən olmaz. Görünür elə-belə işlərə görə qonşularımız Vaqif Həsənov, Ələsgər Qanboyoğlu pul verib özlərini, “komis-savat” elətdiriblərmiş. Hələ Aydın, qardaşı Yu-nis də “komissavat” oldular. Sonra fikirləşdim ki, yox qaçsam, bütün gələcəyimi korlayaram. Yaxşısı budur, evə məktub yazım. Atama bütün bunları bildirim. Bakıdan qurub-qoşub məni “otpuska” adı ilə qaytarsınlar dala. Sonra Allah kərimdir. Bundan yaxşı fənd tapa bilmədim. Qaçmaq mənə yaraşmazdı...

Qəflətən Vasilyevin üstümə tullanması məni xəyaldan ayıltdı. Səksəndim. Əvvəl heç nə başa düşmədim. Sonra gördüm başqa bir-iki rus da üstümə tullandı. Və başladılar qılçalarımı qu- caqlamağa. Biri öz əynindəki buşlatını çıxarıb, sağ ayağıma döyəcləyəndə gördüm ayağım tüstüləyir. Sonra hər şey məlum oldu. Ocaqdan sağ ayağım od tutubmuş. Yanırammış gerçəkli. Şalvarımın bir tərəfi dizə qədər tüstü verə-verə deşilmişdi. Tüstü çıxan yerlərə qar basdıq. Ser- jant özünü yetirəndə salamatçılıq idi. Baxıb de- di:

- Canın çıxar “voyentorq”dan öz pulunla təzə şalvar alarsan, – və qəflətən də sapoqu ilə vu- rub ocağı dağıtdı.

Axırı ki, yeməyə getdik. Ağır fiziki iş, qarlı çovğunlu şaxtanın havası məni elə acdırmışdı ki, yeməyin suyunda üzən donuzun sala tikə- lərini qara çörəklə boşqabdan acgözlüklə bir- başa az qala çeynəmədən udurdum. Daha iy- rənmək məsələsi yoxuydu, anladım ki, artıq bu- ra Bərdə deyil...

Poçt gəldi. Altı məktub gəlmişdi mənə. Tez üzlərini örtüb, qoynuma yığdım. İşləməyə qayı- danda yol boyu fikirləşdim ki, kaş biri o pio- nerdən ola. Biri Tahirdən, biri də Aydından... Nəysə, gedə-gedə əlimlə sürtüb, məktubların qalınlığını da yoxladım. Bu məktub yazanlar kaş bilələr ki, məktubu salam, sağ ol yazıb göndər- məzlər. İçinə şəkil qoyalar, pis çıxmasın lap az da olsa, pul da qoyalar. Qoşa vərəqlər, dolu da sözlər yazalar. Oxuyanda bir adama ləzzət ve-rə. Yoxsa ... eləsi var quru bir neçə kəlmə – sa-lam, sağ ol. Zalım oğluna can dərdi, elə bil məc-bur yazdırıblar.

Ürəyim durmadı. Qoynumdan bir-bir mək- tubları çıxarıb, üstünü əlimlə qapayıb, sıxaraq hərf, hərf oxudum. Biri də mənə lazım deyildi. Hirsləndim öz-özümə. Bu gün mənə heç düş- mədi.

Gəldik iş yerinə. Mənə ikinci mərtəbədə bir az yüngül iş verdilər. Yazıqları gəlmişdi yəqin ki...

Hörgü hörənlərə alaqaranlıqdan boşaltdığı- mız o qırmızı kərpiclərdən verirdim. Onlar da hörürdü. Ehtiyat

üçün hörən ustanın yanına kərpiclərdən xeyli artıq yığıb özümə vaxt qa- zandım. Fikirli-fikirli başladım mərtəbənin başqa otaqlarında vaxt keçirməyə. Birdən elə bil aya-ğımın altından yer qaçdı. Guppultuyla ikinci mərtəbədən birinci mərtəbədəki kərpic topala- rının üstünə beli üstə necə dəydimsə, topa uç- du. Az qaldı huşumu itirəm. Ayağımın biri qaldı kərpiclərin altında. Səs-küyə gələnlər məni bir- təhər kərpiclərin arasından çıxartdı. Yanan şal-varımın sağ dizinin qara yeri indi qırmızı qana boyanmışdı. Serjant özünü yetirib, orama-bu-rama baxandan sonra ağzını qulağıma dirə-yərək tapşırıqlarını verdi:

- Leytenant soruşsa, demə ikinci mərtəbənin deşiyindən yıxıldığını. Deyərsən eləcə kərpic ayağının üstünə tökülüb.

O danışdıqca qulağım qıdıqlanırdı. Görünür qaranlıq olduğundan kanalizasiya xəttinin keçi- rilməsi üçün dağıdılan deşikdən yıxılmışam.

“Oqrajdeniya”sı olmadığı üçün serjant qor-xurmuş... Məni işləməkdən azad elədilər. Təbii ki, bu günlük. Ayaq barmaqlarım əzilmişdi. Ağrı- dan zoqquldayırdı. Dizim isə bərk sıyrılmışdı. Axşam kazarmaya qayıdanda serjant mənə iki nəfər ayırdı. Onların boynundan tutub axsaya-axsaya tək qılçayla gedirdim. Birbaşa məni “sançast”a apardılar. Həkim sapoğumu çıxar- dıb, “partyanka”nı açanda gördüm baş barma- ğım tamam qaralıb. Həkim

sıyrılan yerlərə də yardımını eləyəndən sonra dedi ki, sabah işə getmə, gələrsən, sarğını dəyişərik. Bir də deyəsən ayağın çıxıb. Qorxma sabaha qədər çox şişsə, yerinə salarıq...

Axşam yeməyindən sonra erkən yatmağa mənə icazə verdilər...

Bu gün heç mənə düşmədi.

30.12.1970, III gün.

Səhər yeməyindən sonra rota işləməyə, mən isə "sançast"a getdim. Həkim ayağımı açdı. Şiş yatmışdı, ancaq bərk ağrıyırdı. Əclaf mənə "os-vobojdeniye" vermədi: - Ayağın çıxmayıbmış dedi.

Özümə yeni bir şalvar alıb mağazadan ax- saya- axsaya kazarmaya gəldim. Yeriyə bilmir- dim...

Eşitdim ki, bir "starik", Kəlbəcərin Otaxlı kən- dindən olan Sahib Əkbərovu bərk döyüb. Nə üstündə, niyə döydüyünü yaxşı öyrənə bilmə- dim.

Yeni ilə görə "Lenkomnata"nı elə gözəl bə- zəmişdilər! Mənə də bir "plakat" yazdırdılar. Axşam uşaqları kartof

soymağa apardılar. Ca- nımı rəssamlıq qurtardı. Axşam "proverka"sın-da cəmi səkkiz uşaq vardı. Onlardan ikisinə pol yumağı tapşırdılar.

31.12.1970, IV gün.

Bu gün əla gün çıxıb. Günün işığında qar par-par parıldayırdı. Hava xoş idi. Hamı işə get-di.

Kazarmanı bəzədik.

Bu gün də "plakat" yazdım.

Altı məktub aldım. Məktublara görə çox se- vindim. Cavab gəlməsə də qonşudakı pioner qı- za yenə məktub yazdım. Zeynəbə yazdığım məktubun içərisinə qoydum. Bərk-bərk də tap- şırdım ki, mütləq çatdırsınlar.

Bizim uşaqlara demişəm ki, bir pioner qıza nişanlıyam. Nə vaxt ondan məktub gəlsə, hərə- yə bir manat paylayacağam.

Bu gün bizə şabalıdı rəng şinel payladılar. Şinellərə "paqon" tikdik. Bu şinellər qalın, isti və rahat idi. Yeni il gecəsi heç nə ilə yadda qal-madı...

YENİ İL

01.01.1971, V gün.

Səhər yuxudan duranda gördük bütün ode-kalonlarımız oğurlanıb. Tovuzun Əsrik sovetli- yinin Cırdaxan kəndindən olan Nadir də bunu görübmüş, uşaqlara danışırdı:

- Gecə hamı yatmışdı. Qaranlıqda "tumboç- ka"ları açanları gördüm. Onları üzdən tanıyı- ram, – dedi.

Hamımız anadangəlmə ayağını çəkən bu taytax Nadirə ürək-dirək verdik ki, arxanda dur- muşuq. Qorxma, serjanta de. Və o da serjanta dedi. Serjant dəstəyə düzülməyi əmr elədi. Nadir dəstənin qabağından keçib, bir-bir ha- mının sifətinə baxıb iki nəfəri barmağı ilə göstərdi. Zaparojyeli uşaqlar idi... Odekalonları yeni il münasibətilə içibmişlər. Hərəsinə 10 sutka hauptvaxt verdilər. Halal xoşları olsun...

Kazarmada "starik"lər özləri işləmirlər. Bizim azərbaycanlıları işlədirlər. Söz-söhbət yarandı. Ağdamın Quzanlı kəndindən olan Muxtarı vur- dular. Serjantlar "starik"lərin tərəfini saxladı. On- lara heç nə eləmədilər.

Kinoya getdik. Getdik yox, apardılar. "Parol ne nujen" filminin birinci seriyası başladı. Dalı nə oldu bilmədik. Çünki oyaq adam qalma- mışdı.

Axşam yeni il bayramı münasibətilə konsert oldu. Atraksion keçirildi. Yaxşı foks göstərənə, oxuyana və

oynayana hədiyyələr verdilər. Təl- xəklərin çıxışı kənd uşaqlarının lap ürəyindən oldu. Onlar belə şeyləri həyatlarında ilk dəfəydi görürdülər. Bir 30-32 yaşında arıq, uzun, həd- dən artıq gözəl qız oxuyanda zala xəbər yayıldı ki, bizim rotanın "zampolit"inin arvadıdır. Qa- dının uzun saçları kürəyinə, üzünə səpələn- mişdi. Ağ sifəti hərdən qara saçlarının arasın- dan çıxır, hərdən də batırdı...

Bugünkü təmtərağı axşam zibilə döndərdilər. Muxtarın döyülməyinə baxmayaraq ona dalaş-dığı üçün beş "naryad" verdilər və bizim uşaqlara gecə ikiyə qədər "pol" yudurtdular.

Haqsızlıq edib, ayrıseçkilik saldıqlarına görə hirsimdən yuxuya keçə bilmirdim...

02.01.1970, VI gün.

Gecə odekalonlarımı, sapoq mazlarımı və "konvert"lərimi oğurlayıblar.

Komandirimiz Bryusov və Boyko 2 saat qa- nunlardan, 2 saat da siyasətdən danışdı. Sonra uşaqlar təzə şabalıdı şinellərdə "stroyevoy şaq» getdilər, mən ayağıma görə getmədim. Sonra baxdım ki, şinelimi də oğurlayıblar.

Bəzi uşaqlar remenlərinə bir «dəlik» açdılar. Yəni bir ayımız getdi! Qaldı düz 23 deşiyimiz…

Xəstə ayağımın göyərtisi qurtarmamış o biri sağlam sol ayağıma beş yerdən yara çıxıb. Ya-man göynəyir.

96 manatdan 45 manatım qalıb. Dönə-dönə saydım. Hər gün alıb yediyim «orexovıy» noğul deyəsən məndə pul qoymayacaq qala.

Bir aydır fikirli gəzən bakılı Firudin Bilalov bu gün mənə ürəyini açdı: “Naxçıvanlı Firəngiz adlı bir qızı sevir. Qızın anası pis yola düşüb. Bu da qızdan əl çəkmək istəmir. Bərk sevir onu. İndi bilmir qayıdanda onu alsın, ya yox”.

Dedim:

-Qoy fikirləşim, bu ağır işdir. Namus məsələsi bizlərdə çox xatalıdı. Beləcə vaxt aldım ondan.

Özbək dostumuz Raşid Şaripova da bu sirri açıqladıq. O da təsdiqlədi ki, bu ağır işdir. Gö-tür-qoy eləmək məsləhətdir. Sonra bizə də ser-jantdan icazə aldı. Üçümüz birlikdə kinoya get-dik. «Qorod pervoqo lyubvi» Yaxşı film idi. An-caq yeməyə gecikirdik. Yarımçıq çıxdıq. Ye-məkdən sonra yenə üçümüz kluba gəlib, filmə baxdıq. «Muzıkantı odnoqo polka»

Axşam çoxlu məktublar yazdım. Qardaşım Vidadiyə, bibim qızı Gülxara və Zeynəbə yaz- dım ki, nə yolla

olursa olsun, pioner qızın şəklini mənə göndərsinlər. Zeynəb mənim ögey əmim qızının qızı idi. Elə uşaqlıqdan bizim evdə böyü- müşdü.

03.01.1971, ***Bazar günü.***

Səhər duranda gördük ki, bərk qar yağır, çovğundur. Uşaqlara "forma-5" ilə qar təmizlə- dirdilər. Mən azad idim. "Sançast"a getdim. Ayağımın yaralarını yodladılar. Uşaqların on iki-sini bu müsibətdə, çovğunda o taxta otağa kar-tof soymağa apardılar. Dəhşətdir orada işlə-mək. Elə yaxşı ki, o deşikdən yıxılmışam.

Konsertə getdik. Akrobat qızlar oynadılar. Təlxəklər də vardı. İcazə verdilər ki, kim istəyir öz pulu ilə kinoya getsin. Düz 9 nəfərə bilet al-dım. Uşaqlarımızın hamısının pulu qurtarmış- dı. Serjantımız Dolqiyerə və komsomolun katibi- nə də bilet aldım. Onlar gələ bilmədi, verdim bi-zim rotadan 2 özbək "starik"ə. «Amerikada ita-liyalı...», ya «İtaliyalı Amerikada...». Nəsə de- yəsən adı beləydi. Bərdəli Şükür adlı oğlan – o, Quşçuluq sovxozundan idi, Mesxeti türküydü – mən, naxçıvanlı Firəngizi sevən Bilalov, bir də salyanlı Adil yanaşı oturmuşduq. İlk dəfə idi ki, filmə tam baxdıq. Film pullu idi. Pul vermişdik, bəlkə də ona görə, ya nəyə görəsə bu dəfə yat- madıq...

Axşam yeməyindən sonra bizi yenidən kluba yığdılar. Gürcü filmi verdilər. “Arsen”. Bizim qar-şımızda “ofiser”lərimiz öz həyat yoldaşları ilə əyləşmişdilər, onların diliylə desək, “supruqa”-larıyla. Odur ki, sakit oturduq...

Axşam kazarmada oturub televizora baxanda qəflətən gördük ki, Polad Bülbüloğlunu göstər- dilər. O, uzun əllərini aça-aça, qollarını oyna- da-oynada oxuyurdu. Özü də rus dilində. Uzun saçlarını ortadan ayırmışdı. Uzun boyu və iste- dadı ilə bizi sevindirdi...

Gecə yuxudan ayılanda yenə baxdım ki, ağ isti tumanım batıb. Artıq gələndən bu üçüncü dəfəydi. Bəs bunlar bizim belimizə iynə vur- muşdular?

04.01.1971, ***I gün.***

... “Düz ürəyinin başından dörd dəfə bıçaq soxdum. Qan üstümə fışqırdı. İsti qan üzümə tökülüb, üzüaşağı axmağa başladı. Gözləri mənə baxa-baxa axdı, əvvəlcə dizi üstə çökdü, sonra yıxıldı. Sonra o biriləri üstümə töküldü. Çox idilər. Nə qədər bıçaq atırdımsa, daha dəy-mirdi. Bıçaq onlara dəyəndə də nə isə girmirdi. Sonra

məni qovmağa başladılar. Qaçırdım. Təngnəfəs olub boğulurdum. Havam çatmırdı. Sonra elə bil məni təyyarədən bir sıldırım qayalığa tulladılar. Sanki boşluğa düşdüm. Əl-qol atıb çabalayır, tutmağa bir şey tapmırdım. İçimi qorxu hissi çulğamışdı. Ürəyim az qala düşəcəkdi. Bərk çırpındım. Nəfəsim kəsilirdi ki, qəflətən ayıldım."

Qaranlıqda kazarmanı tanıdım. Hər şeyin yu-xuda baş verdiyinə əmin olandan sonra sevin-dim də. Yaxşı qurtardım. Nəhlət şeytana bu nə yuxu idi axı...

Sonra öz-özümə toxtaqlıq verdim ki, yuxuda qan görmək qovuşmaq deməkdir. Sabah müt-ləq məktub gələcək. Üstümə fışqıran o isti qan pioner qızın qırmızı qalstukuna işarəydi yəqin... Beləcə nə vaxtsa yenidən yuxuya getmişəm.

Bu gün hamı işə gedəndə leytenant Bryusov mənə dedi:

- İşə getmə. Plakat yazacaqsan.

Rəssamlığım yenə karıma gəlmişdi. Ayağım sağalırdı. Bərk çovğun idi. Uşaqlar işləməyə getdi.

Leytenant Bryusova bir manat pul verdim. Özü istədi. Süd alırdı. Dedim:

- Yenə verim?

Dedi:

- Yoox... “Nakazat” eləyərəm səni. Nə vaxt pulum olsa, 1 manatını qaytaracağam.

Bəli, Sovet İttifaqının hərbi rota komandirinin 1 manatı yox idi. Fakt ortadadır... Bryusov mə- nə ürək-dirək verdi:

-Yaxşı rəssamlıq eləsən, həmişəlik işdən azad olarsan. Səni “kamenşik” göstərərik. Bura isti yerdir. Oranın da maaşı yüksəkdir. Sən qa-zanarsan. Az pul çıxmır.

-Ayda nə qədər alır “kamenşik”lər? – soruş-dum.

-Ayı dörd-beş manata çıxacaq, – dedi. Başqa əsgərlər üç manat alır.

Düzü bərk sevindim. Ancaq əmək haqqına görə yox, Bryusovla dostyana söhbətə görə.

... Yazdığım plakata baxıb, çox bəyənəndən sonra Bryusov “vaqon-eşalon”dakı kimi mənə göz vurub:

-Belə yaxşı yazsan, səni “otpuska”ya da bu-raxarıq, – dedi.

Düzü inanmadım.

Poçt gəldi. Gördüyüm yuxu nə isə çin çıx-madı. Heç bir məktubla qovuşa bilmədim. Mək-tub salyanlı Adilə gəldi,

bir də Nazim Əsədova. Onların hər ikisi bu gün ilk məktublarını alırdı-lar...

Adilin gözləri ağlamaqdan qızarmışdı. Öyrən- dik ki, ilk məktubu qara gəlib. Salyanda 18 yaşlı bacısı ölüb. Bizim yanımızda ağlamadı. Ancaq o, gizlində ağlamışdı...

Adil gecə yarısı nə isə yazıb məktubla gön- dərəndən sonra elə bil yüngülləşdi...

Nazimə gələn ilk məktub isə qardaşından idi.

Gecə bütün bədənim bərk qaşınıb şişdi. Uşaqlar baxıb qorxdular. "Sançast"a getdim. Həkimlər bir şey başa düşmədilər. Dedilər:

- Get, səhər tezdən gələrsən.

Bədənim şişmişdisə də, ağrımırdı. Qaşınırdı. Özü də çox şirin qaşınırdı. Qaşınanda lap ləz- zət verirdi...

05.01.1971, ***II gün.***

Bu gün oturub belə bir riyazi hesablama apardım. O pioner qızı sevdiyim gündən düz 14 ay keçir. Yəni 426 gün. Bunun cəmi 76 gününü bir yerdə, yəni 76 gün hər ikimiz Bərdədə "Şərq" küçəsində olmuşuq. Qalan 350

gününü mən ya Bakıda, ya da əsgərlikdə olmuşam. Onu sevdi- yimin 13 ayı tamam olanda əsgərliyə getməyim üçün hərbi biletə imza atmışam. Yəni ayrılığın 24 ay da, və ya 730 gün də artmasına razılıq vermişəm. Deməli, ilk vurulduğum gündən 1126 gün keçəndə Allah qoysa, görüşəcəyik.

Onda rəqəmlər belə olacaq: 1050 gün ayrı, 76 gün bir şəhərdə, Allah qoysa 77-ci günü, Bərdədə, 5 dekabr 1972-ci ildə görüşəcəyik.

1126 gün = 27.024 saat = 1.621.440 dəqiqə = 97.286.400 saniyə

1050 gün = 25.200 saat = 1.512.000 dəqiqə = 90.720.000 saniyə

76 gün = 1.824 saat = 109.440 dəqiqə = 6.566.400 saniyə

1126 gün = 161 həftə

1050 gün = 150 həftə

76 gün = 11 həftə

05 noyabr 1969 = 37 ay = 05 dekabr 1972

Eh ... nəysə sabah bir ayım tamam olacaq. hələ qabaqda 23 ay var.

“Razvod”a getmədim. Yuyunub gəldim ki, “sançast”a gedəm, dedilər, kitab itib. “Sançastın baş qeydiyyat” kitabı. Naəlac qalıb işə getdim. Bryusov məni görüb dedi:

-Niyə gəlmisən işə? “Obed”dən sonra qal, plakatlardan yaz.

O deşikdən yıxılandan üzü bəri işə getmirdim. Sapoq ayağıma dar olduğundan, dabanımı yara eləmişdi. Bu gün də işə gedəndə dabanımın yarası qopdu, yeri bərk göynədirdi.

Bayırda çovğun idi. Əl və ayaq barmağımı şaxta kəsirdi. Çətindir bu əsgərlik həyatı! Gü- nortadan sonra işə getmədim.

Heç plakatı da yazmadım. Məktub da gəlmə- di. Bərdəyə çoxlu məktublar yazdım.

Borc istədi, serjant Denisenkoya 5 manat verdim. Onun əlindəki bloknotuna gül şəkli də çəkdim.

Gecə ağdamlı Telmanla mübahisə eləyib, ka- zarmadan çıxıb dalaşmağa getdik. Qarın üstün- də xeyli

süpürləşdik... Onu yıxıb üstünə çıxdım. Ancaq konkret vurmaq məsələsinə gələndə heç birimiz ürək eləmədik. Cürətimiz çatmadı deyə-sən. Sonra düzü çox peşman oldum. Gərək birini "geydirəydim" ona.

06.01.1971, ***III gün.***

Bu gün də leytenant Bryusov məni işdən azad elədi. Kazarmanın həyətindəki "doska"nı yazdım. Barmaqlarımı şaxta kəssə də, bu işə getməkdən asan idi. Bu gün düz 1 ayım tamam oldu. Biləcəridən çıxdığım gündən 31 gün keçib. Allah kömək olsun!

Kirovabadlı Mamışev sevincək əlində 2 məktub gəldi:

- Dediyin adam Şərq küçəsində olur?

- Hə! – dedim.

Rəngim qaçdı. Özümü məktubun üstünə atdım. Ancaq "ondan" deyildi.

Pioner hələ də susur...

Dilxor oldum. Mamışev də məndən şirinlik gözləyirdi. Zeynəb yazmışdı ki, mənim məktu- bumu “pioner” alıb. Ancaq cavab yaz deyəndə gülümsəyir, heç nə demir, çıxıb gedir. Anam onun anasına zəng də vurub. Ancaq ortada məktub yoxdu...

Orta məktəb dostum Axıska türkü Süleyman Zahidova məktub yazıb göndərdim. Özbəkistan, Buxara şəhəri, Engels küçəsi 7 ünvanına...

07.01.1971, ***IV gün.***

Dizə qədər qar idi. Çovğun vardı yenə. Qarı külək yerdən sovurub, vıy-vıy vıyıldadıb adamın gözünə soxurdu.

İşə gedəsi oldum. Özü də ruslarla. İki azər- baycanlı idik, 11 rus. Azərbaycanlı da 7 manatı itirəndə zülüm-zülüm mələyən arıq, xəstə Ma- med Məhəmmədov idi. Birinci rota ilə yanaşı düşdük. Ağcəbədili Nazim də o rotada idi. Bu dəfə işləməyə başqa “obyekt”ə getmişdik. Bir mərtəbəli nəsə tikirdilər.

Burada “moddur”, nə tikirlərsə, məxfi saxla- yırlar. Bu bir mərtəbəlinin içinə də qoymadılar girək. Bizi çöldə, açıq

havada işlətdilər. Soyuq- dan kəsilirdik. Ağzım donmuşdu. Danışa da bil- mirdim.

Bir də gördüm, iki-üç rus cumdu Mamed Məhəmmədovun üstünə. Onu yıxdılar yerə. Onsuz da o, elə yeriyəndə az qalırdı yıxıla. Özümü ye-tirdim ki, kömək eləyəm görüm nə baş verir? Gördüm ruslar onun üzünü, burnunu qarla ovur-lar. Məhəmmədovun gözləri açıq idi. Sən demə onu "don" vururmuş. Ruslar onun burnunu ovmasaydılar, bədbəxtin burnu düşəcəkmiş... Bu da təzə xəbər.

Xülasə, bugünkü məşəqqətlərdən qurtarıb kazarmaya gələndən sonra, yox, düzü yemək- dən sonra uşaqları yenə kartof soydurmağa apardılar. Mənə dedilər xəstəsən, getmə.

Serjantlar son vaxtlar məni yaman çox əziz- ləyirlər... Uşağın hamısı kartofda idi. Yerdə qa- lan 3-4 nəfər də kazarmanın "pol"unu yuyurdu.

«Umıvalnik»də sapoqlarımın palçığını təmiz- ləyirdim. Qəflətən serjant Denisenko məni gör- dü. Yazıq tez üzünü çevirib, özünü görməməz- liyə vurdu.

Qanımı satın aldı!

Bu işə görə düz bir ay kartof soysaydım, cə- zam qurtarmazdı.

08.01.1971, V gün.

Dünənkinin təkrarı idi hər şey. Yenə dizə qə- dər qar, çovğun, boran ... 11 rus və mən. Bircə dünənki gündən fərqli Məhəmmədin-sənədlə Mamedin yoxluğu idi.

Həmin məxfi hərbi tikintiyə gəldik. Serjant Denisenko yox idi. Onun əvəzinə komsomol ka- tibi olan oğlan gəlmişdi. Adını da bilmirəm.

"Maroz" məni öldürdü bu gün... Podpolkov- nik gəldi işlədiyimiz yerə. Sonra getdi. Ancaq elə-belə gəlməyibmiş. Vəziyyətimizi, şəraiti gö- rüb, qəti tapşırıq verib. Sabahdan 2 əlcək, 2 dəst tuman-köynək, 2 dəst şalvar üst-üstə ge- yəcəyik. Hələ bu harasıdır.

- Sapoqla olmaz! – deyib.

Sabahdan lap 100 dərəcə də maroz olsa, xeyri yoxdur. Valinkalar geydirəcəklər, od kimi olacaq ayaqlarımız. Deyirdilər lap "maroz" nə qədər olur olsun valinka və "portyanka"larda hətta tərləyir ayaqlar.

- Bu lap möcüzə oldu ki! – dedim.

Yeməkdən sonra hamı podpolkovnik dediyi kimi isti geyinib işə gedəndə məni buraxma- dılar.

- “Plakat” yazacaqsan!-dedilər.

Düzü ilk dəfə “valinka”lara görə istəyirdim işə gedəm. O da belə oldu, nəysə alınmadı... Hamı işə getdi.

Poçt gəldi. Aydından məktub aldım. Yazmış-dı ki, darıxmışam, yanına gəlmək istəyirəm. Ye- nə kövrəldim. Mənim ürəyim çox yumşaqdır. Hər duyğulandıran sözdən ağlaya bilərəm.

Birdən serjant Denisenkonu gördüm. “Parad- nı” geyinmişdi. Bu paltar ona yaman yaraşırdı. O, çox gözəl oğlan idi. Soruşanda xeyirdimi?

- “Otpuska”ya gedirəm, – dedi.

Qardaş kimi qucaqlaşdıq. O getdi. Arxasınca həsədlə baxa-baxa qaldım. KPP-dən sənədlə- rini göstərib, keçəndə arxaya çönüb mənə əl elədi. Çox arxayın gedirdi. Heç tələsmirdi. Mə-əttəl qaldım. Mən olsaydım, sevincimdən uçar-dım.

Yəqin istədiyi yoxdur fikirləşdim.

Duyğulandım yenə. Ürəyim qana döndü. Kaş mənə də belə bir gün qismət ola. Hava şaxtalı olsa da, çönüb, bir

də Denisenko gedən tərəfə baxdım. Yazıq o günü mən «umıvalnik»də sa- poqumun palçığını yuyanda özünü görməməz- liyə vurmuşdu. Palçıq təmizləmək kazarmadan çöldə xüsusi yerdə olmalıdır axı...

Axşam uşaqlar işdən qayıdıb, yemək yeyən- dən sonra şinelləri payladılar. Mən keçən dəfə şineli və «treqilka»mı oğurlatmışdım. Yenilərini verdilər. Sağ olsunlar. Ancaq yeni şinelim əy- nimə böyük idi. Rus "starik"ə 1 manat verdim paqonlarını tikdi və şinelin ayağından 10 sm. də kəsdi.

Yadıma düşən kimi bikef oldum. Görəydim hansı əclaf oğurlamışdı "treqilka"mı...

09.01.1971, ***VI gün.***

Səhər "politzanyatiya"da serjant Dolqiyer çox çərənlədi. Qanunlardan düz iki saat danışdı.

Yeni şinellərdə "stroyevoy şaq" gedəndə isə canımız isti olduğundan ləzzət aldıq. Can isti olanda burun, çənə, barmaqlar donsa da, cə- hənnəm, keçinmək olur. Əsas ayaq valinkada ola, baş papaqda, can isə şabalıdı şineldə. Belə olsa, soyuqda nə var "eşşək kimi" işləməyə!

Kinoya getdik. Hind filmi verdilər. «Bolşoy qo-rod» Bu hind filmlərinə mən lap uşaqlıqdan Kəl-bəcər, İstisudan tutmuş Bərdə, Bakıya qədər hər yanda baxmışdım. İndi də hind filmi gəlib, çıxıb Pervomaysk şəhərinə. Dünyanı gəzir de- yəsən bu hind filmləri...

Oğlanla qızın sevişdiyi yerdə, ozü də onlar oxuya-oxuya sevişirlər. Onların sevgisi, məhəb- bəti mahnısız olmur. Bir də hind filmlərinin bir yaxşı cəhəti də var.

Burada qızla oğlan sevişdi-sevişmədi, öpüş- mək məsələsi yoxdu. Xülasə, filmin şirin yerin- də, qız yaylığını oğlanın boynuna dolayıb oxu- yanda Aleksandrov gəldi ki, bu dəqiqə hamama getməlisiniz. Məcbur olub kinodan çıxdıq.

Sevgi-mevgi keçmir hərbidə...

Gəldik hamama. Artıq hamama öyrəşmişdim, çimib çıxanda gördüm, toqqamın başının də- mirini və “portyanka”larımı oğurlayıblar. Acıqla mən də bir başqasınınkını götürüb, aradan çıx- dım.

Bu gün «starşina» günü idi.

Bintlə yalandan barmağımızı bağlamışdıq ki, ağır iş tapşırmasınlar. Serjant, - barmağına nə olub? – deyəndə:

- Bıçaq kəsib, – dedim.

Asan iş olduğu üçün, barmağımın yarasına hörmət əlaməti olaraq “suşilka”nı təmizləməyi tapşırdı. Yenicə başlamışdıq işləməyə Savelyev gəldi ki, səni “zampolit” çağırır.

«Komsomolskiy aktiv» qəzeti buraxılacaq. Məni də redaksiya heyətinə yazdılar. Mən an- caq rəssamlıq və şrift yazmaq məsələlərinə baxacaqdım.

10.01.1971, ***Bazar günü.***

Məni “uborşik” qoydular. Dedim:

- Ayağım yaradır, heç yanı da yuyan deyiləm.

Şamxor ermənisi Alik Oqanesyan və serjant Dolqiyer nə qədər elədi, razılaşmadım.

Stolüstü tennis yarışı keçirilirdi, bizim rota- dan bakılı Bilalov, mən, “starik” Klimenko get- dik. Birinci dövrədə Bilalov uduzdu. Mən Çer- pasovu uddum. İkinci dövrədə biz də uduzub çıxdıq.

Günorta səs-küy yayıldı ki, «Arşın mal alan» filmi veriləcək. Düzü inanmadım. Ancaq klubda kinoya baxanda həqiqətən də «Arşın mal alan»ı verdilər. Çox

ürəkdən baxdıq. Bizim uşaqların sən demə çoxu heç bu filmi görməyibmiş. İndi baxanda da onlar heç nə başa düşmürdülər.

Film rus dilində idi. Biz onlara tərcümə elə- yirdik...

Axşam da bizi kinoya apardılar. «Qadyuka» filmi idi. Yaxşı yatdıq kinoda.

Gecə "odboy"da hamı yatdı. Bircə "naryad- şik"lər işləyir, döşəməni yuyurdular. Sakitlik idi. Mən oturub qəzetin başlıqlarını şriftlə yazır, müxtəlif rənglərlə bəzəyirdim.

Gecə yarı kazarmada tam sakitlik idi. Qırmızı işıq bu gecə yanırdı. Ancaq qaranlıq, qırmızı işıqda öz hökmünü göstərirdi. Döşəmələr yu- yulduğundan, istilik sistemi yaxşı işlədiyindən içəridə bir rahatlıq vardı. Yerimə girəndə xeyli yata bilmədim. Həmişə daş kimi yatardım. Ki- noda xeyli yatmışdım, bəlkə də ona görə idi.

Qəti qərara gəldim ki, yuxusuzluqdan əziyyət çəkənlər bilet alıb kinoya getsələr, rahat yatar-lar...

11.01.1971, I gün.

Divar qəzeti məsələsinə görə bu gün də kazarmada qaldım. Yaxşı oldu. Xeyli də işlədim. Qurtaranda getdim "maqazin"ə. "Voentorq"a ağ- appaq boyun ağları gəlmişdi.. Pambıqdan idi. İpək kimisi də vardı. Hər ikisindən götürdüm. Corab, semişka halvası da aldım. Burada sa- tıcılar da hərbi paltar geyərdi, ancaq "paqon"- suz. Son vaxtlar isə "eynəkli", arıq bir qız da satıcılıq eləyirdi. Qızın eynəyi ağ şüşəli, "optik" idi. Görünür gözündə zəiflik vardı. Şənbə və bazar günləri olanda mağazada qələbəlik olar, çoxlu əsgər və zabitlər ayın- oyun alardılar. Bu gün mağazada bir neçə hərbi formalı belə "pa-qon"suz satıcılar işləyirdi. Əsas da axşamlar bu- rada çox tünlük olardı. Ara günlərində isə alver zəif gedərdi. Xəstə-xüstələr, cəriməsi olub cə-rimə çəkənlər, bir də mənim kimilər.

Bu qız xöşbəxt idi!

Demək olardı, bütün qarnizonun əsgərləri qıza həsrətlə baxırdı. Qız səliqəli, tarım, isti ge- yinərdi. "Oçki"si ona həddən artıq yaraşırdı. Mən şəxsən onu eynəkli halda alardım. Eynək- siz isə əsla!

"Maqazin"də müştəri olmayanda bu qız 20 dərəcə, 30 dərəcə şaxtada bir də görərdin çöl tərəfdən mağazanın qapısının ağzına stul qo- yub oturardı. Özü də bu qız həmişə qəmgin olardı. Ya dirsəklənib, ayağını-ayağının üstünə aşırıb oturar, fikrə gedərdi, ya da elə əlləri ci- bində "maqazin" boyu gəzişərdi. Hələ onun kim- ləsə

danışdığını heç kim görməmişdi. Hərdən o, lap qəmgin olanda “stoliçni” siqareti çəkərdi. İnanın bu siqareti uzun, ağ barmaqları arasında tutub sümürəndə, ya tüstüsünü çölə buraxanda o, elə gözəl olurdu! Bir gün ona yaxınlaşıb:

- Bu siqaret çəkmək və “oçki” sizə çox yara- şır, – dedim.

O gülümsədi. Heç nə demədi. Ancaq göz- lərində nəsə bir işıq yanıb söndü. O gündən bu günə bu qız hər boş vaxtı olanda orada oturar, bir dənə də olsa, siqaret çəkərdi. Elə bil kimisə əbədi itirib...

Qüssəli halda yerə baxardı... Ancaq bu gün o qız yoxuydu.

Poçt gəldi. Əsgərliyə gələndən yüzdən çox məktub almışdım. Bu gün də Ardjimanov mən- dən muştuluq almaq ümidilə 7 ədəd məktub gətirdi. 50 qəpik pul verdim ona – bir odekalo- nun pulunu. Oxuyub dəli oldum. Əlövsət yazırdı ki, bir oğlan Bərdədə “pioner” qızın arxasınca düşüb. Rəngdən rəngə düşdüm.

Bu nə yazırdı, əəə... Ə, bu qanlıq sözdür. Bu nə yazır belə? Köpəyoğlu məni sən öləsən işə saldı eyyy. Baho, baho, bu nə iş idi, durdu-ğum yerdə düşdüm.

Fikir məni apardı. Bilalovun naxçıvanlı Fi- rəngizinin işini keçdi bu iş... Xəyal, hirs, intiqam hissi bir-birinə qarışdı. Gecəni hirsimdən yata bilmədim.

12.01.1971, ***II gün.***

Yenə "padyom", tualet, "zaryadka", "zavtrak", orkestr ilə "razvod", sonra iş...

İşə gedəndə yolda Uşno 1 manat istədi:

- Çaxır alacağam, – dedi.

Vermədim. O, arxa cərgədə idi. Arxadan pa- pağımı vurub saldı. O biri ruslar da onun sö- zünü dedi. Mən də iş yerində işləməkdən imtina elədim. Serjant nə qədər elədisə, xeyri olmadı. Dedim:

- Ruslarla işləyən deyiləm. Onlar pul vermə- yəndə məni ələ salırlar... Axırda məcbur olub məni rus Başanın dəstəsində azərbaycanlı uşaqlarla birlikdə işləməyə razılıq verdi...

Axşam "proqulka"sına getmədim. Əclaf "sta- rik" – "dejurnu po rote" məni gördü. Hamı yat- mağa gedəndə "naryadçik"lərlə məni də qabağa çıxartdı. Nə qədər elədim dedi ki, yox olmaz, "naruşeniya" eləmisən. Axırda Savelyevə bir manat verib yatmağa getdim.

13.01.1971, ***III gün.***

Bu gün də bizi işə orkestrlə yola saldılar. Azərbaycanlılarla işlədim. Mişa Şahmarla mü- bahisə eləyəndə bizim uşaqlar onun üstünə tö-külüşdü. Mən də təpiklə onu vuranda Mişa gör-dü və serjant Dolqiyerə xəbərlədi. Dolqiyer mə-nə:

- Axır vaxtlar özünü yaxşı aparmırsan. Ax- şam "pol" yuyacaqsan, – dedi.

Xətanı özümdən uzaqlaşdırmaq üçün Ardji- manova 5 manat verdim. İşdən qayıdanda Mişa ilə yenə mübahisə elədik. Dolqiyerə dedim ki, çaxır üçün pul istəyib verməmişəm. Onun da- vasıdır.

Günortadan sonra işə getmədim. Zəifgöz Ba- şa mənə 7 məktub gətirdi. Mağazadakı eynəkli qızdan "stoliçni" siqaret paçkası alıb, Başaya "şirinlik" verdim.

Starşina Bandısik məndən utana-utana 3 manat pul istədi. Çıxarıb, 10 manat verdim. Ye- kə kişidir, görünür dolana bilmir. Özü də yazıq adamdır, nə olsun Sovet İttifaqına qulluq eləyir.

Ardjimanov məni “kanselyariya”ya çağırıb bü- tün serjantların yanında dedi:

- Starşinaya 3 manat verə bilərsən?

Daha demədim ki, vermişəm. Çıxarıb 4 ma- nat da orada verdim, cəmi 6 manat pulum qaldı.

14.01.1971, IV gün.

Növbə mənə çatmışdı. Məni bu gün “uborşik” qoydular. İki aralığı yudum. Çöldə güclü qar ya- ğırdı. Gediş-gəliş, təlim yerlərinin qarını tə- mizləyirdilər. Əllərində taxta qollu, başına enli taxta faner mismarlanmış alətlərlə qarı təmiz- ləyir və qarı o qədər üst-üstə yığmışdılar ki, ka- zarmaların yan-yörəsində 4-5 metr hündür-lüyündə qar təpələri əmələ gəlmişdi. Bu qar tə- pələri o qədər əzəmətli görünürdü! Axı dün- yanın heç bir müsəlman ölkəsində qar yağmır!

Qolavatır nəhayət məni çağırdı:

- 20 manatını hələ düzəldə bilməmişəm, bir az da səbr elə, verəcəyəm, – dedi.

Dinmədim.

Bu gün bir kəşf elədim. Kim nə deyir desin, kişiyə siqaret çəkmək yaraşmır. Siqaret kişi üçün deyil. O ağ optik şüşəli, ağ "opravalı" ey- nəkdə rus qızı siqaret çəkəndə dünya dəyişir. Onun qırmızı manükürlü uzun, arıq, incə ağ barmaqları arasında siqaret tüstülənəndə... Rəssamlar yatıblar. Vallah bu anı onlar olduğu kimi dəqiqliklə çəkə bilsələr sonda öz işlərinə baxıb bayılarlar...

Qırmızı qutulu "stoliçni" siqareti bu adını belə bilmədiyim zərif rus qızının arıq barmaqları arasında tüstülənəndə nə qədər möhtəşəm olur!

Mən siqaret çəkən deyildim. Ancaq həyatım- da üç dəfə siqaret çəkmişəm. Lap ilkini beşinci sinifdə oxuyanda çəkdim. Təzə açılan "kolxoz bazarı"nda. O vaxt küçəmizin uşaqları ilə, daha dəqiqi Araz və Savalanla bazardan "nöyüt", bir az da evdən deyilənləri alıb eşşək arabası olan "taksi" gözləyirdik. 1950-1960-cı illərdə Bərdədə ən bahalı "taksi" bir qolu yox Qəhrəman kişinin eşşək arabası sayılırdı. Onu da hər saat tapa bilməzdin. Sifariş çox olurdu.

Bu Savalan "zurna" çalan, balacaboy qonşu- muz Məhəmməd kişinin oğluydu. O tapdı siqa- reti. Çəkilib qurtarmamış atılan "Kazbek" və "Prima" siqaretlərinin "astav"ları idi. Spiçka da tapıb girdik bazarın "ümumi tualet"inə. Bərdədə qadın və kişi tualetləri heç əvvəldən

yoxuydu. Arvadlar tualetə gedəndə sürü ilə gedərdi. Onda kişilər uzaqdan növbə gözləyərdilər.

Tualet boşalanda girdik ora. İlk yandıran Araz oldu, sonra Savalan. Tüstülənən siqareti mənə ötürdülər.

- Çək nəfəsinlə içəri, – dedilər.

Çəkdim. Və məni bir öskürək tutdu! Çığırdılar ki, davam elə. Elədim...

İkinci siqareti 1967-1968-ci illər arasında çək- dim. O vaxt orta məktəbi bitirib, Bakıya gəlmiş-dik. Hamımızın 17 yaşımız vardı. Daha doğru-su dostlarımın. Mən hələ 16 yaşındaydım. Mək-təbə tez getmişdim axı.

O vaxt Bakıda cəmisi üç pozğun qadın vardı. Qırmızı geyinərdilər. Onlarda iş vaxtı 11:00-dan başlayardı. “Qırmızı” pozğunlar “Malakan” bağı deyilən yerdə parka girib ayrı-ayrılıqda piyada, asta-asta “Azərbaycan” kino-teatrına sarı gəzi- şərdilər...

Bu yolda böyük kişilərdən kim yaxınlaşıb, on-lardan birini tez “bişirə” bilsəydi, pullarını əvvəl-dən verib, razılaşandan sonra taksiyə oturub gedərdilər. Kişi qabaq oturacaqda, qadın arxa-da... O vaxtın dəbi beləydi. Qabaqda oturan taksi pulunu verməliydi. Yaşca bizdən böyük olan Yunisə görə düz bir ay idi gəlib gedirdik. Növbə ona çatmırdı. Bax onda ikinci siqareti çəkdim! “Malakan” bağı ilə “Azərbaycan” kinote-atrı arasında...

Üçüncü siqareti isə əsgərlikdə olanda çək- dim! 30 dərəcə şaxtada bu ağ eynəkli qız siqa- reti necə sümürürdüsə, necə tüstülədirdisə si- qaret çəkmək marağı öldürürdü məni. Tərs kimi Bərdədən də pis məktub almışdım. Bu Nazim "əclaf " kimdirsə ölməlidir! – demişdim. Bax, on-da çəkdim üçüncünü! O vaxt "Voyentorq"un qa-bağında əlimdə tüstülənən "Stoliçni" siqaretini ağ eynəkli qız görəndə təəccübləndi. Maddım-maddım üzümə baxıb köksünü ötürdü və baxış-larını yerə dikdi.

Siqaret məni öskürtdü, o başını qaldırıb mə- nə baxmadı. Bu dəfə çox az öskürdüm. Çıxıb getdim. Xeyli gedəndən sonra çönüb arxaya baxdım. O, mənə baxmırdı. Eləcə sakit-sakit yerə baxırdı...

Kazarmaya gəlib "pioner" qızın "oktyabryat" qardaşına məktub yazdım, amma bilmədim hansı ünvana göndərəm.

Axırda yazdım: "Azərbaycan SSR, Bərdə şə- həri 1№-li orta məktəb, III "s" sinfinin şagirdi... adı, atasının adı və familiyasını" qeyd eləyib göndərdim, getdi. Bu məktubu poçt qutusunun ensiz deşiyindən atanda bir az təsirləndim, dəmir, mavi rəngli poçt qutusunu barmağımla sığalladım da. Hə, yüz faiz sığalladım, yaxşı ya- dımdadır...

Bu gün məktub gəlmədi. Üzümü qırxdım. Axşam komsomol iclası oldu. Söz alıb, ayağa qalxdım:

- Ruslar bizə tez-tez “yop tvoy mat” deyirlər. Bizdə belə sözə görə adam öldürürlər, – dedim.

Leytenant Boyko sözümü kəsib:

- “Yop tvoy mat” bizdə məcazi mənadadır, – dedi və s.

Starşina, mənə 14 manat borcu olan Bandı- sik köpəyoğlu da dedi ki, bir də komsomol icla-sında belə söz danışsan, “troye sutka qaup-tvaxt” alacaqsan.

Gecə uşaqları klubu və ştabı yumağa apar- dılar.

15.01.1971, V gün.

Hava yenə bərk soyuq idi. Elə bil kinolardakı, nağıllardakı kimi hər yan tutqun duman içində, hər yer qar. Şaxta, çovğun, yer, göy görünmür- dü...

İşlədiyimiz binaya istilik buraxdılar. İlk də- fəydi ki, işləyəndə barmaqlarımız donmadı. Se- ment, “rastvor” iyi istidə daha kəskin hiss edilirdi.

Bu iy adamı yaman acdırırdı.

Məni “starşi” təyin eləyib bir otağı suvamağı tapşırdılar. Başım işə necə qarışdısa, ilk dəfə yemək vaxtının çatdığını hiss eləmədim.

Qazax rayonunun Daş Salahlı kəndindən olan tələbə dostum Mahir Eminovdan məktub aldım. O yazmışdı ki, sən sevdiyin pioner qızın ata-anası da bu işi bilir və onu sənə verəcəklər. Düzü çox sevindim. Əlövsətin yazdığı “cındır” sözlərə inanmadım. Heç kim ona sataşa bilməz! Elə Mahir yazan düzdür! Özümü belə sakitləş- dirdim.

İşdən qayıdanda, cərgədə gedə-gedə Saday- la sözümüz çəp gəldi. Qarnına birini ilişdirdim. “ Zampolit” Boyko gördü:

- “Kanselyariya”ya gələrsiniz, – dedi.

Uşaqlar hamısı Sadaya dedilər ki, sən de ki, dava yox, zarafat eləmisiniz. O elə də dedi. Xə- tadan qurtardım.

16.01.1971, VI gün.

Bu gün taxta otağın aralarındakı deşiklərdən güllə kimi vıyıldayan şaxtanın vahiməli so- yuğunda 21 nəfərə 700 kq. kartof soyduq. Qur- tarmaq bilmirdi. Axırda kartofları

sırıxlının içəri-sində gizlədib xeyli çölə tökdük. Barmaqlarım soyuqdan donub göyərmişdi.

Xamulin məni xəritəyə çıxartdı. Haranı dedi- sə, göstərə bildim.

Ardjimanovun dəstəsi soğan soymağa getdi.

Hamama getdim. “Pastel”lərin ağlarını dəyiş- dik. Bir manat da bu gün xərclədim. Cəmi 4 ma- natım qalıb.

Gecə fransız filmi verdilər.

Yerimə girəndə gördüm ki, yeni ağlar nəm –lidir... Yatmaq olmurdu. ССРИ нящянэликдя бир дювлятин онун “баласы»на олан гайьысы…эяляъяйи щаггында йахшы няся демир…

17.01.1971, ***Bazar gunu.***

“Padyom” 07:00-da oldu.

Başqa rotada konsert verirdilər. Rus mahnı- ları oxunurdu. Biz kinoya getdik. Gürcü filmi var- dı “İqra bez niçey”.

Gürcülərin o vaxt ən məşhur iki filminə bax- mışdım “Fatimə” və “Mamlyuk”. Onda uşaq idim. “Fatimə” filmi dəhşətli idi.

«Filmdə dəlicəsinə bir-birini sevən Canpolad və Fatimə ailə qururlar. Bir az keçmiş Canpolad Fatiməni nökəri işləyən İbrahimə tapşırıb mü- haribəyə gedəsi olur... Müharibədən Canpola- dın ölüm xəbəri gəlir. Bir müddət yas saxlayan Fatimə ölənin geri qayıdacağına ümidini üzüb nökər İbrahimə təslim olur. Onların bir uşaqları dünyaya gəlir... İbrahim kişi kimi mərd olur və bəxtəvər günlərini yaşayır. Çox uzatmayaq, bir gün taxtadan işlənmiş milli gürcü qapısı, ərklə çırpılmış əsgər çəkmələrinin gücündən taybatay açılır. Həyətdə səliqəsiz, qayğıdan yorğun Fa- timə başını bu gurultulu səslə açılan qapıya çöndərib baxanda yerindəcə quruyub qalır. Gə-lən Canpolad idi! Bir az keçmiş nökər İbrahim də atla həyətə ev sahibi kimi girəndə müsibət qopur. Əsl gürcü mentaliteti, münasibəti aydın-laşdırmalı olur...

Silahlanıb, atlanıb dağlara çapırlar. Fatimə oğlunu qucağına basıb ayaqyalın həyətin o baş-bu başına qaçır... Beləcə, gecə yarı əvvəl atəş səsləri xeyli keçmiş isə qəflətən at ayaqlarının dördnala çapan səsləri eşidilir. Tappıltıdan gə- lən atın qoşa yox, tək olduğu aydınlaşır. Fatimə yüyürərək özünü pəncərəyə atır. Dağlardan ça-pan at birininki idi...

Həyətdən içəri girib atdan düşəndə Fatimə Canpoladı görür. Bu dəhşət idi! Sevgi, ya ailə!

Dilemma yaranmışdı. Qəflətən gecə yarısı zülmət qaranlıqda Canpoladı qoyub, Fatimə ayaqyalın, başıaçıq, saçı dağınıq halda İbrahim, İbrahim, İbrahim deyərək, fəryad qoparıb, dağ-lara üz tutur. Hələ onu da oxucuma çatdırım ki, filmin rejissoru işıq saldırıb, Fatimənin hava-lanmış çöhrəsini göstərəndə, bu səhnə indi də yadıma düşəndə tüklərimi biz-biz qabardır və bir neçə ay, filmə baxandan sonra da gecələr qorxumdan evdən çölə çıxa bilmirdim.

Yatanda da ayaqyalın, saçları pərişan, hava- lanıb İbrahim çığıran, balasının atasını axtaran, dəli olmuş Fatimənin zülmət qaranlıqda ağaran sifəti və ağappaq muncuq kimi dişləri hələ də məni qorxudurdu".

Bu səhnəni yaradan rejissora və müəllifə mən olsaydım, oskar və Nobel mükafatları ve- rərdim... Filmi belə xatırlayırdım. Bəlkə də hara- dasa yanlışlığa yol verdim. Ancaq məhz belə ol- malı idi.

Ardjimanov lap ağını çıxartdı.

Yenə 3 manat istədi.

- Yoxdu, – dedim.

- Uşaqlardan tap, – dedi.

Gördüm sırtıqlıq eləyir. Dedim ki, heç kimin pulu yoxdur. Vəssalam. Məndən bir də pul is- təmə.

Gəldim kazarmaya. Ruslar rus qarmonu, yəni akkardyon çalır, oxuyur, əl çalır, oynayırdılar. Nədənsə qəmgin idim.

Axşam da kinoya getdik. Yatmışdım. "İraq atamdan, gördüm atam ölüb. Şərq küçəsinin uşaqları yığışıb başıma. Xosu, Arif, Araz, Qərib, Əsgər, Zakir, Savalan... hamısı mülkü paltarda, mən əsgərlik geyimində. Hönkür-hönkür ağla- yırdım. Çox ağladım". Qəflətən ayılanda gör-düm kinodayam. Ancaq əlimi üzümə, gözümə sürtəndə baxdım ki, üzüm, gözüm yaşdır. Mat qaldım. Həqiqətən ağlamışdım. Ancaq təsəlli ta- pıb rahatlaşdım ki, nə yaxşı atam sağdır... Gör- düyüm yuxuymuş...

18.01.1971, ***I gün.***

Orkestrlə işə getdik. İkinci mərtəbədə Mehti- yevlə, İlyas palçıq verirdilər, mən isə suvaq vururdum. Podpolkovnik Bezlepkin gəldi. İşlərə baxıb "obyom"dan çox narazı qaldı və son sö- zünü:

- Sabahdan 07:00-dan işə başlayıb 19:00-da qurtarmaq lazımdır! – dedi.

Bəli, bu gün 18:30-da içəri necə qaranlıq idi- sə, yerdə qalan yarım saatı onsuzda işləyə bil- mədik. Cərgəyə düzülüb, qayıtmaq istəyəndə mayor Dyakiv gəldi.

- Olmaz! – dedi. - Yarım saat tez çıxmısı- nız. Yuxarının əmrini pozmusunuz. Qayıdın işi- nizə. Qayıtdıq. Qaranlıqda bir az eşələnib yeni- dən cərgəyə düzüldük. Bu da yuxarının əmri!

Bu mayor Dyakiv həmən mayor idi.

Biləcəridən bizi gətirən, vaqon-eşalonda mə- şuqəsi ilə gecələyən. Onun yaşıl gözləri, sallaq dodaqları, donuza oxşar sifəti yaxşı yadımday- dı...

19.01.1971, ***II gün.***

Bu səhər elan elədilər:

- Babayev, Mamedov, Matisakov “dnevalnı” durmalısınız.

Saat 13:00-da, yeməyə qədər işləyib kazar- maya gələndə “dnevalnı” yazılmış, qırmızı par- çayla qola taxılan yazını Bilalovdan təhvil alan- da, o mənə xatırlatdı:

- Bir qərara gəlmədin?

- Nə barədə?

- Firəngizi deyirəm.

- Bir az da gözlə, – dedim. - Bu ciddi məsələ- dir. Vaxtımız da çoxdu.

Razılaşdı...

Poçt gəldi. Tahir Ağayevdən və onun atası Soltan kişidən məktub aldım. Eyni gündə. Ata-baladan. Biri Gürcüstandan, biri də Azərbay- candan yazmışdı.

Uşaqlar günorta yeməyinə gəlmədi, əvəzində yeməyi apardılar uşaqlar işləyən yerə. Yeddi -dən-yeddiyə məsələsinə görə.

Axşam da uşaqların yarısı işdən 19:30-da, yarısı da 21:30-da gəldi. Uşaqlar danışırdı ki, göstəriş verilib, hər yana işıq çəkiblər... İşlər yaman çətinləşib. “Obyekt”i təhvil vermək lazım- dır. Belə getsə, gecə “smen”ləri də olacaq – dedilər. Uşaqlar bölünüb. “Kotelni”də, “MSD”- də də işləyirlər. Həm də ayrı-ayrı vaxtlarda ge- dib gəlirlər.

Bu gün danışırdılar ki, qarnizonun dəlixana-sından Əliquliyevi komissavat edəcəklər. O, tə-miz dəli deyilsə də, özünü düzgün dəliliyə vurub. Ditdili, ditdili deyib nəsə qovur, əl atıb guya tutur. Belə-belə hərəkətlər...

Şalamanovu bu gün rəsmən “koçeqar” təyin elədilər. Onun kefi vurdu. Qışda isti yerdə otu- rub başını girləyəcək.

Qırğızıstanlı bir oğlan var. Matisakov. Mənə danışdı ki, əsgərliyi bitirmək üzrədir. Heç kimi yoxdur. Bir qəpiyi də olmur. Əsgərliyə gəlməz -dən qabaq bir qızı sevirmiş. O da ərə gedib. İndiyə qədər nə “uvolneniya”da, nə də məzuniy- yətdə olmayıb. Çox sakit oğlandır. Heç kim “pol” yumaq istəməyəndə o, sakitcə vedrəni götürüb “pol” yumağa gedir. Frunze şəhərinin kənarla- rındakı kəndlərdəndir. İki ilə yaxındır Pervo- mayskdadır. Burada da özünə qız tapa bilməyib. Deyir:

- Pulum yoxdur. Mənə kim gələr?

Onu görəndə üzülürəm. Ürəyim darıxır...

20.01.1971, III gün.

Tezdən əl-üzümü yuyub, Matisakovla "zaqa- tovka”ya getdim. Qayıdıb yenidən “dnevalnı” durdum. Serjant Başaya siqaret lazım idi. Ona 50 qəpik verdim. Görüm bunun vəfası hara qə-dərdir. Sonra 1 manat pul verdim Matisakova ki, halva alsın yeyək. Aldı, elə onunla da bölüb ye-dik.

“Tumboçka”nın arxasında tək dayanmışam. Qolumda qırmızı «dejurnu po rote» sarğısı var. Biləyimə Hüseynin saatını vurmuşam. Saatın səsindən başqa heç nə eşidilmir. Tam sakitlikdir.

Poçt gəldi. İki məktub aldım. Biri Zeynəbdən idi. “Pioner”dən heç nə yazmayıb. Lap dilxor ol- dum.

Axşam bizə təzə “XB”lər payladılar. Mənimki əynimə böyük idi. Gözləşib Kələntərovla dəyiş- dik. İçərisini yenə xlorla yazdıq...

Uşaqlar “Stolova”da növbəti dəfə çörək üs- tündə tutaşdılar.

Axşam “naryad” alanların adını oxuyanda Ardjimanov mənim adımı ötürdü... Onun bu kişi- liyi məni yumşaltdı. Deməli yaxşılıq itmir.

P.H.Эцнтякинин «Додагдан гялбя» китабыны охуйуб гуртардым. Бу да «Фатимя»филми кими мя- ни апарды…

21.01.1971, IV gün.

Bu gün moldovan serjant Denisonko “otpus- ka”dan qayıtdı. Dedilər, Bryusov da gəldi. Başa ilə dostlaşmışıq. 50 qəpik məsələsi! Bizi bu 50 qəpik bir-birimizə bağladı. İşdə istədim “rastvor” daşıyam, Başa qoymadı.

Bibimin əri Çərkəzdən, orta məktəb yoldaşım İsgəndərdən məktub gəldi. Oxuyub cavablarını yazdım.

Gecə ruslar serjant Denisenko və Başaya dedilər ki, Tofiq “pol”u yumadı. Onlar da mənə göz vurdular. Gizlincə gedib yerimə girdim.

22.01.1971, V gün.

İşə getdik. Hava açılmışdı. Çovğun, şaxta yo- xuydu. Dizə qədər qar olmasına baxmayaraq topuğa qədər də palçıq vardı. Palçıqda valinka geymək olmur, odur ki sapoq geyinmişdik! Ağır sapoqlarla güclə hərəkət edirdik.

Tariyeldən məktub gəldi. Əclaf! İki kəlmə ha- vadan yazıb. Acığımdan heç cavab da yazma- dım ona...

Zığa, palçığa bata-bata tikintinin həyətindən dördüncü mərtəbəyə kərpic daşıyırdıq.

Bizimlə əsgərliyə bir yerdə gələn şamxorlu Alik Oqanesyan Aleksandroviçi "prorab" qoydu- lar. Qırmızı yanaqları, danışanda gözləri gülən bu oğlan mənimlə dost idi. Demişdi ki, Şamxora nə vaxt gəlsən Sabir küçəsi 82-də oluram. Bakı- da Politexnik İnstitutunun "İnşaat" fakültəsində oxuyurdu. Mən isə Çingiz İldırım adına olan hə- mən İnstitutun "mexanika" fakültəsində oxuyur- dum. Bizi elə bir yerdə oxumağımız dostlaşdır- mışdı. İndi onu prorab qoydular. Bizim işlərimi-zi o yazacaq, "smeta" tutub əmək haqlarımızı hesablayacaq. Tək, sərbəst gedib-gələcək. Bir sözlə, onun da kefi vurdu. O da bəxtəvər olub getdi...

Laçının Alxaslı kəndindən olan Ələkbər İs-gəndərov gedib, leytenant Bryusova deyib ki, Bilalov kərpici ikinci mərtəbəyə boşaldır. Dördə çıxmır. Biz də yığışıb Ələkbərə "tor" qurduq. Nə vaxt baxsan mahnı oxuyan salyanlı Adil Ələk- bəri çağırdı. Biz də onu dövrəyə aldıq. Bilalov, mən, Telman. Adil tək otaqda qəflətən ona ili-şərək dedi:

-Niyə bura işəmisən?

Ələkbər məəttəl qaldı. Özünü itirdi. Sonra sö- zünü geri götürdü. Serjant Başa gəldi, onu döyə bilmədik. Buraxdıq. Ələkbər gedib özünə laçınlı uşaqlardan dəstə düzəltdi. Qarqışlaq kəndindən olan Mamed, Ədalət, Fərəcan kəndindən olan Turabxanla üstümüzə gəldilər.

Mübahisə elə-yəndən sonra dedik, bu gecə haqq-hesabı çürü- dərik.

Onlar “yedilər”. Və başladılar başqa cür fırlat- mağa. Xülasə, sonda Ələkbər üzr istədi...

Televizorda axşam qəflətən gördük ki, Şöv- kət Ələkbərova “Ağ çiçəyim” mahnısını oxuyur. Hamı hər tərəfdən televizorun qabağına tökü- lüşdü. Ürəyimiz atlanırdı. Emin Sabitoğlunun bəstələdiyi bu mahnı indi dəbdə idi. Sözlərini Nəbi Xəzri yazmışdı.Elə oradaca çox sözlərini əzbərlədim:

Səhər çağı... Göy meşədən,

Dərdik səni, ağ çiçək!

Bəyaz-bəyaz varaqlara

Sərdik səni, ağ çiçək.

Birdən-birə ağ əllərdə

Təzələşdin ağ çiçək!

... Gördüm səni bu gün başqa

Bir çəməndə, ağ çiçək!

... Soyuq-soyuq boylanırsan.

Söylə neçin, ağ çiçək!

Mahnı qurtaranda gözlərim dolmuşdu. Musiqi həmişə məni duyğulandırır.

Yuxuda pioner qızı gördüm.

“Musiqi məktəbindən gəlirdi. Gördüm gözlə- rimin qabağında qəflətən qocaldı... Sonra söh- bət elədik! Dedim:

- Komsomola keçəndə mənə xəbər elə.

Doğum gününün nə vaxt olduğunu da soruş- dum. Fotoşəklini istədim.

- Qoy gözlərinə baxım – dedim.

Qoymadı. Gözlərini aşağı dikdi. Sonra ona bir uzun monoloq söylədim. Sənin sevgilin və- təni qoruyur. Sən fəxr eləməlisən! Arxanca gə- lən varsa, onlar tüfeylilərdir. Heç vətəni qoruyan əsgərin sevdiyinə qeyrətli oğul başqa gözlə ba- xar? Bax belə-belə sözlər. Sonra da o yoxa çıxdı...

Onun arxasınca baxanda gördüm arıq, uzun ağ barmaqları olan ağ eynəkli qız oturub bir “skameyka”da. Tək-tənha! Duman, qar, şaxta... Bir yoğun gövdəli ağacın altında onun barma- ğındakı dırnaqlarında qıpqırmızı lakı da gördüm. Siqaret çəkirdi. Əlimi uzadıb siqaret istədim ondan. O harasa baxırdı. Mən tərəfə heç bax- madı da. Siqaret də vermədi. Eləcə susurdu...

Başını yun şalla müsəlman qadınları sayaq bərk-bərk bağlamışdı. Onun ağ sifətinə, ağ ey- nəyinə, qırmızı laklı dırnaqlarına yaman yaraşır- dı bu yaşıl rəngli yun şal. Sonra onu duman bü- rüdü. Sonrası “lap yuxuya” oxşadı. O durna kimi buludların üzündə qollarıyla havanı yarıb uçurdu...”

Stefan Sveyqin “Yad qadının məktubu” no-vellasını oxuyuram...

23.01.1971. ***VI gün.***

Bu gün yeni “XB”-ləri geyindik. Çox gözəl idi. Tərtəmizdik. Yeməkxanada bütün stollara siya- hı ilə, adla hamını on-on oturtdular. Mən, Mux- tar, Adil, Firudun, Eldar, Hüseyn, Elman, Tel- man, Əşrəfov, bir də “qospital”dan yeni gələn Akif Salayev bir stola düşdük.

Bu günə kimi 68 məktub almışam. Bu gün görək 70 tamam olacaqmı?

Yuxuda gördüm “Bərdənin “mal bazarın- da”yam. Qonşumuz və uşaqlıq dostum Vaqif Həsənov və ağdamlı dostum Arzu Əhmədovla qarşılaşırıq. Vaqif dana satırdı. Öpüşüb görüş- dük. İkisi də birdən dedi ki, mənə məktub ya- zıblar, görünür çatmayıb. Mən də deyirəm yalan danışmayın. Yazanlarınkı hamısı çatıb. Sovet hökumətinin ən yaxşı işlərindən biri elə bu poçt məsələsidir və s...” çox danışırıq. Sonra yuxu- dan ayılanda gördüm, kinoklubdayam. Nobel mükafatı almış Şoloxovun yazdığı “Oyanmış torpaq” romanı əsasında çəkilən filmi verirdilər...

Kinodan sonra iyirmi nəfər kartof soyanlar da qayıtdı. Kartofa onların yerinə indi kinodan çı- xanları apardılar. Serjant Denisenko məni də aparmaq istəyəndə Başa məni və Səbuhini sax-layıb dedi ki, bunlar “stolova”nı süpürəcəklər. Yazıq uşaqlar kartofdan gecə ikidə gəliblər. Mən onda yuxuda olmuşam.

24.01.1971, Bazar gunu.

“Padyom” altı əvəzinə yeddidə olsa da, isti- rahət günü olmasına baxmayaraq bizi işə apar- dılar.

Elə gözəl gün çıxmışdı! Pervomayskidə ilk dəfəydi göy üzünü belə günəşin şəfəqlərində görürdük. Bugünkü günəş xoş əhval yaratdı. Bütün yer qurumuş təhər olsa da, ayaq basan kimi topuğa qədər palçığa batırdıq. Günortaya kimi işlədik.

Cəmi iki manatım qalıb.

Laçının Şalva kəndindən olan Hətəmov Şahmarı Şamxorun Şiştəpə kəndindən olan Vahid Sübhan oğlu Həsənov satmışdı. Yenə boş otaqda “kruq” düzəltdik. Üçüncü mərtəbədə. Vahid onu satdığını boynuna almadı. Şahmar da onu satanın “bacısına” söydü. Dava belə bitdi.

İşdən qayıdıb kazarmada üzümü qırxanda Tovuzun Əsrik kənd sovetliyinin Cırdaxan kən- dindən olan Nadir Allahverdiyev cibimə dörd məktub basdı. Bunlar sayca 69, 70, 71 və 72-ci olan məktublar idi. Məktubları oxumadan cər- gəyə durdum. Hamama gedirdik, yolda “raz, raz”... getdiyimiz yerdə ürəyim durmadı, mək- tubları çıxarıb bir-bir kimdən gəldiyinə baxdım. Bir məktubun üstündə göndərənin adı əvəzinə eləcə yazılmışdı: “Ot Barda”. Vaxt yoxuydu. Odur ki, heç birini açmadım.

Çimdim... Təmiz alt paltarları verdilər, geyin- dik. Sonra ağ “belyo”lar paylandı.

Kazarmada işimi qurtarıb, məktublarla "len- "komnata"ya gəldim. Əvvəl Yevlaxda yaşayan Kamran əmimin oğlu Əbülfətdən, qardaşım Vidadidən və pioner qızın qonşuları olan Əlöv- sətdən gələn məktubları oxudum. Sonra axırın- cı "ot Barda" olanı açdım.

Xətt və yazı onunki idi!

Əvvəl bədənimdən soyuq nə isə keçdi. Sonra elə bil titrədim, əlim uçalandı. Rəngim ağardı. Təkrar-təkrar oxudum, gözlərimə inanmırdım. Məktub ondan idi! Çox az yazmışdı. Birdən aya- ğa qalxıb qışqırdım. Uşaqlar tökülüşüb, məni dövrəyə aldı. Əlimdəki məktubu alıb oxudular. Sevincimin həddi-hüdudu yoxuydu. Ruslar da qışqırtımın nə üçün olduğunu öyrənəndə məni təbrik elədilər. Hamı, hamı məni bu gün təbrik edirdi... Məktubu elə azərbaycanlı qalmadı ki, oxumasın. Serjantlar da, lap axırda leytenant Bryusov özü də məni təbrik elədi. Uçmağa bircə qanadım çatmırdı. Məktubun yazılışına görə hamısı "ağıllı qızdır" dedilər.

Axşam "Oyanmış torpaq" filminin 3-cü hissə- sinə baxdıq. Bütün film boyu məktub gözlərimin qarşısından getmədi...

Gecə "mundirimi" gec "zapravka" elədiyim üçün bu əclaf Ardjimanov mənə bir "naryad" verdi. Ardjimanovun adı Sardal idi. Qırğızıs- tanda Frunze şəhərində Sverdlov küçəsi 12-də yaşayırmış... Düşəndə həmişə deyərdi ki,

“biz asiyalılar”... O bizi də asiyalı sayırdı. Ancaq belə əclaflıqlarından da qalmırdı. “Suşilka” və “umıvalniki” yuyası oldum.

Pionerin məktubunu yatmazdan qabaq dönə-dönə oxudum. Bağrıma basıb öpdüm də...

Nizami Gəncəvinin “İsgəndərnamə”sini təkrar 2-ci dəfə oxuyuram...

25.01.1971. ***I gün.***

Günortaya qədər Şahmarla 19 “nasılka” "ras- tvor” daşıdım. Yeməkdən sonra işə gedəndə sı- rada yol boyu Çingizlə mübahisə elədik. Axırda qərara gəldik ki, gedək dalaşaq, ancaq heç kim bilməsin. Razılaşdıq. İş yerində boş otaqlardan birinə girib əvvəl tutaşdıq. Sonra onu bərk döy- düm. Əclaf ağlaya-ağlaya gedib, məni Mixaylov-skiyə satdı.

Qıpqırmızı pörtmüşdüm. Mixaylovski qabaq- da, mən də arxasınca gedirdim. Çox sakit gəl- dik. O, yolda mənə heç nə demədi. Kazarmaya çatanda leytenant Xaliulin qabağımıza çıxdı. Məsələni öyrənib Mixaylovskiyə dedi:

- Deyəsən “hauptvaxt” bağlıdır.

İndi də Xaliulin qabaqda, mən yenə arxada... getdik. Hirsimdən partlayırdım. Bəxtimdən "qa- uptvaxt" bağlı oldu.

Kələntərov və Balaca Çingizin, Adil, Sahib, Şahmar isə mənim tərəfimi saxladı. Ruslar – Ardjimanov, serjant Dolqiyer məni bərk hədə- ləyib:

-Axşam sənin məsələn müzakirə olunacaq, – dedilər.

Bir tərəfdən pul zəhrimar da qurtarıb. Zeynə- bə məktub yazıb bildirdim ki, anama xəbər eləsin, 10-15 manat pul göndərsinlər.

Həmid əmimə dalaşmağım və hauptvaxt haqqında qısa məktub yazdım. Həmid əmim 15 il türmə yatıb çıxmışdı. Ona belə şeylər ləzzət eləyərdi.

Vəziyyət gərgin idi. Oqanesyan Aliklə danış- dım. Dedim:

- Hörmət eləyəcəm, pul yaxın günlərdə gələ- cək, serjant Başa işimi düzəltsin. Oqanesyan danışdı. Başa deyib ki, beş sutka hauptvaxt ver-mək istəyirlər.

Kömək edəcəyinə də boyun olub. Bərdəli əs- lən mesxeti türkü olan Şükür də eşidib köməyə gəldi. O, Ardjimanovla danışdı... Bəli, Çingizlə məni "kanselyariya"ya çağırdılar. İçəri girəndə çox gözəl "çest"

verib “dolojit” elədim. Ardji- manov və Başa mənim tərəfimi saxlayıb, məsə- ləni yoluna qoya bildilər!

Çingiz kazarmanı, mən isə “umıvalnik”i yu- malı olduq.

26.01.1971. ***II gün.***

İşə gedəndə Bryusovun gözləri qarşısında, Denisenko məni ayırıb ruslarla birgə işləməyə apardı.

Yenə ruslarla! Açıq havada Bazovla çiyni- mizə taxta “reyka” qoyub vedrə ilə “rastvor” daşıyırdıq. Çöl çox soyuq idi. Ocaq qaladıq...

İlk maaş aldım. Oqanesyan hesablamışdı, iki manat!

Aydının məktubla göndərdiyi bir manat da köməyimə çatdı. Üç manat düzəldib serjant Başaya verdim.

Pionerdən ilk məktubu gətirən Tovuzlu axsaq Allahverdiyevə də “Voyentorq”dan yarım kiloq- ram konfet alıb, şirinlik verdim. O qız mağazada yox idi.

Mağazanın bəzəyi!

Ancaq kimdən soruşasan onu?

Bu gecə yatanda çox fikirləşəndən sonra tam əmin oldum ki, doğrudan da siqaret çəkmək ki-şilərdən çox qadınlara yaraşır. Kişilər siqaret çəkməsə daha yaxşıdır.

27.01.1971. ***III gün***

Starşina xəbər verdi ki, işə getmə. Sonra mənə bir kitab verdi. Üstünü və içərisini uşaq- ların ad, familiyalarını, ünvanlarını şriftlərlə yaz- dım...

Düz bir il əvvəl bugünkü gün mənim üçün çox əlamətdar olmuşdu. Həyatımda ilk dəfə pio- ner qızla söhbət eləmişdim. O gün indi də göz- lərimin qabağındadır.

...Bir gün əvvəl, Bərdənin 1 №-li orta məktə- bində gözləyib, 5-ci dərsdən çıxan Talış müəl- limin arxasınca getdik. Aydın, Araz və mən. Ta- lış müəllim evə girəndən beş dəqiqə sonra Aydın qapını döyüb içəri girdi. Planımız baş tutdu. Aydın çıxanda sevincək:

-Sabah gedib icazə istəyərsən Talış müəllim icazə verəcək, – dedi.

Talış müəllim “pioner”ə dərs deyirdi. Bəli, keçən ilin bu günü – 27.01.1970 axşam saat 19:00-da sinfin qapısını

döydüm. Talış müəllim qapını açanda “pioner”ə icazə istədim. O, danışdığımız kimi çox rəsmi şəkildə soruşdu:

- Nəyinizdi?
- Qohumumuzdu, – dedim yalandan.

Vəssalam. Bir az keçmiş o, qapını açıb çölə çıxdı. Qırmızı qalstuku qırmızı yanaqlarına, iri gözlərinə çox yaraşırdı. Məni görüb çaşdı. Əvvəl istədi qayıtsın. Ancaq tərəddüd edib... dayandı.

İkinci mərtəbədə “rus dili” kabinetinin qarşı- sında dəhlizdə heç kim yoxuydu. Odur ki, o, bir az ürəklənib divara söykəndi və başını aşağı dikib susdu. Hərdən əlinin barmaqlarını divarda gəzdirirdi. Piano çalan kimi...

Mən enli yun şərf taxmışdım. Gödəkçədə idim. Dilim dolaşa-dolaşa lazımsız bir neçə söz işlət- dim. Heç nə dediyimi indi də xatırlamıram. O da heç nə demədi. Eləcə susub sonra da sinfə qayıtdı...

O gecə Aydın, Araz və Tahirlə qucaqlaşıb öpüşdük. Bu ilk qələbə idi! Hamısının fikri bir oldu:

- Sevməsəydi, dərhal qayıdıb sinfə girərdi.

Gördüm düz deyirlər. O gündən düz bir il ötüb. Bir il...

Gecə kartof soymağa getdik. Mixaylovski mənimlə düşüb. Gecə üçün yarısında qurtarıb gəldik...

28.01.1971. ***IV gün.***

Klubda yığıncaq oldu. Sonra “razvod”.Yaman soyuq idi.

Starşina yenə mənə iş tapşırdı. “Veçerni pro- verka” kitabını işlədim. Yenə ad, familiyalar...

Bu gün “pioner”i tanıdığım ilk gündən düz 450 gün keçib...

29.01.1971. ***V gün.***

Bu gün də “razvod” qurtaran kimi starşina məni çağırdı. Yenə işə gedəsi olmadım. “Len- komnata”ya “Naşi budni” sözlərini rəngli böyük şriftlərlə yazdım. Altından iş yerində, iclasda və s... fərqlənən uşaqların fotoşəkillərini asdıq. Mənim öz şəklim də vardı “politzanyatiya” ge- dən yerdə düşmüşdüm.

Gecə “naryadçik”lər işləməyə çıxanda serjant Başa Sahib Əkbərovu vurdu. Dalınca “dejurnu” da Sahibi yumruqladı. Sahib də qayıdıb “dejurnu”nu vurdu. Ruslar

birləşib, Sahibi bərk döydülər. Sahibin ürəyi getdi. Düz 40-50 dəqiqə onun gözləri açılmadı. Deyəsən, tülkülük elə- yirdi, çünki rəngi üstünə gəlmişdi. Ruslar yığışıb, bizi ona kömək etməyə qoymurdular ki, tünlük olmasın, mayor Dyakiv bilməsin...

Rusların birləşib, Sahibi döymələri yenə mə-nə pis təsir etdiyindən gecə yata bilmirdim.

Salam Qədirzadənin "Qış gecəsi" kitabını oxuyuram.

30.01.1971. ***VI gün***

"Politzaniyatiya"da söz davadan düşdü. Rus- lar dedilər:

- Babayev Çingizi döydü, "naryad" da almadı.

Bryusov mənə deyəndə ki, düz iki ay gecələr işləyəcəksən, ayağa durub dedim:

- Uşno məni arxadan vuranda, Trafimov, serjant Başa Sahibi vuranda niyə ruslar iki ay işləmədi?

Dinmədilər...

“Stroyevoy şaq”dan təlim oldu. Əla addımla- dım. Mənə “blaqodarnost” elan etdilər.

Axşam da “dnevalnı” qoydular. Hirsimdən bil- mirdim neyləyəm. İstirahət günü də “dnevalnı” durarlar? Savelyevi öyrətdim. Serjant Dolqiyerə dedi ki, Babayev şəkil çəkəcək. Qanımı satın aldı.

Serjant Denisenko kinoya gedəndə ona 35 qəpik verdim. Özümdə cəmi 40 qəpik qaldı.

Axşam kinosu da tərslikdən pullu oldu. Uşaq- lar getdi. Mənim pulum çatmadığı üçün gedə bilmədim. Çox pis oldum. Ancaq heç kimdən pul istəmədim.

Hamamda Savelyev, mən, Ələkbər axırıncı çimdik. Kazarmada cəmi 8-9 nəfər pulsuzlar qalmışdı. Hamı kinoda idi.

Sapoqlarımı yudum. “Umıvalnik”ə atılmış, işlənmiş bir britva ilə üzümü qırxdım.

Gecə pulsuz film verdilər. “Zolotoy zub”... ya- rıda yatdım.

Dəlləkxanada da borca pulsuz saçımı qırx- dırdım...

31.01.1971, Bazar gunu.

Bu gün məktub gəlmədi.

İki seriyalı hind filmi vardı. Kinoya getməyə 70 qəpiyim olmadı.

Kartof soymağa getdik. Şahmarla Cəfər da- laşdı. Cəfər kartof bıçaqı ilə Şahmarı vurdu. Şahmar da onu bərk döydü. Cəfərin ürəyi getdi. Onu "sançast"a apardılar. Şahmarın qarnına baxdıq, kartof bıçağı ona girməmişdi. 700 kq kartofu bu dəfə keflə soyduq.

Yağ bükülən kağızda Səbuhinin anası mənə məktub yazmışdı. Cavab yazmadım. Öskürür- düm. Boğazım gəlib...

01.02.1971. ***I gün***

06:00-da durduq. Tualet, idman, "zapravka-tualet", "zavtrak", "razvod", sonra işə getdik.

Rezniçenko, Vakulenko, Qalko, Vasilyev, Uşno, Klimenko Bazov və mən, bir də serjant Denisenko.

10, 12 ədəd qırmızı kərpici üst-üstə yığıb da- şıyırdım. Axırda özləri dedi ki, az işlə. Podpol- kovnik Bezlepkin də gördü.

Axşam “naryadçik”lər çıxanda mən çıxmadım. Şostak dedi:

- Babayevin “naryad”ı yoxdur?

Serjant Denisenko irəli durub ona “kəs səsi- ni!” – dedi və məni aparıb öz rus uşaqlarının yanında cərgəyə qoydu. Bu gün təmiz, vicdanla işlədiyimin gecə bəhrəsini gördüm.

02.02.1971. II gün

Bərk soyuq idi. İşə getdik. Xeyli daş, sement, qum daşıdım. Yorulmuşdum. Boğazım bərk ağrıyırdı.

Starşina günorta yeməyindən sonra məni ka- zarmada saxladı. “KPP”-yə növbətçi qoydular. Maşınlar gələndə sənədlərini yoxlayıb, şlaqba- umu qaldıraraq onları qarnizonun həyətinə bu- raxıram...

İşlədikcə özümü “Ştirlisə” bənzədirdim. Gü- nüm sakit keçdi.

Gecə “naryadçik”lərə məni “starşı” qoydular. Gündüzdən gələn məktubu oxuyub nədənsə Səbuhi axşam ağladı. Ona yatmağa icazə ver- dim.

20 yaş...

03.02.1971. III gün

Bu gün 20 yaşım tamam oldu. Mən özümə heç vaxt ad günü keçirməmişəm.

Anadan olanda, ya körpə olanda valideyinlə- rim bəlkədə keçirib. Yadımda olan vaxtlardan üzübəri isə olmayıb. Bu gün də belə oldu. Mə-nim Sovet pasportumda anadan olduğum gün 21 noyabr 1951-ci il qeyd olunub. Ancaq doğul-duğum gün bu gündür. Eşitdiyimə görə doğum haqqında şəhadətnaməni mənə gec alıblar və elə o vaxtdan da doğum tarixi səhv düşüb. Odur ki, kazarmada bu gün ad günümün olduğunu bilmədilər. Və məni təbrik edən də olmadı. Əsgər yoldaşlarımdan da gizlətdim. Nə mənası vardı. Onsuz da heç kimdə pul yox idi.

Öz-özümə bütün günü düşündüm. Mən bu ötən 20 ildə nə etmişəm? Baxça, orta məktəb, institut illəri və indi də əsgərlik həyatı. Vəssalam. Yox biri də var. Moskvaya dostum Aydınla ge- dəndə ömrümdə ilk dəfə təyyarəyə minməyim. O vaxt futbola baxmaqdan çox Lev Yaşini, irlan- diyalı uzun saçlı Corc Besti canlı görməyə get-mişdik. Lev Yaşinin sonuncu vida oyunu idi. Onu görə bildik. Ancaq Best oyuna gəlmədi. Stadionda elan elədilər ki, komanda gəlib, an- caq başqa ölkədə olan Corc Best

güclü duman olduğundan təyyarəsi uça bilmədiyi üçün gəl- məyib.

Bu gün hava yaxşı idi. Çovğun yoxuydu. Göy üzü açılmışdı. Tariyeldən məktub aldım. Yenə havadan başqa heç nə yazmayıb. Lap hirslən- dim.

Gi de Mopassanın novellalarından bir xeyli oxudum...

04.02.1971. IV gün

Bu gün dünənkinin əksinə çox şaxtalı hava vardı. Çovğun qarı süpürürdü. Vıyıltı səsi aləmi başına götürmüşdü. Əlavə bir şalvar da verdilər. İki şalvarda yenə qılçalarım üşüyürdü. "Polik- linika" deyilən tikintidə işlədik.

Gecə də birin yarısına qədər kartof soyduq.

05.02.1971. V gün

Səhər nəsə yuxudan pis oyandım. Sağ aya- ğımın dabanı suluq atıb, sapoq oranı döydük- cə az qalır huşum

başımdan çıxa. İt zülümü çə- kə-çəkə ruslarla işə getdim. Denisenko bu gün yox idi.

Poçt gəldi. Bu gün mənə Tahir Gürcüstandan 16-cı məktubunu, Özbəkistanın Buxara şəhərin- dən Süleyman isə 14-cü məktubunu yazmışdı. Mingəçevirdən, sosialist Bolqariyası küçəsində yaşayan orta məktəb dostum Ərəstundan da 4-cü məktub almışdım. Məktubları oxuyub sonra düz 10 nəfərə cavab yazdım.

Ayağımın suluğunu deşdim. İçindən çirk gəldi. Bir az rahatlaşdım. "Tumboçka"mda "konvert" qurtardı. Kağız da qurtarmaq üzrədir. Pulum yoxdur. Dilxorçuluqdur...

06.02.1971.VI gün

Növbəti məşğələləri keçdik.

12 qəpiyə "ruçka"ma bir xeyli "zapas" aldım. Qaldı cəmisi 10 qəpiyim.

Rusların konsertində olduq.

Matisakov hauptvaxtdan gəlib. Yazıq ya- man arıqlayıb.

Bu gün hərbi xidmətimin iki ayı tamam oldu. Uşaqlar remenlərində ikinci deşiyi açdılar.

İki ay əvvəl Yasamaldakı evimizdə olduğumu xatırladım. Bacım Yeganəni qucaqlayıb öpdü- yümü, atamın-anamın məni yola salmaqlarını... Cəmi iki ay keçib. Ancaq elə uzun görünür...

Bu gün ümumi gələn məktubların sayı 99 oldu. Görək yüzüncü məktub kimdən gələcək.

07.02.1971, ***Bazar günü***

Bu gün xarratları işləməyə apardılar.

İstirahət günüydü. Şahmat, şaşki birinciliyi keçirildi. Şaşki yarışının finalında Kələntərova uduzub 2-ci yeri tutdum. Şahmatda isə üçüncü oyunu uduzub kənarda qaldım.

Dünən bacım Yeganəni yadıma salmışdım. Bu gün yüzüncü məktub ondan gəldi. İçindən üç manat pul çıxdı. Pulları görəndə elə se-vindim. Üçü də təklik idi. Yaxşı ki, zərfi çöldə gün işığına tutub, içində pul olduğunu görmə-yiblər. Həm də bu gün bəxtimdən gün də çıx-mamışdı. Yoxsa məktubu aradan çıxarardılar.

Gecə “iş” paltarlarını geyindik. Yoxlama keçi- rildi. Mənim paltarımın emblemasını oğurla- mışdılar. Odur ki

“naryad” verdilər. Mənim gü- nahım nəydi, onlara başa sala bilmədim. “Pol” yudum, özü də “proxod”u.

08.02.1971. ***I gün***

İşdə ocaq qalamışdıq. Bərk külək əsirdi. Qar da yağırdı. Yaman üşüyür, lap titrəyirdim.Ocaq- dan aralana bilmirdim. Külək, ocaq və cəmisi 7 nəfər. Bura yan-yörəsi şumluq olan bir düzənlik yer idi. Nazimgili işləməyə başqa yerə apar- mışdılar. Biz işlədiyimiz yerdə başqa adam yoxuydu. Ruslarla yemək vaxtına az qalmış ocaqdan aralanıb bərk işlədik. Titrəməyim, üşü- məyim keçdi. Elə ruslarla da bir stolda oturub yemək yedim.

Gecənin yarısı yuxudan ayıldım. Artıq 8-ci dəfəydi ki, yuxuda ağ eynəkli qızla yatır, lap filmlərdəki kimi onunla qucaqlaşır, öpüşürdüm. Ayılanda çox peşiman olurdum. Əlimi sürtüb, gördüm kley kimi o maye ağ tumana da keçib. Barmaqlarım batdı... Yenə belimizə vurulan iy-nəni xatırladım.

09.02.1971. ***II gün***

Bu gün yer, göy qar idi. İşə gedəndə hamı papaqların qulaqlarını da salmışdı. Külək necə səs salmışdısa necə uğuldayırdısa adamı üşü- dürdü. Qar, duman kimi, topayla burulur, külək isə səs-küylə düzənliklər tərəfə sovururdu.

İş yerində bir dəqiqə də dayanmaq olmurdu. Üzüm, çənəm, burnum donmuşdu. Əllərim əl- cəkdə kəsilirdi. Söz verdilər ki, sabahdan valin-kaları paylayacaqlar. Həm də qalın, pambıq-dan sırıxlı isti şalvarlar verəcəklər. "Partyan-ka"lar sapoqda şaxtanı saxlaya bilmirdi. Ayaq barmaqlarım soyuqdan keyimişdi. İşləyəndə, hərəkətdə olanda keyi açılır, göynəyirdi. Gör indi Sibirdə hərbi xidmətdə olanlar nə çəkir...

Axşam kazarmaya gedəndə soyuq adamın lap iliyinə işləyirdi. Don vurmamaq üçün bütün rotanı qaça-qaça apardılar. Hamı qaçdıqca isinir, qızışır, kefləri açılır, zarafatlaşırdılar.

Bəxtiyar Vahabzadənin "Köklər, budaqlar" şe-ir kitabını oxuyuram...

10.02.1971. III gün

Valinka və qalın pambıq, sırıxlı şalvarları paylayanda starşina:

- Sibirdə qulluq edənlər geyinir bunu, –deyib gözünün ikisini də birdən qırpdı.

Başa düşdüm, şirinlik məsələsi idi. “Razvod”- da demək olar ki, üşümədim.

Heyvərə Mürşüd də bizimlə işləməyə getdi. Tikdiyimiz binanın üstünə kran 5 ədəd beton “nastil” qoydu ki, yeni mərtəbə üçün “front” açılsın. Kran işləyəndə vaxtımızı ocağın kəna- rında keçirdik. Mürşüdün başı 10-13 kiloqramlıq qarpıza oxşayırdı. Yumru sifətində qıpqırmızı yanaqları vardı. Ancaq onun üzünü yumru göz- lərinin altına qədər cod, sıx qara tüklər elə basmışdı ki, bu qırmızı sifət uzaqdan qapqara görünürdü. O, üzünü qırxanda britvanı nə qə- dər gözünə yaxınlaşdırıb qırxsa da, tükün bir hissəsi qalırdı. Mürşüd ortaboylu, cantaraq bir oğlan idi. Yanaqlarının qırmızısı onun Azərbay- canın ən saf təbiəti olan Laçının dağlarında doğulub boya-başa çatmasından xəbər verirdi.

O, Mirik kənd sovetliyinin Quşçu kəndindən idi. İçdiyi dağ bulaq suları, aldığı gül-çiçək, gül qoxulu dağ havası onu ürəkli, xasiyyətini isə mindiyi eşşəklərdən götürmüşdü. Çox qalınqa- bırğa oğlan idi, sözdən sınmazdı. Ocağın istisi vurduqca Mürşüd xumarlanırdı. Onu dümsük- ləyib soruşdum:

- Dağlarda qoyub gəldiyin “bir şey” var?

- Niyə yoxdu? Bir eşşəyim var, bəlkə də do- ğub. Mən gələndə boğazıydı, – dedi.

-Məni başa düşmədin, – deyib, onun gözləri- nə baxdım, gülümsədim, göz vurdum, yenə başa düşmədi. Maddım-maddım üzümə baxırdı. Axırı səbrim çatmadı:

-Gözləyənin, sevdiyin biri var? – soruşdum.

- Mənim nə yaşımdı? – dedi.

Kürəyimi “maroz” aparırdı. Ayağa durub saatı soruşdum. Yemək vaxtı idi. Yeməkdən qayıdan- da Mürşüd ruslarla tək getdi. Məni “dnevalnı” qoymuşdular. Hazırlaşmalı idim.

Poçt gəldi. Tahirdən və atamdan məktub al- dım. Atamın məktubunu birinci açdım. Vərəq- lərin arasından beş ədəd qırmızı onluq çıxdı. Cəmi on qəpik pulum qalmışdı. Sevindiyimdən məktubu bağrıma basıb dönə-dönə öpdüm. Tez onluqları cibimdə gizlətdim. Serjantlardan biri görsəydi, o birilərə də xəbərləyib gündə min bir bəhanə ilə pul istəyəcəkdilər.

Versəm, dadanacaq, verməsəm, qiyamət qo- pacaqdı.

Pulu gizlədib rahatlaşandan sonra Tahirin məktubunu açdım. Gözlərimə inanmadım. Tahir kağıza gümüşü

rənglə mənim və rayonda qo- yub gəldiyim pioner qızın adlarını yazıb bəzə-miş və altından məhəbbətlə bağlı gözəl bir şeir yazmışdı.

Gözlərinə göl dedim,

Çəkib məni apardı.

Çaşıb dəniz deməydim,

Əbədilik batardım.

Bizim adlarımızın gümüşü rəngli fonunda bu bir kuplet şeir çox romantik görünürdü. Şeir ya-zılan hissə altdan sarı karandaş tozuyla rəng-lənmişdi. Bu bir parça kağız atamın onluqları qədər şirin oldu! Məktubu "tumboçka"dakı mək-tublara qatmadım. İndi cibimdə iki məktub vardı. Biri "pioner qızın" yazdığı, biri də bu...

Mürşüd axşam işdən gələndə, mən qapıda "dejurnu po rote" "povyastka"sı qolumda, "dne- valnı" dayanmışdım. Onun dodağı qan içindəydi. Ruslar yığışıb, cüssəli olduğu üçün onu imtahan eləyiblər. Rus dilini bilmədiyi üçün rusları başa düşməyib. Bir-ikisini Mürşüd vurub. Onlar da tö- külüb, bunu döyüblər. Son vaxtlar ruslar bizim uşaqları orda-burda təkləyir, incidir, döyürlər...

Axşam uşaqları kartof soymağa apardılar.

Bu gecə də Mürşüdə qarşı olan haqsızlıqdan yata bilmirdim.

Ziyəddin Göyüşovun “Həzz və iztirab” kitabı- nı oxuyuram...

11.02.1971. IV gün

Səhər “padyom”u veriləndə yuxu məni öldü- rürdü. Soyuq havada, şaxta-boranda, çovğunun qorxunc, vahiməli vıyıltısında isti yerdə yat- maqdan yaxşı nə ola bilər? Onda qala həm də gecəni yatmamış olasan. Belə çovğunu, şaxtanı, qarı, boranı mən ancaq filmlərdə görmüşdüm. Bircə burada, filmlərdə sürüylə dolaşan ac- ya-lavac canavarlar, çaqqallar və bir də ağ ayı çat-mırdı.

Uşaqlar səhər “zaryadka”sında olanda, star- şina Bandısik gəlib çıxdı. “Dolojit” elədim ki, ge- cə heç bir hadisə baş verməyib. Salamatçılıqdı.

Özbəkistandan məktub aldım. Süleyman məktubun içərisinə iki ədəd də xarici lezva qoymuşdu. Oturub qohum-qonşuya bir xeyli məktub yazdım.

Axşam “Unier”ə “razvod”a gedəndə soyuq mənim nəfəsimi kəsdi.

12.02.1971, IV gün.

Səhər üzümü yudum. Qurulaya bilmədim. “Zaqatovka”ya gecikirdim. Qaça-qaça getdim. Su damcıları üzümdə donurdu...

Dünən gecə bu günə qədər aldığım məktubların 112-dən 109-nun üzünü ağla tikib Bərdəyə “ban- derol” elədim. Cəmi üç məktub saxladım. 70, 95, 110 nömrəli məktubları.

Pioner qıza 8 nömrəli məktubumu yazanda, zərfin içərisinə Tahirin mənə göndərdiyi gümüşü rəngli kağız olan məktubu və aşağıdakı şeiri də əlavə elədim:

Sənə həsrətəm, gülüm,

Nə qədər uzaqdayam!

Mənə belə gəlir ki,

Sizin güllü bağdayam.

Gül üstə, budaq üstə,

Gözlərini görürəm

Baxçada torpaq üstə,

İzlərini görürəm.

Yenə büllur sinəndə

Hörüklər dalğalanır.

Yenə gözlərin gülür,

Yenə yanağın yanır.

Yetişmir əlim sənə,

Ürəyimlə dardayam.

Əllərini ver mənə,

Yaman intizardayam.

Bu gün işə getdim. Binanın üstü beton “nastil”lərlə tam örtülmüşdü. Arxa hissədən pil- ləkən də qoyulmuşdu.

Serjant Denisenko «dejurnu po kuxne» oldu- ğu üçün gəlməmişdi. Özümüz cərgəsiz gəlmiş- dik.

İki tonqal qaladıq. Sonra taxta gətirib uzan- maq üçün qarın üstünə qoydum. Tonqalın istisində, sonra da ocağın tüstüsündə uzanıb, gözlərimi yumub vaxt öldürürdüm. Vakulenko, mən və Qalko podpolkovnik Bezlepkinin səsinə dik ayağa qalxdıq. O çərənləyib gedəndən son- ra yenə yerimizi rahatladıq, yenə uzandım. Qalko ocağa taxta əlavə elədi. Bu gün demək olar işləmədik.

Klimenko Mürşüdlə güləşmək istədi. Mürşüd qorxdu, onunku eşşəkdi. Minə, yükləyə, qova, doğuzdura, yeri düşəndə də o məsələ... Özüm soyundum. Üç dəfə güləşdik. 2:1 hesabı ilə qalib gəldim! Mürşüd məni qucaqlayıb öpdü. Qalko və Vakulenko da məni təbrik elədi. Kli- menko özü də!

Axşam “starik”lərlə “plotnik”lər kartof soy- mağa, Ardjimanovun dəstəsi işə, içi mən qarışıq qalan 15 nəfər isə “pol” yuduq.

13.02.1971, VI gün.

Bu gün hava soyuqdur. Getdikcə şaxta şid- dətlənirdi.

Yeməkdən dərhal sonra serjant Denisenko məni “zaqatovka”ya apardı. Çoxlu donuz əti da-şıdım. Soyuqdan kəsilirdim.

«Politzaniyatiya»da yoxlama gəlmişdi, gələn polkovnik Arnaut idi. Bizim podpolkovnik Bez- lepkin hərbi qaydada ona “dolojit” elədi. Bu vaxt kazarmanın çölündə və içində hamı “smirna” durdu.

Yeməkdən sonra hamını iməclik adıyla biz işlədiyimiz yerə apardılar. İki saatdan çox ağır ağ kərpic daşıdıq. Şaxta 2 dəfə güclənsə də canımız işləməkdən qızışmışdı. Kazarmaya gəl- dik.

Hamam, sonra da kino...

14.02.1971, Bazar gunu.

Saat 10:00-da iclas oldu. Sonra kinoya getdik. Yatdım. Heç nədən xəbərim olmayıb. Axşam- tərəfi yenə kino. Yenə yatdım.

Gecə Mürşüd, mən və Vasilyevi “Unier”i yu- mağa göndərdilər.

Pioner qızdan xeyli vaxtdır, məktub gəlmir. Ancaq hər gün gözləyirəm.

O ağ eynəkli rus qızı da mağazada görsən-mir. Xeyli də pulum var. Gəlsəydi, gedib bir paç-ka o, çəkən siqaretdən almaq fikrim vardı.

Rəfiq Zəkanın “Əbədi saniyə” şeirlər kitabını oxuyuram...

15.02.1971, I gün.

İşim yeməyə qədər pis keçmədi.

Elə gözəl gün çıxmışdı, o günkü şaxtadan əsər-əlamət qalmamışdı.

Uşaqlar işləyən obyektdən 300 ədəd ağ kər- pici bir “samosval Zil” maşınının kuzovuna yığıb biz işlədiyimiz yerə gətirdik. Onu da deyim ki, bu ağır ağ kərpiclər

qırmızı kərpiclərdən 3 dəfə ağır olur. Bu işi cəmisi bir saata gördük. Tər- ləmişdim. Yerin qarı da əriyib valinkamı su eləmişdi.

Yeməkdən sonra kazarmada valinkalarımı çı-xarıb, sapoqlarımı geyindim. Gün çıxması mə-nim kefimi açmışdı. Uşaqlardan gizlin saxla-dığım, atamın "konvert"də göndərdiyi onluqları çıxarıb, kəlbəcərli Sahibə görsətdim. Az keçmiş xəbər İldırım sürətiylə kazarmaya yayıldı.

Məktublar paylanır, vaxt uçurdu. Tələsirdim. Əsgərlər üstümə tökülüşdü. Şirinlilk, borc istə- yənlər bir-birini itələyib qabağa keçirdilər. Onlu-ğun birini xırdalamışdım. Xülasə, Muxtara, Şah-mara, Ardjimanova bir manat, Matisakov və Sə-buhiyə üç manat, Mürşüdə, Nazim Əsədova və Rezniçenkoya 50 qəpik verdim.

Üç məktub və bir "pasılka" gəldi mənə.

İlk "pasılka" idi!

Sevincimdən bilmirdim neyliyəm. Uşaqların çoxu yenidən məni dövrəyə almışdı. Ardjima- novla gedib "pasılka"nı aldım. Salyanlı Adil, Kə-ləntərov, Ələkbər də özlərini ölü yetirdi. "Pasıl-ka" sözün əsl mənasında parçalandı. Corablarla xarici lezvaları götürə bildim. Yerdə qalan "şari-kovoy" "ruçka"lardan tutmuş yeməli

ərzaqlara qədər hamısını qamarladılar. Heç bir dənə də olsun yeməli şey götürə bilmədim...

16.02.1971, ***II gün.***

İşə sapoqlarla getdim. Hava soyuq olsa da, qarın altı palçıq idi. Odur ki, valinkaları çıxar- mışdım. Sapoqda isə ayaqlarım bərk üşüyürdü.

Bu gün də o "kərgədan kolxidalar" gəldi. İkisi birdən! Yenə durna qatarı düzüldü...

Bütün kərpicləri binanın üstünə yığdıq. Kər- pic həngaməsi qurtarandan sonra bir köhnə "Zil" maşınının gətirdiyi "rastvoru" təkbaşına su ilə qarışdırıb vedrələrə yığdım, Mürşüd də kən- dirlə yuxarı çəkdi. Eləcə qan tərə batmışdım. Qollarım tamam gücdən düşmüşdü. "Rastvor" şaxtadan donurdu. Odur ki, dayana bilmir, bir nəfəsə su qatıb, donu açır, vedrəyə yığıb yuxarı verirdim. Mürşüd də bir maşın betonu dayan- madan yuxarı dartdığı üçün kobud, cod, qara tüklü əlləri suluq atmışdı. Bu eşşək qovmaq mə-sələsi deyildi, qüdrətli Sovet İttifaqının hərbi tap-şırığı idi...

Axşam kartof soymağa getdik. Muxtarla cəld kartofların irilərindən bir baçoq yığıb soyduq. Tofiq Məhərrəmovun

da iri kartoflarını oğurladıq. Gecə yatdığımız yerdə bizi durquzdular ki, düz üç baçok soyulmamış kartof qalıb. Nə qədər elədilər getmədim. Səhər döşəmə yuyacam, deyəsən...

Cəhənnəm!

Ağırlıqdan kirpiklərim sallanırdı...

17.02.1971, ***III gün.***

Qrafiklə "suşilka"nı yumaq növbəm idi. Yu- dum da...

İşə getdik. Yenə valinkaları geyinə bilmədim. Şaxta olmadığı üçün dizə qədər olan qarın altı palçıq idi. Valinka da yalnız quru havada şaxta üçündür. Sibir tərəflərə bu valinkalar ona görə yaraşır...

Sapoqlarda idim. Bərk külək əsirdi. Ayaqla- rım üşüyürdü. Yeni "nastil" döşənmiş birinci mərtəbənin üstünə çıxdım. Bütün günü vedrədə kəndirlə yuxarıya "rastvor" çəkdim. Fotoqraf Levçenko gəldi.. 30 qəpik rüşvət verib, elə ved- rədə "rastvor" çəkə-çəkə şəklimi çəkdirdim.

Tahirdən məktub aldım. Fevralın 23-ü kişilə- rin bayramıdır. Tahir yenə fonunu gümüşü rəng- lə boyadığı vərəqə «Tofiq, Aydın, Tahir», «23.02.1971» sözlərini yazmışdı.

Serjant Denisenko yeməkdən sonra işə getmədi. Nəzarət yox idi. Mürşüdlə uzanıb ötən illər barədə xeyli dərdləşdik. Soyuqda ocağın istisi vurduqca adama ləzzət eləyirdi.

Söhbəti çayxanada, evdə, küçədə nə bilim daha harada eləmək boş şeydir. Söhbət ya- raşır çovğunda, boranda, qarda, qiyamətdə həm də qürbətdə eləyəsən, özü də isti ocağın başında.

Çayxananınkı qeybətdi...

Hər gün yüz qram semiçka halvası və konfet alıb işə gətirirəm. Acanda yeyirəm. Xırdalanan on manatım qurtarmaq üzrədir...

“Pasılka” göndərmək üçün ağ parça lazımdır. Mağazada isə ağ parça yoxdu. Bu gün də ol- madı. Nədənsə o qız da işə gəlmir. Mağaza on- suz yetim görünürdü...

Molla Nəsrəddin lətifələrindən xeyli oxudum.

18.02.1971, IV gün.

Podpolkovnik Bezlepkin səhər «politzanyati- ya»sını özü keçirdi.

İşə getdik. Yenə soyuq, külək, palçıq və dizə qədər qalaqlanmış çirkli qar...

Dörd nəfər ikinci mərtəbəni hörürdü. Mürşüd aşağıdan "rastvor"u orta ölçülü boçkaya yığır, mən yuxarı çəkirdim. Bir maşın "rastvor"u fasi-ləsiz yuxarı çəkdim.

Düz üç dəfə kəndir dözmədi, qırıldı! Ancaq işlədik dözdük. Bax, sovet hökumətinin qüdrə- tinə! Yıxmaq olar belə ölkəni?

Günortadan sonra külək və yağış başladı. Yağış əvvəl seyrək idi, çisəngiliyirdi. Nə qədər elədik, ocaq qalaya bilmədik. Külək və yağış söndürürdü. Axırda binanın içinə keçib ocağı orada qaladıq. Yağış getdikcə gücləndi. Beton nastillərin arasından içəriyə su tökülürdü.

Ocaq yana-yana, içəri çöldən soyuq idi.

Yeni tikilmiş, suvaqsız otaq tamam nəm, həddən artıq soyuq, pəncərəsi olmadığı üçün "skvaznyak" da bir tərəfdən...

Kəndir üç dəfə qırılanda məni Allah saxladı. Qarlı, sürüşkən “nastil”lərin üstündən sürüşüb aşa bilərdim.

Birdə ki, lap aşaydım, öləydim, Vətən sağ ol-sun təki, mən indi Vətən qorumağa gəlmişəm, ya canımı? Gördüm ki, nə qədər fırlatsam da, günahkaram, torpağımızı düşmən gəlib apar-sın? Beton da dart, kərpic də boşalt, canın çıx-sın lap öl də...

Yaxşı ki, ayağımın altındakı sürüşkən yerə qum səpmişdim.

Axşam uşaqların çoxunu üçüncü “smen” iş-lətməyə apardılar. Tez-tez:

-Səhərə “front” açılmalıdı, – deyirdilər.

Həm də nədənsə, uşaqlar da gecə işləmə- lərinə sevinirdi. Onlar işdən qayıdanda səhər saat 05:00 idi.

Bir neçə məktub yazdım. Nəcəfə, Süleymana, Səmədə...

Yardımlıdan olan tələbə dostum Yasər yadı- ma düşdü. Gecə yarı durub birini də ona yaz- dım.

19.02.1971, V gün.

Bu gün “sançast”a getdim. Ayağımı üç yer- dən sarıdılar və işdən azad elədilər. Sevindim. Kazarmaya gəlib əvvəl yatdım.

11:30-da yuxudan durdum. Gecəni işləyən uşaqlar hələ də yatırdı. Üzümü qırxdım. Sabun- la yaxşı-yaxşı yuyundum çox təravətliydim... Zeynəbdən və Cavanşirdən məktub aldım.

Günortadan sonra gecə növbəsi də qarışıq hamı işə getdi.

Leytenant Bryusov məni yanına çağırıb və- ziyyətimlə, ayağımla maraqlandı:

-Bığ sənə yaraşır: – dedi. - Sən oxumusan. Sən ağsaqqallıq eləməlisən bu uşaqlara və s... O ağsaqqal sözünü “Aksakkal” kimi tələffüz elədi.

Xeyli tərifdən sonra qayıtdı ki, Səbuhi deyir, sən imkanlı oğlansan. Mənə çox vacib otuz manat pul lazımdır. Qaytaracam, sözsüz...

Əclaf Səbuhi!

Komandirimin dediklərinin arxasına qulaq asmadım. Kişi kimi otuz manatı sayıb verdim. Qaldı cəmi on manatım.

Leytenant Bryusovun yanından çıxıb “Len- komnata”ya gəldim. Kövrəlib pioner qıza bir məktub yazdım. Vərəqin bir üzünü yazıb dol- durdum. O biri üzünü ağ saxladım və xahiş etdim ki, o da bu ağ tərəfi yazıb doldursun və beləcə də mənə göndərsin.

Əbədi saxlamaq üçün.

Üstünü də gözəl markalarla bəzədim. Bu gün onu sevdiyimin 471-ci günü idi.

Məktubu etibar eləyib bel bağladığım qarda- şım Vidadiyə yazdığım məktubun içinə qoyub yola saldım. Vidadiyə də yazdım ki, pioner qızın dərs yazdığı dəftərindən mənə bir neçə vərəq cırıb göndərsin. Həm necə oxuduğunu, həm də məktubdakı xəttinin onunku olmasını dəqiq -ləşdirmək üçün...

Mağazaya getdim. Ağ parça gəlmişdi. O qız isə yenə yoxuydu. Özümü toparlayıb, satıcı kişi- dən o ağ eynəkli qızı soruşdum.

- Ərə gedib, – dedi.

- Ərə gedib?- qorxdum.

Çölə çıxanda qulaqlarım əvvəl isindi, sonra tutuldu, elə bil havada uçurdum...

Anam “pasılka” göndərmişdi. Hamısı kitab idi...

20.02.1971, VI gün.

Səhər yenə “sançast”a getdim. Ayağımı yod- layıb xeyli yerdən sarıdılar. “Osvobojdeniya” isə vermədilər.

Dar Sapoq ayağımı döyə-döyə işə gedəsi ol- dum. Soyuq, dar sapoq, yara məni cana gətirdi. Mişa ilə kərpicfason şeyləri doğradıq...

Yeməkdən sonra sapoqlarımı çıxarıb dedim ki, işə getmirəm. Ya başqa sapoq verin, ya da getməyəcəyəm! Çox çək-çevirdən, söz-söhbət-dən sonra onlar da: “Radi boqa, radi boqa” sa-poq yoxdur dedilər! Naəlac qalıb:

- Vətən dardadırsa, eybi yoxdur, ölsəm də, dözərəm, – dedim.

Sapoq vermədilər. Mən də işə getmədim.

Nə “radi boqa” keçdi, nə də vətən...

Pulum olanda ağ eynəkli qıza tamaşa elə- mək xətrinə “Voyentorq”dan düşdükcə bəzi şey- lər almışdım. Bərdədə tapılmayan gözəl marka, gözəl “znaçok”lar və s... Onları ağa büküb, evə banderol elədim. Banderol eləmək bir manat tutduğu halda məndən iki manat istədilər.

Deyəsən məndə pul olduğunu bütün qarni- zon eşitmişdi. Aleksandrov da yaxınlaşıb, müti bir şəkildə, arıq, uzun boynunu büküb, elə poç- tun içində acizanə formada bir barmağını gös- tərib, bir manat istədi.

- “Esli mojna”, – dedi.

Verdim. 50 manatdan cəmi altı manatım qal- dı.

Poçt gəldi. Yalnız qəzet, jurnal idi. Bu gün ümumiyyətlə heç kimə məktub gəlməmişdi.

Gecə kefim kök idi.

“Starik”lər kartof soymağa getmişdilər. Könül- lü olaraq starşinaya dedim ki, “pol” yumaq istə- yirəm. Bandısik qolunu “proxod”a tərəf uzadıb:

- “Pojalyusta”, – dedi.

Və sonra da əlavə elədi ki, iyirmi ildir xid- mətdədir, birinci dəfədir könüllü “pol” yuyan gö- rür. Bu gün axşam yeməyinə də getməmişdim. “Pol”u necə yudumsa, alışıb-yanırdı. Görənin ağzı açıla qalırdı...

Aqillər yaxşı deyiblər ki, dəlilikdən ağıllılığa bir addımdır...

Şamonun “Ayrılıq” kitabını oxuyuram...

21.02.1971, ***Bazar günü.***

Bu gün də təzə sapoq vermədilər. Mən də acıqla yenə işə getmədim. İstirahət günü olma- sına baxmayaraq SSRİ hərbi qanunlarını poza- raq uşaqları işə apardılar.

Bibimin əri Çərkəzdən məktub aldım. Bəlkə də bu onun ömründə yazdığı ilk məktub idi. Ya-zıb ki, qızı Gülxar pioner qızla görüşüb, söhbət eləyib. Pioner deyib ki, məktubu sən gətir. Qar-daşı Vidadi gətirib qoyur çantama, kənardan görürlər. Utanıram.

Məktubu oxuyub sevindim. Pionerin bu fikrini bəyəndim də.

Günortadan sonra Jebrovun rezin sapoqları- nı mənə verdilər ki, yenisi gələnə qədər hələlik bunu geyin. İçi isti, rezin sapoqlar idi. Hərdən kompromisə getmək yaxşı şeydir. Razılaşdım.

İstirahət günü olduğu üçün, həm də iş yerin- də iməclik olduğuna görə getdim işə.

Pis keçmədi. “Uborka”nı zarafatlaşa-zarafat-laşa elədik. Axşam 18:00-da artıq kazarmada idik. Xəbər gəldi ki, Telmanın ağzını bir “starik” dağıdıb. Adillə Çingiz də Telmanın üstündən gəlib, rusa bir-ikisini vurublar. Ancaq ağdamlı Telmanın dodaqları partlamışdı. Qan idi. Ortada olan buydu.

Leytenant Bryusov eşidib özünü yetirdi. İclas çağırdı. Gələcəkdə belə işlərin qarşısını almaq üçün çox nəsihətlər verdi, hədə-qorxu gəldi və misallar çəkdi. Rus “starik”lərini qorxa-qorxa ol-sa da danladı...

Denisenkoya 73 qəpik verdim. Bircə göy beş- liyim qaldı. Çəkdirdiyim fotoşəkli də hələ fotoq- rafdan almamışam...

22.02.1971, I gün.

Yenə də məşğələlər başladı. Düz altı saat dərs keçdilər.

Afişa yazası oldum. Böyük hərflərlə. Kazar- manın içərisindən, divardan asdılar.

«Da zdravstvuet 53-ya qodovşina Sovetskoy armii i morskoqo flota»

Çox qəşəng çıxmışdı. Hamı bəyəndi.

Saat 16:00-da “Brilyant əl” filmini göstərdilər. Gecə də konsert oldu. Konsertdə çoxlu qızlar da vardı. Əsgər uşaqların çoxu yatmışdı. Hey- vərə Mürşüd xoruldayırdı. Konsert boyu onu yeddi dəfə dümsükləyib durquzdum. Qızları göstərdim ki, baxsın. Ancaq yenə yuxuya keçir, xoruldayırdı.

Gecə yerimə girəndə bu bədheybət Mürşüdə baxıb onda bir xarakter təyin elədim. Mürşüd qız-gəlin görəndə heç gözünün ucu ilə də baxmırdı...

Kişilərin bayramı

23.02.1971, II gün.

Bu gün göyün üzü açılmışdı. Günəş şüala- rında qar elə gözəl görünürdü. Kazarmaların kənarlarında iki-üç metr hündürlüyündə qar to- paları yüksəlirdi. Bütün qarnizonun kazarmaları standart, eyni formada tikildiyindən qar topaları da eyni qaydada yığılmışdı. Nədənsə mənə elə gəldi ki, buraya bir az isinişmişəm. Başqa aləm, başqa ömür olsa da...

Bu gün bizim il ərzində təqvimdə yeganə rəs- mi kişi bayramımız olan gün idi... Qarnizonun bir neçə yerdən, yüksək dirəklərdən asılmış ra- dio qurğularını açmışdılar. Təbriklər, konsertlər verilirdi. Bütün günü radio susmadı.

İosif Kobzon, Lev Leşenko, Tamara Sinya-yevskaya, bizim Müslüm Maqomayev elə hey oxuyurdu...

Şabalıdı şinelləri geyindik. Yığıncaq oldu. Sa- poqlarım rezindən olduğu üçün məni zala bu- raxmadılar.

Axşam klubda təntənəli surətdə podpolkovnik Bezlepkinə medal verdilər. “Liçka” alanlar, “qramota” alanlar, hətta “otpusk” alanlar da oldu. Bizim uşaqlardan Səbuhiyə, Çingizə, Allahver- diyev Nadirə də “pul” mükafatı verdilər.

Bu pul mükafatı da yəqin sonra borc adı ilə əllərindən almaq üçün idi. Üç manat, beş ma- nat... Yaşıl rəng üçlükdən, göy rəng beşlikdən mükafat olar?

Birdən səhnəyə boynu qırmızı qalstuklu orta məktəb uşaqları çıxdı.

Dəhşətə gəldim! Əl-ələ tutub, bizi xorla, mah- nıyla təbrik edirdilər. Onlar da mənim pionerim yaşında idi. Bir danışdıqları dil ayrıydı...

Konsertdən sonra “Nazik buz üzərində” filmi- nin birinci və ikinci seriyasına baxdıq. Baxdıq deyəndə ki, bəlkə də kimsə baxdı. Hamımız yatmışdıq...

Bu gün məktub almadım.

Səbuhi dedi ki, mən leytenant Bryusovla da- nışmışam. May ayında məzuniyyətə gedəcə- yəm.

Bryusova məndə pul olduğunu bu satmışdı. Görünür satqınlığına görə Bryusov ona məzu- niyyət vəd edib. Qəflətən dedim:

- Gəl, mərc gələk. Özü də otuz manatdan!

Bryusov məndən otuz manat borc almışdı axı. Düz otuz.

- Sən mayda məzuniyyət görməyəcəksən, – dedim.

Çünki bilirdim ki, satqına heç kim hörmət eləmir. Xüsusən əsgərlikdə və bir də türmələr- də...

Bu gün bayramımız olsa da, məni Azərbay- candan nə pioner qız, nə də başqa birisi təbrik etmədi...

Няриман Няримановун «Бащадыр вя Сона» романыны охуйуб гуртардым. Охудуьум китабларын щамысыны 3 ядяд «пасылка»йа йерляшдириб цстлярини аь парчайла тикдим. Сабащ Бярдяйя эюндяряъям.

24.02.1971, ***III gün.***

Hava açılmışdı, mülayim idi, külək də əsmirdi. Günorta vaxtı qar da əriməyə başlamışdı...

“Padyom”dan yarım saat əvvəl könüllü su- rətdə özüm qalxıb geyindim. Rusların sözü ol- masın “nastroyeniyam” yaxşı idi.

İşdə də işimiz yaxşı oldu. Binanın üstünə qır- mızı kərpic rəngində yumru, qoz boyda, hər tərəfi deşikli, həddən artıq yüngül, “keramzit” adlanan materialdan daşıyıb tökdük. Mürşüdlə mən də “nasılka”da daşıyırdım. Bu günkü işimiz çox rahat iş oldu.

Poçt gəldi. Altı məktub aldım. Xəqani qarda- şımın məktubundan bir manat, anamın məktu-bundan üç manat pul çıxdı. Sevincimdən ürə- yim atlanırdı. Vidadi qardaşımın məktubunu oxuyanda isə qıpqırmızı qızardım.

Əlimi üzümə vurdum. Sifətim alışıb yanırdı. Evlərində pione- rin valideynləri mənim gizli çatdırdığım məktub- ları tapıb oxuyublar...

“Pasılka”ları poçtdan yola saldım.

Axşam uşaqlar kartof soymağa getdi. Rəs- samlığım yenə karıma gəldi. Məni saxladılar. Yanğına qarşı xüsusi alətlər yerləşən, böyük bir avadanlığın şüşəsinin üstünə yazdım: «Pri pojare razbit!»

Gecə məktub yazırdım. Rotamız kartof soy- maqda idi. Qəflətən işıqlar söndü. Bir az göz- lədim. Hər yan zülmət qaranlıq idi. Spiçka ta- pıb yandırdım. Kağızlarımı, qələm, “konvert”ləri- mi yığıb, “tumboçka”ma qoydum. Bir az da göz- ləyib çölə çıxdım. Bütün qarnizonun işıqları sön- müşdü... Zülmətdə kibrit işığında “koyka”mı ta-pıb, yerimə girdim...

25.02.1971, IV gün.

Səhər “suşilka” növbəm idi. Çölə çıxanda dünən tər- təmiz təmizlənmiş girəcəkdə topuğa qədər qara batdım. Dünənki günəşli gündən əsər-əlamət qalmamışdı. Həm də bərk soyuq idi. Rezin sapoqları ayağımdan çıxarıb atdım. Ka- zarmada ayaqyalın o baş-bu başa gedib:

- Təzə, düzəməlli sapoq verməyincə heç ya- na gedən deyiləm, – dedim.

Hökumətə nə qədər güzəştə getmək olar?

Serjant, starşina, sonra da leytenant gəldi. Əvvəl hədələyib qorxutdular, sonra nə qədər di- lə tutsalar da, ayağıma heç nə geyinmədim. Ha- mı işə getdi...

Naəlac qalıb, Denisenko:

- Yaxşı "dnevalnı" dur, – deyəndə, başımı bu- ladım.

Dolqiyer:

- Onda gəl kuxnaya gedək, – dedi.

Starşina isə yazı gətirib:

- Bunu yaza bilərsən? Sapoqlar verilənə qədər, – deyib göz də vurdu.

Ayaqyalın oturub, "Veçernyaya proverka" ki-tabını yazdım.

Əgər bu gün altı ədəd məktub alsam, mənə gələn ümumi məktubların sayı yüz qırx olacaq...

Sapoqdan bir xəbər yoxdu. Ayaqyalın gəzi- rəm.

Poçt gəldi. Beş məktub aldım. Yüz qırxıncı sabaha qaldı. Ələvsət yazmışdı ki, pioner qızın qardaşı sənə məktub yazacaq...

Yüz otuz doqquzuncu məktubu açmaq istə- yəndə gördüm bu zərf pioner qızın göndərdiyi yetmişinci məktubun zərfindəndir. Bu da məni duyğulandırdı. Əvvəl karıxıb elə bildim məktub ondandır. Sonra gördüm yox...

Komsomol biletimin üzvlük haqqını ödəyib, "peçat"ını vurdurdum.

Axşam Oqanesyanın hesabladığı əmək haq- qını payladılar. Daşıdığım qatardan iri "kərgə- dan kolxida" maşınlarının kərpicləri, maşın-ma-şın, ömrünü çoxdan başa vurmuş köhnə kən-dirlə çəkdiyim "rastvor"ların əvəzində əmək haqqı aldım: Üç manat! Yaşıl üçlük. Buna da şükür. Verməsəydilər, neyləyəcəkdim?

Sapoq məsələsi hələ həll edilməyib.

Muxtardan bir manat borc alıb, yeddi manat da özüm qoyub verdim starşina Bandısıkə ki, sapoq alsın. Öz ayaq ölçümü də bildirdim:

- 41 razmer.

26.02.1971, V gün.

Starşina Bandısik dedi:

- Öz köhnə sapoqlarınla işə get, günortaya qədər yeni sapoq gələcək.

Razılaşdıq. Dabanımın soyub, dərisini apar- mış köhnə, dar, sapoqları geyinib sovet hö- kumətinin strateji əhəmiyyətli, sırf məxfi saxla- nan obyektinin tikintisini tikməyə getdim...

“Rastvor” gətirməmişdilər, odur ki, 11:30-a qədər iş olmadı.

Ocaq qalamışdıq.

Söhbətin tacı ocaqdır!

Ayaqlarımı ocaqda yaxşı qızdırmışdım. İsti- dən lap xumarlanırdım.

Birdən od aldı məni. Qalın sırıxlı, pambıq şalvarım surətlə, dayanmadan çırtıldaya-çırtıl-daya elə şirin yanırdı ki, heç stresdən ayıl-mamış ruslar və Mürşüd məni yıxıb qar topa-sına basdırdılar. Çox ani oldu. Tüstüləyirdim.

Çabalayıb onların əlindən zorla qar qalağının altından çıxdım. Yanmağım cəhənnəmə nəfə-sim kəsilmişdi... Şalvarı zorla ayağımdan çəkib çıxartdılar. Altdan geyindiyim şalvar da öz-özü-nə tüstüləyib qəflətən od

tutdu. Onu da birtəhər qarla söndürdük. Alt şalvarımın cibindəki hərbi biletin üzlüyü də qapqara qaralmışdı. Od az bir hissəsini yandırmışdı. Komsomol biletimin də üzlüyü yanmışdı. Yaxşı ki, cibimdə pul yoxuydu. Olan-qalan pul starşinada idi... Komsomol və hərbi biletimin üzləri azca ütülmüş, üzünün rəngi şuxluğunu itirmiş, büzüşmüşdü... Allaha min dəfə şükür ki, hələ tamam yanmadım.

Qar və uşaqlar məni xilas elədi.

"Rastvor" gələndən sonra su ilə qarışdırıb yuxarı verirdim. Dörd nəfər də üstdən çəkirdi. Bərk işlədik. Çox yorulmuşdum. Biləklərimin əzələsi göynəyirdi. Qar da elə hey yağırdı. Bu gün yağan qar zərrəcikləri ağappaq, həddən artıq yüngül və küləyin təsiri ilə uça-uça ora-bura qonurdu...

Məktub gəlmədi.

Axşam vətəndə son həftədə baş vermiş yeni- liklər haqqında qəzetlərdən oxuyub hazırlaş- dım. Sabah "politzanyatiya"da çıxış edəcəyəm.

Səməd Vurğunun "Komsomol poeması"nı oxuyub qurtardım...

“Politzanyatiya”da rus dilində ilk çıxışım əla alındı. Müsəlman uşaqlarından bu günə kimi çı-xış edən olmamışdı. Bizimkilər məni təbrik elədi.

Bu günə qədər cəmi iki dəfə “uborşik” olmu- şam. Ruslar elə bilirdi, mən azərbaycanlıların növbəsindəyəm, bizimkilər də əksinə bilirdi. Nəysə bu gün üstü açıldı. İki aralıq “pol”u yu- dum...

Bədheybət Mürşüdün eşşək kimi işləyib qa- zandığı üç manat aylıq əmək haqqını bu gecə oğurlamışdılar.

Birdən yadıma düşdü ki, dünən gecə Rezni- çenko nəsə axtarır, şalvarların cibinə əlini so-xurdu... Mürşüdə zarafatla dedim:

- Boğaz eşşəyin bu gecə yüz faiz doğub!

Salyanlı Adil də dilxor olmuşdu:

- Ay eşşək, üç manatı da saxlaya bilmirsən.

Serjant Denisenko Mürşüdün doluxsunduğu- nu, vəziyyətin gərginliyini görüb:

- Gəlin iyirmi qəpikdən yığıb, onun pulunu düzəldək, briqadanızın adına ləkədir, – dedi.

Qapqara qaralmış Mürşüd iyirmi qəpik məsə- ləsini qəbul eləmədi...

Hələlik məsələ bağlı qalıb.

İşə getdik. Tikdiyimiz məxfi binanın əvvəl üs- tünün qarını təmizlədik. Sazaq əl-ayağımızı sanki doğrayırdı. Gözlərimdən su gəlir, yaxşı görmürdüm.

Vahiməli bir çovğun vardı. Külək, tufan qarı elə sovururdu... Adam gecə qaranlıqda tək olsa, qorxudan bəlkə də bağrı çatlayardı. Ağzınacan dolu "Zil samosval" maşının "rastvor"unu "nasıl- ka" ilə binanın üstünə daşıdıq... Canımız çıxırdı. Yenə burun, sifət, əl, ayaq buzlamışdı. Danı- şanda nitqimiz dəyişir, çənəmiz səyriyir, dilimiz topuq vururdu. Binanın üstündəki "rastvor"u qumla örtdük ki, sabaha don vurmasın. Nəhayət ki, qurtardıq.

Rota yox idi. Bircə biz idik. Odur ki, bir bay- rağı iki yerə cırıb, qabaqda və arxada gedənlərə verərək yola düzəldik.

Axır ki, təzə sapoqlarımı gətirdilər. 42 raz- mer idi. Ancaq bu bir az gen olsa da, iki "part-yanka" bağlayıb rahat gedə bilirdim. O birisi 39 razmer idi. Çox dar olduğundan ayaq- larıma divan tuturdu.

Barmaqlarımı hər gün don vururdu. Bəlkə də gələcəkdə, məsələn əlli ildən sonra bunun altını çəkdim.

Ayaqla, başla zarafat olmaz. Başım ayaqlarıma baxan yerdə isti idi. İndi ayaqlarım da isti olacaq.

Şükür! İstidə əsgərlik çəkmək, bir içim su içmək kimi bir şeydir.

Qarşıdan "8 Mart" beynəlxalq qadınlar bayra- mı gəlir. İstədim, pionerə bir "otkrıtka" alam. Ta-pa bilmədim.

Gecə kinoya getdik. «Zolotoy telenok» filmini verdilər. Yaxşıca yatdıq. Film qurtaranda ser- jant ha qışqırdı, yatanların çoxunu oyada bil- mədi. Axırıncı uşağın üstünə soyuq su töküb ayıltdılar...

28.02.1971, ***Bazar günü.***

Səhər hamama getdik. Çiməndən sonra, ötən dəfə kartof soymayanları kartofa göndər- dilər. Mürşüdlə mənə soğan, kök, çuğundur tə-mizləməyi tapşırdılar. Hərəsindən bir çəllək. Hər bir çəllək ən azı 150-200 kq tuturdu. Kartofu isə maşınla açıq şəkildə, bəzən də kisələrdə gə-tirirdilər. Əlac yoxuydu. Mürşüdlə getdik. Bu deşik-deşik olmuş taxta otaqda əvvəl ocaq qa-ladıq. Ocaqda xeyli qızınıb, sonra işləməyə başladıq.

Hamamdan sonra yarım ton soğan, kök, çu- ğundur təmizləməliydik. Vallah normal adam deyildi bizim bu komandirlər. Heç olmasa, əvvəl təmizlədib, sonra hamama aparardılar.

Ocağın kənarında Mürşüdlə şirin-şirin söhbət edirdik. Söhbət edirdik deyəndə mən danışırdım, o da qulaq asırdı. Hərdən ondan müəyyən şeylər soruşurdum. Aldığım cavabdan da mə- lum olurdu ki, Mürşüd oxuyub yazmağı bacar- mır. Bu günə kimi kitab oxumayıb. Bir dənə də olsun filmi xatırlamır. Əsgərlikdən əvvəl kənd- lərində "Mazandaran pələngi" İran filmi verir- mişlər. Onda da səyyar film göstərəni qız üstün- də vurublar. O da acıq eləyib düz üç il bunların kəndinə film gətirmirmiş.

Dağlarda çobanlıq eləyib. Dolu yağmağından, qanqaldan, baldırğandan soruşanda fərəhlə da- nışırdı. Bir də boğaz qoyub gəldiyi ağıllı eşşə-yindən.

Çöldə külək qarı elə sovururdu, deyirdin bəs bu taxta otağımızı uçuracaq. Qabağa düz bax- maq olmurdu. Çovğun qarı adamın üzünə elə çırpırdı...

Mürşüd yalan-gerçək deyirdi ki, yaşadığı La-çın rayonunda, Mirik kənd sovetliyi yerləşən Quşçuluq kəndindəki o dağlarda qış bundan da sərt keçərmiş.

Deyirdi istəyirsən Qarqışlaqlı kəndindən olan Mameddən, Ədalətdən, Alxaslı kəndindən olan

Ələkbərdən, Şalvalı kəndindən olan Şahmar Hətəmovdan soruş Laçın dağlarında qış bura- dan sərt keçir.

- Ağ ayı olmur Laçında?

- Ağı da, bozu da, qarası da olur.

- Bəs canavar, çaqqal necə?

- Doludur, – dedi.

Mürşüdün gözləri Sibirin tayqa meşələrində yaşayan insanların gözləri kimi qıyıq idi. Da- nışdıqca da ocağa arada bir taxta qırığı atırdı. Qıpqırmızı yanaqlarını həddindən artıq cod olan üzünün tükü gizlədirdi. Qulağının içindən və üstündən çıxan tüklərə baxanda inanırdım ki, bu adam çovğundan, meşədən, şaxta sazaq- dan çıxıb. Orta boyuna, cüssəsinə bircə “arxa oturacağı” yaraşmırdı. Onun “dalı” bəzi qadın- ların arxası kimi ətli və hətta yeriyəndə yırğalanan kimi də olurdu. Mənə elə gəldi ki, 19 il yaşayan bu Mürşüd yeyib-içib, üzüüstə uza-nıb yamaclara. Qoyun-quzu da özbaşına otlayıb. Gün o ki var vurub bunun arxasına, bunu quy-ruqlandırıb. Özü deyirdi ki, bir quzunun quy-ruğunu yeməsə, doymur. Gördüm düz deyir. Çünki yemək yeyəndə donuz salasını elə iştah-la içəri ötürürdü, adam ona qibtə eləyirdi.

Mətləbdən uzaqlaşmayaq.

İş gedirdi. Boçka yarıya çatanda İlyas və Bi- lalovu da bizə köməyə göndərdilər. İş qurtar- mırdı, kinoya da gecikdik. İlyas lağ-lağılıq eləyib işləmək istəmirdi. Onunla söyüşdük. Birdən ayağa qalxıb üstümə gəldi. Mən də qalxdım və əlimdəki bıçağı düz onun qarnına soxdum. Mür-şüdlə Bilalov bizi ayırdı. İlyas qarnını tutub qış-qırırdı. Tez Mürşüd onu qucaqlayıb, paltarlarını yuxarı dartıb baxdı. Dərisi sıyrılmışdı. Azca qanlı sıyrıntı görünürdü. Yaxşı ki, bu soğan, kartof soymaq üçün verilən bıçaqlar yumşaq alüminiumdandır. İlyas qarnına bıçağın girmə- diyini görən kimi sakitləşib hırıldadı. Mənimlə barışdı və söz verdi ki, heç kimə deməyəcək. 15:30-a kimi tərəvəzləri soyub qurtardıq.

Kazarmada dedilər ki, kim istəyir yatıb din- cələ bilər.

Əllərim don idi. “Umıvalnik”də soyuq suda yuyunub yerimə girdim. Ancaq yata bilmədim.

Poçt gəlmişdi. Tahirdən məktub gəldi. İçin- dən iki ədəd, üzərində ağ qırmızı və sarı tülpan olan “otkrıtka” çıxdı. Yazmışdı ki, “8 Mart" mü-nasibəti ilə bu “otkrıtka”nı “pioner”ə yaz göndər. Çox sevindim. Elə dünəndən “otkrıtka” axta-rırdım, tapa bilmirdim.

... Muxtarla güləşdik. Kazarmada uşaqlar bizi dövrəyə alıb tamaşa eləyirdi. Hamısı da kənar-dan qışqırır, fit çalır, göstəriş verirdilər. Sonda onu fəndə salıb yerə çırpdım. Hamısı məni qu-caqlayıb öpdü...

Tufan getdikcə artırdı. Qəflətən işıqlar söndü. Tufan zülmətdə daha əzəmətli, qorxunc olur. Tufanınkı zülmətdi, gücü çatdıqlarını dağıda. Starşina Bandısik qışqıra-qışqıra bildirdi ki, qa- çın "stolova"ya. Hamı geyinib, pərakəndə şə- kildə çölə götürüldü. Cərgəyə durmaq mümkün deyildi.

Qaranlıqda "stolova"da keflə yemək yeyirdik. Oxuyan kim, gülən kim, zarafatlaşan kim...

Serjantların, starşinanın əlində neftlə işləyən lampalar vardı. Oranı-buranı işıqlandırırdılar. Birdən Adilin gur səsi eşidildi:

- Dörd "pors" kabab!

Uşaqlar da ona qoşulub qışqırışdılar:

- Piti ver, piti, iki "pors".

Üstü qazmaxlı aş, kələm dolması istəyənlə-rin səs-küyü bir-birinə qarışanda, biri də:

- Dovğa, dovğa deyib dad döyəndə starşina mənə yaxınlaşdı ki, bunlar nə istəyir?

Uşaqlar pitini, kababı istədikcə alüminium qablarla da stolu döyəcləyib taqqıldadırdılar. Serjant və starşina karıxıb elə bildilər ki, bizim uşaqlar "zabastovka" eləyir. Dedim:

- Bir-birləri ilə zarafatlaşırlar.

Sakitləşən starşina söyə-söyə, əlində fənər "stolova"dan çıxdı. "Yop tvoy boqa materi ... şutka, şutka" və daha nə kimi sözlər işlədərək harasa getdi. Sonradan öyrəndik ki, yazıq "za- bastovka" məsələsindən qorxub, gedib, "tutov- ka" arağından babat vurub, özünə gəlib.

"Stolova"dan çıxanda da hamı qışqıra-qışqıra iki-iki, üç-üç qaçışırdılar. Zülmətdə hamı birtə- hər yerini tapıb, uzanan kimi deyib gülməyə, zarafatlaşmağa başladılar. Yenicə yuxuya keçir-dik ki, işıqlar yandı. Serjantlar gəldi ki, kinoya getmək istəyən var? Heç cavab verən də olma-dı...

Гулу Хялиловун «Йашамаг истяйирям» кита-бындан хейли охудум. Йазыг Гулу лап зцлцм чякиб ки…

01.03.1971, ***I gцn.***

Yaman "stroqu" iş gedir. "Proverka"-zad... serjant Başa ilə Çernousov divar qəzetini çap eləyirdi. "Naryadçik"lər artıb. Tahirin göndər- diyi "otkrıtka"nın birini bacıma, birini də "pioner"ə yazıb, ikisini bir zərfdə Şərq 57-yə göndərdim.

Düz dizə qədər qar vardı, düzdür baxır kimin dizinə, kiminin də harasına qədər... Qar təzə sapoqumun içinə dolurdu. Soyuq, quru “moroz” olsa da, külək yox idi. Odur ki, valinkalarımızı geyindik. Qarnizonda bütün rotalar tökülüb, ye-nə taxta fanerlərlə gediş-gəliş yerlərini təmiz-ləyirdilər.

Dizi yanan şalvarımın üstündən, təzə qalın sırıxlı pambıq şalvarımı da geyinmişdim. Bu gün indiyə qədər olan günlərin ən soyuğu olsa da, canım isti idi. Papaqların qulaqlarını açıb çənəmizin altından bərk-bərk bağlamışdıq.

Gecə külək, çovğun, tufan necə eləmişdisə, işlədiyimiz binanın üstündə qar qalmamışdı. Silib-süpürüb sovurmuşdu hamısını.

Bir “Zil” maşını “rastvor” gətirdilər. Maşın köhnə olduğundan az yığmışdılar. Bir saat çək- mədi hamısını vedrələrlə yuxarı çəkdik. Xeyli də “piloniton” deyilən materialları doğrayıb yuxarı verdik. Günorta yeməyindən sonra bir maşın da “rastvor” gəldi. Daşıdıqca hesabladıq, cəmi yüz iyirmi “nasılka” elədi. Sonra binanın içini qazdıq.

Bu gün Denisenko gəlməmişdi. Cəmi altı nəfər idik. Bir də baxdıq ki, bizim binanın açıq pəncərəsini soyuqdan qorumaq üçün tutan “tol”ları “starik”lər qoparıb aparırlar. Zorla tutub, əllərindən aldıq, yaxşı ki, gördük.

Xeyli məktub gəlmişdi. Mənə də altısı verildi. Məktublar Nəcəfdən, Səməd Cabbarovdan, Sə- mədin bacısı, dayım arvadı Rənadan, Gülxar- dan, Süleymandan və Tahir Ağayevdən idi.

Bu iyirmi illik ömrümü bir yerdə keçirdiyim ən yaxın dostlarım olan Vaqif Həsənov, Vaqif Ba-haroğlu, Xosrov, Savalan, Arif, Araz və Yunis mənə bu günə kimi bir dənə də olsun məktub yazmayıblar. Əsgərlikdən qayıdanda belə na- xələf dostluğa son qoymaq lazımdır. Yaxşı ya-dıma düşdü, heç Vaqif Həsənovun qardaşı Arif də məktub yazmayıb.

Atama məktub yazdım. Mənə kitab, "Ulduz" jurnalı, saat, marka, yun qalın əlcək və corab, bir də "Azərbaycan" jurnalı göndərmələrini xahiş etdim. Pulum olan kimi ağ parça alıb, yazdığım gündəlikləri və aldığım məktubları evə "pasılka" eləyəcəm.

Hesabladım ki, 28 iyun 1971-ci il tarixdə pio-neri sevdiyimin 600 günü tamam olacaq. Dü-şündüm ki, 1973-cü ilin iyun-iyul-avqust ayları-nın birində toy eləyib "Pioner"lə evlənər sonra da köçüb Bakıda yaşaya bilərik...

Bu günü də belə başa vurduq.

02.03.1971, II gün.

Bu gün valinkalarımın içi sulanmışdı. Ayaq- larım yaman üşüyürdü. Yüz yetmiş vedrə “ras- tvor” daşıdım. Balta və lomla xeyli də yer qazdıq. Evin üstünü qurtarıb, pilləkəni də sök- dük...

Poçt gəldi. Muxtara teleqram gəlmişdi, oxu- duq, atası ölmüşdü! Ancaq bilirdik ki, məzu- niyyət fırıldağıdır. Hamımız onu qucaqlayıb təb-rik elədik. Hay-küy kazarmanı başına götürdü. Hərə ona öz rayon ünvanını verir, gədəndə onların da evlərinə baş çəkməsini xahiş edirdi. Mən də belə etdim. Muxtar Ələsgərov Ağdamın Quzanlı kəndindən idi. Onların kəndi bizim Bər-də rayonunun ərazisinə bitişik idi. Muxtar uzun, qarayanız, üzü pirişikli bir oğlanıydı, ailəliydi. Arvad, uşağını qoyub gəlmişdi. Görünür qayna-tası özünün hökmranlığını göstərmək üçün bu addımı atıb.

Uşaqlar hamısı pul yığdı. Kimin gücü nəyə çatdısa verdi. Cəmi otuz manat düzəltdik. Demək olar hamı ucdan tutma Muxtara tapşı- rığını verdi. Əsgərlik çəkdiyimiz artıq üç aya yaxın idi. Bu üç ayda Muxtarda hələ fərli bir ağıl görməmişdim. Sakit idi, heç ağdamlıya oxşa- mırdı.

Axşam Klimenko qəflətən serjant Denisen- koya dedi ki, Tofiq işləmir. O da mənə xəbər- darlıq elədi. Yandım yaxıldım. Mən işləmirəm? Öz dilimizdə ona atası qalmadı,

anası qalmadı söydüm. Köpək oğlu. Əllərim, dabanlarım suluq idi. Döyənək idi. İşləməkdən biləklərim şişmişdi. Bunun danışığına bax sən. Gecə yatana qədər ona söydüm. Yer üzündə elə bir deyilməmiş söyüş qalmadı. Sonra arxayın və sakit halda gedib yatdım...

03.03.1971, ***III gün.***

Yenə işlədiyimiz o məxfi binanın içində yer qazdıq. Mürşüdlə mən. Bazovla da Qalko... Balta, lom, lapatka ilə xeyli "süpürləşdik".

Günorta yeməyindən sonra məni ştaba apa-rıb, xeyli də yazı yazdırdılar...

Axşam kazarmaya qayıtdım. Serjant Deni- senko Bryusova "dolojit" elədi ki, Babayev yaxşı işləmir, guya uşaqlar məndən narazılıq eləyir. Hirsimdən "Lenkomnata"da o ki var deyindim. Bu qədər yalan olar?

Nəysə... Xristian əsgərlərdən Bazov, Şolo- monov, Qudzenko Moskvaya getmək üçün da-ha keyfiyyətli və bahalı yeni forma aldı. Onlar Pervomayski ilə vidalaşırdılar...

Muxtar da, Kudlay da bu gün məzuniyyətə getdilər. Yavaş-yavaş dağılma prosesi başla-yırdı...

Məktublar yazdım. Aydın daha mənə məktub yazmır. Ona sonuncu məktubumu yazdım. Yazdım ki, atalar yaxşı deyib: “Dost dosta tən gərək, tən olmasa gen gərək”.

Bryusov məni yanına çağırdı. Yavaş-yavaş danışırdı. Dedi ki, otuz manat məsələsini heç kimə demə. Səni “otpuska”ya buraxacam. Sən yaxşı etibarlı oğlansan.

Bizim rotanın əsas komandiri bu leytenant Bryusov idi.

Siyasi işlər üzrə müavin Boyko, starşina Bandısik və bütün serjantlar ona tabedir. Onun alçaq boyu, arıq bədəni, sarı sifəti, yaşıl gözləri, xırda dodaqları vardı. Dişləri xırda və seyrək idi. Başı və sifəti balaca, açıq şabalıdı saçları vardı. Otuz yaşı ancaq olardı. Hirslənəndə sarı sifəti qıpqırmızı olurdu. Yaxşı adam idi.

Nəysə, Bryusovun otağından çıxdım.

Yeməkdən sonra kluba saçımızı qırxdırmağa getdik. Bu dəfə də ağdamlı Rizvanla sözümüz düz gəlmədi. Yaxalaşdıq. Ancaq dalaşmadıq. Ağdamlı olduğu üçün Telman onun, Bilalov isə mənim tərəfimi saxladı və aralaşası olduq...

Gecə cərimə alanları qabağa çıxaranda mə- nim də adımı çəkdilər. Mənim heç bir cəriməm yox idi. Bu

Klimenko ilə serjant Denisenkonun işiydi, acığımdan bilmədim neyləyəm. Düz gecə birə qədər əlimi heç nəyə vurmadım.

Serjant Dolqiyer növbətçi idi. Çox dedi:

- Gecə keçir, qurtar get yat.

Dedim:

- Yuyacam.

O biri cərimə alanlar da yatmışdı. Əsəblərim sakitləşəndən sonra mənə verilən yerə su səpib süpürdüm. Və gedib yerimə girdim. Dolqiyer də bilirdi ki, mənim günahım yoxdur. Odur ki, gü-zəştə gedib dinmədi...

Bu gecə hirsimdən heç nə oxumadım.

04.03.1971, IV gun.

Bu gün səhərdən axşamacan bu məxfi ob- yektin içərisində yer qazdıq. Bu qədər lom vur- mağıma baxmayaraq əllərim yenə donurdu. Qalko ilə Klimenko bütün pəncərələri qara rəng tolla tutdu. Həm

“skvaznyak”ın qabağı alındı, həm də soyuqdan qorunmaq üçün ocaq qalaya bildik...

Yevlaxdan məktub aldım. Həmid əmimin oğlu Şakirdən idi. Çox uzun yazmamışdı. Yevlax şəhərində yaşayan Kamran, İsa əmilərimin də ailələrindən məlumat yazmışdı. Bir sözlə, hamı- sında salamatçılıqdır.

Bərdədən üç məktub, iki “otkrıtka” gəlmişdi. Birinin arxasına baxdım. Pionerin oktyabryat qardaşından idi. Gözlərimə inanmadım! “23 fevral” kişilərin bayramı münasibəti ilə göndərib. Ancaq görünür yolu nəzərə almayıb. Odur ki, belə gec gəlib. Kefim kökəldi. Xeyli arxayın- laşdım. Bu ciddi məsələ idi. Onların ailəsində görünür razılıq verilib ki, qardaşı bu “otkrıtka”nı göndərib. Ancaq birdən ağlıma gəldi ki, bəs pionerim özü niyə göndərməyib? Çox fikir- ləşəndən sonra belə qərara gəldim ki, yəqin anası ona nəsihət verir ki, ağır oturub – batman gəlmək lazımdır. Yüz faiz belədir dedim. Ortada olan budur: Onlar da bu işə razıdı.

Əlibala Hacızadənin “Təyyarə kölgəsində” ki-tabını oxuyuram...

05.03.1971, V gün.

İşdə Klimenko ilə dalaşdım. Serjant Deni-senko onun tərəfini saxladı. Başqa cür ola da bilməzdi. Türk, türkmən deyildi ki Denisenko...

Dedim ki, mən işləyə-işləyə siz deyirsiz işlə- mirəm, odur ki, indi doğrudan da işləməyəcəm. Nə bacarırsız eləyin. Lap dünya dağılsa da, işləyən deyiləm. Sonda:

-Nasyonalistlər! – bax elə-beləcə də qışqır- dım.

Axşam leytenant Bryusova da deyəcəm, ko-mandir özü rəyini bildirməyincə işləyən deyiləm, – dedim.

Nə qədər dilə tutdular, xeyri olmadı. Günor- taya qədər həqiqətən işləmədim. Qoy desinlər, işləyə-işləyə "işləmir" deyirlərsə, qoy indi doğru- dan işləməyim, desinlər işləmir. Bu daha ədalətli olar. Rus deməli "çem" başqa cür.

Yeməkdən sonra komandirin siyasi işlər üzrə müavini Boyko məni kabinetinə çağırdı. Getdim. Çox mehriban qarşıladı. Gözlədi məsələni mən açam. Açmadım. Onsuz da işləməmişdim. Qoy özü açsın fikirləşdim. Nə o açdı, nə də mən.

Poçt gəldi. Sıraya düzülmüşdük. Sardal Ard- jimanov üst-üstə bir qalaq məktubun üstünü oxuyub yiyəsinin adını çəkirdi. Və mənimlə üz- bəüz dayanmışdı. O, oxumamışdan əvvəl mən oxuya bilirdim. Çünki o, savadsız idi. Həm də bizim yazı tərzimizə bələd deyildi.

Növbəti mək- tubu verib o birinə keçəndə gözlərimə inan-madım:

-“Komu” yerində öz ad, familiyam, “ot koqo” yerində “ot Barda” yazılmışdı.

Quş kimi uçub məktubu götürdüm. Sardal çaşdı, əlindəki məktublar yerə səpələndi. Sıra- dan çıxıb götürüldüm. Qaça-qaça yanımda da- yanmış ağdamlı Telmana qışqıra-qışqıra dedim ki, mənə gələn başqa məktub olsa, götürsün. Elə qaça-qaça da məktubu açdım. Həyətdə gövdəsi əhəngli, şam ağaclarının qabağındakı radio dirəyinə söykənib, gözü dolmuş halda məktubu açdım.

Məni sevdiyini yazmışdı!

Radioda nəsə oxuyurdu. Heç kim yox idi. Ürəyim çırpınır, gah oxuyur, gah dayanır, ətrafa baxırdım. Hər yan qar idi... Yadıma haradansa və qəflətən düşdü ki, mən bu etirafı bu gün düz on altı ay idi ki gözləyirdim...

Bir də, dönə-dönə oxudum:

Sənə bəslədiyim, bu saf məhəbbət

Bütün ömrüm boyu sönməyəcəkdir.

Göydə günəş qopsa, yerdə qiyamət

Fikrim başqa yerə dönməyəcəkdir!

Ardını özünüz fikirləşin. Ardını mən unutdum.

Düz üç gün keçəndən sonra məktubdan yeni cümlə tapdım. O yazmışdı: “İstəyirsən yaşayım, mənə məktub yazma!” Aman allah bu nəydi? Məktub yazmayım? Bəs əsgəri yaşadan mək- tub deyil? Yazmayım? Yanırdım içəridən. Labi- rintə düşdüm yenə. Birdən haradansa ağ ey-nəkli, “voyentorq” satıcısı işləyən rus qızı yadı-ma düşdü, onsuz da o qız yox idi. Ərə getmişdi. Yüyürüb hövlnak mağazaya girdim. O, çəkdiyi Moskva buraxan “Stoliçni” siqaretindən istədim.

- Yoxdur, – dedilər...

Olan siqaretlərə baxdım. “Nefertiti”, “Layka”, “Lan”, “Krasno-presnenskie”, “Yava-100”, “Ha- vana-68”, “Philip-Morris”, “BT”... Başım siqaret məsələsindən çıxmırdı. Odur ki, birini göstərib satıcıdan istədim. Üstünə “ASSWAN” yazılmış- dı. Həyatımda 4-cü siqareti çəkdim. İçim ya- nırdı...

Pionerin məktubu həm də 150-ci yubiley məktubu idi. Onun məktubunu növbəti dəfə oxuyanda yenə yeni bir cümlə tapdım:

“Mən komsomola keçmişəm!” yazmışdı.

Yenidən dəli oldum. 5-ci siqareti çəkdim...

Çəkən kimi də yadıma düşdü ki, yuxuda ge- cə pioneri görmüşdüm. Mənə şeir söyləyirdi...

... Bilalov, ağdamlı Telman “lenkomnata”da mənə kömək eləyirdi. Komsomol qıza cavab məktubu yazırdım.

Sevindiyimdən leytenant Bryusova bugünkü davanı da demədim. Yenə də nahaqdan “nar- yad” verdilər. Bu dəfə həvəslə işlədim. Şolo- monov da mənimlə işləyirdi...

Məni nahaqdan cərimələndirən Denisenko-dur. Yatağa girəndə bunu düşünürdüm. İstə- dim duram Denisenkonun başını kəsəm. Yas- tığı qucaqlayıb, bir-iki dəfə qurcalandım, duram. Sonra yuxuya keçmişəm.

06.03.1971, VI gün.

Bu gün hərbi xidmətimin üç ayı tamam olurdu. Səhər “suşilka”nı yumaq növbəm idi. Yudum da...

İşdə, məxfi obyekdə Mürşüdlə düz yüz qırx beş “nasılka” çölə torpaq atdım. Bunlar yeri qa-za-qaza yerin altı ilə harasa gedir. Hərdən mən də qazıram. Əllərimin suluqları yavaş-yavaş dö-yənək olub. İndi qabar-qabardı...

Məni qayıdanda “dnevalnı” qoydular. Bərk sevindim. Boş vaxtım olacaq. Cavab məktubları yaza biləcəyəm.

Poçt gələndə mənə iki “pasılka” gəldi. Birini dayım Sabirin arvadı Rəna göndərmişdi. İçin- dən “Azərbaycan qadını” jurnalı çıxdı. Jurnal- dan başqa uşaqlar hər şeyi dağıtdılar. Yeyən-yeyənin idi. Dilimə də dəymədi nə şəkərbura, nə paxlava, nə də küncütlü qovurqa.

İkinci “pasılka”nı qardaşım Rafiq Bakıdan göndərmişdi. Hamısı kitab idi. Ancaq xöşbəxt idim. Yaman ruh yüksəkliyi, gələcəyə inam ya-ranmışdı məndə.

Gecə “dnevalnı” durmalıyam. Hazırlaşdım. Üzümü qırxdım, paltarımı şotkalayıb, ütüləyib, boynumun ağını dəyişib, növbə vaxtını gözlə-dim.

... Gecə 03:08 dəqiqədir. “Kanselyariya” da oturmuşam. Təkəm. Tamam sakitlikdir. Kazar- manın əsgərləri yorğunluqdan elə şirin yatıblar ki... tək-tük uşağın xorultu səsi gəlir. Bu xorul-tular da zəifdir...

Kazarmada qırmızı işıq içərinin zülmət qa- ranlığını yarır, romantik bir mənzərə yaradırdı. Çiynimə şabalıdı şinel salmışam. Qolumda qır-mızı rəng “povyastka” məktub və xatirələr yazı-ram. Bu da romantikadır!

Bu gün üç ay tamam oldu. Biləcəridən çıxdı- ğım gündən düz üç ay keçib. O günü xatırladım. Başı aerodrom kepkalı o kişi, - gedin, gedin, pa-xat eləyin, –

deyirdi. Doğrudan da elə bizə 3 ay-dı “paxat” elətdirirdilər. Yazıq o nurani qoca ar-vad, bizi görəndə öz-özünə o vaxt: “Can bala can, əsgər gedirlər” deyirdi. Görünür onun da ya oğlu, ya əri, ya qardaşı “bu günləri çəkib-miş”... Sonra o kiçik bəxtəvər uşaqlardan birinin “raz, raz...” deyən serjanta daş atmasını” xatır-ladım... Zibillikdə sülənən süləngi küçə itlərini görəndə sevinclə bizi unudub onların arxasınca qaçan balaca uşaqlar gözlərimin qabağına gəldi... Eh, dünya nə qəribədir!

Sonra bu üç aydan qabaqkı günləri yadıma saldım.

Bərdədə olduğum son günü. O günü atam quzular kəsdirmişdi. Qonşular, orta məktəb, bütün dostlarım yığışmış, tələbə yoldaşlarım isə Bakıdan gəlmişdilər.

O gün Məmili qarmonu “dilləndirir”, Savalan klarneti “yeyirdi”. Həyətimizdə Şahmalı Kürd- oğlu, Yaqub Məmmədov da muğam oxuyurdu. Xosu oynamaqdan, tullanıb-düşməkdən ayaq- larını mənə göstərirdi ki, suluq atıb...

O vaxt kürdəmirli tələbə yoldaşlarım Tofiq, Tərlan da gəlmişdi. Sən demə Tofiq kürdəmirli çox dərdliymiş, nakam məhəbbəti varmış. Bir litrlik şüşə bankanı əlinə alıb, qəflətən sinəsini cırdı, qışqıra-qışqıra və musiqi ahənginə uyğun sinəsinə ritmlə döyə-döyə oxumağa başladı:

Mən sevim, sən sevmə. Qoy belə olsun...

Mənim sev deməyə nə cürətim var...

O günkü vida məclisində, o gecə dostum, qonşumuz, bir yerdə böyüdüyümüz Vaqif Ba- haroğlu ayağa qalxıb, hamını kövrəldən uzun bir nitq söylədi.

Sonra bir cavan uşaq gətirdilər. Vidadi adın- da. Dedilər:

- Yaxşı səsi var, özünə “Bərdəli” ləqəbi götü- rüb.

O da muğam oxuduğu yerdə qəflətən zil səs-lə:

- Mən getdim, mən getdim, salamat qal, Bərdə...

Və sonra durnalar barədə nəsə bir duyğulu mahnı oxudu .

Bəli, o gün möhtəşəm idi!

Bərdə, Şərq küçəmiz, “Peyk” futbol koman- damızın uşaqları, 1№-li məktəbdəki sinif yol-daşlarım... Hamı, hamı məni yola salırdı. Oğur-luq üstündə Rusiyada on il həbsdə yatıb çıxmış Xanlar dayı da gəlib mənə ürək-dirək

verdi, sonra da rusca “bud mujikom” deyib, kürəyimi enli əlləriylə döyəclədi...

O günü xatırladıqca gözlərim dolurdu.

Ələsgərin atası Qanboy kişi də mühasi- bat ”taxta şotku”su qucağında, Hitler kimi bığ qoyub gəlmişdi. Elə doğrudan da baxan olsaydı, elə bilərdi Hitler dirilib.

O, vərəm xəstəsinə oxşayırdı!

Çox arıq idi. “Moskva” kolxozunun mühasi-batlığında bütün günü “şotku” çəkərdi. Qanboy kişi gəldi və xırda yapon gözləri gülə-gülə şot- kudan bir daş şaqqıldadıb:

- Vaxt tez keçir, bala. Çətini getməkdi – dedi.

İndi baxıram köpəyoğlu düz deyirmiş.

Artıq uşaqlar remenlərində üçüncü deşiyi açmışdılar. Bu gecə çox şeyi xatırladım. Yaqub Məmmədov “Mənsuriyyə”ni oxuyandan sonra bir mahnı oxuyurdu:

- Samovarın tüstüsü...

O gecə uşaqlar o ki var araqdan, çaxırdan içib, özlərini həyətdəki hovuzun buz kimi su- yuna atırdı. Hamı bərkdən danışır, gülür, hamı qışqırır, oynayırdı. Uşaqlıq dostlarım Məmili qarmonu, Savalan isə klarneti “mələdirdi”... Şahmalı öz buxara papağını yan qoyub, yanıqlı səsilə “Zabul segahı”nı aramla oxuyurdu.

O günü bibim Həvva, nənəm Xədicə, Anam Fatimə, Yevlaxdan gəlmiş Həmid əmimin arvadı İpək, qonşumuz Xosrovun anası Manya xala, Arazın anası Zeynəb xala, türemşik Xanların ar- vadı Qumru xala, Nadir kişinin arvadı Məhbubə xala – hamısı iş başındaydı, aş, kələm və tənək dolmaları bişirirdilər. Əmim qızı Zəhranın əri, Zeynəbin ögey atası Azad kişi uzun manqalın kənarında şax dayanıb tüstülədə-tüstülədə ka- bab bişirirdi. Üzüm çardağının altında düzülmüş uzun stolların baş tərəfində musiqinin səsi bərk çıxsın deyə dinamiklər quraşdırılmışdı. Söz yox ki, bu qiyaməti qonşu pioner qızın özü də, valideynləri də eşidirdilər. Ancaq o günü qorxularından pioneri nə musiqi, nə də orta məktəbə buraxmadılar...

Əsgərliyə məni çox təmtaraqla yola saldılar o gün.

Yazıq atam!

Türemşik Xanların və Nadir kişinin, Hitlerə oxşar Qanboyun, taksi sürücüsü Yusifin, qaynı prokuror işləyən çil-çil sarı Sərxanın uşaqları saxta sənəd düzəltdirib əsgərlikdən qalmış, “ko-missavat” olmuşdular...

Mən isə bu gün əsgər gedirdim...

Mən də qala bilərdim. Mən də “komissavat” ola bilərdim. Bizim pulumuz, imkanımız, əlaqə- lərimiz onlarınkından da yuxarı idi.

Mənim Bakıda şəxsi evim və qeydiyyatım olduğu üçün Bakının Oktyabr rayonunda hərbi komissarlıqda qeydiyyatda dururdum.

Mənə ikinci, üçüncü “povestka”lar gəldikcə gördüm ki, yox deyəsən bu il də yayınmaq mümkün olmayacaq. O vaxt SSRİ Nazirlər So-veti təzə fərman da vermişdi ki, axşam və qiyabi oxuyanlar əsgərlik vaxtı çatan kimi hərbi xid-mətə getməlidirlər.

Vəssalam! Mən də Politexnik institutunda, axşam şöbəsində 3-cü kursda oxuyurdum. Atam eşidən kimi Bakıya gəldi. İstəmirdi təh- sildən ayrılam. Atamla səhərisi gün “po- vestka”ları götürüb, Oktyabr rayon hərbi komis-sarlığına getdik. Atam danışıb məni, müvəqqəti saxlatdırmaq istəyirdi. Xeyli gözlədik. “Voyen- kom”un kabineti qarşısında qəbula gələnlər qurtaranda, heç kim qalmayanda atam qapını döyüb içəri keçdi. Mən qapıda gözləyirdim ki, sərbəst danışa bilsinlər. Atamın içəri girməsi ilə çölə çıxması bir oldu. Rəngi ağappaq idi. Əvvəl qorxdum, nə baş verirdi? Atam əlimdən tutub:

- Gəl gedək, – dedi.

Pilləkənlərlə düşəndə dözməyib:

- Nə oldu axı? – soruşdum.

Heç nə demədi o günü mənə.

Ancaq məni yola saldıqları gecə o da öz dostları Məmmədhüseyn, Ağalar, Zalan, dəvə Hümbət, qonşular – dustaq Xanlar, Nadir kişi, Köçəri dayı əslən iranlı olan Xıdır, Bəylər, Sər- xan, taksi Yusiflə yeyib içəndə bu işi xırdalı- yırdılar. Diqqətlə qulaq asdım. Qarnı özündən böyük, sallaq dodağı, uzun ətli burunlu, qırmızı sifətli, qat kəsmiş boynu olan dazbaş harın bu "voyenkom" ağzında siqaret telefonla danışır- mış, atama da əl işarəsiylə hırıldaya-hırıldaya, - gözlə! – deyibmiş...

Bax bu "gözlə" sözü və onun harın quruluşu atama xoş gəlməyib. Ona görə gözləməyi özü- nə təhqir sayıb.

Odur ki, bu gün bu məclis qurulmuşdu...

Bu arada gördüm Yaqub Məmmədov gözəl bir uşaq mahnısı oxuyur, hamı da əl çalırdı:

Qantarğanı taxaram,

Böyüyəndə başına.

Ayaqlarım çatmayır,

Üzənginin qaşına.

Sonra Bakı yadıma düşdü. Yasamalda həyə- timizdə bu münasibətlə olan 2-ci qonaqlıq. Bər- dəyə gələ bilməyənlər – Yunis, tələbə dostlarım Qasım İsmayılovlu Cəfər – biz ona “Cek” de- yərdik, Qazağın Daş Salahlı kəndindən olan Mahir, gürcüstanlı Faiq – o da şeir yazırdı və özünə “Gülər” ləqəbi götürmüşdü, bərdəlilər: ke-çəl Aydın, aptek Saday, İsgəndər və Seymur Xanım oğlu qardaşları, dükançı Muradın oğlu Mamed və s. gəlmişdi. O məclis də qiyamət keçmişdi...

Bakıda çox az təsadüf edilən samovar çayı, kabab, kəmşirin çaxır...

O gün ağdamlı Telman – bu bizimlə hərbi xidmətdə olan deyildi – mənə şeir də qoş- muşdu:

Lazımam ay Tofiq yanına gəlim,

Mənim kiçiyimdir Yolçuyev Səlim.

Səlim Yolçuyev institutda bizim fəlsəfə mü- əllimimiz idi. Əslən qazaxlı, ağ optik eynəkli bir yaxşı kefkom kişiydi. Yesin, içsin heç oxuma, qiymətin hazırdır. Bir tərəfdən də axı fəlsəfə dərsi mexanikada avtomobildən dərs keçən, elm öyrənən tələbəyə nə lazımdı ki?

O məclisdən sonra axırıncı gələn İbrahim ol- du. İbrahim bakılı idi. Azərbaycanda bığını cə-sarətlə qırxanlardan sayılırdı. Onun məmur gör-kəmi vardı qalstuk, ağ rubaşka və qara kos-tyumuyla... Rus dilini əla bilməsi, hündür boyu onu bir az da rəsmi göstərirdi. Elə müəllimlər vardı bizim institutda ya "zaçot", ya da imtahan götürəndə biliyə baxmazdı. Pul verməsən, xeyri yoxuydu. Bax belə vaxtlarda müəllimin tələb elədiyi 30 manat, 50 manat əvəzində bu in- tiligent oğlana yarı pulu verərdik. İbrahim əvvəl korpusu, mərtəbəni, qrupun nömrəsini, mü-əllimin haralı olmasını, arxasında kimlərin dur- duğunu saf-çürük edəndən sonra hərəkət planı hazırlayar, vaxtı dəqiqləşdirib həmlə edərdi...

Qapını döyməmiş açar, şux dayanıb rus dilin-də imtahan götürən müəllimin adını çəkər və çölə çağırardı...

Müəllim içəri qayıdanda məni dərhal çağırıb qabaqda oturdar, "zaçotnik"imi alıb qiymət ya-za-yaza pıçıltıyla və bir az da hürkmüş, həyə-canlı halda soruşardı:

- Dövlət Təhlükəsizlik Komitəsindəndir?

İbrahim öyrətdiyi kimi cavab verərdim:

- Onu demək yasaqdır!

Vəssalam, qiymət verəndə də qımışardı:

- Neçə istəyirsən?

Qudurğanlıq eləməzdim. Düzü onsuz da özüm üçə layiq bilirdim, ancaq:

- Üç bəsimdir, – deyərdim.

Eh, nəysə bu gecə qırmızı-qara zülmət ka-zarmada çiynimdə şabalıdı şinel, tək-tənha bu qürbət eldə, soyuq qış gecəsində beləcə düşü-nür, var-gəl edirdim.

Bu gün hamama da getmişdik. Adil, mən, İl-yas və Jebrov.

Adil Jebrovla gecə 24:00-a qədər növbətçi durmuşdular. Mən isə İlyasla 00:00-dan sonra...

Axırıncı yatan əsgərlər Bilalovla Oleq olmuş- du. Onlar döşəməni yuyub, yatmağa gedəndə gecə 2-yə işləyirdi. İlyas da yatmışdı. Mən tək idim.

“Konseliyariya”dan şineli çiynimdən yerə qo- yub çıxdım ki, “obxod” edəm. Birdən gördüm qolu qırmızı “povyastka”lı “dejurnu po çast” gəlir, baş leytenant Kuzmiçenko... Ayaqlarımı cütləyib, faraqat formasını alıb məruzə etmək istəyirdim ki:

-“Otstavit” – əmri verdi.

Və içəri keçib, vəziyyətlə maraqlanandan sonra hər şeyin qaydasında olduğunu görüb, razı halda əlini çiynimə vurub:

-“Musulman?” – deyib, heç cavab gözləmə-dən də getdi...

07.03.1971, ***Bazar gunu.***

Səhər tezdən leytenant Bryusov, starşina Bandısik və bir podpolkovnik gələndə qışqırdım:

- “Vstat ... Smirna!”

Arxasını demək istəyirdim ki, bir mayor və başqa bir polkovnik də gəldi, karıxıb qaldım... Əvəzimdə “starik” Matisakov qışqırdı:

- “Vstat ... Smirna!”

Mənə güldülər... Nə baş verdiyini başa düş- mürdüm... Sonra başa saldılar ki, içəridə pod-polkovnik varsa və rütbəcə ondan da bö- yüyü gəlsə, onda komandanı Matisakov kimi yenidən, təkrar verərlər. Bizdə isə podpolkov-nikdən sonra mayor və polkovnik gəlmişdi. Ka-rıxmaq, susmaq olmazmış, Matisakov kimi ye-nidən komanda vermək lazımmış...

“Stroyevoy osmotr” oldu. Belə yoxlamalar ildə iki dəfə olur. Bu vaxt hər xırda detallar yoxlanılır. Bütün rota düz dörd saat idi ki, bu soyuq şaxtada, sazaqda çöldə

“stroyevoy şaq” gedirdi. Səhər karıxdığım üçün yaman pis ol- muşdum. Özümü bağışlaya bilmirdim.

İlyas Əfəndiyevin “Dağlar arxasında üç dost” kitabını oxuyuram...

Qadınlar bayramı

08.03.1971, I gün.

Yeməkdən sonra “uborka” oldu. Balaca, El- dar, Bilalov və Arif kazarmanın bir tərəfini “apil- ka” ilə yudu. Saat 12:00-da qurtardıq.

Kinoya getdik. «Appaçi başçıdır» filmini gös- tərirdilər. Bu gün qadınların bayramı olduğu üçün iş günü deyildi. Görünür bu gün ev işləriy-lə kişilər məşğul olmalıydı...Kinoda yatdım.

Poçt gəldi. «Ot Barda» sözlərini, tanış xətti görüb, gözlərimə inanmadım. Birdən bütün vü-cudumu bir qorxu hissi bürüdü.

- Xeyr ola, nə baş verib? Axı o belə tez yaz-mazdı.

Qorxa-qorxa, həyəcanla məktubu açdım. Zərfin içindən özümün yazdığım tanış qoşa və-rəq çıxdı. Bir üzünü mən doldurmuşdum, bir üzünü ağ qoyub ona göndərmişdim. O vərəq idi... baş hərflərini yazmışdı. Yenə həyəcandan karıxmışdım. Bilmirdim nə edim? Bəxtəvərlik məni basmışdı. Sevincimi kimləsə bölməsəydim, ürəyim partlayardı. Tez Bilalovu, Telmanı, Nazi- mi tapıb, qoşa vərəqi onlara göstərdim. Məsə- ləni başa saldım... Sevindiyimdən starşinanı qu-caqlayıb cibinə 1 manat pul qoydum. O, gülə-gülə mənə baxıb:

- «Svadba nada! Svadba!» – dedi.

Ürəyim uçurdu. Çıxdım çölə. Soyuq məni özümə gətirdi.

Uşaqlar kartof soymağa getmişdi. Mən də "zaqatovka" eləyib qayıtmışdım. Axşam kinodan sonra məni yenidən işləməyə apardılar. Düz gecə 24:00-a qədər balıq doğradım. Əllərim yenə soyuqdan üşüyürdü, barmaqlarım don- muşdu. Ancaq bu, nə qədər olmasa, kartof soy-maqdan asan idi...

Kələntərov hospitalda yatırdı. Telman və Bi-lalovla onun yanına getdik.

Bilmirdim komsomol qıza cavab məktubu ya-zım, yoxsa yox. Axı o yazmışdı ki, yazma. Bi-lalov mənə məsləhət gördü ki, hələlik yazma.

Atamın məktubu da məni kövrəltmişdi. Anam "Naftalan" sanatoriyasındadır. Dayım Sabir ailə-si ilə bizim evdən köçüb, gediblər...

09.03.1971, ***II gün.***

"Zaqatovka"ya getdiyimiz üçün "razvod"a gecikdik...

Ələkbər, Əhliman, mən və Bilalov “uborka” eləyib işə getdik. Bugünkü qiyamətdə saya-saya 3800 ədəd kərpic boşaltdım. Bir maşın idi...

İki maşın şebelli “rastvor”u daşıyıb, tikdiyi-miz binada otaqların içərisinə tökdük. Artıq qa-lanı elə həyətdəcə torpaqda basdırıb, üstünü örtdük. Ağır, çox ağır idi şebel qarışıq bu beton. 2 dəfə “nasılka”nın qolu sındı, özüm də daşı-dığım vaxt ağırlıqdan dörd dəfə büdrədim. Cəmi 5 nəfər idik. Klimenko xəstə idi. Eni, uzunu və dərinliyi metr yarım olan bir yer də qazdırdılar bizə. Bu, nə üçün idi, başa düşmədik. Yəqin gələcəyin hərbi sirridir.

Cərgə ilə qayıdanda bayrağı mən tutmuşdum. Nədənsə, nə qədər yorğun olsam da, bu bayraq əlimdə olanda yorğunluğum canımdan çıxırdı. Həm də özümü çox qürurlu hiss edirdim...

Gecə yerimə girəndə əvvəl yuxum gəlmirdi. Bir qədər ötənləri xatırladım. Düz bir il əvvəl “8 Mart” günü avtobusla Bakıdan Bərdəyə gəlmiş- dim. Ata-anamdan xəbərsiz... Pionerimə hə- diyyə vermək, təbrik etmək istəyirdim. O vaxt məni Tahir və Araz qarşıladı. 1 nömrəli mək- təbə getdik. Axşamtərəfi idi. Çox nadir hallarda Bərdəyə yağan qar o günü yağmışdı, külək bərk əsirdi. Cədvəli öyrənib, 2-ci mərtəbədə 13 nöm- rəli otağın qarşısına gəldik. Qapının deşiyindən dönə-dönə gizlincə içəri baxıb, zəngin vuru- lacağı anı gözləməyə başladıq. Zəng vuruldu. Hamı sinifdən çıxdı.

O, yox idi!

Araz çaparaq kimdənsə öyrənib gəldi ki, bu gün qız dərsə gəlməyib. Dəhşət məni bürüdü. Elə pis oldum o vaxt...

Aldığım hədiyyəni gecənin qaranlığında aparıb onların həyətinə atdım. Və gecə də qatarla Bakıya qayıtdım...

O vaxt bəlkə də onun heç ağlına da gəlməzdi ki, mən Bakıdan gələ bilərəm.

10.03.1971, ***III gün.***

Komandirimiz, leytenant Bryusov bu gün iş yerimizə gəldi. Yanında 35-40 yaşlarında mülki geyimdə arıq, uzun bir kişi də vardı. Bryusov dedi:

- Hazırlaş, bu adamla gedəcəksən!

Mat qaldım. Kim idi bu kişi?

- Bu adam səni yoxlayacaq, sınaqdan keçə bilsən, səni işə götürəcək, – dedi.

- Hara? –təəccüblə soruşdum.

- “UNR”-ə.

Sonra Bryusov gizlincə mənə göz vurdu:

- Rəssam işləyəcəksən. “Odinoçka”da!

Çaşıb mat-mat gələn kişiyə baxırdım. Serjant Denisenko xahiş etdi ki, qoy bu gün qalıb işləsin, sabahdan gedər. Bryusov razılaşdı. Və onlar getdilər.

Uşaqlar başıma yığışdı. Yenə sevincimin həddi-hüdudu yoxuydu. Allah mənə qapı aç- mışdı, qalırdı sabah imtahandan keçmək!

Axşam təzə «XB»-mi geyinib yoxladım. Bey-nimi bir sual deşirdi: “Birdən işimi bəyənməz, onda neyləyərəm?” Bu cür həvəslə hazırlaşıram, yox desə, mən batdım. Başımı aşağı salıb, fəh-ləliyimi eləyirdim...

11.03.1971, IV gün.

Səhər altdan təzə paradnı formamı, üstün-dən də təzə şabalıdı şinelimi geyindim. “Raz-vod”dan sonra məni kazarmaya gətirdilər. 08:30-da serjant Dolqiyer məni apardı...

“UNR”, mayor Surenkovun kabineti.

Tanışlıqdan sonra bir kapitan mənə çertyoj gətirdi, hazır çertyoj idi. Şrift yazdım, sonra da “krokodil” şəkli verdilər, baxıb çəkdim. Krokadili dünən Bryusovla gələn mülki paltarlı kişi ver-mişdi. Çəkdiyim şəklə və yazdığım şriftlərə ba-xandan sonra mayor Surenkov, kapitan və dünən Bryusovla gələn mülki paltarlı kişi bir-biri ilə gözləşəndən sonra mülki paltarlı kişi adımı, fa-miliyamı və əlavə məlumatları dəqiqləşdirib yaz-dı.

Və qəflətən üzümə baxıb:

- Həmişəlik qalacaqsan! – dedi.

Qulaqlarıma inanmırdım...

... Günorta bir də baxdım ki, təkəm, heç kim qalmayıb. Şinelimi geyinib, kazarmaya tərpən- dim. Gördüm uşaqlar yeməyə gedir. Mən də on-lara qoşuldum.

Poçt gəldi. Mənə banderol gəlmişdi. Sevin- cək açdım. “Elm və həyat”, “Ulduz”, “Azərbay- can qadını” və “Azərbaycan” jurnalları idi.

Jurnalları dolabıma yığıb, təzə iş yerimə get-dim. İkinci “krokodil”i yenicə çəkmişdim ki, ba-şımın üstündə Çeprasovu gördüm.

Əlini çiynimə qoyub dedi ki, sabahdan işə gəlmə! Sanki məni ildırım vurdu. Rəngim qaçdı. Elə bil yer ayağımın altında fırlandı. Bu vaxt sə- hər mənə çertyojları verən kapitan otağa girdi:

- Get! Sabah gələrsən, – dedi.

Çeprasovun üzünə qəzəblə baxa-baxa, geyi- nib otaqdan çıxdım.

Axşam uşaqlar iş yerində qalmışdı. Onların yeməyini maşınla apardılar.

İlk dəfə olaraq mən tək oturub, yemək yedim. “Odinoçka”da işləyirdim!

12.03.1971, V gün.

“Razvod”da məni görən təəccüblənirdi. Nazi- mə dedim ki, “ministr” işləyirəm. Hamı gülüşdü. Şineldə bircə mən idim.

İşə piyada tək gəldim. Qar ayağımın altında xırçıldayır, mənə ləzzət verirdi. Yolda tanıdım-tanımadım zabit görən kimi “çest” verib keçirdim. Və o an hədsiz qürur duyurdum.

İkinci sərbəst iş günüm idi. Bir çertyoj verdilər. “Kopirovka” elədim.

Bahar bayramı münasibətilə atama, anama, nənəmə, bacım Yeganəyə, qardaşlarıma, Öz-bəkistana Süleymana,

Mingəçevirə Ərəstuna, komsomol qıza, Gülxara, Zeynəbə məktublar yazdım.

Günorta yeməyindən sonra 39 bayraq dü- zəltdim. Xeyli də piyada gəzib, qırmızı parça üçün "portnika"ya, mismar üçün isə "MSD"-yə baş çəkdim.

İşdən bir az tez çıxdım. Denisenko ilə "zaqa- tovka"ya getdim, yeməyə gecikdik... Qəmbər- lə nahar elədik.

Tahirin atası, yalançı özü olsun, II dünya mü- haribəsində Hitler Almaniyası darmadağın olanda, Berlinin komendatı olmuş Soltan kişiyə cavab məktubu yazdım.

Sonra sabahkı siyasi məşğələyə hazırlaş- dım...

13.03.1971, ***VI gün.***

Səhər siyasi məşğələdə çox gözəl çıxış elə- dim...

Uşaqlar işə getdi. Çeprasovun arxasınca ye- ni iş yerimə gedirdim. O, mən tərəfə nədənsə baxmırdı heç.

Müxtəlif çertyojları "kopirovka" elədim...

Yeməkdən sonra poçtun gəlməyini gözlədim. Qəribdən, Aydından məktublar aldım. Aydının məktubu heç məni açmadı. O, qaranlıq yazırdı. Cavab məktubları yazdım. Qəribə, Nəcəfə, İs- gəndərə, Cabbarov Tahirə... Dünən yazdığım məktubları da hələ yola salmamışam. 20-yə ya-xın göndərilməmiş məktublar dururdu.

İşdə "kopirovka"nı qurtardım. Baxıb bəyəndi- lər. Dərindən nəfəs alıb, tam rahatlandım, imta-hanı vermişdim! Bazar günü olsa da:

- Sabah işə gələrsən, – tapşırdılar!

Bugünkü nəhs gün mənə düşdü.

Hamamda yaxşıca çimdim... Kinoda yaxşıca yatdım...

Б.Йанын «Чинэиз хан», «Баты хан» китабларыны охумушдум. Инди дя ардыны «Сонунъу дянизя доьру» китабыны охуйурам…

14.03.1971, ***Bazar gцnц.***

Bərk qar yağırdı. Geyinib işə getdim. İstirahət günü olduğu üçün kapitan Koşkin 3 kiçik çer- tyoju "kopirovka" eləməyi tapşırdı. Tez qurtar- dım, 12:10-da kazarmadaydım.

Zeynəbə, Gülxara, Tahirə “qalka” kağızında məktub yazdım. Kazarmada sıra ilə qəzetlərin nömrələrini tikdim.

Yeməkdən sonra kinoya getdik. “İndyuki” fil- mi verilirdi. Yatdım.

Məktub gəlmədi.

Axşam kinodan əvvəl starşina Bandısik bərk qəzəblənmişdi. Bizi cərgəyə düzüb, xeyli “stro- yevoy” apartdı. Sonra kinoya getdik. Yenə ki- noda yatdıq...

Kinodan sonra da starşina nəyə görəsə hirsli idi, hirsi soyumamışdı. Soyuqda, çöldə cərgəyə düzüldük. Qaranlıq ... Səssizlik... şiddətli külək və yalnız starşinanın gur səsi:

- “Polnıyyy şaaaqqq,.. ne slışnoo... rootaa...”

Və bizim bu çovğunlu gecədə “exo” verən ayaq tappıltılarımız! Təkəbbürlə baxmağımız!

Nə qədər qəribə, nə qədər çətin, əzablı olsa da, bu gecə xatirə idi. Şirin bir xatirə. Ölənə qədər unudulmayan gecə...

Gecə yatmazdan əvvəl cəriməsi olan az ol-duğundan starşina bizi cərgəyə düzüb, önü- müzdən bir qəribə mimika ilə hərlənirdi. Kim gülsə, “cərimə” alırdı. Mənə çatanda dayanıb, üzümə baxdı. Hədsiz gülməli sifət göstərdi mə- nə. Ancaq özümü toparlayıb saxladım.

Gülmə-dim. Sonda starşina gülənləri çıxarıb, döşəməni yudurtdu. Bu gecə mən canımı yaxşı qur-tar-mışdım...

15.03.1971, I gün.

İşə getdim. Bryusovla gəlib məni işə götürən o mülki geyimli kişinin adını öyrəndim:

Adı Rodkin idi.

Rodkin gəldi. Kitabdan seçib bir elan verdi.

- 8 ədəd yazarsan, – dedi.

Günortaya qədər yalnız 1-ni işləyə bildim. Bu gün ilk dəfə otağın açarını mənə verdilər.

Saat birə işləmişdi. Yeməyə getdim. Yemək- dən qayıdanda otağın qapısını özüm açıb içəri keçdim. Otaqda tək hərəkət eləmək mənə ləz-zət verirdi... Əvvəl ayaqqabılarımı mazladım, sonra remenimin baş hissəsini sürtüb parıldat-dım. Odekalonu açıb, əlimə töküb saçlarıma, boynuma, üzümə çəkdim. Otağa odekalonun xoş ətri yayıldı. Əhvalım yüksəldi.

İşə başladım. Bir xeyli keçmiş mülki paltarlı rəisim Rodkin gəldi. Məni də özü ilə götürüb, "taxta sexinə"

apardı. Oradan 1 “Zil” maşınına 7 ədəd taxta faner qoyub gətirdik. Rodkin məni yola salıb, özü harasa getdi.

Sürücü əsgər idi. Siqaretinin axırıncı qül-labını sinəsinə çəkib, kötüyünü yerə tulladı, sapoqunun altı ilə sağa-sola eşib, söndüyünə tam əmin olandan sonra kabinaya qalxdı. Ümumiyyətcə “taxta sexi”ndə siqaret çəkmək qadağandı. Ancaq ona bir söz demədilər. O da ehtiyatlı tərpəndi. Milliyətcə çeçen idi...

Kabinada sürücünün yanına, əyləşdim.

Taxta fanerləri otaqda səliqə ilə bir küncdən səhmanlayıb, üst-başımı çırpıb işə başladım. İkinci elanı da hazırladım. Bu günüm xoş keçdi.

Uşaqlar işdən gəlməmişdi. Xəstə olanlar, “dnevalnı” duranlar və “odinoçka”larla birlikdə qaranlıqda axşam yeməyini, yediyimiz yerdə ro-ta səs-küylə “stolova”ya daxil oldu.

İş yerində də işıq olmadığı üçün belə tez gə-liblər. Onların gəlişi ilə elə bir hay-küy qopdu, canlanma baş verdi ki, gün ərzində mürgüləyən yeməkxanaya sanki can verildi. Yenə qışqırtı başlandı.

-Piti, piti!

-Dolma, tənək dolması!

-Çolpa çığırtması!

Aş, dovğa, kabab istəyənlərin səsi bir-birinə qarışdı. Qaranlıqda onlar bu yeməklərin adlarını çəkdikcə mən elə bil o yeməklərin havada qoxusunu da duyurdum...

Fənər işıqlarında köhnə, əzik alüminium qab- larda yeməkləri payladılar. Bu suyuna sala ti-kələri və kartof, soğan atılmış duru yemək idi. Qara çörəklə hamı iştahla yeyir, səs-küylə də kim gəldi sataşırdılar. Gecikən əsgərlər bir uc- dan üç-üç, beş-beş gəlirdi. Hava soyuq olma- sına baxmayaraq uşaqlar bir-birlərini papaqla arxadan vurur, qaranlıqda gülüşür, zarafatlaşır-dılar. Papağı oğurlananlar da oldu. Qəflətən kimsə gizlincə əyilə-əyilə gəlir, birinin papağını qapıb, "stolova"nın bir başından o biri başına tə-rəf tolazlayırdı. Bir də görürdüm yemək sto-lunun üstünə iki-üç papaq düşdü. Hərə əli ilə öz boşqabındakı yeməyini qoruyurdu. Ayrı-ayrı dil-lərdə kim nə bacarırdı, səsi gəldikcə oxuyurdu. Serjantlar dillənmirdi. Hərdən starşina əlində fənər qışqırırdı:

- "Tixo... Tixo... yop tvoy boqa mat... tixo!"

- "Obezyanı!"

Beləcə, qaranlıqda işıqda olduğundan on də- fə artıq ləzzətlə xorla "çay" mahnısını oxumağa başladıq:

Kimin ağrıyır canı, bol çay içsin mərcanı,

Hər bir dərdin dərmanı, çay, çay, çay

Armudu stəkənda çay,

Ürəyimiz yananda çay...

Zeynal Cabbarzadənin sözlərinə Emin Sabit-oğlunun bəstələdiyi bu mahnı Şövkət Ələkbə-rovanın ifasında çox dəbdə idi. Sözlərini çox uşaq bilməsə də, çay, çay, çay sözlərinin tək-rarını deyə bilirdilər və çox gözəl də alınırdı. Adamın ruhu təzələnir, qürbətdə əsgər olduğu-muzu bizə unutdururdu...

Sonra Adil keçdi Qəmbər Hüseynlinin Tofiq Mütəllibovun sözlərinə bəstələdiyi cücələrim mahnısına:

Cip, cip cücələrim, cip, cip cücələrim

Cip, cip, cip, cip cücələrim

Nə yesəniz mən verərəm,

Su verərəm, dən verərəm.

Xor: Ay mənim cücələrim

Solo: Ay mənim cücələrim

oxuduqca hərə yeni bir sözünü tapır, əlavə edilir və axırda mahnını tam sözləriylə oxuya bildik. Bilmiyənlər də öyrəndi.

İşığın nə vaxt yanmasından xəbərimiz olmadı. Yatdıq. Beləcə növbəti bir əsgər günümüzü də başa vurduq.

Ölkəni basılmağa qoymadıq.

16.03.1971, ***II gün.***

Hamıdan əvvəl durdum. İşıqlar yanırdı. Yeri- mi "zapravka" eləyib, yuyunub gəldim ki, mək- tub yazam. Sakitlikdə təzəcə başlamışdım ki, "padyom" oldu. Yarımçıq saxlayıb, uşaqlara qo-şuldum.

Səhər yeməyindən sonra işə getdim. Rodkin məni də götürüb, bizim uşaqlar işləyən obyektə apardı...

Orada 3 ədəd balaca dəmir lövhəyə “stoy opasno” sözləri yazdım. Rodkin mənə tapşı- rığını verib getmişdi. Birdən işıqlar söndü. Xeyli gözlədim, yanmadı. Sonra öz iş yerimə qayıt- mağı qərara aldım. Qorxa-qorxa gedirdim ki, “patrul”lar görməsin. Yaxşı ki, görən olmadı. Əvvəl öz iş yerimə, sonra kazarmaya gəldim...

Səhər yarımçıq qalan məktubumun davamını yazdım. Yeni gələn məktubları açıb oxumağa başladım. Tahirdən 31 və 32 nömrəli məktub gəlmişdi. Oxudum. Yazırdı: “Martın 11 və ya 12-si teleqram gəlməlidir. Bərdənin “voyenkom”u ilə danışılıb və s.”. Bu gün deməli Tahir Bərdə-dədir? Çox sevindim. Ona 38 nömrəli qısa bir məktub yazdım. Gecikirdim işə.

İşə çatan kimi Rodkin mənə telefonla zəng vurdu, rusca danışdıq:

- “MSD”-yə gəl, – dedi.

“MSD”-də Rodkin məni bir serjantla tanış elədi.

- O, sənə yazı verəcək, işləyərsən, – dedi və özü yenə də çıxıb getdi.

Az keçmiş cavan bir rus qızı gəldi. Bu serjant onunla görüşüb söhbət elədilər. Hər ikisi çox bi- kef idi. Bir xeyli gözlədim, onların söhbəti qur- tarmırdı. Axırda təngə gəlib düz onların gözü qabağına gəldim ki, məni xatırlasın, işimi versin. O, məni çoxdan görmüşdü, hiss elədi ki, əl çə- kən deyiləm, axırda dedi:

- Get, sabah gələrsən!

Saata baxdım. 17:49 ... Çox tez idi. Gəldim kazarmaya.

Vaxt çox olduğundan başladım məktub yaz- mağa. Kazarmamızın çertyojunu, vəziyyətimizi və keçirdiyimiz həyat tərzi haqqında uzun-uzadı məktub yazıb, evə göndərdim. Pulumun qur- tardığını, imkan olsa, çox yox, mənə bir 10 manat pul göndərmələrini də qeyd etdim...

Yeməyə gecikirdik. Stepanoviçin briqadası gəlib çıxmırdı. Onları gözləyirdik.

Televizorda futbola baxdıq. “Dinamo” Kiyev 2:1 hesabı ilə “Alqa” Frünzeni uddu.

Yeməyə çox gec getdik. Müsəlmanlardan mən, Turabxan, bir də Mürşüd idi.

Yeməkdən sonra kartof soymağa getdik. “Starik”lərlə, söhbət eləyə-eləyə Mürşüdlə ya- vaş-yavaş kartof soyurduq, Turabxanla Stepa- noviçin briqadasından 7 nəfər uşaq da gəlib, bi- zə qoşuldu...

Ardjimanovun briqadası gecə 03:30-da, ser- jant Başanın briqadası isə səhər ağzı gəlibmiş.

Gecə mən yatanda 01:00 idi.

17.03.1971, ***III gün.***

Bu gün “UNR”-in “Lenkomnata”sında elanın dördüncüsünü yazırdım. Bир ukraynalı qızla qar- şı qarşıya oturmuşduq. O da nə isə “çertyoj”- larla işləyirdi. 23-24 yaşı olardı. Sarı, düz saç- ları kürəyinə səpələnmişdi. Tez-tez mənə ba- xırdı. Üzü də, qaşı da sarıydı. «Mumu» kara- meli ilə çay içirdi. Dindirmədim onu...

Rodkin məni süd almağa göndərdi. Pul verdi, məcbur qalıb götürdüm... Özümdə az idi. O qız da baxırdı. Yaman utandım. Allah kəssin pul- suzluğu. Mağazada süd növbəsinə dayanmış- dım, növbə mənə çatanda süd qurtardı. Kor-peşiman geri qayıtdım.

Rodkin gedəndə bu otağın da bir açarını mənə verdi.

Atama məktub yazıb pul göndərməsini xahiş elədim. Və məktubu «UNR»-in tünd mavi rəngli poçt qutusuna atdım.

İsgəndər və Zeynəbdən məktublar aldım.

Yeməkdən sonra uşaqlara qoşulub tikintiyə getdim.

«Stoy, opasno dlya jizn!», «otvetstvennıy za elektrorubilnik: ryadovoy...» sözlərini yazdım. Mayor

Dyakivdən “propusk” alıb öz iş yerimə «UNR»-ə qayıtdım. Orada Zeynəbə, İsgəndərə cavab məktubları yazıb kazarmaya gəldim. Uşaqlar hələ gəlməmişdilər.

18.03.1971, IV gün.

Günortaya qədər otağımda tək işlədim. Be- şinci elanı da hazırladım. İndi öz-özümlə tək qalmışam. Sakitlikdir. Çöldə hava çox soyuqdur. Hər yan ağappaq qardır. Birdən ağlıma gəldi ki, bəlkə bu günlər əsgərlik həyatımın ən xoş günləridir. Gələcəkdə nə olacaq kim bilir?

Bu ilin mart ayı mənə düşdü...

Bu gün Cavanşirin yazdığı məktubla məktub- ların ümumi sayını 170-ə çatdırdım.

Axşam “zaqatovka”ya getdik. 14 nəfər idik. Uşaqlar üçüncü gündür ki, işdən gecə saat 03:00-da gəlirlər.

Turgenevin “Atalar və oğullar” kitabını oxu- mağa başladım.

19.03.1971. V gün.

Səhər işə yenicə gəlmişdim ki, sarı qız gəlib dedi:

- Səni çöldə çağırırlar.

Mat qaldım. Əlimi sinəmə tuşlayıb:

- Məni? – təəccüblə soruşdum.

Məni kim çağırır? Məgər məni burada tanı- yan var?

Rodkin 2 gün idi işə gəlmirdi. Çölə çıxdım. Gördüm gələn Şaripovdur.

- Komandir Bryusov səni çağırır, – dedi.

Qorxdum.Məni Bryusov neyləyir? Şaripovdan şoruşdum:

- Xeyirdirmi?

- Bilmirəm, – dedi.

Lap ürəyim düşdü. Bəlkə məni işdən çıxa- rırlar. Tərs kimi Rodkin də iki gündür yoxdu.

Kazarmaya çathaçatda ağlıma gəldi ki, görən rayondan-zaddan pis xəbər gəlməyib? Leyte- nant Bryusov məni görən kimi:

- General gəlir, yoxlamadır, tez ol, divar qə- zetini təzələ! – dedi, onun açıq-yaşıl gözləri par-par yanırdı.

Ürəyim yerinə gəldi. Vatman kağızı götürüb, tələsik "UNR"-dəki otağıma qədər qaçdım. «Stroitel № 6» divar qəzetini işlədim.

Günorta yeməyində Səməddən 171-ci mək- tubu alanda gördüm mənə teleqram da gəlib. Dərhal, dördgöz oxudum. Məni "pereqovora" çağırırdılar. Bayram gecəsi martın 21-də, ax-şam 22:00-da valideynlərimlə telefonda danışa-cağam. Bərk həyəcanlandım.

Yeməkdən sonra işimə qayıtdım. Rodkin yenə yox idi. Bir ukraynalı yaşlı qadın döşəməni yuyurdu. Görünür buranın xadiməsi idi. Balaca, quru arxasını yuxarı qaldırıb, əyilərək əlləri ilə nəsə bıçaqla qaşıyır, sonra da qalxıb yumağı davam eləyirdi. Əsgini "pol" ağacına bürüyüb, döşəməni sürtürdü. Bir, iki dəfə də arxası mən tərəfə əyilib döşəməni qaşıdı. Ancaq quru arxa-sı elə quruydu ki, həvəs qaldırmağa gücü çat-mırdı...

İçki içdiyinə görə 3-cü rotadan bir serjantın "liçka"larını sökdülər və onu bizim rotaya gön-dərdilər. O da o "quru göt" arvad kimi indi əyilib döşəməni yuyurdu. Özü də

bədbəxt oğlu “vz-vod” komandiri imiş. 6 ay oxuyub, bu “liçka”lar üçün “stroyevoy” gedibmiş.

Az iç də!

Axşam işıqlar yenə söndü. İşıqlar yananda cəriməsi olanlar generalın gəlişi ilə əlaqədar döşəməni dəmir setkalarla sürtüb yudular...

Belim yenə qaşınır, köpəşiyib şişmişdi.

Bahar bayramı

20 mart 1971, VI gün.

Komsomol qızı sevdiyim gündən düz 500 gün keçirdi.

Bu gün Azərbaycanda Bahar bayramı idi. Yə- qin çərşənbə tonqalları qalanıb artıq...

Uşaq vaxtım yadıma düşdü.

Bir dəfə axırıncı çərşənbədə, elə həmin gün aldığım komsomol biletimi göyə şar fırladıb atanda itirmişdim.

Şar atmaq çərşənbənin yadda qalan, unudul- maz mərhələsidi. Köhnə cır-cındırı yumrulayıb, məftillə bərk-bərk sarıyandan sonra, bir metr uzunluğunda əlimizdə saxladığımız məftillərin ucunu fırlayıb-fırlayıb var gücümüzlə göyə tul- layırdıq. Əlbəttə ki, bu yumru cır-

cındıra neft töküb alışdırandan sonra. O vaxt biz uşaq idik... Alışıb yanan, göydən sönüb tüstülənə-tüstülənə yerə tappıltıyla düşən bu şarlar qədim Arran dövlətinin paytaxtı olmuş Bərdənin səmasını necə möhtəşəm göstərərdi!

Səmada bizim yanan, hiss verən bu minlərlə şarlar göydəki ulduzlara oxşayardı. Söz yoxuy- du, bu təmtarağı heç vaxt görməyənlər görə bilsəydilər, həsəd aparardılar...

Üç yanan şarların açıq məftilləri əlimdə o ge- cə komsomol biletini çox axtardım, axtardım və bu möcüzə idi ki, tapdım da!

Təp-təzə idi. Ayaq altda qalmamışdı. Elə tə- zə, şaxlı vəziyyətdə...

Onda 1964-cü il idi... Hər şey gözlərim önün- də elə aydın canlanırdı, elə bil o yanan şarların, tonqalların tüstüsünün qoxusu, his iyi məni indi də vururdu...

Aydından 12-ci, Tahirdən 39-cu məktubları aldım.

“Politzanyatiya”da kazarmaları yoxlayan ge- neral gəldi. Yan-yörəsi polkovniklərlə doluydu. Podpolkovnik, mayorları demirəm hələ...

Starşinanın hərəkəti bizi gülməkdən öldürdü. O, “Lenkomnata”dan onları gizlincə pusurdu...

General içəri girən kimi leytenant Bryusov şax durub, ayaqlarını bir-birinə çırparaq “çest” verib “dolojit” elədi. Sifəti qıpqırmızı qızarmışdı. General onu azad edəndən sonra kazarmanı gəzməyə başladı. Gözlərini azca qıyıb Əşrəfova baxdı. Əynində “XB”-si yox idi. Bryusov özünü itirmədi:

- İndicə işdən gəlib, – dedi.

Afərin Bryusova! Halbuki Əşrəfova heç “XB” verilməmişdi. Birdən gördüm ki, starşina göz vurub məni çağırır. Tez yüyürüb, ona yaxınlaş- dım, o, qulağıma:

- Bryusov 30 manat borcunu bu gün hazırla- yıb, qaytaracaq, – dedi.

Onun sifətinə baxdım. Bu yaşlı donuz sifət adam nə qədər sadə, etibarlı adammış...

General razı getdi.

Bizi hamama apardılar. Mən çimmədim. Həm isti su yoxuydu, həm də yer soyuq və çirkli idi.

Qəmbərlə bir baçok kartof təmizlədik.

Axşam “Qafqaz əsiri” filmini verdilər.

Matisakovla Eldar tutaşmışdı. “Starik”lər yığı- şıb heç kimi onları aralamağa qoymurdu. Ser-jantlar da baxırdı.

Gürcü sürücü yarıçılpaq “umı-valnik”dən yüyürüb gəldi, ancaq tamaşa qurtar-mışdı.

Kirpikli Eldar ağladı!

21.03.1971, ***Bazar gunu.***

Səhər “razvod” oldu.

Sonra uşaqlar işə getdi.

Denisenko və Stepanoviçin briqadaları ka- zarmada qaldı. Mən, Əkbərov Sahib və Mür- şüd də qalmışdıq. “Kanselyariya”nın döşəməsi- ni yuduq.

Teleqramı Bryusova göstərdim. Oxuyub:

- Baxarıq, “naçalnik ştab”a deyərəm, – dedi.

Kinoya getdik.

“Ələkeçməyən Yan” gürcü filmi idi. Yata bil- mədim. Məcbur olub əsgərliyə gələndən ilk dəfə filmə baxdım. Əla idi. İkiyə işləmişdi. Uşaqlar hələ yeməyə gəlməmişdilər.

Tahir Ağayevdən 34-cü, Yevlaxda yaşayan əmim oğlu Əbülfətdən 4-cü məktubları aldım. Tahirə yazmışdım ki, köhnə pioner, indiki kom- somol qızla evlənəcəyəm. Sən də Bərdəyə məzuniyyətə gedəndə onun böyük bacısına bax. Xoşun gəlsə, sən də onu sev, bacanaq olarıq. Ancaq Tahir bu barədə bir söz yazmamışdı.

Yemək vaxtı Bryusov dedi:

- Get hazırlaş!

Sevincimdən bilmədim nə edim.

Üzümü qırxdım, boynumun arxasını ağdamlı Telman düzəltdi. Sapoqlarımı mazladım, sür -tüb parıldatdım. Balacanın papağını alıb başı- ma qoydum. Mənimki başıma bir az böyük idi. Remenimin qızılı beş ulduzlu dəmir başlığını diş poroşoku ilə sürtdüm. Alışıb yanırdı.

Ardjimanovun əla bir şineli vardı. Paqonların- dakı “SA” yazılmış hərflər xüsusi bir şriftlə idi.

Bryusov məni tam yoxlayıb, ilk “uvolnitelni”ni yazdı. Gecə 22:00-a qədər azad idim. Dolqiyer də geyimimi yoxladı.

Telmandan 1 manat aldım. Söz yox ki, ayrı heç kim pul verməzdi. Bura belədir...

Uşaqlarla görüşdüm və ilk dəfə olaraq “KPP”-də “uvolnitelni”mi göstərib, hərbi hissənin ərazisini tərk elədim.

Bilmirdim nədən başlayım. Şəhərdaxili avto- busu görüb, mindim. Vağzala gedirdi. Mən də getdim. Sonra bir az şəhərdə hərləndim. Gör-düm bura elə də böyük şəhər deyil. Bizim Min-gəçevir şəhəri buradan böyükdür.

Bərdənin Nizami küçəsi kimi burada da mər- kəzi küçə bir dənədir. Pervomaysk şəhərinin ca- maatı da elə bu mərkəzi küçədə yığışır. Vağzal, kitabxana, poçt, kino, məktəb, restoran –hamısı bu mərkəzi küçənin ətrafında, sağ və sol tərəf- lərində yerləşmişdi.

Mehmanxanalarına baxdım. Ukrayna dilində “Qotel Pervomaysk” yazılmışdı. Mərkəzi univer-maq, “Raykom”un, “İspolkom”un binaları da bu küçənin mərkəzində yerləşirdi. Gözəl parkları vardı. Şəhərin içi ilə çay axırdı. Kiçik bir şəlaləsi də vardı. Hər yan da qarla örtülmüşdü. Avto-buslar, taksilər işləyən mərkəzi küçədə asfaltın qarı təmizlənmişdi. Rahat gediş-gəlişi vardı. Geyinib-kecinmələrindən hiss edilirdi ki, bu şə-hərdə yaşayanlar çox da varlı deyillər. Qadın-ların saç düzümü, manikürləri, taxdıqları bər-bə-zək əşyaları da bunu büruzə verirdi.

Mərkəzi poçtun yerini təkrar soruşub, dəqiq- ləşdirəndən sonra ora gəldim. Yolda kirovabad- lı

Mamışevi və onunla hərlənən bir neçə nəfər azərbaycanlı əsgərləri də gördüm. Bir-birimizlə qucaqlaşıb görüşdük. Onlar da "pereqovornu"ya danışmağa gəlmişdi. Hamısının da "uvolnitel- ni"si vardı.

Vaxtıma hələ qalmışdı.

Yenə qayıdıb gəzməyə getdim. Bu dəfə Çer- paşovla, Xalulinlə qarşılaşdıq. Çerpaşov dedi:

- Get poçta.

Xalulin isə:

- Get gəz! – dedi.

Qızıl adamdı bu Xalulin.

Bir azda gəzmişdim ki, şamxor ermənisi Oqanesyanla rastlaşdım. Onun atasının hansı- sa dostu gəlibmiş. Ona görə buraxıbmışlar. Oqanesyanla xeyli gəzdik. Adam yad şəhərdə tək olanda yetimə oxşayır...

19:00-da "pereqovornu"da oldum. Növbə gözləyəndə iki rus qızı ilə tanış oldum. Onlar Krımla danışmaq istəyirdilər. Birinin 15, digəri-nin 16 yaşı vardı. Nə soruşdumsa gülə-gülə ca-vab verdilər. Onlar güləndə gözlərinin içi də gü-lürdü. Mənə ünvan və telefon nömrəsi də ver-dilər. Danışdıq ki, nə vaxt bir də şəhərə gəlsəm, onlara zəng vurum. Gözəl qızlar idi. Onlar mənə, mən də

onlara baxa-baxa qalmışdıq. Gedəndə də gülə-gülə bir neçə dəfə arxaya çönüb, mənə və Alik Oqanesyana hava öpüşü göndərdilər. Biz də cavablarını elə onlar elədikləri kimi ver-dik. Qızlar gedəndən az sonra qırmızısifət, göz-ləri daim gülən Oqanesyan dirəndi ki, dur gedək. Burada poçt yaxşı işləmir və s... Bir az da gözləməyi, səbr etməsini ondan xahiş elədim. Saat 20:40 dəqiqədə elan elədilər. Bakını göz-ləyən var? Alik məndən qabaq hə, hə qışqırdı. "Barda! Tretaya kabina" səslənəndə ayağa qal-xıb özümü üzərinə 3 yazılmış şüşəli kabinaya atdım.

Alüminium dəstəkli, işlənməkdən çirklənmiş spiralvari şunuru olan dəstəyi qaldırıb əlimdə tutanda, həyəcandan əsirdim. Alo, alo deyəndə atamın səsini eşitdim. Qulaqlarım əvvəl həyə- candan tutuldu. Səsim xırıldadı. Sonra hər şey yoluna düşdü. Danışdım!

Vidadi və Vaqif qardaşlarımla da danışdım. Anam telefonda ağladı. Danışa bilmədi nənəm də...

Xoşbəxt idim.

Kabinadan çıxanda dərindən, lap dərindən bir nəfəs aldım.

Oqanesyanla qayıdıb rotaya gələndə saat düz 22:00 idi.

Gecə yerimə girəndə telefon danışıqlarımızı yenidən xatırladım. Anam xəstələnib. Naftalan sanatoriyasında

müalicə olunur, evə də mənim- lə danışmaq üçün gəlibmiş. Bacım Yeganə də kövrəldiyindən danışa bilmədi. Qardaşım Vidadi dedi ki, “8 Mart” bayramıyla əlaqədar komso- mol qızın hədiyyəsini Zeynəbin anası Zəhra xa-la qızın anasına verib.

Özü də doğru olduğuna “sən öl” vurub and içdi. Hədiyyəni də mən əvəzdən atam alıbmış. Bu mart ayı mənə yaman düşdü. Allah axırını xeyirli eləsin. Sonra yadıma saldım ki, dedilər, atam nəsə işiylə bağlı səmərəli təklif verib, ixtira kimi bir şey eləyib. Telefonda məni yaxşı başa sala bilmədilər. Dedilər məktubla yazarıq. Sonra da dedilər, qardaşım Rafiqlə Aydın mayda ya- nıma gələcək, hər ay teleqram vurub telefonla danışacaqlar. Pul istədim 10 manat!

- 10 nədir, sabah nə qədər lazımdır göndərə- rik, – dedilər:

Özüm xahiş elədim ki, artıq göndərməsinlər...

Hələ birdən yadıma düşdü ki, biz Oqanes- yanla “pereqovornu”dan qayıdanda parkın qa- bağında Qolberqi gördük. Mülkü paltarda idi. Sən demə bizimlə əsgərlik çəkən bu oğlan elə Pervomaysk şəhərinin özündənmiş! ...

O vaxt sovet qanunlarına görə heç kəs ya- şadığı şəhərdə əsgərlik çəkə bilməzdi. Bəs bu necə olmuşdu?!

O, həddən artıq gözəl geyinmişdi. Həsəd aparılacaq dərəcədə gözəl, boy-buxunlu idi. Ba-halı “duxu”sunun iyi 15 metrdən adamı vururdu. Biz onunla çox mehriban görüşdük. Ayrılanda dönə-dönə xatırlatdı ki, onu belə vəziyyətdə gördüyümüzü heç kəsə deməyək. Elə biz on-dan təzə ayrılmışdıq ki, çönüb arxaya baxan- da gördük onun qoluna bir ağ şubalı qız girib. Onlar qara bürünən parka tərəf getdilər.

Belə - belə işlər...

Sevindiyimdəndi, nədi yata bilmirdim. O qə-dər o üz-bu üzə çevrildim ki, axırda nə vaxt yu-xuya getdiyimi bilməmişəm.

Yaz gəldi

22.03.1971, I gün.

Azərbaycanda bu gün yazın ilk günüdür! İndi yəqin paxlavalar, şəkərburalar, qoğallar bi-şirilib, səmənilər göyərib. Şarlar atılıb, qapı-qapı qapılar pusulub, torbalar sallanıb. Tonqal- lar qalanıb üstündən tullanılıb, niyyətlər tutulub.

İndi orada bahardır!

Bütün ağaclar yəqin ki, çırtlayıb, tumurcuq- layıblar. Ərik, alça, şaftalı çiçəkləyib. Zəmilərdə içi lalə dolu arpa, buğda göyərib, yüngül mehin, küləyin təsirindən göz oxşayan bir gözəlliklə yır-ğalanırlar...

Saday Əliyev, Sahib Əkbərov, Məhəmməd Ələsgərov yaşayan Kəlbəcər tərəflərdən dağ- ların qarı yavaş-yavaş əriyib, biz tərəflərdə "Tər-tər" çayını daşdıracaq. İndi Bərdəni oyanmış torpaq iyi bürüyüb...

"Stokvartirni"yə yazmağa getdim. "Stoy! Opasnaya zona" sözlərini 2 ədəd dəmir löv- hənin üstünə yazdım. Sonra "kraska"nı da götürüb, "UNR"-ə gəldim. Bir neçə məktub yazdım. Nəcəfdən 4-cü məktubu aldım. Alma- niyada əsgərlik çəkir. Bizimlə orta məktəbdə oxuyan burnu uzun Rafiq Quliyev də onunla bir yerdədir. 5 azərbaycanlıdırlar...

Dəmir lövhələrin kənarını rənglədim.

Axşam Səbuhiyə pul gəlmişdi. Mənə maz, “konvert”, konfet aldı. Başqa şeylər də almaq is- tədi, qoymadım.

Bu gün Muxtar məzuniyyətdən gəlməli idi. Gəlmədi. Şolomonov, Qaponenko, Bazov o vaxtdan Moskvaya getmişdilər. Salayev və Ələsgərov “komissavat” olmuşdular. Adil, Kə-ləntərov, Nadir Allahverdiyev hospitalda, Əliqu-liyev isə dəlixanada idi. Get-gedə uşaqlar aza-lıblar.

Gecə 00:30-a qədər on nəfər uşaq yemək-xananın “apilka”sını dəyişdik. Köhnəni daşıyıb, yerini süpürüb, təzəsini səpdik. Uşaqların çoxu işdən gecə 2-də gələsidir.

Oturub komsomol qıza məktub yazdım:

Amandır, sevgilim asta dolan gəz

Ahular ovlanar düzə gələndə!

Gecə yarı idi, qəflətən yadıma bir şey düşdü: “Mən Bərdə ilə telefonda danışanda dedilər ki, qonşumuz Arazın atası Xıdır kişini tutublar. Ona 2 il icbari iş verilib. Yazıq adamıydı. Alçaqboylu, 120 kq çəkisi olan bu adamın arvadı da özü ki-mi kök idi. Çəkisi nağdı 100 kq

varıydı... Və on-ların uşağı olmurdu. Arazı lap bələkdən götürüb saxlamışdılar..."

Нютенин «Фауст»уну охуйурам…

23.03.1971, ***II gün.***

Hərbi xidmətə gəlməyimizin 4-cü ayı idi. Bu gün ilk dəfə olaraq torpaq qurumuşdu. Yazın gəlişi duyulurdu. Hava xoş idi. Qar topaları əri- yirdi.

İşə getdim. 13 iyun 1971-ci ildə seçkilər ola- caq. Onunla əlaqədar, elanlar yazdım.

Зщдлщмтшл Arnaut məni kabinetinə çağırtdırdı. Tələsdiyimdən papaqsız gəlmişdim. Qapıdan içəri keçəndə növbətçi öz papağını başıma qo- yub:

-Başı açıq olmaz! – dedi.

Yanında oturan mayor mənə kiçik qapı nöm- rələri verdi və onlardan yazmağımı tapşırdı.

Bu gün Oqanesyanın yazdığı "naryad"lara görə maaş aldıq. 3 manat 80 qəpik.

Dəmir lövhələrdən rəngləyib qurumağa qo-yurdum. “Kraska” qurtardı. Hazırlaşıb kazarma-ya qayıtdım.

Mən yerimə girəndə uşaqlar hələ işdən gəl-məmişdi. İşıqlar da sönmüşdü...

“Faust”dan xeyli oxumuşam...

24.03.1971, ***III gün.***

“Uborşik” idim. Qurtarıb “UNR”-ə işə getdim, oradan da məni “stokvartirni”yə göndərdilər. “Kraska” olmadı. Qayıtdım. Karandaşla üç də-mir lövhənin yazılarını cızdım. Vaqif Həsənov-dan və İman Musayevdən məktublar aldım. Hər ikisi də ilk dəfəydi yazırdılar. Фдьфтшнфнф Nə-cəfə məktub yazdım. “Polevaya poçta” 35892 “F” ünvanına göndərdim.

İmanın atası Yevlaxda mənim atamın işçisi idi – zavodun kranını sürürdü. İman məndən bir yaş balacaydı. Atası anasının üstünə ikinci arvad gətirdiyi üçün o, Bərdədə anası ilə yaşa-yır və atamın idarəsinin avtobusunu sürürdü. İn-di o da əsgər getmişdi. Ona da cavab yazıb, bu ünvana göndərdim: Sevostopol-7 v/ç 48589 “L”

Yeməkdən sonra iş yerimdə “uborka” eləyib, tam səliqə-səhman yaradıb tualetə getdim. Bu tualet, hərbi hissəmizin həddən artıq uzun, en-siz ümumi tualetindən fərqlənirdi. Ora yalnız əs- gərlər üçün nəzərdə tutulmuşdu, unitaz yerində üçbucaq şəklində deşiklər...

Bura isə fərqli idi, yarı hissəsindən qadınlar istifadə edirdi. Düzbucaqlı şəklində, altı metr boyu olan və tən yarıdan qırmızı kedra ağac- larıyla arası kəsilmiş, öz xüsusi spesifik iyi olan rahat bir tualet idi.

Bütün tavanı, döşəməsi, yanları, qapısı və in- san boyundan yuxarıda yerləşən kiçik pəncə- rələri – qalın beşlik, kedra ağacından çəkilmiş taxtalardan yığılmışdı. Bu taxtaların, çoxlu dü- yünü və çürük yerləri olduğundan tualetə istifa-də etmişdilər.

Bu tualetin hərbi hissəmizin tualetindən fərqi oydu ki, içəri girən adam içəridən qapını bağ-laya bilirdi. Hərbi hissəmizin tualetinə nə vaxt getsən, əsgərlə dolu olurdu. Burada isə gün ər-zində beş-on adam olardı.

Tualetin hər iki hissəsində, taxta döşəmədə üç üçbucaq formasında deşik vardı ki, üstündə unitaz qoyulmamışdı.

Ancaq əvəzində taxta döşəmənin üstündə, deşiklərin hər iki tərəfində ayaq formasında qa- lın taxtadan ayaq

yeri düzəltmişdilər. Həm də bu hissə ümumi döşəmədən 20 sm. yuxarıda idi.

Gələn adam bu yerdə durub şalvarını aşağı çəkəndə və ya tumanını yuxarı qaldıranda heç yana toxunmurdu. Bir sözlə, rahatlıq idi...

Bu gün tualetdə olanda isti vurub içəridəki spesifik qoxunu artırmışdı, məni nəysə şəhvət oyadan bir duyğu bürüdü. Diqqətlə qadınlar tərəfə qulaq asdım. Oradan iki yaşlı qadın səsi gəlirdi. Biri "vnuçka"sı haqqında o birisinə danı-şırdı.

"Yüngül işimi" qurtarıb, çölə çıxanda Oqa-nesyanla qarşılaşdım. Heç əlimi yumamış qu-caqlaşdıq.

-Sən burada neynəyirsən – soruşdum?

-Burada işləyirəm.

-Harada?

-Koridorun axırında sol qapı mənimdir.

-"Smeta"ları, "naryad"ları burada hazırlayır-san?

-Hə!

O danışmayanda da gözləri gülürdü. Bir az da ordan-burdan danışandan sonra mənə göz edib, başı ilə tualeti göstərərək dedi:

- Oradakı işlərdən xəbərin var?

- Nədən?

- Gəl bura, – dedi.

Və məni dartıb, yenidən tualetə saldı. Əlini qalın qırmızı dodaqlarının üstünə basıb, sus işarəsi verərək qadınlara tərəf olan taxta ara- kəsmənin çox çətin hiss edilən düyün yerində əlini gəzdirib necə elədisə oradan bir deşik açıldı. Əlində taxta bir "propka" tutmuşdu. Qaytarıb yerinə basdı. Xısın-xısın, astadan gülə-gülə məni çölə çıxartdı.

-Gördün, – dedi. - Kefin duranda açıb baxar- san.

Mat qalmışdım. Otağıma qayıdıb özümə gə- ləndə məndə nəsə bir maraq oyandı. Qərara aldım, Sarıkirpikli qız tualetə gedəndə gedib baxaram. Canıma xoş bir istilik yayıldı...

Axşam Stepanoviç mənə yaxınlaşıb dedi:

-Sən qəzetləri "podşivka" elə, əvəzində valideyinlərinə teleqram vuraq ki, çox yaxşı xidmət edirsən. Bir sözlə, təşəkkürnamə!

Razılaşdım.

Uşaqlar axşam kartof soymağa getdi. Onlar qayıdanda gecə 01:00 idi.

25.03.1971, IV gün.

“Razvod”dan sonra uşaqlarla gedib “stokvar-tirni”dən kraska gətirdim. Dəmir lövhələri çıxarıb, çöldə rənglədim. Hava bərk isti idi, hər yanda qar əriyirdi. Bütün binaların üstündən qar əriyib damcı-damcı süzülürdü. Ağ parça alıb, evə üçüncü “bağlama”nı göndərdim. İçində yetmiş ədəd aldığım məktub və iki ədəd dolmuş gün- dəliklər vardı.

26.03.1971, V gün.

Bu gün dəmir lövhələrin birinə “Uqolok ob-şestvennoye inspektora” sözünü yazdım. Əla çıxdı. Günortadan sonra ağdamlı Muxtar mə-zuniyyətdən qayıtdı. Bütün azərbaycanlılar onun başına yığılmışdı.

Axırda şeşələnərək bildirdi ki, qayınatası qoymayacaq onu burada çox qalmağa.

İşi rayonda qurub-qoşublar. Tezliklə Ağdam “hərbi komissarlığı”ndan sənəd gələcək “Azvo- yenkomat”a, oradan da bura.

Vəssalam! Muxtar Bərdəyə heç bizə də get-məyib. Elə hey irişirdi. Dediyinə görə, qayın-atası Quzanlı kəndinin bərk gedənlərindəndir...

Sabahkı siyasi məşğələyə hazırlaşdım.

Vaxtında yatdım.

Fərman Kərimzadənin "Qarlı aşırım" kitabını oxuyub qurtardım...

27.03.1971, VI gün.

Siyasi məşğələdə yaxşı çıxış elədim. Bu gün-kü çıxışa görə Bryusov əvvəl məni tərifləd̈i, son-ra isə dedi:

-25 martda komsomol iclasında olmadığın üçün sənə xəbərdarlıq edirəm. Bir də belə olsa, işdən çıxacaqsan.

Dillənmədim. Bilirdim, məni bir qədər qorxu- dur ki, otuz manatı əbədilik unudam. Onsuz da unutmuşam o pulu. Halal xoşu olsun.

Bəxtiyar Vahabzadənin "İkinci səs" dramını oxudum. Yaxşı idi. Rəşad, Arzu, Həyat, Fikrət... əsl həyat həqiqətlərindən yazırdı.

Arifdən məktub aldım. Yazıb ki, Misirxanov Tahirin atası 17 martda öldü.

“Lenin dərsi” oldu. Hərbi hissənin komandiri Bezlepkin şəxsən özü deməliydi. Rota bəzən- mişdi. Ancaq nədənsə gəlmədi. Əvəzində dərsi Boyko keçdi...

Axşam 18:00-da “konstruktaj”a getdik. Bryu- sovun yanında bir mayor bizim boyun ağlarını yoxlayırdı. Məni, Bilalovu və Eldarı hələ mayor yoxlamamış Bryusov özü geri qaytardı. Ağda- mın Boyəhmədli kəndindən olan göygöz, uzun kirpikli Eldarı bir az əvvəl rotada Bryusov təpiklə vurmuşdu, sonra da:

- Şakal! - demişdi.

Eldar bu məsələnin içini hələ də heç kimə açmamışdı. İndi də belə...

Mən heç iki dəqiqə keçməmiş, boynuma yeni ağ “varatnik” tikib cərgəyə qatıldım. Bryusovun qolunda qırmızı “povyastka” vardı. Rota üzrə növbətçi idi. Eldarla Bilalov isə gecikdi. “Kon- struktaj” qurtardı.

Rota geri, kazarmaya qayıdanda starşina yumruqla Eldarı vurdu. Dolqiyer də onun iki qıl- çasının arasına – yumşaq yerinə bir təpik iliş- dirdi. Və komandirimiz Bryusov da qəflətən onu boğmağa başladı. Starşina gördü ki, uzun kir- pikli, göygöz, ağ sifət Eldar qaralır, zorla onu Bryusovun əlindən aldı. Gördülər heç nə ol-

mayıb, istədilər təzədən döyələr, Eldar canını qurtarıb qaça bildi. Bu dəfə hər üçü Bilalovun üstünə cumdu. Bryusov onu da boğazladı. Son-ra qışqırdı:

- Balbes! – dedi:

Bakılı Bilalov çabaladı ki, onun əlindən çıxsın, Dolqiyer arxadan Bilalovun qollarından qucaq- ladı ki, Bryusov onu babat vursun. Birdən Bryu- sov elə bil yuxudan ayıldı, özünə gəldi və onu buraxdı. Mən mat qalmışdım. Rəngim ağappaq olmuşdu. Bryusov mənə tərəf çönüb:

- “10 sutka, xvatit?”
Dinmədim.

Dinmədim yox, nitqim qurumuşdu. Ancaq or- tada otuz manat məsələsi vardı. Bir anlıq özü- mə gəldim. Starşina yaxınlaşıb qulağıma:

-“Tak nelzya. Tı xoroşiy paren...” arxasını eşitmədim də...

Mərəkə qurtardı.

Uşaqlar kinoya getdi. Biz üçümüz tər-təmiz yuyulmuş döşəməni təkrar süpürdük... Hamı yatan- dan sonra qırmızı işığı yandırdılar. Üçümüzün də əlinə setka verib:

-Yuyun. Setka ilə! – Serjant Dolqiyer riş- xəndlə qışqırdı.

Düz gecə ikiyə qədər döşəməni sürtdük, yu-duq-süpürdük, yuduq... Gecə 02:00-da Bryusov gəldi. Gözlərini qıyaraq diqqətlə döşəməyə ba-xıb öz dilində insafla:

-Pis deyil, – dedi

Onlar yatmağa getdi. Mən gecə 02:00-dan 04:00-a qədər növbədə durdum. Yerimə Bilalov durmalıydı. O, o qədər yorulmuşdu ki, Borisoviç onu düz dörd dəfə oyatdı. Bilalov hər dəfə gö- zünü açır, "şass"... deyib, bir də yuxuya gedirdi. Gülməkdən ölürdüm... Beləcə Bilalov məni əvəzlədi, 04:30-da gedib, "suşilka"da yatdım.

28.03.1971, ***Bazar gunu.***

Səhər saat 06:30-da durdum.

"Padyom" 07:00-da oldu. "Razvod"dan sonra Ardjimanovun briqadası işə getdi. Bütün kazar- manın uşaqları şoka düşmüşdü. Döşəmə ağ-appaq ağarmışdı. Setka ilə gecə çox ürəkdən işləmişdik. Çöl palçıq idi. Zarafatla palçıqlı sa-poqla içəri girmək istəyənin üstünə qışqırırdıq ki:

- Çıxart sapoqları!

Bəziləri karıxıb çıxarır, gülməkdən uğunur- duq.

Poçt gəldi. Cavanşirdən, komsomol qızın qardaşından məktub vardı. Komsomolun qarda- şının məktubunu tez açıb oxudum. “Qohum” -deyə müraciət etmişdi. Kefim kökəldi. Gələcək qaynımdır!

Komsomolum hələ pioner olanda yazdığı bi-rinci məktubundakı iki misranı ürəyimdə tək-rarladım:

“Bir qız ki, heç kəsə verməyə qəlbin,

O qəlbi saz kimi çalmaq olarmı?”

Bəli, bu həqiqət idi!

O, məni sevirdi və açıq da bildirmişdi. Ancaq mən əl çəkmir, onu məktəbdə biabır edirdim. Gündə ya Zeynəb, ya Gülxar, ya Vidadi onun çantasına məktub dürtürdü. Bir az ağır olmaq lazımdır.

Əlimdəki qələmin bir ucunu ağzımda, dişlə- rimin arasında oynadır, haqsız olduğumu anla- yırdım.

Göygöz, uzun kirpikli Eldar içəri girəndə xə- yaldan ayrıldım. O, düz gəlib yanımda oturdu. Gah əllərini didir, gah alnını ovuşdurub qaşıyırdı.

-Sözlü adama oxşayırsan...

- Bir işin üstünü açmışam. Özümü zibilə sal- mışam.

-Nə zibil?

- ...

O tərəddüd edirdi. Ürək-dirək verdim. Danış- dı. Bildirdi ki, “kanselyariya”dan “Tyurki, İstan- bul” və s... bu kimi sözlər eşidib. Rus dilini bil- mədiyindən başqa heç nə başa düşməyib. An- caq çəpik tərpənib, rus dilini bilən kirovabadlı Mamışevi tapıb, oraya gətirib. Mamışev hamı-sını eşidib. Onlar qapı açılanda görüblər ki, Boyko, Bryusov, Oqanesyan içəridən çölə çıxır- lar. Bryusov Eldarı qapının ağzında gördüyünə görə onu təpiklə vurub. Mamışev isə özünü itir- məyib, guya indi içəriyə girən kimi keçib gedib.

- Mamışev sənə dedi nə danışırdılar?

- Yox demədi. Çıxıb getdi.

Mamışev əvvəl bizim rotada idi. Karantin vaxtı onu bizə komandir də qoymuşdular. Sonra onu birinci rotaya dəyişdilər. Rotalarımız yan-yana idi. Yeməkxanada, klubda, hər yerdə hər gün dəfələrlə qarşılaşırdıq. Fikirləşdim ki, Ma-mışevdən öyrənərəm. Çox maraqlıdır, onlar türklərdən, İstanbuldan nə danışarlar?

Axşam uşaqlar kartofa getdilər. Mən növbətçi qaldığım üçün 20:00-da yerimə girdim.

29.03.1971, I gün.

Səhər işə getdim. Otaqda bir az rahatlaşan- dan sonra «Qazo-elektrosvaroçnıe rabotı» cüm- ləsini yazdım. Rodkin yenə yox idi. Oturub ora-bura məktub yazdım. Nə qədər güddüm, Sarı- kirpikli qız tualetə tərəf getmədi.

Hava xoş idi. Gün adamı isidirdi. Mənim ota- ğımın bir pəncərəsi həyətə, biri isə tualetə tərəf baxırdı. Tualet həyətin lap kənarında, küncdə yerləşirdi. Həyətə getməyə kim öz otağından çıxsa, mənim pəncərəmdən görünürdü.

Oturduğumuz bina "Г" şəklində tikilmişdi, bi- zim otaq "Г"nin kiçik tərəfində yerləşirdi. Bina bir mərtəbəli, otaqları çox idi. Hər otaqdan koridora qapı açılırdı və otaqdan çıxan koridorla gəlib, bizim otağın qarşısından üç pilləkəni enərək hə-yətə düşürdü.

Məktubları yazıb, kazarmaya getdim. Yemə- yə gecikmişdim. Rotalar yeyib getmişdi. Yemək- xanada işləyən sıravi əsgərlərdən xahiş elədim, birtəhər razılaşıb, yemək düzəltdilər. Onların mənə özbaşına yemək vermək səlahiyyətləri yoxuydu.

Tahirdən, Yevlaxdan Həmid əmimin oğlu Mehtidən və Zeynəbdən məktublar aldım. Tahir yazırdı: «- Qardaş, Xarşuridəyəm. On günlük məzuniyyət almışam. Dördün yarısı Tbilisiyə çı- xacağam. Ordan təyyarə ilə Bakıya. Sonra Bər- dəyə gedəcəm. Arxayın ol. Nə demisən, hamı-sını yerinə yetirəcəm...»

Məktubu üç gün əvvəl yazıb. Deməli indi o, Bərdədədir! Sevincimdən bu kiçik otağıma sığ- mırdım. Pəncərənin az aralanmış pərdəsini axı- ra qədər açıb göylərə baxdım... Kaş mən də Bərdədə olaydım... Görəsən komsomol qız bö-yüyüb?

Qayıdıb Zeynəbin məktubunu açdım. Birnə- fəsə oxudum. Komsomol qız etiraf edib ki, “əs-gərlikdə olan bir oğlanı sevir. Ancaq deyirlər ki, ürəkdən sevənlər bir-birlərinə qismət olmur.”

Pörtmüşdüm. Yenə qalxıb, pəncərənin bir ta- yını açdım. Çöldə soyuq idi. Pəncərədən soyuq hava içəri doldu. Günəşin üzünü bulud tutan kimi adam soyuğu hiss edir. Pəncərəni bağ- ladım. Kiçik otaqda var-gəl eləyib gah sevinir, gah həyəcanlanır, gah öz-özümə danışır, bilmir- dim nə edəm. Bütün günü bu bir cümlə fik- rimdən çıxmadı. “Deyirlər ürəkdən sevənlər bir-birlərinə qismət olmurlar...” Yox! Allah qoysa, biz qovuşacağıq. Mən buna həqiqətən də çox əminəm...

Ancaq sonra məni bir şey maraqlandırdı. Axı, bu balaca qız belə şeyləri haradan bilir? Mən inanmazdım ki, onun dili var, belə fikirləri var. O böyüyüb yəqin. Dörd ay az deyil ki...

Bir dəmir lövhənin üstünə «Otdeloçnıye ra-botı» sözü yazdım. Stulda oturub, qolumu ba-şımın altına qoyub yatmışam. Bir zaman ayıl-dım ki, kapitan Koşkin 2 №-li otağın qapısını bağlayıb gedir. Mənim otağımın qapısı bu bağ-lanan otağa açılırdı. Sarıkirpikli qız da orada otururdu. Cəld yüyürüb, içəridən qapını döydüm. Kapitan işıqları da söndürmüşdü. Sən demə 19 dəqiqə işləyibmiş səkkizə. Yaxşı ki, eşitdilər...

30.03.1971, II gün.

XXIV qurultayın açılma şərəfinə polkovnik Ar- naut, podpolkovnik Bezlepkin, Malinovski təntə- nəli nitq söylədilər...

İşə gəldim. “Elektrobezopastnost v stroitelst- vo” sözünü işlədim.

Yeməkdən sonra poçt gələndə Səbuhidən bir qalaq məktubları götürüb, özüm paylamağa baş- ladım. Bir-

bir adları oxuyur, adı çəkilən də gəlib məktubunu götürürdü. Birdən baxdım, tutuldum...

“Ot Barda” və tanış xətt!

Bu xətdən və “konvert”dən ətir iyi gəlirdi. Elə bil məktubun vərəqini ətirləyib, sonradan yazıblar. “Bıt mojet” duxusunun ətriydi...

Yerdə qalan məktubları Səbuhiyə verib götürül- düm. Kazarmadan “UNR”-ə qədər qaçdım. Fərəh- dən uçurdum. Bu mart ayı mənə nələr vermədi! Otağa keçəndə paltarım tərdən islanıb, belimə ya- pışırdı. Sarıkirpikli qız mənə baxa-baxa birdən dedi:

- “Soldat, çay budeş?”

- “Spasibo, spasibo”, – deyib tövşüyə-tövşüyə öz otağıma keçdim.

Məktubu açmamış bir neçə dəfə öpdüm, iylə- dim. Sevincimin həddi-hüdudu yoxuydu. Artıq hər şey gün kimi aydın idi.

Biz qarşılıqlı sürətdə bir-birimizi ürəkdən sevir- dik! Əsas da bu idi. Evlənməkdən də irəli qarşılıqlı sevgidir.

Qarşılıqlı məhəbbət! Polad bünövrə!

600 günüm qalıb xidmətimi qurtarmağa. 600 kubik! Gündə qoyduğumuz bu məhəbbət bünöv- rəsinin üstünə bir kubik qoysaq və 600 kubik qur- taranda, komsomol orta məktəbi, mən də hərbi xidmətimi bitirərəm. Evimiz hazır olar. Və qalar to- yumuz!

Yaşın çatsın onu da Allah qoysa, edərik... Dünyada bir qarşılıqlı məhəbbət də qovuşar...

Yerdə qalan vaxt necə keçdi bilmədim. Koşkin məni çağırdı:

- Getmirsən?

31.03.1971, III gün.

İşə getdim. “Zemlyanıye rabotı”, “Montajnıye rabotı” sözlərini yazdım.

Rodkin, əclaf nə vaxt gəlir məni işləyən gör- mür. Qapım örtülü olur və qapını açanda mək -tub yazdığımı görür. Ancaq yazıq yaxşı adamdır. Dərhal qapını örtüb qayıdır.

Yeməkdən sonra Qəribdən məktub aldım. Ümumi məktubların cəmi 199 oldu! “Yubileyni” sabaha qaldı...

Saat 16:30-da Rodkin tapşırdı ki, gedim, bay- raqları alım. Getdim, ora da bağlı oldu.

Axşam kazarmada Bryusov yazmağa iş tap- şırdı. Mən qurtaranda hamı yatmışdı...

Aldatma gцnц

01.04.1971, IV gцn.

Dünən Bryusovun tapşırdığı yazını bu gün təhvil verəndə gördüm ki, hərf səhvinə yol ver- mişəm, odur ki, “razvod”a getməyib onu dü- zəltdim.

Səhər yeməyini yeyib işə getdim. Mən içəri, otağa girəndə gördüm Sarıkirpikli qız yoxdur. Koşkin də yoxdur. Şineli asdım, papağı çıxarıb çırpdım. Yenicə rahatlanmışdım, Rodkin gəldi. Əlində çoxlu jurnal vardı. Stolun üstünə töküb, tozunu əliylə təmizləyə-təmizləyə dedi:

-Bunların arxasını “peçatla” və tik. Ala, bu da «peçat»,– deyib cibindən kağıza bükülü möhürü çıxarıb, stolun üstünə qoydu. Təkrar soruşdu:

- “Vsyo yasno?”

Başımla təsdiqləyə-təsdiqləyə:

- Əlbəttə, – rusca dedim.

O getdi. Tapşırdığı işləri görüb, kazarmaya getdim.

200-cü məktub Yevlaxdan, əmim oğlu Əbül- fətdən gəldi!

Yeməkdən sonra Rodkin gəlib çıxmadı. Otu -rub fikirləşirdim. Birdən gördüm Koşkinlə Sarı- kirpikli gəldi. Koşkin Oqanesyangil işləyən ota-ğa tərəf getdi. Sarıkirpikli pilləkənləri təzə qalx-mışdı ki, qəflətən geri çevrildi, cəld, qıvraq hə-rəkətlə pilləkəni enib tələsik tualetə tərəf ad- dımladı.

O, qapını içəridən bağlayan kimi mən həyə- canlı halda otaqdan çıxıb, tualetə tərəf götü- rüldüm. Həm qorxur, həm həyəcanlanır, həm də maraq məni öldürürdü...

İçəridən qapını səssiz bağlayıb pəncəmin üs- tündə taxta probkaya yaxınlaşdım. Əllərim tit- rəyir, ürəyim çırpınırdı. Ürəyimin tıppıltısını mə- nə elə gəldi ki, probkanı çıxarsam, o eşidəcək! Bir neçə gərgin dəqiqələrdən sonra probkanı yavaşca çıxarıb, gözümü deşiyə dirədim.

Gördüm onu!

O, qapıya söykənmişdi. Bir ayağını dizdən bir az büküb, ağırlığını o biri qılçasına salmışdı. Əlində siqaret tüstüləyirdi...

Tez probkanı yerinə taxıb oradan çıxdım. Otağıma girib, tutduğum işi götür-qoy elədim. Mən nə edirdim? Utanmıram bəyəm? Lap onu gördüm. Lüt gördüm lap. Onda nə olur? Ayıb deyilmi?

Otağımdan çıxıb getdim. Onsuz da heç kim yoxuydu. Yolda dönüb, 25 ədəd "povyastka"ları aldım. Kazarmaya gəldim.

Axşam uşaqlar kartofa gedəndə Denisenko məni saxladı. Yeddi nəfərlə kazarmanı təmiz- lədik. Gecə "suşilka"da yatdım. Mən yatanda uşaqlar kartofdan gəlməmişdi.

02.04.1971, V gün.

Bu gün yadımıza düşdü ki, dünən "aldatma günü" olub keçib, yadımızdan çıxıb. Bizim yer- lərdə aprelin 1-də saat 12:00-a qədər hamı bir-birini aldadır.

İşə gəldim. Rodkin yox idi. Koşkin mənə iş verdi. "Kopirovka" elədim. Arada vaxt eləyib Oqanesyan işləyən

otağa getdim. O, başını aşağı salıb, böyük jurnallarda yazıb pozurdu. Məni görüb gülə-gülə:

- “Naryad”ları işləyirəm, – dedi.

Hansı obyektdə nə işlər gedir, onları yazır, hesablayırdı. Probka məsələsini mənə xatırlatdı.

- Bir şey görməmisən hələ? – soruşdu.
- Yox! – dedim.

O, işləyə-işləyə danışırdı...

- Dəlixanadakı Əliquliyevdən xəbərin var?
- Yox. Nə olub?
- Atası Bakıdan gəlib.
- Həə?...

-Yəqin pul gətirib. “Komissovat” elətdirib aparacaq oğlunu.

Xeyli danışdıq. Sonra elə birlikdə kazarmaya getdik. Salyanlı Adil və bakılı Bilalov yeni “pa- radnı” formada qabağımıza çıxdılar. Əllərində “uvolnitelni” vardı. Şəhərə gedirdilər...

Yeməkdən sonra poçt gəldi. Aydından yed- dinci məktubu aldım. Bərdəyə Misirxanovun atasının yas yerinə gedib. Ancaq Tahir Bərdədə ola-ola onunla görüşməyib. Məəttəl qaldım. Mi- sirxanov bir az cüssəli, vurub-tutan, Şərq kü- çəsinin sayılan oğlanlarından biri, Tahir isə ka- sıb, arxasız bir ailədən idi! Bu da Aydının iç üzü...

Komsomoldan heç nə yazmamışdı. Ürəyim- də ondan çox incidim. Atamı Bərdədə görüb. Atam ona deyib ki, mayda mənim yanıma gəlsin. Bu barədə də bir kəlmə yazmayıb. Sağlıq ol- sun...

"Dnevalnı" durmalıydım. Özümü səliqəyə sal- mağa başlamışdım, qışqırtı səsi eşitdim. Yüyü- rüb səs gələn tərəfə özümü çatdıranda gördüm, Mamed yerə yıxılıb qışqırır. Məni görən kimi za- rımağa, ağlamağa başladı ki, "qrijam" partlayır. Onu sakitləşdirib tərpənməməsini tapşırdım və ştaba tərəf qaçdım. Gürcü sürücüyə məsələni başa saldım. O da kişi kimi "Villis" markalı ma- şınını işə salıb, mənimlə kazarmaya gəldi. Heç maşının mühərrikini söndürmədi də. Köməkli Mamed Məhəmmədovu maşına qoyub, hospi- tala apardıq.

Bizim hərbi hissədə cəmi 7 erməni, 2 çeçen, 3 gürcü vardı. Hamısı da "odinoçka" da işləyirdi. Qafqazlılardan ən çox "paxat eliyən" biz azər-baycanlılar idik. Bu gürcünün işi yaxşı gedirdi. Dolu, güclü, komik, bir sözlə yaxşı oğlan idi. Hamı ilə, xüsusi ilə də qafqazlılarla münasibəti əlaydı. Boş vaxtı olan kimi bizim uşaqların ya- nına gələr, zarafatlaşar, deyib gülərdi.

"Razvod"da mənə sual verdilər:

-Yanğın olsa, neyləyəcəksən?

Çox düzgün cavab verdim. Bryusov dedi ki, axşam "blaqodarnost" alacaqsan. 21:30-dan 23:30-a qədər yatdım. Cərgədə ola bilmədiyim üçün o "blaqodarnostu" ala bilmədim.

23:30-dan 03:30-a qədər giriş qapısının ağzında, "tumboçka"da "dnevalnı" durdum. Sonra yerdə qalan iki saatı yatdım.

03.04.1971, ***VI gün.***

06:30-da "zaqatovka"ya getdik. "Politzanyati- ya"da komissiya gələndə qəflətən qışqırdım:

-"Rota vstat... smirna!!!"

Serjant Başa gəlib özünü yetirənə kimi ley- tenant Bryusov özü "dolojit" elədi...

Günorta "zaqatovka"ya gecikmişdik. Serjant Başa yatmışdı. Növbətçiliyi də özüm eləyirdim. Starşina xəbər göndərdi ki, kömək lazımdır. Beş nəfər götürüb getdim. Əla oldu. İlk dəfəydi belə tapşırıq alırdım.

Bütün lazım olanları hazırladıq. Rota gəldi.

Yeməkdən sonra Tahirdən 39-cu məktubu al- dım. Çox sevindim. Axı o, Bərdədədir. Ağdam- lı Telmanı yerimə qoyub, “bıtkomnatada”, qapı- nı arxadan bağlayıb onun məktubunu oxudum. Aydının məktubu məni məyus eləmişdi. Tahi- rinki isə fərəhdən uçururdu. Bu da iki ən yaxın dostumun fərqi!

“Növbətçi” sarğısı qolumda şəkil çəkdirdim. Tək və kazarmanın qarşısında Telmanla birlik- də.

Axşam hamı “uborka” eləyəndə mən hamam- da idim. Yaxşı çimib, odekalonlanıb axşam 20:00-da yatmağa getdim. Yenicə yerimə gir- mişdim ki, Mamışev yanıma gəldi. Ona pul la-zım idi. Dedim:

-Uzağı iki-üç günə evdən pul gələcək. İndi yoxumdu.

O, getmək istəyəndə soruşdum:

-Eldar səni çağırıb, Oqanesyanla Bryusovun, Boykonun danışığına qulaq asmısan?

-Hə, – deyib güldü.

Mamışev kirovabadlı idi. Başı, bədən quru- luşuna görə çox böyük idi. Qırmızı rəngi vardı. Ətli sifəti uzununa bir-iki yerdən qat kəsmiş kimi dururdu. Geniş alnının əti də bir neçə yerdən alnı boyu qatlanırdı. İstiqanlı,

mehriban, ali təh- silli idi. Hamı ilə xoş münasibət saxlayırdı.

O, yanımda oturub danışdı:

-Türkiyənin əleyhinə danışırdılar. Oqanesyan deyirdi ki, hələ birinci dünya müharibəsində türklərin torpaqları Anadoluya qədər azalıb. Yoxsa, indi onlar daha güclü, qüdrətli olardı.

Siyasi işlər üzrə müavin Boyko deyirmiş:

- Bu türklərin indiki yeri elədir ki, onları məğlub eləmək çətindir. Həm də arxalarında güclü Amerika, NATO dövlətləri durur.

- Onu düz deyirlər, – dedim. - Üç tərəfdən dənizlərlə əhatə olunan Türkiyə həm də uca dağlarla əhatəlidir. Bu dağlar da onları strateji cəhətdən çox qoruyur.

Mamışev davam elədi:

-Oqanesyan deyirdi ki, 1915-ci ildə milyon- dan çox ermənini türklər qırıb.

Mən dayana bilmədim:

-Bu Oqanesyan şamxorludur. O, niyə türklər haqqında ruslara belə danışır? Bilirsən, Mamı- şev, biz Bakıda institutda oxuyanda uşaqlar de- yirdilər ki, naxçıvanlı bir tarixçi var. Hökumət əleyhinə orda-burda danışırmış ki,

türkləri biz- dən ruslar ayırıb. Biz türkük. SSRİ dağılacaq, nə bilim guya biz işğalçı dövlətik. O hətta de- yirmiş ki, Ermənistan adlı ölkə olmayıb. Ruslar ermənіləri bizim torpaqlarda yerləşdiriblər. İrə- van xanlığı, Zəngəzur, Dilican, İcevan nə bilim hamısı bizim torpaqlar olub.

Mamışev bildirdi ki, bu naxçıvanlı haqqında o da eşidib. Deyəsən onu tutublar. Universitetdə müəllim imiş. Uşaqlara tarixdən dərs keçəndə açıq danışırmış. Tarix kitablarında yazılanlar hamısı yalandır, – deyirmiş.

Deyirlər I dünya müharibəsində ərəbləri, fars- ları, ermənіləri oradan qovmasaydılar, indi Tür- kiyə adlı dövlət olmazdı. Ruslar kənardan, er-mənilər içəridən.

- Mən xəritəyə baxmışam. Aralıq və Qara dənizlər arasında yeganə dəniz əlaqəsinə türk- lər nəzarət edir.
- İmkanı olsaydı, ruslar Türkiyəni çoxdan iş- ğal eləmişdi.
- Hə, doğrudan belədir, – dedim. - Türkiyə ərazilərinin çoxunu itirəndən sonra indi yerləş- diyi yerdə çox möhkəmlənіblər. Onlarda orduda da həddən artıq nizam-intizam var.
- Hə, düz deyirsən. Onların Atatürkü çox ağıllı adam olub. Deyirlər orduya getməyənlərə Türkiyədə qız vermirlər...
- Deməli belə, Mamışev, bizim Bakıda Ya- samal rayonunda bir qonşumuz vardı. O da naxçıvanlı müəllimin yanına çox gedib gəlirmiş. O, mənə danışırdı ki, indiki Türkiyənin türk- lərinin ulu babaları 1000 -1100-cü illərdə tor- paqlarını Səlcuqlar dövründən işğalçı Bizans

imperatorluğundan azad ediblər. İndi də üstün- dən az qala min il keçib rahat yaşayırlar. Biz isə ömür boyu gah ərəblərin, gah rusların, gah da farsların işğalı altında əsarətdə yaşamışıq.

Mamışev durub getməyə hazırlaşanda ona dedim:

- Səncə bizim neftin bizə xeyri var, yoxsa zi- yanı?

- O naxçıvanlı Universitet müəllimi, tarixçi alim deyir ki, elə bizim bəlamız bu neftlə bağ- lıdır.

- Mən də belə eşitmişəm.

Mamışev getdi.

04.04.1971, ***Bazar günü.***

Bu gün yaz günü idi. Əsl yaz günü!

Bütün rotalar – hərbi hissəmiz iməclik eləyirdi. Voleybol meydançaları hazırlanır, yollar təmiz-lənir, qarın, qışın xarab elədiyi səkilər əhənglə ağardılırdı.

Tək mən özüm on beş böyük şam ağacının dibini belləyib, gövdəsini əhənglə ağartdım. Di- rəklərdəki radio səsləndirici qurğulardan Sofiya Rotaru oxuyurdu. Hamı ürəklə işləyirdi. Torpaq buxarlanır, yazın nəfəsi duyulurdu.

Dünən çəkdirdiyim şəkilləri aldım. Tək şək-limdən 15 ədəd, Telmanla olandan 4 ədəd. Pu- lum olmadı verməyə. Dedim, - pul sabah gələ- cək, onda gətirib verərəm. Fotoqraf razılaşdı. Məktublar yazıb, fotoşəklimin 13-nü göndər-dim...

Yeməkdən sonra saat 15:30-da yığışıb, vo- leybol oynamağa başladıq. Uduzan çıxırdı. Mə- nim komandam dalbadal dörd "setka" oynadı...

... Aydına məktub yazdım. Yazdım ki, sən də Tahir kimi ola bilməzsən? Və s...

Bərdəli oğlanlar – Şükür və Nazim gəldilər. Kəlbəcərli Möhübbət adlı bir oğlan da onlarla gəlmişdi. Xeyli söhbətlər eləyib xatirələri oyat- dıq. Bizim Bərdədəki evimizə Bərdədə atamın dostu və işçisi olan bir kəlbəcərli tez-tez gələrdi. Onun qəribə adı vardı: Front!

Möhübbət onu tanıdı. Front çox cüssəli, hün- dür boylu bir kişiydi. Göyümsov dodaqları, ar- xaya daranmış gur, qıvrım şabalıdı saçları, iri əlləri, yaşıla çalan gözləri indi də gözlərimin qarşısında canlanırdı...

Atam onu çox istəyirdi...

05.04.1971, I gün.

İşə gəldim. Sarıkirpikli yüngül geyinmişdi. Saçlarını açıb kürəyinə tökmüşdü. Salamlaşdıq. Koşkin yox idi. Şineli, papağımı asıb təzə rahat- lanmışdım, o biri otaqdan Sarı məni çağırdı:

- Tofik, Tofik... k telefonu.

Qapını açıb ona tərəf baxdım. Əli ilə telefonu göstərdi. Dəstək yerdə idi. Lövhələri gəlib gö-türdüm. Rodkin idi.

- “Kraska”ladığın dəmir lövhələri də götür “MSD”-yə gəl, – dedi.

Dəstəyi asdı. Geyinib çıxdım. Yol boyu fikir- ləşdim ki, heç elə bil bu Sarıkirpikli qız tualetə getmir. Yəqin yaxşı yeyib içmir. Elə ona görə də belə zəifdir...

Rodkini “MSD”-də vaqon otaqda tapdım.

O, mətni mənə verdi və elə vaqonda da işlə- mək üçün yer elədi.

“Lebyodka, otvetstvennıy ryadovoy Baqda- saryan”, “Nojniçı, otvetstvennıy ryadovoy ...”

Bunları yazıb qurtarandan sonra “obed”ə get- dim. Yolda Mürşüd və göygöz Eldarla qarşılaş- dım. Birlikdə getdik. Onları sement daşımağa gətiriblərmiş.

Bütün qara işləri azərbaycanlılara gördürür- dülər. Ruslar özləri də erməni, gürcü, çeçen, dağıstanlılardan çox işləyirdi. Düzdür, bu qara işdə işləyən rusların çoxu türmə yatıb çıxan, al-koqolik, bir sözlə, kasıb təbəqənin nümayən-dələriydi.

Ancaq bu fakt idi!

Ziyalı rusların əksəriyyətini biz görə bilmirik. Onlar başqa-başqa təbəqənin adamlarıdır. İn-şaat batalyonlarında onlara rast gəlmək olmaz-dı. Hərdən gördüyümüz generallar isə rəhbər-likdə olanlardı.

Rodkinlə qarşılaşdıq:

- Tez gedirsən yenə.

- Tez qayıdaram, – dedim.

Gəldik kazarmaya. Yolda Eldar soruşdu ki, Boyko, Bryusov və Oqanesyan nə danışırmış- lar?

-Heç, – dedim, – elə-belə tarixdən.

Onsuz da Eldarın savadı yoxuydu. Orda-bur-da danışıb özünü işə sala bilərdi. Odur ki, ona başqa söz demədim.

Bu gün Bərdədə əsgərliyə getmək münasi- bəti ilə keçirdiyim birinci qonaqlıqdan düz 4 ay ötürdü...

Bu gün komsomol qıza vurulduğum günün də 17 ayı tamam olurdu. Bu münasibətlə ona on beşinci məktubumu yazıb yola saldım.

Salamat getsin.

A. Şirvanzadənin “Namus” kitabını oxuyuram.

06.04.1971, ***II gün.***

Bu gün partapart remenlərə dördüncü deşik- lər açılırdı!

Bəli, dörd ayı başa vurduq. Qaldı iyirmisi... Qışı çıxartdıq.

Bu gecə yuxu görmüşdüm. “Gördüm Bərdə- dəyəm, Tahirlə Süleymanla gəzirik. Birdən Rod- kin və Koşkin qabağımıza çıxır. Qaçıb gizləni- rəm...

Sonra gördüm Kür çayında çimirəm. Burulğa- na düşürəm. Son anda xilas ola bilirəm. Əsgər “XB”-sində

böyük bir ağacın yoğun kökündən yapışıb kənara çıxıram. “XB”-dən su süzülür...”

Tahirdən 10 günlük Bərdə günləri haqqında intizarla məktub gözləyirəm...

“MSD”-də sonuncu, altıncı dəmir lövhəni də yazıb qurtarandan sonra kazarmaya gəldim. Özümü səliqə-səhmana salıb, məktublar yaz-mağa başladım.

Poçt gec gəlmişdi bu gün.

Axır ki, Tahirdən məktub gəldi!

Mənim adıma banderol da vardı. Tez bande-rolu açdım. İçərisindən çoxlu jurnal, kitab, qəzet çıxdı. Göndərənin kim olduğuna baxdım. “Ot” yerinin qabağına öz dilimizdə “Rəfiqə” sözü ya-zılmışdı Rəfiqə? Bu qız adı idi. Kim ola bilərdi? Yadıma sala bilmədim...

Tahirin qırxıncı məktubunu açdım. Bir nəfəsə oxudum. O, komsomol qızın böyük bacısını gö- rüb və çox da xoşuna gəlib! Tahir dəhşətli bir xəbər yazmışdı. Vovanı Bakıda bıçaqlayıb öl- dürüblər! Vova kök gözəl bir oğlanıydı, məndən iki sinif yuxarı oxuyurdu. İki qardaş idilər. Atası Hilal kişi Bərdədə aptek müdiri işləyirdi. Çox pis oldum bu xəbərə...

Yeməkdən sonra işə getdim. İki ədəd “pov- yastka”ya “Takalajnik” sözü yazdım. Hələ tam qurtarmamış

pəncərənin pərdəsinin açıq yerin- dən Sarıkirpikli qızın tualetə getdiyini gördüm. Bir az tərəddüd keçirsəm də, dözə bilməyib, otağımdan çıxıb, mən də getdim. Qapını arxa-dan bağlayıb sakitləşəndən sonra yavaşca probkanı çıxardım.

O, yenə paltarlı idi! Tualetlik işi yoxuymuş...

İçəridə yenə taxta divara söykənib siqaret çə- kirdi... Ürəyimin döyüntüsü qulaqlarımda gup- puldayırdı... Probkanı yerinə basıb qayıtdım.

Axşam işdən qayıdanda ay da, günəş də göydə idi. Açıq səmada çox qəşəng görünür- dülər. Mən romantik adamam. Belə mənzərələr mənə təsir edir, duyğulanıram...

07.04.1971, ***III gün.***

Çox mübahisə etdik. Axırda Denisenko dedi:

-Eybi yoxdur, bu gün “uborşik”lik elə. Bundan sonra cədvələ özüm nəzarət edəcəyəm.

Döşəməni yudum. Qurtarıb işə getdim. Yeddi ədəd “povyastka”ları yazdım. Xadimə, ukraynalı yaşlı qadın

mənim yan-yörəmdə çox təmizlik işi görürdü. “Pol” ağacı ilə hərdən ayağıma da to- xunurdu. Mən işimdə idim. Ona fikir də vermir- dim. Birdən mənə:

- Siz qafqazlılarda kişilər istədiklərini eləyirlər. Qadınlarınız isə heç kimlə gəzə bilməzlər, – dedi.

- Niyə kiminləsə gəzsinlər ki?

- Onlar ancaq evdə işləyirlər.

- Yox, niyə ki oxuyurlar, ali təhsil alırlar, döv-lət işlərində çalışırlar. Düzdür, “evdar qadın” olanlar çoxluq təşkil edir.

- Başqa kişi ilə məsələn kinoya, tansa gedə bilərlər?

- Yox! Nə danışırsan, eləsini bizdə öldürərlər!

Nəysə, xadimə arvad çox danışdı, məni sor-ğu-sual elədi və birdən dedi:

- Bax, mən nə istəsəm, eləyə bilərəm! İstə-səm... deyib üstümə tərəf gəldi və mənim ba-şımdan tutub, istədi dodağımdan öpə. Güclə ağzımı qaçırdım. Amma üzümdən öpə bildi qancıq:

- Gördün! – dedi.

Mən çaşmışdım. Əvvəl qıpqırmızı oldum. Sonra canıma bir istilik yayıldı... Ondan çaxır, qarışıq tamatlı “kilkə” konservinin iyi gəlirdi...

Tez söhbətə son qoyub geyindim. Əvvəl ştaba gəldim. Qardaşım Vidadi 10 manat pul göndərmişdi. Ştabın poçtundan dedilər ki, pul yoxdur. Get, beşinci gündən tez gəlmə.

Bu necə sovet poçtudur ki, on manatı yox- dur?

Kazarmaya qayıtdım. Yeməyi yeyib poçtu gözlədim. Ağdamlı Bəhrəmdən ilk məktubu al- dım. Tahirdən, Aydından, Səməddən, İmandan, Əbülfətdən də məktublar gəlmişdi. Tahirlə Ay- dın bir məktub da əlavə göndərmişdilər. İçindən bir “otkrıtka” çıxdı. Kimisə “1 May” bayramı ilə təbrik etmək üçün...

“Otkrıtka” qızıl suyla çox gözəl işlənmişdi. Başa düşdüm ki, bunu mənə hansı göndəribsə, komsomol qıza göndərməyim üçün nəzərdə tu- tub. Çox sevindim. “Otkrıtka” ilə məktubun ara- sından 3 manat da pul çıxdı. Əmim oğlu Əbülfət də zərfin içinə 1 manat qoymuşdu. Əla oldu. İş- lərimi qaydaya salaram...

Axşam uşaqlar kartof soymağa getdi. Deni-senkoya 1 manat verdim. Qalıb "Lenkomnata”-da öz dilimizdə olan qəzet, jurnalları oxumağa başladım...

08.04.1971, IV gün.

Səhər uşaqlarla işə getdim. Bisilakı tapdım. İş tapşırdı. Qapıların və “podyezd”lərin üstünə yazırdım:

«podyezd №1, 2, 3, 4, 5, 6...»

«kv 1-20, 21-35, 36-50, 51-65, 66-80, 81-100»

İki “podyezd”də də qapıların üstünə yazdım: «kv №1, №2»... Kiçik rus qızları başıma toplaş- mışdılar. Onlar mənə:

- “Dyadya!”, “Xudojnik!”... sözlərini deyir, mə-nimlə söhbət eləmək istəyirdilər. Mən də işləyə-işləyə onlara cavab verir, ancaq nə tez “dyadya” olduğumu da yadıma salırdım.

Mənim iyirmi yaşım vardı... Əlbəttə təəccüblü heç nə yoxuydu. Onlar üçün “dyadya” ola bi- lərdim.

Ələsgərdən ilk məktub aldım. Əclaf! Uşaqlıq- dan bir yerdə böyümüşük. Dörd aydan artıqdır əsgərlikdəyəm, indi yadına düşmüşəm. Özü də ona yazığım gəlib. Həmişə onun üstündən gəl-mişəm. Özünü Hitlerə oxşadan Qanboyun oğlu idi. Atası saçını da, bığını da Hitler kimi dü- zəltmişdi. Qanboyla Hitler boy-buxunda da elə bil bir almanın iki üzüydü...

Axşam klubda komsomol aktivlərinin geniş iclası oldu. Mən də iştirak edirdim. İclasda Çep- rasov mənə dedi ki, təcilidir, səhər 08:00-da, Rodkinin yanında olarsan.

Doğrusu yaman qorxdum. Çünki o, özü bu gün məni görmüşdü. Demişdim ki, sabah "stok- vartirni"də olacam.

İclasdan sonra kazarmada Muxtarla xeyli söhbət elədik. Aramızda evli olan bir o idi... Mən ondan soruşdum:

- Evlənəndən sonra, hər gün bir yerdə olanda arvadından bezmirsən ki?

- Yox, – dedi...

Ancaq fikirləşdim ki, bu qayınatasından çox qorxur. Düz söz deməz...

09.04.1971, V gün.

08:00-da "UNR"-də oldum. Rodkin yox idi.

Sarıkirpikli və Koşkin orada idi. Görüşdük. Dedilər, Rodkin "stokvartirni"dədir. Tərpəndim ora. Rodkin burada da yoxuydu... Başladım köhnə işlərimdən yazmağa. Gəldilər ki, Rodkin zəng vurub, maşın da göndərib.

“UNR”-ə get-mək lazımdır. Arxamca gələn “Zil” maşınının kabinəsinə oturub getdim.

... Rodkin məni başa saldı ki, bu çox mühüm və məsul işdir.

General Krasik tapşırıb. İşə baxdım. Həqiqə- tən də çox böyük iş idi. Üst paltarımı, papağımı çıxarıb başladım...

Axşam 19:00-dək dayanmadan işlədim. Bir neçə mayor, podpolkovnik də zəng vurdu ki, qurtarmaq lazımdır. Surenkov da gəlib vəziy- yətlə tanış oldu. Rodkin də tez-tez gəlib ba- xırdı... Axırı qərara gəldik ki, birdəfəlik qurtarıb, “ujin”ə sonra gedərəm. Belə də elədik.

Qurtardım! Əla çıxmışdı!

Kazarmaya gələndə dedilər ki, sənə “pasılka” gəlib. Tez getdim ştabın poçtuna. Həm Vidadi göndərdiyi 10 manatı aldım, həm də dayım Sa- birin göndərdiyi “pasılka”nı... Əvvəl “pasılka”nı bir mayor açıb yoxladı. “Beş manat pul, iki cüt corab, bir ədəd dəsmal, dayım oğlu Müşfiqin iki ədəd fotoşəkli və iki kiloqram müxtəlif növ şoko- ladlar və bir ədəd də beş ulduzlu konyak...” Konyakı mayor özbaşına, heç məndən icazə al- madan götürdü. Qalanını isə verdi. Mən də 5 ədəd şokolad verdim ki, konyakı ləzzətlə vur- sun.

“Pasılka”nı kazarmaya yox, “UNR”-ə, iş ota- ğıma apardım. Hamı getmişdi. Qapını açıb yan-yön elədim.

-Sabah buradakı işçilərə paylayaram, – öz-özümə dedim...

Gec gəldim kazarmaya. Hamı kartofa get- mişdi...

Aleksey Tolstoyun “Əzablı yollarla” kitabını oxumağa başladım

10.04.1971, VI gün.

Bu gün gözəl hava vardı. Siyasi məşğələdən sonra “stroyevoy podqotovka” oldu. İlk dəfə olaraq “letni” formada, “pilotka” papaqda...

İşə gəldim. Dünənki “pasılka”dan çıxan şoko- ladlardan Koşkinə, Sarıkirpikliyə və gedib Oqa- nesyangilin otağına da payladım. Xadimə arvad da özünü yetirdi. Ona da pay verdim.

Koşkin iş tapşırdı. Onu işlədim...

“Obed”ə gedəndə gördüm mənə banderol gəlib. Açdım. İçindən “Azərbaycan” kitabı çıxdı. Arxasına baxdım. Qiyməti səkkiz manat otuz qəpik idi. Çox gözəl kitab-

jurnal idi. Bakının və Azərbaycanın bütövlükdə ən görməli, gəzməli yerləri yağlı, rəngli şəkillərlə verilmişdi. Kazarmada kitab əldən-ələ gəzdi. Yeməkdən qayı- danda özümlə iş yerimə apardım. Orada da hamı baxdı. Azərbaycanla qürur duydum!

Yevlaxdakı İsa əmimin oğlu Elşada da mək- tub yazdım. Fotoqrafın yanına gedib onun üç manatını qaytardım. O, uzun saçlarını əli ilə tez-tez qadınlar kimi üzündən yana itələyirdi.

Bu gün də komsomolun şəkli gəlmədi. Düz bir aydır ondan fotoşəkil xahiş eləmişəm. Gön-dərmir ki, göndərmir...

Kinoya getdik. Yatdım. Daha doğrusu kinoya yatmağa getdik...

Hamamdan çıxanda yeni corabların bir dəs- tini açıb geyindim. Yun, əldə toxunma corab idi. Görünür dayım arvadı Rəna özü toxuyub. Aya- ğımın ölçüsünə idi.

11.04.1971, ***Bazar günü.***

Səhər “razvod” oldu. Sonra yenə “uborka”. Bizim “otdeleniya”, mənim iş yerim olan “UNR”-dən, çöl yolla

düz “KPP”-yə kimi təmizləməli idi. Hava mülayim olduğundan çox həvəslə təmiz- lədik.

Artıq torpağın bahar ətri aləmə yayılmışdı. Adamda xoş əhval yaradırdı. Uşaqlarla danışır- dıq ki, indi biz tərəflərdə - Bərdədə, Ağdamda, Laçında, Şuşada, Kəlbəcərdə çöl şomusu, qan- qal, çiriş, nərgiz, bənövşə, tülpanlar açıb. Ba- ğayarpağı, dağ nanəsi, nanə, nanə cövhərdən tutmuş əvəliyə qədər... su kənarında, bulaqların başında indi yarpızlar xoş iy verib adamı bihuş edirlər. İndi dağları gülün, çiçəyin ətri bürüyüb...

Adam özü azadlıqda olanda bu gözəllikləri çox da hiss eləmir. Ancaq indi ...

Şamxorlu Qiyas gəldi. Ona çoxlu jurnal və bir manat da pul verdim. Bir yerdə onların rotasına getdik. “Onun taleyi” kitabını da götürüb geri qa- yıtdım. Ötən 4 aylıq sərt qışdan, çovğundan, qardan əsər-əlamət belə qalmamışdı.

Lüt soyunub voleybol oynadıq. Şahmarla gü- ləşdik. Onu kürəyini əla bir fəndlə yerə vurdum. Başı sıyrıldı.

Poçt gələndə altı məktub aldım. Bibimin bö- yük qızı Elzadan da məktub gəlmişdi. Əlövsət yazmışdı ki, “komsomol qızın böyük qardaşı sənə üzdə dostdur, arxada düşmən”. Səbəbini isə yazmamışdı. Bu cümlə

bütün günü yatana qədər məni narahat elədi. İt oğlu, heç olmasa yazanda bir şeyi izahlı yaz dəə...

Nə günorta, nə də axşam kinoya girmədim. Yuxum gəlmirdi...

"Odboy" da gəlib yatdım.

12.04.1971, ***I gün.***

Bu gün özümə söz vermişdim ki, Sarıkirpiklini tualetə gedəndə güdüb, ona mütləq baxacam. Ancaq yenə baxa bilmədim. Rodkin məni götü- rüb, evinə apardı.

Evində əlimə bir vedrə ağ "kraska" verib dedi ki, divarları rəngləyim. Ağ "kraska" və "belil"i dərhal tanıdım. Bu "stokvartirni"dəki göy rəngli dəmir çəlləkdən süzülən ağ rəngli "kraska"dan idi. Evdə bir tacik "soldat" da işləyirdi. Birlikdə vanna otağını və qonaq otağının divarlarını rənglədik. Axırda neftlə, "kraska" tökülmüş dö- şəməni təmizlədik. Bir sözlə, ev tamam hazır oldu...

Rodkinin arvadı içki, siqaret təklif elədi. İstə- mədik. Kazarmaya gəldim.

Mənə “perevod”la 20 manat pul gəlmişdi. Ala bilmədim. Poçtda nəğd pul yox idi.

Gəldim “UNR”-ə. Sarıkirpikli qız tualetə get- mədi. Çox güddüm. Məcbur olub bir “povyast- “ka”ya “dejurnıy po ştabu” sözləri yazdım. Bir az da yatdım. Vəssalam.

Kazarmaya gəldim.

Gecənin yarısı yolda bizə beş ədəd “stolba” basdırtdılar. İşləyib “stolba” basdıranda Jebrov Kələntərovu vurdu.

Özü də pis vurdu. Onu “sançast”a apardıq.

Bu rusların əlindən lap bezmişik.

13.04.1971, ***II gün.***

Səhər starşinaya xəbər verdilər ki, gecə Mux- tarla Adil Bryukova dava haqqında artıq məlu- mat verib...

Mən gecə onlarla getmədim. Əvəzində “kan- selyariya”ya gəlib bu barədə məruzə elədim.

Podpolkovnik Bezlepkin “razvod”da Kələntə- rovu qabağa çıxartdı. Sürücüsü olduğu maşını əlindən

alacağını bildirib özünə də 7 “sutka” “qauptvaxt” elan elədi. Nəyə görə? Kələntəro- vun nə günahı vardı bəyəm?

Rus dilini yaxşı bilsək, bu işlər bəlkə də başı- mıza açılmazdı...

“UNR”-ə getdim. Rodkinin “zapiska”sını Sarı- kirpikli qız mənə verdi. Mən də alıb, uzun “şit”in üstünə bir cərgədə böyük və gözəl hərflərlə “Sxema elektrosnabjeniya SP-10” sözü yazdım.

Gözləyirəm, Sarıkirpikli qız hələ də tualetə getməyib.

Qardaşım Xəqanidən məktub aldım. O yaz- mışdı ki, komsomol qız onu “1 aprel”də aldadıb:

-Xəbərin var qardaşın əsgərlikdən gəlib?! – deyib.

Xəqani də inanıb!

Qladkov ərizə yazdı ki, axşam yeməyindən sonra Babayev işə gəlməlidir. 21:30-dək işlə- məyi məsləhətdir...

Yəni mənə ehtiyacları var.

Gecə 1-ə qədər kartof soyduq.

14.04.1971, III gün.

Qladkov tapşırıq verdi: On iki ədəd uzunu 29,5 sm, eni 28,5 sm. olan vatman kağızında plan tutub yazmalıyam: Traktor neçə milyon ton sement, avtomobil nə qədər sement daşımalıdır və bu kimi lazımsız şeylər və s...

Günortaya qədər 6 ədəd vatmana bunları iş- lədim. Kapitan Koşkin də iş vermişdi. Dörd ədəd kağız listə karandaşla, kitabdan bir şəkil köçü- rüb çəkməli idim. Onu da çəkdim...

Yeməyə getdim.

Komsomol qız şəklini göndərmək bilmir. Bu gün də bir xəbər çıxmadı.

Zeynəbdən məktub aldım. O, komsomol qız- la tez-tez görüşür. Dostlaşıblar. Mənim son məktubumu vermək istəyib. Ancaq yanında qız-lar çox olduğundan verə bilməyib...

Sarıkirpikli qız bu gün də tualetə tərəf get- mədi. Bu adam gün ərzində bir dəfə də olsun tualetə getmir. Çox maraqlıdır...

Aleksey Tolstoyun “Əzablı yollarla” kitabını oxuyub qurtarmağa az qalmışam. Kitab məni özüylə götürüb aparır...

15.04.1971, IV gün.

Uşaqlarla “stokvartirni”yə getdim. Bir dəmir lövhəni rəngləməli idim. Rodkin gəlib:

- Boçkadan “belil” çıxart, – dedi.

“Belil”i çıxaranda bütün üst-başım batdı. Ağ- damlı, çənəsi əyri “Xumba” Telmanın yanına getdim. Əski tapıb “belil”i silib təmizlədik. Xeyli də ordan-burdan söhbət elədik. Yeməyə gələn-də paltarımı dəyişdim. “Belil”ə bulaşmış paltarı-mı bazar günü yuyaram...

Rusca qəzetləri oxudum. Bakının futbol ko- mandası “Neftçi” üçüncü yerə çıxıb. Son iki oyunda 3 xal toplayıb. “Dinamo” Kiyevlə 1:1, “Zarya”nı isə 4:0 hesabıyla udub. Əla xəbərdir.

Yeməkdən sonra Rodkinin evinə getdim. Pəncərələrin şüşələri “kraska” idi. Şüşələri lez-vayla qaşıyıb təmizlədim. Qonşuda yaşayan ca-van bir qadın gəldi. Mənimlə sırf ukrayin dilində danışırdı. Mən ona rusca cavab verirdim. O evin təmirinə baxırdı. Gözəl, cəlbedici görkəmi, qabarıq sinəsi vardı. Ürəyimdə:

- Nə bəxtəvərdir, – dedim.

Axşam o, bir də gəldi. Üç yaşlı oğlu da yanın- daydı. Məni xeyli sorğu-suala tutdu. Gözləri alı- şıb yanırdı. Göy gözlərinin üstünə heç nə çək- məmişdi. Koppuş dodaqları quru idi. Qayıdıb maqnetafonu qoşdu:

- Sofiya Ratarudur, – dedi. Tanıyırsan?

Dedim ki, bizim hərbi hissənin dirəyindəki ra- diodan bu qız hər gün "Çervonu rutu" oxuyur...

O, mənə baxıb gülümsədi...

Hava qəflətən soyumuşdu. Çöldə qar yağırdı. Birdən göydən dolu yağmağa başladı. Buz do- lusu sel kimi tökülürdü. Səs-küyü, tıqqıltısı aləmi başına almışdı. Bu da sənə, "ne şukay veçerami" !...

16.04.1971, V gün.

Səhər Rodkin gəldi:

- Heç yana getmə və heç kimə işləmə! – dedi.

Nə yaxşı!

Otağımda oturub məktub yazmağa başladım. Pəncərənin pərdəsini aralı qoyub pilləkəndən çıxıb-düşənlərə də göz qoyurdum.

Təsadüfən bir qadının Oqanesyangilin otağı ilə üzbəüz otaqdan çıxıb dəhlizlə pilləkənə tərəf gəldiyini gördüm.

Hava bir az tutqun olsa da, çox da soyuq deyildi. Dünənki qardan-qiyamətdən, "buz do- lu"sundan əsər-əlamət belə qalmamışdı. Qadın yun, tünd qara rəngli kostyumda idi. Yoğun bal-dırları vardı. Belinin incə, yanlarının böyük ol-ması bədəninə kip oturmuş kostyumunda hiss olunurdu.

O, incə, qara tuflilərdə, suvanıb rənglənmiş kubik pilləkənlərlə ehtiyatla enib tualetə tərəf nazla addımladı.

Onun tualetin qapısını açıb, içəri keçməsi ilə Oqanesyanın öz otağından güllə kimi çıxıb, pil- ləkəndən tullanıb, özünü tualetə salması ara- sında təqribən 10-12 saniyə vaxt keçmiş olardı. Pəncərənin pərdəsini bir az örtüb, bu mən- zərəni diqqətlə izləməyə başladım. Təqribən 15 dəqiqə keçmişdi. Qadın qapını açıb çıxdı. Onun çox gözəl çöhrəsi vardı. Çox ehtiyatla gəlib ota-ğına getdi. Sonra Oqanesyan çıxdı. Qıpqırmızı idi...

Rodkin sanki məni yuxudan ayıltdı:

- Hazırlaş gedək.

Bu da gəlməyə vaxt tapdı!

Diksinən kimi oldum. Cəld qalxıb geyindim. Və onlara getdik. Biz onlara çatanda qapıda hündür bortlu, “Maz” markalı yük maşını dayan- mışdı. İçərisi ev əşyaları ilə dolu idi. Başa düş- düm. Onlar yeni evə köçürdülər. Kömək lazım imiş...

Rodkinin arvadı da gəldi. Maşının sürücüsü mülkü adam idi. O, bizə kömək eləmədi.

Axşama qədər özümüz əşyaları yan-yön elə-dik. Rodkinin arvadı özündən cavan idi. Heç ar-vada oxşamırdı da. Milliyyətcə rus idi, 24-25 ya-şı ancaq olardı, ukraynalı deyildi.

Mənimlə çox mehriban danışırdı. Davranışın- da kübarlıq vardı. Çöhrəsində solğunluq olsa da, sağlam qadına oxşayırdı.

Bütün ağır əşyaları Rodkinlə mən daşıdım. Evi zövqlə bəzədik. Ancaq əşyaların haraya qo- yulacağını qadın göstərirdi. Mən işimi qurtaran kimi qadın mənə tərəf çönüb, təmiz rus dilində:

- Əllərini mətbəxdə sabunla yu, – dedi.

Mən əllərimi sabunla yuyub mətbəxdən çı- xanda, gördüm ki, onların qonaq üçün nəzərdə tutulan otaqda stolun üstünə kolbasa, çörək, soğan, duz düzdülər və

qadın Rodkindən qabaq məni stola dəvət elədi. Mən oturmaq istəmədim. Qadın qolumdan tutub zorla oturtdu. Rodkin mətbəxə keçdi. Bir az keçmiş mətbəxdən əlində araq, konyak və şokolad qutusu qayıtdı.

Utandığımdan onların qarşısında sıxılırdım. Rodkin çox istədi, araqdan ya konyakdan mən də içəm. Ancaq içmədim.

Heç hər saat içən də deyiləm. Orqanizmim arağı götürmür. Arvadı da araq içmədi. Rodkin arvadının adını çəkmirdi. Mənimlə də tanış eləyəndə arvadı adını demişdi unutmuşdum. İlk gələndə həyəcanlı idim. İndi də nə qədər fikirləşdim, onun adını yadıma sala bilmədim. Rodkin soruşdu:

- Məzuniyyətdə olmusan?

- Gəldiyim cəmi 4 aydır, – dedim.

O gülümsəyib başını buladı.

Rodkin özü uzun, arıq adam idi. Çexov kimi keçi saqqalı saxlayırdı. Özü, Pervomayskidə yaşasa da, əslən rus idi.

Arvadı da məndən Azərbaycan haqqında so- ruşdu. Mən Bakını, Xəzər dənizini çox tərifl ədim. Nə Rodkin, nə də arvadı Xəzər adlı dənizin mövcud olduğunu bilmirdi.

Mən təəccüb elədim. Necə ola bilər? Məgər bunlar məktəb oxuma- yıb?

18:30-da onlardan çıxdım. Ayrılanda Rodkin mənə əl uzatdı. Arvadı isə başıyla sağollaşdı və Rodkinə pıçıltı ilə nə dedisə, Rodkin məni arxa-dan çağırıb:

- Sabah işə gəlmə! – dedi.

Arvadı isə əlavə elədi:

- Dincələrsən sabah.

17.04.1971, ***VI gün.***

Səhər hamı işə gedirdi. "Razvod"dan sonra mən də getdim. Rodkin demişdi istirahət elə.

Ancaq kazarmada nə istirahət?

Getdim "UNR"-ə. Otağımı açıb özümü qay- daya salandan sonra düz 39 ədəd "1 May" bayramı münasibətilə "otkrıtka" yazdım.

Arada da tez-tez gözümü pərdənin arasından çəkmirdim. Bu Sarıkirpikli qız nə vaxt tualetə gedəcək görəsən...

Komsomol qıza bir vərəqdə gözəl, rəngli şrift- lərlə «sən mənimsən!» sözlərini yazdım. Yan yörəsində də musiqi embleminin, rəssam fırçası və ləvazimatlarının şəkillərini çəkib bəzədim...

“UNR”-in bütün işçiləri, kişili-qadınlı başladı- lar iməcilik eləməyə. Bizim otağın da şkafla- rından başqa otaqlara apardılar. Mən də şkaflar çıxarılandan sonra otağı səliqəyə saldım. De- yəsən birinci gün bizi başqa otağa köçürəcəklər. Elə olsa, pis olacaq...

Yeməyə gec getdim. Uşaqlar da bəxtimdən yeməmişdilər:

- Yemək 16:00-da olacaq-dedilər.

Bizim kazarmada düz üç Tofiq vardı. Bakı- dan Allahverdiyev, Bərdədən mən Babayev, bir də Məhərrəmov... Məhərrəmov Tofiq istəyirdi ki, elə əsgərliyi bitirib burada, hərbidə “sverx- sroçnu”luq eləsin, starşina olsun. Odur ki, “stro-yevoy şaq” gedəndə çox intizamlı və qətiyyətli gedirdi ki, indidən komandirlər onu tanısınlar...

Bu gün “dnevalnı” oldum. Mən, Ardjimanov, Vasilyev, bir də elə bu Məhərrəmov. Növbə ilə durmalıyıq.

Qrip tutmuşam.

Salyanlı Adillə bufetə gedib, 2 manat pul xərclədim.

Axşam 20:00-da yatdım. Gecə 4-də “dneval- nı” dayanmalıyam...

18.04.1971, ***Bazar gunu.***

Gecə 3-də yuxudan ayıldım. “Dnevalnı” idim. Hələ vaxtıma vardı. Geyinib çölə çıxdım. Göyə baxanda düzü mat qaldım. Ay qırmızı idi. Özü də bütöv deyildi. Parası görünürdü. Ulduzlar tər- təmiz işiq saçırdı. Səma o qədər aydın idi ki, adamı heyran edirdi.

Əsl romantika! Ayı heç vaxt belə qırmızı görməmişdim...

...“Voyentorq”dan düz 40 ədəd “9 May” Qələ- bə günü münasibətilə “otkrıtka” aldım.

Yardımlıdan olan tələbə dostum Yasərdən, Aydından məktublar gəldi.

Komsomolun şəklindən hələ də xəbər yoxdur. Onun məndə olan qırmızı qalstuklu şəklini gö- türüb, hər gün baxıram. Bu gün, axşamtərəfi “voyentorq”dan bir vəsiqə aldım. Vəsiqənin içi- nin vərəqlərini cırdım. Ancaq üzünün cildini sax-ladım. Cildin içərisinə ağ keyfiyyətli vərəq ya- pışdırdım. Sonra komsomolun bu şəklini və- siqə

ölçüsündə kəsib, içəridən cildin bir üzünə kleylədim. Vəssalam! Oldu vəsiqə. İçərisini açanda onun şəkli...

Qripim bir az da artıb. Qızdırmam vardı. Ki- noda yatdım...

19.04.1971, I gün.

İşə gəldim. Başımın içi laxlayırdı. Burnumdan su gəlir, hələ də qızdırmam vardı. Üşüyürdüm də...

Bir ədəd "Takelajnik" sözü yazdım. Gördüm yox daha işləyə bilmirəm. Şinelimi kürəyimə sa- lıb, papağı başıma basıb, stolun üstündə ba- şımı qollarımın üstünə qoyub yatdım. Bilmirəm yuxu idi, ya həqiqət. Sarıkirpikli qızı gördüm. Yenə tualetdə siqaret çəkirdi...

Yemək vaxtı eşitdim ki, dünən gecə Hüseyn- gil birləşib, ağdamlı Telmanı döyüblər. Ağcabə- dinin Kuybışev kəndindən olan Hüseyni axtarıb tapdım. Və onu hədələyib qorxutdum :

- Kişisiniz gedin Ambarsumyanı, Oqanesyanı döyün- dedim.

Axşam hamı kartofa getdi.

Yerimə girəndə qızdırmadan titrəyirdim...

20.04.1971, ***II gün.***

Bu gün də başım yaman ağrıyırdı. Dünən ax-şam Rezniçenkodan 20 qəpiyə 1 ədəd "otkrıt-ka" almışdım. Onu "1 May" münasibətilə gözəl şriftlərlə yazıb anama göndərdim.

Rezniçenkonun ikinci uşağı dünyaya gəlib. Odur ki, oturub günləri sayır.

SSRİ-i hərbi qanunlarına görə İki uşağı olan- lar xidmətdən azaddır. Hamı ona həsədlə ba- xırdı...

İşə getdim. "Takelajnik" yazdığım "povyast- ka"ları bir də rənglədim. Rodkin işə gəlmir, odur ki, iş də yoxdur...

Öskürürəm. Başımın içi silkələnir. Sarıkirpikli vəziyyətimi görüb, mənə bir stəkan çay gətirdi. Lap kövrəldim nədənsə...

Bu qız bütün günü çay içir. Bir dəfə də olsun tualetə getmir. Çox maraqlıdır.

Axşam işdən qayıdanda qabağıma iki qız çıxdı. Biri eynilə komsomoluma oxşayırdı. Xü- susən də üzdən, boy-buxunundan... Onlar ma- ğazaya girdi. Sonra çıxdılar. Toran çalan vaxt idi. Klubun arxasında onları itirdim.

Gəldim kazarmaya. Yerimə girdim ki, yatam. Öskürək, qızdırma, titrəmə, başımın içinin laxlaması, hamısı bir-birinə qarışmışdı.

Yastığın altında əlimə bir qalın dəftər dəydi. Məəttəl qaldım. Çıxarıb baxanda gördüm ki, mənim deyil. Dikəlib tez dəftəri açdım. Füzulinin "Leyli və Məcnun" əsəri haqqında yazı yazılmış, əsər tədqiq edilmişdi.

Sonra baxdım ki, çarpayımı səhv salmışam. Sən demə, bu yer bakılı Tofiq Allahverdiyevin yeriymiş. Biz yan-yana çarpayılarda yatırdıq. O, bu barədə heç kimə heç nə danışmamışdı. Bu balacaboy, keçəl oğlan deyəsən çox qapalı oğ-landır. Onun yemişə oxşar başının qabaq his-səsinin saçı tökülmüşdü. İnstitutda oxuduğunu bilirdim. Ancaq filologiyada oxuduğunu bilmir- dim.

Öz yerimə keçdim. Əl-üz dəsmalımla da ba- şımı bərk-bərk bağladım...

21.04.1971, III gün.

Səhər-səhər iş otağımda oturub bilmirdim neyləyəm. İş yox idi. Rodkin də görünmürdü.

Başladım şeir yazmağa. Xeyli cızma-qara elədim. Yazdıqlarıma “Ay qırmızı olanda” və “Ana, mən əsgərəm!” adlı başlıqlar da qoydum. Ancaq yaxşı alınmamışdı. Yenidən üstündə iş- ləməyə başlamışdım, Sarıkirpikli məni səslədi:

- “Tofik, k telefonu.”

Rodkin idi.

-“Stokvartirni”yə gəl, – dedi.

-Nə vaxt?
-Yeməkdən sonra.
Qaralamaları yığışdırdım. Saata baxdım. Xeyli vaxtım vardı. Gəldim kazarmaya. Sakitçilik idi. Çıxıb həyətdə xeyli gəzdim. Hava xoş idi...

Poçt gəldi. 6 ədəd məktub aldım. Elə bir ye- nilik yazmamışdılar.

“Stokvartirni”də 5 ədəd “Stoy, opasnaya zo-na!” sözləri yazdım. Axşam oldu.

Gecə Hüseynlə dalaşdım. Sifəti çil-çil olan bu kök oğlana Nazimə görə dillənmirdim. Nazim də ağcabədili idi. Ancaq o, həddini aşmışdı. Mən onu birinci vurdum.

Pilotkası uçdu. O, əl qaldır-madı. Rəngi ağappaq ağardı. Hirsindən dodaq-larını dişlədi. Və pilotkasının dalınca çöndü. Mən də bərkini tutmadım... Aralaşıb hərəmiz bir tərəfə getdik.

Tahirin məktubunu oxudum. O, Nüşabəni almaq istəyir... Əgər Nüşabə də onu sevsə, bacanaq olacağıq.

22.04.1971, IV gün.

Ağdamlı Telmanı təkləyib döydükləri üçün səhər-səhər Şahmarla da elə sırada tutaşdım.. Bryusov gördü:

- Bütün "pol"ları yuyacaqsan, – dedi.

Ancaq yenə bəxtim gətirdi. Surenkov məni çağırtdırdı:

- General Krasikin tapşırığı var. Odessada yeni açılmış "pioner laqer"ə başlıq yazmaq la-zımdır. Özü də təcili!

Çeprasovu da çağırdılar. Böyük məsuliyyətli iş idi. Uzunu 16 sm. eni 30 sm. olan hərflərlə yazılmalıydı... Ölçüb-biçib işə başladım. "Pioner laqer ZVEZDOÇKA" sözlərini yazdım. Çeprasov da künc hissəsindən pioner "znaçok"unun şəklini çəkdi. V.İ.Leninin başını "kopirovka" elə- dik və ulduz şəklini də çəkdik. Əla çıxdı.

Yeni qurtarmışdıq ki, gördüm Sarıkirpikli tua- letə gedir. Mən də getmək istəyəndə Rodkinlə qabaqlaşdıq. Salamlaşıb:

- Get “rastvornu”ya, 5 kisə oradan sement yığ. Maşına da tapşırmışam, bizə apararsan, – dedi.

Nəhlət şeytana yenə alınmadı!

“Rastvornu”da 5 kisə sementi tək yığdım. Üs- tüm, başım sementə batmışdı. Maşına qoymaq istəyəndə Rodkin özü gəlib çıxdı. Uşaqlardan kömək verdi. Qoyduq maşına. Evlərinə gedəsi olmadım. Sürücünün yanında özü oturub getdi.

Axşamtərəfi Surenkov mənə “buraxılış vərə-qəsi” yazıb verdi:

-“Ujin”dən sonra “MSD”-yə gəl. Çeprasov da gələcək.

Gəldim. Tək idim. Çeprasov gəlib çıxmadı. Dəmirdən hərfləri kəsib xeyli işlədim...

23.04.1971, V gün.

İşə getdim. «Da zdravstvuyet 1 Maya» sö- zünü “belil”lə rənglədim. Rodkin gəldi. Bir karton yeşik əlif verdi ki, apar bizə. Günortadan sonra “stokvartirni”yə gələrsən.

Karton yeşikdə 24 butulka əlif var idi. Apar- dım. Rodkinin arvadı qapını bir az gec açdı. Gördüm yuxudan durub. Elə yataq paltarında idi. İçəri keçib qapının ağzında:

- Hara qoyum bunları? – soruşdum.

- Qoy yerə, üstünü batırma! – dedi.

Nə qədər elədi ki, otur çay iç. Oturmadım. O, çox mehriban idi. Üzü, gözləri gülürdü. Solğun, qansız sifəti nurlu idi.

Saata baxdım. 9 yoxuydu... Kazarmaya ça- tanda 10-a işləyirdi. Hələ Mürşüdgil işə getmə- mişdi. Dedilər ki, maşın gecikib.

Üzümü qırxıb, özümü səliqəyə salıb “UNR”-ə, iş yerinə getdim. Rodkin gəlməmişdi.

Koşkinlə Oqanesyan dəhlizdə durub söhbət eləyirdi. Sonra Çeprasov da onlara qoşuldu. Hava xoş idi. Açıq havada söhbət eləməyin əsl vaxtıydı.

Xadimə mənim otağımı təmizləyirdi. İməcilik günü aparılan mebeli də geri qaytarmışdılar. Sarıkirpikli

stolüstü kiçik radiosuna qulaq asa-asa çertyoj çəkirdi. Yazı stolunun arxasına ke- çib, o gün "qaralama" elədiyim yazılarımı səliqə ilə çıxarıb oxumağa, düzəliş eləməyə başladım. Xadimə qadın qarşımda yenə dizlərini bükmə-dən, quru arxası göydə, əyilib döşəmədə nə isə qaşıyırdı. Hərdən də mənə bizim qadınların hü-quqsuz olmaları barədə söz atırdı. Gördü mən çox könülsüz cavablar verirəm. Dikəlib düz qar-şıma gəldi və yavaşdan:

- Nataşadan xoşun gəlir? – dedi.

Sarıkirpiklini deyirdi. Çünki Nataşa deyəndə başı ilə ona tərəf işarə elədi. Mən gözlənilməz sualdan özümü itirdim. Çaşıb nə hə, nə də yox deyə bildim. Kəkələdim. O, gözlərimin içinə ba- xıb şaqqanaq çəkdi. Elə şirin gülürdü.

-Bizdə qadınlar azaddır, – dedi.

Və əynindəki boğazı düyməli koftanın bir iki düyməsini açdı.

- Nataşa da istəsə, nə desən eləyər, – dedi.

Mən ona qulaq asır, ancaq bir söz deyə bil- mirdim... Onu dəhlizdən yaşlı bir qadın səslədi. Elə bil üstümə gün doğdu. Azadlığa çıxdım. Nə- fəsim genişləndi. Durub pərdəni bir az araladım, pəncərənin kiçik nəfəsliyini açdım.

Oturub fikirləşdim. Doğrudan da nə istədiyimi, Sarıkirpikliyə niyə baxdığımı özüm də bilmirdim. Lap tualetdə oturanda onu gördüm.

Tualet hamam deyil ki!

Mən nə görə bilərdim? Və gördüyüm yerlərin mənə nə verəcəyini düşündüm. Vallah ağılsızlıq, tərbiyəsizlikdi bu.

Özüm də səhvimi dərk eləyirdim, ancaq ma- raq məni öldürürdü...

Mən elə beləcə düşündüyüm yerdə qəflətən gördüm, "Sarı" tualetə tərəf gedir.

Yenə həyəcan, yenə maraq, yenə tərəddüd etsəm də özümü ələ ala bilmədim. Və qalxıb getdim. Dəhlizdə Oqanesyanla qarşılaşdıq, mə- nə göz vurub:

- İşində ol, – dedi.

Özümü bilməməzliyə vurdum və doğrudan da "işimdə" oldum.

Tanış deşik, növbəti pusqu və yenə siqaret! Ürəyimin tıppıltısını özüm eşidirdim... Birdən nə görsəm yaxşıdır? Durub baxdığım deşiyin aşağı hissəsində, yerdə, taxta döşəmənin üstündə kişidən axan o kley kimi, yapışqanlı maye!

Diksindim əvvəl. Sonra tez probkanı yerinə basıb diqqətlə baxdım. Hər həftə və ya ayda bir-iki dəfə, ağ tumanımı batıran o mayedən idi!

Sarıkirpiklidən əvvəl çıxdım. Oqanesyanın yanına çatanda o yaxınlaşıb qulağıma dedi:

-Siqaret çəkirdi?

Mat qaldım. Karıxdım. Dilim topuq vura-vura, kəkələyə-kəkələyə nəsə demək vacib olduğu halda heç nə deyə bilmədim və tələsik otağıma keçdim. Həyəcanlı idim.

Düz bir saat nə elədiyimi özüm də bilmədim. Sakitləşib özümə gələndən sonra yazdıqlarımı bir ağ kağıza köçürdüm. Bir kuplet şeir və bir mənsur şeir aldırmışdım. Anama yazdığım şeir beləydi:

Anama... Pervomayski, 23 aprel 1971, v/ç 11741 “2”

Ana, mən əsgərəm,

Qəlbim arzular dəryası.

Vətən keşiyin çəkirəm,

Vətən–ana birdir axı.

Komsomola yazdığım mənsur şeirə ad da qoymuşdum:

Ay qırmızı olanda...

Yuxuda sevgilimi gördüm.

Əlimi ona uzatdım.

Yoxa çıxdı.

Hər yanı duman bürüdü...

Ayıldım.

Ürəyimi elə bil sıxdılar.

Çölə çıxdım.

Yuxum üçün darıxdım.

Öz-özümü danladım:

-Niyə buraxdım axı!

Üzümü tutdum göyə.

Yalvardım Allaha, ulduzlara baxa-baxa.

Yana-yana!

Birdən gördüm göydə ayı-

Qırmızı...

Həm də “para”

Ecazkar gözəllik!

Qışqırdım qəflətən:

Sabah ondan xəbər gələcək!

Hökmən gələcək! – dedim.

Poçtalyonun gur səsi oyatdı məni.

Üfüqün sarı-qırmızı şüaları altında.

Sevincə bir bax!

Yuxular çin olurmuş – ay qırmızı olanda.

Ruhlar da qovuşarmış – ay qırmızı olanda!

Son dəfə oxuyub ayağa qalxdım.

Kazarmaya gələndə rota yeməyə getmişdi. Gecikdiyim üçün “naryad” aldım.

Tahirdən, Zeynəbdən, ağdamlı Bəhrəmdən məktub gəldi. Tahir mənim komsomoluma bö-yük bacısıyla əlaqədar məktub yazıb. Və ona xatırladıb ki, Tofiqə tez-tez məktub yaz, həm də yaz ki, “bu məktub” üçün məni bağışlasın.

Elə bu “Tofiqə de, məni bağışlasın” sözü də onun evini yıxdı. Böyük bacı evdə deyib ki, bunun ağlı başında olsaydı, elə Tofiqlə danışıb sonra məktub yazardı.

- Mən onu sevə bilmərəm. Ölsəm də, xeyri yoxdur. Bir sözlə itə, qurda gedərəm, Tahirə yox!

Tahirlə qohumluğuma bax beləcə xitam verildi. Tahirin bu sonluqdan xəbəri yoxuydu...

Günortadan sonra “stokvartirni”yə getdim. Rodkin mənə xəbərdarlıq etsə də, özü gəlmə- mişdi.

Gözəl gün çıxmışdı.

Taxta “ştabel”lərin üstünə çıxıb arxası üstə uzandım. Əllərimlə üzümü qapadım ki, gün mə- ni yandırmasın.

Yuxudan ayıldım ki, gün vurub, sapoqlarımı necə qızdırıbsa, ayaqlarım bişir. İstədim qalxam, belim necə qurumuşdusa, ağrıdan bir müddət qalxa bilmədim.

Axşamtərəfi bu gözəl, keçi saqqal Rodkin gəldi. Xarratlara bir neçə ədəd “Stoy! Opasnaya zona!” sözləri yazılmış lövhələrə taxtadan “ram-ka”lar düzəltdirdik...

Axşam “naryad”ım olduğu üçün döşəməni yumalıydım. Əvəzində yazı verdilər yazmağa. “Politiko massavoy rabotı liçnoye sostava 2-oy rotı”. Başladım işləməyə. Xeyli yazmışdım ki, Şkriba arxamca gəldi:

-Sənin yerin durur. Nə vaxt işləyəcəksən?

Hirsimdən bilmədim buna nə deyəm.

-Gözün kordur!? – dedim. - Bəs bu iş deyil? Oynayıram?

24.04.1971, ***VI gun.***

Siyasi məşğələ uzun çəkdi. Sonra xeyli “us- tav”dan danışdılar. Sonra da “stroyevoy pod- qotovka” bizi qırdı. Qayıdıb bir də “obed”ə qə- dər “ustav”dan dərs keçdik.

Yemək yedik. Soyduğumuz kartofdan “püre” bişirmişdilər. Yanında da bunların “qreçka” ad- landırdığı qarabaşaq dəmləməsi, üstündə də parda buğa verilmiş

soğanla “qovyadina”. Öy- rəşmişdik. Ləzzətli idi. Üstündən adama bir stə- kan kisel də verdilər.

Fürer Hitlerə oxşayan Qamboyun oğlu Ələs- gərdən məktub aldım. Səhv etdiyini dönə-dönə etiraf edir, üzr istəyir, uşaqlıqdan yediyimiz duz-çörəyə and verirdi ki, onu bağışlayım. Ona bir tənəli cavab yazdım. Və əsgəri xidmətə gəl- məzdən əvvəl baş vermiş bir “olayı” xatırlatdım:

Bakıda Vaqif Baharoğlu ilə o, bir otaqda kira- yədə qalırdılar.

Mənim isə Yasamalda “xüsusi” həyət evim vardı. Atam o evi mənə alanda cəmi 16 yaşım vardı. O vaxt notariusun müdiri evi “metirka”m-la sənədləşdirib, mənim adıma keçirəndə de-mişdi:

-30 ildir notarius işləyirəm, birinci dəfədir doğum haqqında şəhadətnaməylə ev sənəd- ləşdirirəm.

...Bir gün bu Ələsgər Bakıda bizə gəldi. Çırt- ma vursan, qanı tökülərdi. Kövrəlmiş halda mənə bildirdi ki, Bəylər kişi Bərdədən gəlib. Vaqif evdə olmadığından qapını bu Bəylər açıb, Ələsgəri görən kimi, salamlaşmadan:

- Sən burda neyləyirsən? Donuz damında qalmırsan taa ... – deyib.

Və onu da deyim ki, Bəylər kişi özü də Qan- boy kişi kimi Adolf Hitlerə oxşayırdı. 46 kq. çəkisi, 1 m. 50 sm. boyu olan, arıq bir adamıydı. Bığı burnunun altından üst dodağının sonuna qədər ensiz bir düz xətt, saçlar da sifətə tərəf əyri və başının ortasından bir az yana ayrılmış vəziyyətdə.

Biz Şərq küçəsində böyümüşdük. Üçümüz də qonşu idik. Şərq küçəsindən Bəylərlə Qan- boy kişi təsadüfən bir yerdə yanaşı getsəydilər və həqiqi Adolf Hitler də özü dirilib onları gör- səydi, məəttəl qalardı. Hər üçü bir-birinin eyni idi. Fərq bir idi: Alman Fürer Hitler bu dünyada yoxuydu. Bu iki müsəlman Hitler isə hələ də ömür sürürdülər...

Nəysə xatırlatdım ki, yadındadır “donuz” mə- sələsi? Və ardınca ona bir kuplet də şeir yaz- dım:

Ə, Ələsgər yenə də

Yaşadığın o damdı?

Bəylər bunu deyəndə

Donuz damını andı.

Ələsgərin məktubuna cavab yazıb yola saldım.

“Stolova”nın qabağındakı torpaq sahəsini bütün rotamızla birlikdə şumladıq...

Sonra məni “dnevalnı” qoymaq istədilər.

- Yox!!!-dedim.

Starşina gəldi. O, üzdən elə bil donuzlarla doğma qardaş idi. Yaşıl gözləri, “sala” rəngində də sifəti! Çox tələsik gəldi. Hirsli idi. Mənə ça-tanda başqa söz demədən qışqırdı:

-“Troye sutok! Troye sutok xvatit?”

Hirsimdən bilmirdim neyləyəm? Tərs kimi ax- şam da klubda “Mazandaran pələngi” filmi vardı. Dedim ki, bu gün nə istəyirsiniz eləyin, mən “dnevalnı” duran deyiləm. Dolqiyer xəbərə qaç-dı. Denisenko gəldi ki, hər ikinizi Bryusov çağırır.

Getdik. Hərəmiz öz arqumentlərimizi söylədik. Son qərarı leytenant Bryusov verməliydi. Kişi kimi verdi də. O gecə mən “Mazandaran pə- ləngi”nə baxanda serjant Dolqiyer özü “dne- valnı” durdu...

Gecə hamama getdik. Hamamda hamı Dol- qiyerlə məndən danışırdı.

Kino pullu idi. Özü də çox basırıq vardı. Bi- letə növbəyə durmaq uzun həngaməydi. Bizim azərbaycanlı

uşaqlar basabas salıb, məni qa- bağa itələmişdilər. 35 qəpikdən 24 bilet almış- dım...

Gecə kinodan qayıdandan sonra Allahverdi- yev Tofiqlə xeyli söhbət elədik. Onun ağıllı gözləri, iti zehni və yaxşı nitqi vardı. Yerimi səhv salmağımı, onun dəftərini səhvən açmağımı və s... ona danışdım O dedi ki, filologiyada qiyabi oxuyur. Tez-tez əlini daz başına çəkə- çəkə da- nışırdı. Dedim ki, mən də bir-iki şeir yazmışam. Baxa bilərsən?

-Gətir baxım.

Gətirdim oxudu. Qurtarıb gülə-gülə dedi:

- Yaza bilirsən!

25.04.1971, ***Bazar günü.***

Qəşəng "uborka" gedirdi. Mən çarpayıları o tərəf-bu tərəfə çəkir, uşaqlar da dizlərini yerə qoyub, "tryapka"larla döşəməni yuyurdular.

Hamı zarafatlaşır, deyib gülürdü. Haradan- sa Eldarın yadına Əliquliyev düşdü. Onun ditdili tutmasını yamsılıyıb, uşaqları güldürdü. Salyan- lı Adili də dilə tutdular ki, bir

ağız oxusun. Üzü- nü qırxan, yuyunanlar da zarafatlarından qal- mırdılar. Adil oxumaq əvəzinə birdən dizini ye- rə qoyub, həvəslə “pol” yuyan Mürşüdün belinə tullanıb mindi. Guya eşşək minib, toqquş, toq- quş dedikcə gülməkdən uğunurduq.

Bu gün çöldə də hava yaxşı idi. Gün çıxmışdı. Hamıda xoş əhval vardı. Mürşüd hirslənmək əvəzinə eşşək kimi anqırırdı. Kənardakı uşaq- lar da toqquş, toqquş deməyə başladılar. Tu- rabxan da tullanıb İlyasın belinə mindi. İlyas ayağa qalxıb, Turabxan belində tullanıb düş- məyə başladı. Guya şıllaq atıb onu yıxmaq is- təyir.

Kazarmanın qabağındakı meydançada bu yekə uşaqlar mel ilə “kletka”lar çəkib, uşaq kimi “klass-klass” oynayırdılar. Bu gün nədənsə ha- mının kefi kök idi.

Uşaqar ağır qışdan çıxmışdı...

Telman sevincək qışqıra-qışqıra üstümə tərəf gəlib, əlində tutduğu məktubları mənə göstərib şirinlik istədi. Ona 50 qəpik verdim. Məktublar Tahirdən, Əlövsətdən, Vidadidən və Tariyeldən idi. Tahirin məktubunu oxuya- oxuya kluba gedib, fotoqrafdan Qiyasla çəkdirdiyim şəkli alıb qa- yıtdım.

“Uborka” qurtarmışdı.

Hərə öz qayğıları ilə məşğuluydu. Məktub ya- zan, rubaşkasının boynuna ağ tikən, cırılan şal- varını,

düyməsini tikən, şəkil çəkdirən, çəkdir-diyi fotoşəkillərini məktubla göndərən...

Göygöz Eldar yenə gəlib yanımda oturdu:

-Axşam Bryusovun kabinetində yenə Oqa- nesyan türklərdən danışırdı, – dedi.

Sonrada əlavə elədi ki, kaş rus dilini öyrənə biləydi. Orta məktəbdə oxuyanda sinifdə rus dili dərsini heç kim oxumurdu. Çox vaxt da məktə- bə rus dili müəllimi tapmırdılar. Qışda sinif otaq- larında odun peçini yandırmaq üçün, bədən tərbiyəsi müəllimi rus dili dərsi əvəzinə uşaqlara odun daşıtdırırdı...

Eldar ürəyini boşaldırdı. Ona diqqətlə baxdım. Heç bu günə qədər onun sifətinə belə baxma- mışdım. Eldarın uzun boyu, ağ dərisi, yumşaq seyrək şabalıdı saçları vardı. Gözləri göy idi. Göy gözlərinin kirpikləri o qədər uzun, gözəl idi ki, mat qaldım. Eldarın kirpiyi əksər qadınların kirpiyindən yaraşıqlıydı. Bir sözlə, ona diqqətlə baxan qadın bu kirpiklərə həsəd apara bilərdi. Eldar təmiz oğlan idi. 19 yaşı vardı. 10-cu sinifi bitirib, Ağdam rayonunun Boyəhmədli kəndində həyətyanı torpaq sahələrində tərəvəz becərib satır, payızda pambıq yığırmış. Həm də mexa- nizator imiş. Oktyabr-noyabr aylarından sonra bütün qışı bekar qalarmışlar...

Eldar gedəndən sonra gələn məktubları oxu- mağa başladım. Qardaşım Vidadinin məktubu- nu açanda ... elə bil məni tok vurdu. Özümdən asılı olmayaraq:

- Hiiii ... eləyib içimi çəkdim...

Və nədənsə o üz-bu üzə baxıb tez məktubu qoynuma soxdum. İlahi, bu nə idi? Şəklə baxa bilmədim.

Bu “o” idi!

26.04.1971, I gün.

Bu gün bir sirrin üstü açıldı.

Sən demə Muxtarın iki arvadı varmış!

Biri 22, o biri isə 23 yaşında. Mən əvvəl inan- madım. Belə də iş olar? Muxtarın özünün 20 yaşı yoxdur hələ, iki arvad bunun nəyinə yara- şır? Özü də hər ikisi bundan böyükdür.

Muxtarı əsgərlikdən qurtarmaq istəyən də 2-ci arvadın atasıdır. Birinci arvadı tamam sıradan çıxarmaq üçün qurulmuş strategiya imiş...

Və Muxtar gecə-gündüz “Azvoyenkom”un rəsmi məktubunu gözləyirdi...

Bir gözləyən də vardı. O məktubdan... Bu da mingəçevirli Qismət idi. O da atasının II-ci dün-ya müharibəsində həlak olmasını, özünün yetim, evin tək oğlu olduğunu, evdə pul qazanan ki-minsə olmadığını, bir sözlə anasına hayan dur-maq üçün "komissovat" olacağı günü səbirsiz-liklə gözləyirdi.

Belə şeyləri mən qəbul eləyə bilmirdim. Gəl-misən, kişi kimi qulluq elə! Lap düzü, gəlmisən eşşək kimi işlə, getsin!

Belə də əsgəri xidmət olar? Tutalım Çinlə, Amerika ilə sabah müharibə olsa, biz nə ata-cağıq? Nə ilə uçacağıq, nə ilə müdafiə oluna-cağıq? Vətəni necə qoruyacağıq? Bizim bacar-dığımız bir şey vardısa, o da iraq olsun yer qa-zıb meyitləri basdırmaq, üstünü hörmək, ya su-vaq çəkib "kraska" vurmaq. Bacarığımız bu idi.

Vətən! Bizə arxayın olub yekə getmə! Nə Mürşüd, nə salyanlı Adil, nə kirpikli Eldar nə də bir başqası səni balaca çinlilərdən, ya da müftə yeyən amerikanlardan qoruya bilməyəcək. Bunu mən deyirəm!

Bu Oqanesyanlar, Ambarsumyanlar da Ame- rikanın Mərkəzi Kəşfiyyatına işləyəcəklər vallah! Birdən necə oldusa, marşal Qreçkoya da ya- zığım gəldi.

- Qardaş, – dedim – bu batalyona arxayın olma! Özündən böyüklərə, o XXIV qurultayı ke-çirən qardaşlara da de, qoy çarə qılsınlar. Val-lah belə getməz!

Belə də vətən qoruyarlar? 50 qəpik ver “pol” yuma. Ya vermə yu...

Heç bir mənası yoxdur. Sabah bir atom bom- bası atılsa, mülkü adamlardan çox bu vətən qo-ruyanlar ya qorxub qaçacaq, ya da gizlənəcək-lər...

Oturmusunuz Kremldə. II dünya müharibə- sindən artıq 26 il keçir...

Qonşu dövlətlər, xüsusən “Kitay” kommu- nizmin düşməninə çevrilsə, Amerika artıq baş- layıb, bu Avropa sövdələşmələri başlasa nə edəcəksən? Erməni Oqanesyan Türkiyədən, İs- tanbuldan danışır. Ermənilər yeni torpaq, yeni sərhəd istəyir. Dənizdən dənizə deyir. Özü də Şamxor ermənisidir. Gör indi bizim köhnə Se- van, köhnə İrəvan, köhnə İçevan, Zəngəzur er- məniləri nə danışır? Eh nə isə...

Muxtar hər iki arvadının şəklini hərbi bile- tinin arasından çıxarıb mənə göstərdi. Sonra Vahidi də çağırdıq. O da nişanlısı, 19 yaşlı Dil- bərin şəklini çıxartdı. Sonra mən də 14 yaşlı komsomolumun şəklini çıxartdım. Baxdıq. Bü- tün rota başımıza yığışdı. Rus Klimenkodan tut- muş hamı komsomolu bəyəndi. Bircə Şövkət Vahidin Dilbərini, Muxtarın iki arvadından heç birini bəyənən olmadı.

Kartof soymağa getdik. Taxta otağın çöl tə- rəfində oturub adama bir çəllək kartof soyurduq.

Hava tutqun idi. Boz rəng buludlar topa-topa gəlirdi. Dağ kəndlərinin uşaqları dərhal dedilər ki, yağış yağacaq. Doğrudan da bir az keçmiş yağış başladı. Hamımız durub taxta otağın içinə keçdik.

Yaman kefim kök idi! Birdən ağlıma nə ver- disə, lüt soyunub, tək şalvarda elə yağışın al- tında oturub kartof soymağa davam elədim. Yağış getdikcə artır, mənə ləzzət eləyirdi...

Sonra öz pulumla üç metr "liçka" materialı alıb, qəzetləri "podşivka" elədim.

Qardaşım Vidadi yazmışdı ki, aprelin 17-də saat 10-da şəkli komsomolun çantasından gö- türüb. Gecə ilk dəfə komsomolumun yeni foto-şəkli ilə yatdım...

27.04.1971, ***II gün.***

İşdə oturmuşdum. Rodkin yoxuydu. Məktub- lar yazırdım. Komsomola da müəllifini unutdu- ğum bir şeir yazıb hazırladım:

“A şən günəş,

Qəşəng günəş

Eşit məni

Xəbərin yox sevgilimdən.

İnan onu özün görsən,

Sənə bənzər üzün, görsən

Mat qalarsan!

Sevgilimin yanağından

Od alarsan

Od içində odlanarsan!”

Çeprasov gəldi ki, qardaşın gəlib çöldə səni gözləyir. Düzü inanmadım.

Ancaq ürəyim döyündü. Rəngim ağardı, çölə qaçdım. Gələnlər bakılı Bilalov və Şahmar Hə- təmov idi. Məni görən kimi güldülər:

- Çeprasova özümüz dedik ki, qardaşıyıq.

Onları otağıma dəvət eləmədim.

Özüm düşüb həyətdə onlarla xeyli gəzişib söhbət elədim. Onlar da dünən təzə gələn foto-şəkli görmüşdülər. Bir az da şəkildən danışdıq, getdilər.

Mən həyətdə olanda Rodkin Sarıkirpikli ilə telefonla danışıb. O, məni görən kimi:

- "Posle obeda bıt stokvartirne," – dedi.

Başa düşdüyümü bildirdim.

- Otaqda "Partkom" sözünü yazdım. Bir taxta lövhəni "tujla"yıb, sonra bu sözü oraya kleylə- dim.

Yeməkdən sonra "UNR"-ə gəldim ki, bir az oturub, yarımçıq qalmış məktubları bitirib ge- dəm. Vahidin Dilbərinin və Muxtarın iki arva- dının da şəkillərinə "udostvereniye" materia- lından üzlüklər düzəldirdim ki, Rodkin gəldi.

Özümü itirdim. Qıpqırmızı qızardım. O, məni başa düşüb, çölə çıxdı. Cəld stolun üstünə tök- düklərimi

yığışdırıb, geyinib çölə çıxdım. “Stok- vartirni”yə birlikdə getdik. Yolda gördü ki, çox pərt olmuşam, dedi:

- Azərbaycan indi istidirmi?

- Bəli, – dedim.

Əynimə baxıb:

- Sənə soyuq deyil ki?

- Yox, yaxşıdır...

O, mənim könlümü almaq istəyirdi. Yaxşı adamdır, vallah.

Pərtliyimi gizlədə bilmirdim.

“Stokvartirni”də düz dörd yerə: «Stroqo sob- lyuday pravila texniki bezopasnosti» sözlərini yazdım.

İşimi qurtarandan sonra uşaqların yanına getdim. Başqa rotadan olan gürcüstanlı Vaqif Bəhrəmova da şəkillərin dördünü də göstərdim:

-Hansı gözəldir? – soruşdum.

O, dördünə də baxıb barmağını komsomolun şəklinin üstünə qoydu. Bərk sevindim!

Rotaya hamıdan tez gəlmişdim.

Filoloq Tofiq mənə bir məktub verdi. Baxdım: həə, atasını döyüb çarpayının altına salan Ba-haroğlu Vaqifdən gəlmişdi. Elə-belə, xala xətrin qalmasın yazmışdı. Görünür o gün ya tutarlı məclis olmayıb, ya da tez qurtarıb...

Sonra düz 32 ədəd "9 May"la əlaqədar "otkrıtka"lar yazıb hazırladım və axşam da gön- dərdim.

Nəysə bərk darıxmağa başlamışdım. Səbəbi- ni bilmirdim. Hərbi xidmətə gələndən bəlkə də belə darıxmamışdım. Komsomolun şəklinə xeyli baxıb lap kədərləndim.

Və anladım ki, qarşıda bütöv 20 ay durur. Hara buradır. İyirmi ay! Sonra hesabladım ki, yox 19 ay 9 gün. Gördüm yox ee, elə ikisi də eyni poxdu. Deyəsən çətin olacaq. Həqiqət isə ortada idi.

Bir gün də keçdi...

28.04.1971, ***III gün.***

Bu səhər Boyko mənə "osvobojdeniya" yaz- dırdı.

-"UNR"-ə getmə – dedi. Yazı yazacaqsan.

Rotada qalası oldum. Adi yazı hərfləri ilə 16-ya yaxın “Sotsobyazatelstvo” sözü yazdım. Cə-mi iki saat çəkdi.

Bütün günü boş oldum. Şostaka “otpuska” verdilər. Heç sevinmirdi köpək oğlu. Üzünü qır- xıb, odekalonlayıb ortalıqda hərlənirdi. Halbuki o uçmalıydı...

Zeynəbdən məktub aldım. Oxuyub dəli ol- dum. Nə baş verib? Komsomol məktəb çanta-sını dəyişib. Daha asanlıqla ora məktub qoy- maq olmayacaq. Həm də Zeynəbdən göndər- diyim məktubu götürməyib. Bu nə deməkdir? Qızın qardaşları da başlayıb mənim arxamca danışmağa...

Yenə darıxmağa sonra boğulmağa başladım. Ürəyim sıxılırdı.

“Voyentorq” mağazasının yanından keçirdim. O ağ eynəkli qız yadıma düşdü. Qırmızı laklı dırnaqları, nazik ağ barmaqları, bir də o bar- maqlar arasında tüstülənən siqaret...

Lap kövrələn kimi oldum. İstədim siqaret çə- kəm. Hətta qəti addımlarla mağazaya girdim.

Mamışevlə qarşılaşdıq. O, sözlü adamlar kimi məni çölə çıxartdı. Siqaret yadımdan çıxdı. Mamışev çox qeyrətli və qətiyyətli oğlan idi. Bığını sığallaya-sığallaya ermənilərdən danışır- dı. O deyirdi ki, ermənilər son 70 ildə düz üç dəfə azərbaycanlıları deportasiya eləyiblər.

On- ların əzəli torpağı olmayıb. Ruslar onları zorla bizim torpaqlarda yerləşdiriblər. İrəvan xanlığın- dan başlayıb bütün bu həngamələr. İndiki Ermənistanın paytaxtı Yerevan əvvəllər İrəvan xanlığı olub. Orada bizim azərbaycanlılar həmi- şə xan, bəy, ermənilər isə bu xanların, bəylərin evlərinin qulluqçuları olub, fəhləlik, ustalıq elə- yiblər. Azərbaycanın harasına getsən, indinin özündə də ən yaxşı sənətkarlar ermənilərdir. Bizim İrəvan xanlıqlarında isə azərbaycanlılar əsasən tacirliklə məşğul olublar.

Mamışev danışdıqca görürdüm kədərlənir. Onun açıq şabalıdı gözlərində nə isə bir qüssə dolu işartı vardı. Mənim əslən Ermənistanın Xə- ləfli tayfasından olmağımı o bilirdi. Odur ki, dedi:

- Siz Əzizbəyov rayonunda yaşayırdınız?

- Hə, Dərələyəz mahalının Əzizbəyov rayo- nunda. Mənim ata tərəfim oradandır. Anam isə əslən iranlı olub.

- Əzizbəyovun özündə, şəhərdə yaşayırdı sizinkilər?

- Yox, Dəmirçilər kəndində. Sən yaxşı tanıyır- san oraları? – soruşdum.

- Hə, bizimkilər də oradan zorla deportasiya olub, 1918-1920-ci illərdə indiki Kirovabada gə- liblər.

- Dəmirçilər kəndi Cul kəndi ilə Köçbəy kəndi arasında yerləşib. Atam danışardı ki, o vaxt bəyləri, xanları oradan ruslar, ermənilər kö- çürmək istəyəndə bu söz yaranıb. "Köç bəy, köç bəy..." o qədər deyiblər ki, kəndin adı ona görə belə qalıb-Köçbəy.

1918-ci ilə qədər Dəmirçilər kəndi sənətkarlar ocağı olub. Bu kənddə üç qardaş yaşayırmış. Məmmədi Babaxan və qardaşları Qardaşxan, Əlixan. Bax mənim familiyam Babaxan kişinin – atamın babasının adından götürülüb, indi Ba- bayev olub. Atamın adı Əli də Əlixan Məmmə- diyə görə Əli adlanıb. Sonra xan, bəy yığışılan- da Əlidən sonrakı xan sözü götürülüb... Əlixan loğman olub Qardaşxan dəmirçi, Babaxan isə gözəl dərzi imiş. Dərələyəz mahalının bütün kəndlərindən sənətkar olmaq istəyənlər bax atamın bu babasının və qardaşlarının yanına gələrmişlər. Həmişə yüzlərlə "şəyird"ləri olarmış.

Mamışev qoluma girdi. Batalyonun yerləşdiyi ərazidə şam ağaclarından ibarət kiçik bir park vardı.

Getdik parka. Onunla söhbətimiz tuturdu. "Skameyka"da oturub söhbəti davam elədik. O dedi ki, bu ermənilər çox qudurqan, qədirbilməz millətdir. Onlar nə varsa, öz adlarına çıxırlar. Fransız Dyumanın yazdığı "Üç müşketyor" kitabındakı Dartanyanı da öz adlarına çıxırlar. Mən dedim:

- Fikir verirsən, biz azərbaycanlılar əsgərlik çəkəndə də hamballıq edirik. İnşaat batalyonu- nun yarısı azərbaycanlıdır. Onlar isə həmişə yüksək vəzifə tuturlar. Bax bu şamxorlu Oqa- nesyanın yerlisi erməni Babacanyan axırda marşal oldu.

Biz onlardan qat-qat cəsarətli, döyüşkən, dövlətçiliyi qoruyan olduğumuz halda bir dənə də marşal alanımız olmayıb. Axırıncı 100 ili gö- türsək, "beş-on" nəfəri çıxmaqla heç general- larımız yoxdur. Halbuki ermənilərdə bu general- lardan minlərlədir.

- II dünya müharibəsində Həzi Aslanova general rütbəsi verdilər. Çar Rusiyası dövründə də beş-üç nəfər olub – Cəmşid Naxçıvanski, Əliağa Şıxlinski, Mehmandarov, İsmayıl bəy Qutqaşenli, biri də olub Vəkilov.

Rus ordusunun generalı İbrahim ağa Vəkilov. Onun da arvadı rus olduğu üçün bu generallıq baş tutub. Onun arvadı bu izdivac üçün – pravoslav qızının müsəlman oğlanla nikah bağlamasını şəxsən çar Aleksandrın özündən yazılı şəkildə icazəsini alıb.

Yelena Yefimovna İbrahim ağadan olan 2 oğlunun – Boris və Qlebin böyüdüyünü, Rusiya-da əqidə azadlığı elan ediləndə, onların müsəl- mançılığı qəbul etmək istəməsinin şahidi olanda, böyük rus yazıçısı Lev

Tolstoya məktub yazıb, məsləhət istəyib. Lev Tolstoy cavabında :

-Yelena Yefimovna, mən sizin oğlanlarınızın Azərbaycan xalqının maariflənməsinə xidmət göstərmələrini alqışlayıram.

Dinin əsas ilahi mətləblərini açan məqam- larını, artıq, lazımsız mövhumatdan təmizləmək işinə kömək etmək insanın özünə seçdiyi ən şərəfli işdir.

Tolstoyun xeyir-duası ilə İbrahim ağa Vəkilo- vun böyük oğlu Borisi Fariz, Qlebi isə Qalib ad- landırırlar. Kiçik oğlu Qalib də sonralar hərbçi olub Belomor-Baltiysk kanalına göndərildi.

Qalib 1931-ci ildə Bakıya qayıdanda artıq ka- nalda ağ paraxodlar üzməkdəydi. 1937-ci ildə onu həbs edib güllələdilər. Fariz isə "düşərgə-lər"də 1956-cı ilə qədər ömrünü çürütdü. Bu da bizim İbrahim ağanın generallıq sonluğu...

Bu ermənilər o qədər bicdi, bax, gör neylə- yirlər. Məsələn, Moskvada "Rossiya" mehman- xanasında bir stolda səhərdən axşamacan otu-rurlar. Və ya Kiyevdə Xreşatikdə. Yan-yörədəki stulda oturanlar eşitsin deyə bərkdən danışırlar ki, Vladimir İliç Lenin Sankt-Peterburqda Fin vağzalına gələndə sürücüsü erməni olub və ayağa qalxıb V.İ.Leninin sürücüsünün sağlığına badə

qaldırırlar. Bu vaxt yan stulların birindən başqa bir öyrədilmiş erməni qalxır ki, bəs o sürücü mənim babamın yaxın qohumu Artaşesin oğlu olub. Ətrafda oturanların beyninə də həkk olunur ki, bəli bunlar düz deyirlər, yəqin V.İ.Lenin yalnız ermənilərə inanırmış...

II dünya müharibəsində, 1941-1945-ci illərdə isə ermənilər Hitlerə işləyib. Universitetdə tələ- bələrə bunu naxçıvanlı "o " tarix müəllimi danı- şırmış.

- Mənim də babalarım bu ermənilərin əlindən çox zülm çəkib.

- Natiq, – bu Mamışevin adıydı – bizim nəsil-kökün arasında bir dənə də olsun nə akademik, nə də general var. Heç fərli bir professorumuz da yoxdur. Bilirsən niyə?

- Niyə? – o qaşlarını düyünlədi.

- Yüz illərdir bu ermənilərin əlindən.

Sonuncu dəfə I dünya müharibəsindən üzü bəri 2 dəfə: 1918-1920-ci illər, 1939-1949-cu il- lər arasında nəsil-kökümüzün hamısı erməni daşnaklarına qarşı döyüşüb.

Oxumağa vaxt qalmayıb.

Elə olub ki, illərlə gecə-gündüz növbə ilə bi- zimkilər dağların arasında, kəndlərin girəcəklə- rində, barrikadalarda yaşayıblar...

Abbasqulu bəy Şərurda oturub, yüzlərlə, min- lərlə daşnaklar tərəfindən qovulan cəsur, igid oğlanlarımızı başına yığıb qoşun düzəldəndə mənim atamın babasının dəmirçi qardaşı Qar- daşxanı Naxçıvanın Vayxir rayonundan gətirib öz yanına ki, köhnə qılıncları, silahları bərpa eləsin. Əlixan isə – Qardaşxanın böyük qardaşı – gözəl loğman, sınıqçı olub. Müxtəlif xəstəlik- lərdən tutmuş qolu-qılçı sınanlara qədər hamı onun qapısında növbə gözləyərmiş... Abbas- qulu bəy onu da yanına gətizdirir.

Babaxan Məmmədi iki qardaşı Abbasqulu bəyin yanına gedəndən sonra öz oğlu İmranı da onun yanına göndərir.

Bax, bu İmran mənim doğmaca babamdır. Heç üzünü də görməmişəm. Ancaq onunla ömür boyu fəxr etmişik. Atam da, əmilərim də, bibim də gecə-gündüz onun qəhrəmanlıqla- rından danışardılar. Bu İmran babamın uşaqları – atamgil beş qardaş, bir bacı olublar...

Məni Boyko çağırdı. Mamışevə dedim ki, ba- zar günü oturub rahat danışarıq və qaça-qaça Boykoya tərəf götürüldüm...

29.04.1971, IV gün.

Səhər bərk yağış yağırdı. Kazarmadan ye- məkxanaya qədər elə cərgə ilə qaça-qaça get- dik. Ancaq tamam islanmışdıq.

“1 May” münasibəti ilə klubda geniş tərkibdə iclas keçirildi. Bezlepkin iclasda bayram günü «uvalneniya» verilməsinə qadağa qoydu.

«Da zdravstvuet 1 Maya» sözlərini karandaş- la yazdım. Ancaq şriftlərin içərisini rəngləmə- mişdim, Sarıkirpikli qız dedi ki, səni “stokvar- tirni”yə çağırırlar. Onsuz da “kraska” yox idi. Odur ki, getdim. Rodkin məni görən kimi:

- “Saçkayeş?” – dedi.

- Yox, “osvobojdeniya”m var. Boyko verib, – dedim. Həm də rəng qurtarıb Qladkovu gözlə- yirdim.

O:

- Get, rəngi götür, Qladkov deyən işi bitir.

- Baş üstə dedim.

Və onun göstərdiyi ağzı bağlanan 3 kiloq- ramlıq baçoku rənglə doldurub “UNR”-ə getdim.

Qladkovun tapşırdığı şüarı bitirib, axşam ro- taya gedəndə göydə geniş qövs şəkilli, rəngli işıqlar oynaşırdı. Çox romantik idi. Təbiətin ecazkar möcüzəsi! Bir xeyli durub tamaşa elə- dim... 7 rəng bir-birinə qarışmırdı da...

Bu gün heç kimə məktub gəlməmişdi. Məni "1 Maya" görə yalnız Tariyel Muradov təbrik elə- di...

30.04.1971, V gün.

İşə gəldim. Elə bir iş yoxuydu. Oturub yenicə məktub yazmağa başlamışdım ki, Rodkin gəldi. Məni görən kimi əvəl bayram münasibəti ilə təbrik elədi. Karıxdım, onu təbrik edə bilmədim. Sonra asan bir iş verib getdi.

Bu gün əsgərlik həyatımın üçüncü kiçik dəf- tərinin son vərəqini yazıram. Sabah Allah qoysa, yeni dəftərə başlayacağam. Mağazadan 96 və- rəqəli "ümumi dəftər" aldım. Sabahdan sayca dördüncü olacaq gündəliyi ora yazacağam.

Tahirdən məktub gəldi. Yazıb ki, vaqonla ha- ra aparıldığını bilmir. Gürcüstanın Axaltsixi ra- yonundan, qulluq elədiyi "pexota"dan çıxıb ge- dirlər. Məktubu da vaqondan yazır.

Qardaşım Rafiqdən teleqram, atamdan arxa- sı makinada şriftlə yazılmış “otkrıtka” aldım. Hər ikisi də bayramla əlaqədar idi.

Sarıkirpiklini təbrik eləməyə cürətim çatmadı, həm də utandım. O da baxa-baxa qalmışdı... Xadimə arvad isə bu gün işə gəlməmişdi.

Qardaşım Xəqani və qonşumuz Köçəri dayı- nın oğlu Qəribdən də məktub almışdım. Xəqani yazırdı ki, “komsomol” məni tanımır?! Bəs ötən dəfə yazmışdı ki, bir balaca oğlan komsomola sataşmaq istəyib, bu da onu vurub? Komsomol da görüb gülümsəyib. Sonra bir dəfə də yaz- mışdı ki, “1 Aprel” aldatma günü komsomol onu aldadıb:

- Qardaşın əsgərlikdən gəlib! – deyib

Yenə başladı düyünlər, cəncəllər... Təkrar-təkrar Xəqaninin məktubunu oxuyandan sonra başa düşdüm ki, yazılanlar olub. Sadəcə Xə- qani sözünün axırında sual qoyub. Yəqin mən- dən soruşur ki, niyə komsomol onu görüb, özü- nü görməməzliyə vurub...

Axşamtərəfi “UNR”-dən çıxanda gördüm, hauptvaxtda yatan uşaqları gətirib bizim “UNR”-in qarşısında işlədirlər. Hamısı da remensiz və başı açıq ...

Birdən Rezniçenkonu onların arasında gör- düm. Bunu nə vaxt tutublar? Məəttəl qaldım.

Məni görən kimi Rezniçenko əlini ağzına qo- yub siqaret istədi. Mən çəkən deyildim. Əlimi yuxarı qaldırıb göz vurdum ki, indi tapıb gəti- rərəm. Yanından keçib gedəndə mənə:

-Uşnoya de, – dedi.

Mən də qaça-qaça rotaya getdim. Uşnonu tapa bilməyib, Klimenkoya dedim. Klimenko tez cibində olan bir paçka siqareti çıxarıb verdi. Mən çönüb, geri qaçmağa başladım. Rezni- çenko elə yerdə idi ki, ona yaxınlaşa bilmirdim. Kənardan da məni görürdülər. Vaxt ötürdü... Rezniçenko mənə diqqətlə baxırdı.

Qəflətən ona tərəf yüyürdüm. Yanından güllə kimi keçib siqareti ona uzadanda arxadan “pat- rul”lar qışqırışmağa başladılar.

Siqaret qutusunu Rezniçenkoya verməyib cəld öz cibimə soxdum.

Və dayandım.

Məni tutdular. Remenimi açıb, papağımı da çıxarıb onlara qatdılar. “Patrul”ların qışqırtı sə- sinə, “stoy, stoy...” çığırtısına Sarıkirpikli, Oqa -nesyan və Çeprasov da dəhlizə çıxıb baxırdı.

İstədim qaçam.

Qorxdum arxadan güllə atarlar. Bu nə iş idi başıma gəldi? İndi məzuniyyətimi, işimi itirə-cəkdim? Bu vaxt "patrul"lar Rezniçenkoya qış-qırdılar:

- "Ruki na qolovu."

O, əllərini boynunun arxasında çarpazlayıb, ayaqlarını aralı qoyub üzünü divara çevirdi. Onun ciblərini, üst-başını yoxladılar. Siqareti ta-pa bilmədilər. Oqanesyan da çox ehtiyatla ya-xınlaşıb "patrul"larla nə isə danışdı.

Məni buraxdılar.

Günahkar olmağıma sübut yox idi.

Mən xətadan qurtarıb remen və papağımı alandan sonra Oqanesyandan soruşdum:

- Sən nə dedin ki, məni buraxdılar?

O dedi:

- Gördüm ki, siqareti verə bilmədin. Rodkinlə işlədiyini də onlara bildirdim. Fakt, sübut yoxdur. Onlar da məni başa düşdülər.

Sarıkirpikli də dəhlizdən düşüb yanıma gəldi. Sarı rəngi ağarmışdı.

Onu bayram münasibətilə təbrik edib rota- mıza tərəf götürüldüm…

Axşam yeməyindən sonra uşaqları kartof soymağa apardılar.

Məni isə “ştab”a çağırdılar.

Çoxlu “udostovereniya”lar vardı. Gecə 1-ə qədər də onların içərisinə «Udarnik kommu- nistiçeskoqo truda» sözləri yazdım.

Bu gün 30 noyabr 1970, 30 aprel 1971 pio- ner qızı son dəfə gördüyüm gündən düz 5 ay ötdü...

Bu da növbəti bir gün... Özü də gəncliyin əl çatmaz, ün yetməz bir günü!

1 May bayramı

01.05.1971, VI gün.

Mayın ilk səhəri açıldı. 07:00-da yuxudan durduq. Tələsmədən. Kim necə istədisə, elə də geyindi.

Yeməyə gedəndə starşina xüsusi həvəslə qışqırırdı «raz, raz, raz, raz-dva-tri, ...» Hamı "paradnı" formada idi. Ayaq tappıltıları adama ləzzət eləyirdi. Haradansa bir şeirin sözləri ağ- lıma gəldi:

Gənclik, ey illərə qoşulub gedən

Ömrün geri dönməz gözəl səhəri!

Starşina Bandısik bu gün həvəsə gəlmişdi: «raz, raz, raz, ...» və uşaqlar gücləri çatdığı qədər ayaqlarını yuxarı qaldırıb yerə bərk döyür, ayaq tappıltılarına şam ağaclarının başındakı quşlar hürküb uçuşurdular. Göydə ağ, tərtəmiz bulud vardı. Günəş bütöv idi. Elə gözəl işıq sa- çırdı... «raz, raz, raz, ...» və bu ayaq tappıltıları!

Beş aya beş gün qalıb. Hələ belə qürur duyduğum olmamışdı! Kim bu ayaq tappıltıla- rının ləzzətini yaşamayıbsa, bədbəxtdir vallah...

Azərbaycandan yanıma gələn olmadı...

Yeməkdən sonra istirahət etdik. Sonra “tor- jestvennıy marş» oldu. Bütün diviziya bir yerə toplanmışdı. Elə bir təntənə vardı, adam özü tə- sirlənirdi...

Sonra kluba yığışdıq. Yenə hədiyyələr, yenə rütbələr, yenə məzuniyyətlər, yenə 3-4 azər- baycanlılara pul hədiyyələri, təşəkkürnamələr...

Və yenə mənə heç nə düşmədi.

Konsert, sonra da kino olası idi.

Nədənsə yaman qəribsəmişdik. Odur ki, fikir- ləşdik konsertə, kinoya baxmaqdansa, kəndin kənarındakı yamaca gedək.

On nəfərə qədər uşaq bir-birimizə qoşulub getdik. Filoloq və Mamışev də bizimlə idi. Ya- maca çatmaq üçün hərbi hissədən xeyli ara- lanmalı, geniş bir taxıl zəmisindən keçməli idik.

Getdik. Taxıllıqdan qaça-qaça, yıxılıb qalxa-qalxa filmlərdən gördüyümüz alman əsgərlərinə oxşayırdıq. II dünya müharibəsi haqqında rus- ların çəkdikləri filmlərdə həmişə almanlar kəndə hücum edəndə belə taxıllıqdan keçərdilər...

Hə, yadıma bir şey də düşdü. Onda mənim 13 yaşım olardı. Gecə televizorda “Kozara” fil-minə baxırdım. Orada almanlar kəndi işğal edib taxıl zəmisində bir rus

qızını zorlayırdılar... On-da taxıl zəmisi bax beləcə yırğalanırdı...

Biz “paradnı” formada idik. Canımız istiydi. Hava əlaydı. Çox yüksək əhval-ruhiyyədə idik. Yamacın yaşıl ot cücərib çıxan yerlərində uzan- dıq. Hərə bir tarixi qəhrəmanlığından danışır, deyib gülürdülər.

Mamışev, mən və filoloq bir kənara çəkildik. Göy gözlü, uzun kirpikli Eldar da bizə qoşuldu. Keçmişimizdən, gələcək arzularımızdan söhbət eləyirdik. Yenə söhbət Oqanesyandan düşdü. Yenə Ermənistan məsələsini analiz elədik. Filo- loq dedi ki, Xalq Təsərrüfatı İnstitutunun dekanı vardı Əhməd-Cabir-İsmayıloğlu. O, kitab yaz- mışdı: «Dadlı və ləzzətli xörəklərin sirri». O vaxt onu Mərkəzi Komitəyə çağırıb deyiblər ki, “dol- ma”nı oradan çıxart. Ermənilər bizdən inciyər.

Mamışev dedi:

-Bakıda “pasportstol”ların 90 faizi ermənilər- dir. “Qazirovannı” suları ancaq ermənilər bura-xır. Özü də çox dadlı. Di gəl, bizimkilərə sirrini öyrətmirlər.

Filoloq dedi:

-“Pivnoy”ların əksəriyyətinin “sexovşik”-lərin isə hamısının sahibi ermənilərdir. “Zavaqzalnı”... hamısı onlarındır. Kömürçü bazarının ətrafı, Vo- rovski qəsəbəsi, Ermənikənd bazarı hamısı ermənilərlə doludur.

-Bakıda vəzifədə işləyənlərin əksəriyyəti er-mənidir. Nazir və nazir müavinlərinin arvadları-nın da 90 faizi ya rus, ya da ermənidir.

Mamışev həmişə bu ermənilərdən çox ya- nıqlı danışırdı. O, filoloqun sözünü burada kəsib dedi:

- Biz müsəlmanlarda birlik yoxdur. Hamısı maya qoyur ki, birini ya tutdursun, ya da yaxşı halda işdən çıxartdırıb yerinə keçsin. Ancaq ermənilər bunun əksini edirlər. Onlar maya qo- yub kimin ki, yerinə keçmək istəyirlər o adamı daha böyük vəzifəyə qoydururlar.

Mən də söhbətə qoşulub dedim:

-Mənim babam İmran, Babaxan Məmmədi- nin oğludur. Babamın gözəl təşkilatçılığı olub. Bakıda "bolşevik"lərlə əlaqə saxlayıb, Dərələ- yəzdə isə "Məzlum aqibəti" təşkilatının fəal üzvü olub, ermənilərə qan uddurub. Abbasqulu bəy Şadlinski babam İmranla bir yerdə oturub-dururmuş.

Babamın əmisi Qardaşxan Mərənddə iki dəfə Mərənd valisi ilə görüşüb. Araz çayını güllə altında üzüb əmisi ilə görüşəndən sonra geri qayıdanda İmran babama deyib ki, Vali ilə da- nışmışam, gəl Mərənddə sənə hər bir şərait düzəldiləcək İranda qal yaşa...

- Qardaşxan Mərənddə nə gəzirdi ki? – filo-loq Tofiq soruşdu.

- Babamın əmisi Qardaşxanın həyat yoldaşı, qızı və oğlu erməni daşnaklarının Dəmirçilər kəndinə hücumu vaxtı öldürülmüşdülər. O, tək qalıb qürbət İrana mühacirət eləmişdi. Babam Mərənddə qalmaq istəmədiyini bildirib, getmək istəyəndə əmisi Qardaşxan naəlac qalıb, özünü saxlaya bilməyib, gözlərindən diri-diri, muncuq-muncuq işıq saçan damcılar dığırlana-dığırlana deyib:

- Qardaş balası, qismət olsa, o dağlara get- sən, Mərənddə məni tənha qoyan o qayalara, o düzlərə, o dağlara salam söylə. Denən, ey Qar-daşxanı tənha qoyan dağlar, vəfasız dağlar!

Sizin qoxunuzu hər il bahar gələndə qarla əriyib, dağlardan tökülən suların qarışdığı Araz çayından alacağam. O yerlərin tamını Arpa çayı mənə gətirəcək. Get bala, get, dərdim təzələndi. Həsrətinizi, qardaşlarımın iyini mənə Arpa çayı gətirəcək, get bala, get.

Oğlum Tahirin məzarı yadından çıxmasın. Get onun məzarı üstünə. Balama de ki, atan elindən, obasından olub, didərgin düşüb. İranda oraq, dəryaz, dəhrə, balta, kərki, vəl, cırcır, müxtəlif növ silah düzəldir.

Günahkarlar isə keflərindən çar hökümətini yıxıb, yeni dövlət yaradıblar. Lenindir elə bu erməni daşnaklarını bizim üstümüzə tökən. İndi də çar Nikolaydan canımızı qurtarıb düşmüşük Lenin hökümətinin əlinə. Elə çar da Lenin kimi ermənilərin tərəfini saxlayırdı...

Filoloq əlavə elədi:

-Lenin qırmızılar adı ilə XI Qızıl Ordunu Ba- kıya yeridib erməni Şaumyanı bizə başçı gön- dərmədi?

-Bakıda, küçənin ortasında ermənilər əliyalın camaatı hasarların dibinə çöməldib güllələyir-mişlər...

Göygöz Eldar söhbətlərə qulaq asdıqca ağzı ayrıla qalmışdı:

- Bizim kənddə belə şeylərdən heç kimin xə-bəri yoxdur, başları da çıxmır. Qonşumuzda er-mənilər də var. Biri hörgü, biri də taxta ustası-dır. Stol, stul, qapı, pəncərə düzəldir. Bütün kənd camaatı onlara hörmət qoyur. Kəndin elə bir toyu olmaz ki, bu ermənilər orada oynama-sınlar. Bütün kəndin kişiləri də onların "sama-qon" arağından, çaxırından içir. Bizim kənddə erməni-müsəlman məsələsi ümumiyyətlə yox-dur. Siz danışırsınız, mən məəttəl qalıram. Qa-yıdanda bütün kəndə bunlardan danışacağam, onları kənddən qovacam...

Mamışev ayağa qalxıb:

-Yemək vaxtıdır, – dedi. Gedəyin. Yeməkdən sonra qayıdıb bu bərdəli rəssamın Xələfli tay-fasının başına gətirilən faciənin ardına qulaq asarıq...

Bayramla əlaqədar yeməkdə bulka, kakao və aş verdilər. Bu azərbaycanlıların qarnizonda çoxluq təşkil etdiyinə görə, bizə surprizləri idi. Ancaq Allaha ağır getməsin, aş heç yeyiləsi deyildi!

Ardjimanov "patrul" idi. Öz formamı ona ver-dim. Onun "starşı serjant" "liçka"lı formasını ge-yinib, uşaqlarla şəkil çəkdirdim.

Mamışevlə filoloq Tofiq uşaqlarla gəldilər. Yı-ğışıb, yenə də yamaca getdik. Kirpikli Eldar da bizə qoşuldu. Biz dördümüz uşaqlardan ayrılıb bir az aralıda oturduq. Yerdə qalanlar Səbuhi və salyanlı Adilin başına toplaşdılar.

Növbə ilə Səbuhi qurtarıb Adil başlayır, Adil qurtarıb Səbuhi başlayır, elə yanıqlı oxuyurdular, adamın ürəyinin başına köz düşürdü.

Sərin küləklər əsdi, yaz gəlməyə tələsdi,

Ürəyim tel-tel əsdi, anam yadıma düşdü.

Bənövşə dəstə-dəstə, qızılgül yarpaq üstə,

Sular axır ahəstə, anam yadıma düşdü.

Qəflətən Adil şən bir xalq mahnısına keçdi. Hamı da dərhal əl çalıb fit verməyə başladı.

Əsmərim biçim-biçim,

Ölürəm Əsmər üçün.

Aləm mənə düşməndir,

Əsməri sevdiyimçün.

Gülüm oy, oy, oy, gözəl yarım,

Əsmərim oy,

Gülüm oy, oy, oy, gözəl yarım,

Əsmərim oy.

Səbuhi arxasını başladı:

Əsmərin yanaqları,

Su götürüb arxları.

Şeh düşmüş gülə bənzər,

Əsmərin dodaqları.

Gülüm oy, oy, oy, gözəl yarım,

Əsmərim oy...

Bir təmiz dəsmal çıxarıb yamaca saldım. Üstünə komsomolumun şəklini qoyub, özüm də yerdə üzüüstə uzanaraq diqqətlə baxmağa baş-ladım. Əsmər, Əsmər onlar oxuduqca mən də öz "Əsmərim"lə danışırdım. Uşaqlar bunu görüb, çox pis oldular. Birdən nə fikirləşdisə, Muxtar qəflətən dedi:

- Uşaqlar gəlin «kombat»ın adına bir ərizə yazıb, altından hamımız qol çəkəyin ki, bu bər-dəlini məzuniyyətə buraxsınlar. Yazarıq ki, ana-sı xəstədir. Vəziyyəti ağırdır.

Səbuhi tez dilləndi:

- Lap rayondan məktub da yazdırarıq ki, anası həqiqətən xəstədir.

Adil də üzünü mənə tutub, onlara qoşuldu:

- Həm fotoşəklinə baxdığın sevgilini gö- rərsən, həm də gələndə maqnitafon gətirərsən.

Hamı əl çaldı, söz verdilər və əməl eləmə- yənə bizim mentalitetimizə uyğun söyüş də söy- dülər.

Sonra güləş təşkil elədik. Quş kimiydim. Uç- mağa qanadım yoxuydu. Adili, Muxtarı dalbadal yerə vurdum. Səbuhini düz üç dəfə, üçündə də eyni fəndlə yıxdım. O biriləri mənimlə güləşmədi. Sonra kim kimi istədisə, güləşə çağırdı. Kefimiz kök idi.

Onlar güləşməyə başlayanda biz dördümüz yenə aralanıb, erməni məsələsinə qayıtdıq, söhbətin ardını danışmağa başladım:

- O vaxt babamın bacısı qonşu kəndə, Alma-lıya gəlin köçmüşdü. Almalının əhalisinin çoxu-nu 1830-cu illərdə İrandan gələn ermənilər təş-kil edirdi. Kəndxudalar zorla müsəlmanları şər-ləyir, qorxudur, kənddən çıxarıb erməniləri yer-ləşdirirmişlər.

-Babam da həmişə əmisi oğlu Tahirlə Alma-lıya bacısına baş çəkmək üçün gedərmiş. Ermənilər tez-tez bizim kəndlərə hücum təşkil edir, soyğunçuluq, qarət və talanlarla kənd əha-lisini bezdirirmişlər. Babam da bu kəndxu-daların, erməni daşnaklarının əlindən bezib qa-çanları, iki minə yaxın adamı ətrafına topla-yıbmış...

Bir gün babam bacısından xəbər tutur ki, qonşuları Aramın evində çoxlu silah-sürsat giz- lədilib. Əvvəl dəqiqləşdirir, öyrənir görür ki, si-lahlar Türkiyədəki

ermənilər tərəfindən göndə-rilib. İmran babam Tahirlə tez qonşu Zeytə kəndinə gedir. Novruzu və Əhmədi tapıb, bu barədə onlara xəbər verib bildirir ki, mütləq Aramın evindəki silahları ələ keçirmək lazımdır. Bu xəbəri eşidib, yaşca hamıdan böyük olan Novruz da tez Əhmədə üzünü tutub:

- Niyə durmusan, əə... bu saat İdrisi, Rzanı, Orucu tap, Qaçaq Ağanın da dəstəsi buralarda olmalıdır. İmrana kömək eləyib silah-sürsatı ələ keçirmək lazımdır.

... Hamı toplanır. Qaçaq Ağa məsələni öyrə- nən kimi qalxıb babamı qucaqlayır, öpür və de- yir:

- İmran, sən təcili adamlarını götür, kənddən çıx, qoy ermənilər səndən şübhələnməsin. On- suz da Almalıda cəmi səksən azərbaycanlı ailə qalıb. Onlar bizə çox lazım olacaq. Heç Nov- ruzun da adamları mənə lazım deyil. Onsuz da ermənilər hər yanda məni axtarırlar. Qoçularım Güllü dağın üstündə Eşşək meydanında boş-bekardılar. Nə ələ keçirsəm, halallıqla üç yerə böləcəm. Mən getdim, İmran, sən də yaxşısı budur, Zeytədən heç yana tərpənib, özünü şüb- hələndirmə, – deyib çıxır.

Bu vaxt Novruz qışqırır:

- Ay uşaq, Ağanın arxasınca su atın!

Ağanı Eşşək meydanında öz dörd oğlu və böyük oğlu İsmixandan olan doqquz nəvəsi, ümumilikdə 35 nəfər başqa igidlər gözləyirmiş...

Göygöz, kirpikli Eldar dözə bilməyib ayağa sıçradı:

- Axırını danış, ürəyim partladı.

- Axırı, axırı...

Ağa Almalı kəndində Aramın həyətini müha- sirəyə alır. Silahları ver deyib, onun sağ qolunu qılıncla doğrayır. Aram görür qolu düşdü, əvvəl yalvarır... Sonra zarıyır, sonra da qanının axan yerinə pencəyini basıb, saman tayasını göstərir.

Ağanın dəstəsi beşaçılanları, patronları götü- rəndən sonra samanlığa od vurub, atları çapıb gedirlər.

Aram arxadan toz-dumandan başqa heç nə görmür, aşağıdan Almalı çayının daşlara sür- tünərək saldığı şırıltılardan başqa heç nə eşit- mir... Və birdən tappıltı ilə yerə yıxılır.

Söhbətin bu məqamında saata baxıb ayağa qalxdım. Eldar bir də əl çəkmədi ki, bir az da danış. Sonra nə olur?...

Ancaq qayıtmaq lazım idi. Klubda kino vardı. Həm də axşam yeməyinə gecikirdik.

Odur ki, qalsın sonraya, – dedim. Hələ qar-şıda 20 ay vaxtımız var. Nə tələsirsiz?

Ardjimanovun "starşı" serjant paltarında ko- mandirlik eləyərək uşaqları cərgəyə düzüb, yamacdan üzü aşağı endikcə komanda verir- dim:

-«Raz, raz, raz ... raz-dva-tri ... rotaaaa ... vışşe noqu ... vışşe noqu».

Uşaqlar da ürəklə təpik vurur, cərgədə ni- zamla irəliləyirdilər...

Söz verdik ki, hər istirahət gününü gəlib bu-rada keçirək. Bax beləcə deyək, gülək, şənlə-nək.

Axşam yeməyindən sonra kluba kinoya bax-mağa getdik. "Qayduklar" filmini göstərdilər.

Film yenicə başlamışdı. Atlılar atlanıb, toz qaldıra-qaldıra "cekitı, cekitı... qışqıranda" bir-dən xatırladım...

"Yay aylarında aranda yaşayanlar istirahətə dağlıq yerlərə gedərdilər. O il biz də Kəlbəcər- dən, İstisudan yuxarıda yerləşən yerlərdə çadır qurub dincəlmək istəyirdik. Tərtər çayını İstisu kurortu yerləşən yerdən keçib üzü "Taxta" adla-nan obaya çıxmışdıq.

Sonra bir az da dağlara tərəf gedib, Tatallar çayı adlanan yerə çatdıq.

Buralar həddən artıq gözəl və mənzərəli yer idi. Hər yanı dağlarla əhatə olunmuş bu yerin tən ortasından kiçik Tatallar çayı axırdı.

Bu çayın hər iki tərəfində yüzlərlə ətraf Bərdə, Ağdam, Ağcabədi, Mirbəşir rayonlarından gəl- miş ailələr çadır qurub, isti iyul, avqust aylarını burada dincələrdilər.

O vaxt orada Esmira adlı bir bərdəli qızla ta-nış olmuşdum. Ünvanını mənə dəqiq vermişdi. İstirahətdən avqust ayının sonlarında qayıdıb, bir gün, gecə yarıdan sonra onun verdiyi ün-vana getmişdim.

Onların həyətinə hasardan keçib, taxta nər- divanı ikimərtəbəli evlərinin divarına söykəyib, səs gələn və yarıaçıq pəncərəyə dırmaşmağa başladım.

O, mənə hələ dağda, bulaqdan su götürəndə danışmışdı ki, bir ana, bir baladırlar. Özü 2-ci mərtəbədə, anası isə 1-ci mərtəbədə tək yaşa-yır.

Gecə yarıqaranlıqda açıq pəncərədən mən onu görəndə televizorda bu film gedirdi. Onda da “cekiti, cekiti” qışqırırdılar.

O vaxt yorğan-döşəkdə gecə paltarında uza- nıb filmə baxan Esmira qəflətən məni pəncə- rədə görəndə bərkdən qışqırdı. Və birdən məni tanıyıb əlləri ilə əvvəl ağzını tutdu, sonra cəld ayağa qalxıb televizorun səsin artırdı. Bax onda “cekiti, cekiti” sözlərini və at nallarının

tappıl- tısını eşitmişdim. Onda da bu “Qayduklar” filmi gedirmiş...”

Esmira o vaxt orta məktəbdə 7-ci sinfi bitir-mişdi, bir neçə gündən sonra o, 8-ci sinifdə oxu-yacaqdı! Çox kövrəldim, filmə baxırdımsa da Esmira gözlərimin qarşısından getmirdi.

Görəsən, indi o, Bərdədə nə edir? O vaxt mənim komsomolum da 8-ci sinfə keçmişdi. Onlar bir-birlərini tanımırdılar. Komsomolum 1№-li, Esmira isə 3№-li orta məktəbdə oxuyur-dular...

Sonra da fikirləşdim ki, yəqin bu gün həm komsomolum, həm də Esmiragil Mingəçevirə gediblər. Bərdədə yaşayan ailələrin çoxu o vaxt hər il “1 May” bayramını Mingəçevirdə parada baxmaqla keçirər, sonra yeyib içməyə gedər- dilər.

Qurtkaşen, Nuxa, Vartaşen tərəflərdəki yaşıl meşələrdə oturub, bir neçə ailə birlikdə bayram keçirərdilər. Bütün aran zonalarında yaşayanlar bayram günlərində beləcə qrup halında meşə-lərə səpələnərdi. Kabab, manqal tüstüsündən, uşaq çığırtısından, danışanların deyib gülmələ-rindən meşələr canlanar, həyat qışdan sonra oyanardı...

Rəssam fırçasıyla bu mənzərədən ecazkar bir tablo yarada bilərdi. Mingəçevir paradına baxmayan ailələrin

çoxu isə Şuşa, Stepanakert meşələrində beləcə kababdan yeyər, bulaq su-yundan içər və o ki var araqdan vurardılar...

02.05.1971, ***Bazar gunu.***

07:00-da yenə kim necə istədisə, elə də yu-xudan durdu, geyindi. Çöldə yağış başlamışdı.

Yenə Ardjimanovun serjant "XB"-ni geyindim. Ancaq yağış hər şeyi korladı. Yamaca gedə bil-mədik. Səhər yeməyindən sonra lap darıxdırıcı oldu. Səhərin təzə açılmasına baxmayaraq göy guruldayırdı. Səmanı boz, qara buludlar tut-muşdu. Elə bil səhər açılmamışdı...

İki gündür heç kimə məktub da gəlmir.

Dəftər, qələm götürüb, suşilkaya girdim. Ya hekayə, ya da şeir yazmaq istədim. Məni qəm-qüssə bürümüşdü...

Bir xeyli yazdım-pozdum. Bir də yazdım. Bi-lalov gəlib məni tapana qədər...

O, yanımda oturub başladı:

-Niyə mənə bir yol göstərmirsən? Telmana da demişəm, deyir ki, Tofiqlə məsləhətləş...

- Sən Firəngizi həqiqi sevirsən?

- Hə!

- Bəs o necə, əminsən ki, səni sevir?

- Hə!

- Yüz faiz?

- Hə!

- Vaxtı yetişəndə, anasını seçər, yoxsa səni?

- İkimizi də!

- Bu olmadı ki. Ya səni, ya anasını!

- Bunu bilmirəm.

- Onda məktub yaz, öyrən. Cavabın hazır olanda mən də buradayam. 19 ay da vaxtımız qalıb.

Bakılı Bilalovun səsi xırıltılı idi. Siqareti çox çəkirdi. Nəfəs alanda sinəsi xışıldayırdı. Əvvəl burnunu bir neçə dəfə eşdi, sonra bir «prima» siqareti çıxarıb, "kurilka"ya getdi.

Sonra Telman gəldi. Qara, çənəsi qabağa çıxmış, ağdamlı Telman. Sifətində çapıq da var-dı. Eldarın bir kirpiyi bunun bütün vücudundan gözəl idi. Dedim:

- Telman, sən Ernesti tanıyırsan?

- O kimdir?

- Adını daşıdığın Ernest Telman.

- Yox, tanımıram.

- Deyim öyrən. Ernest Telman almandır. Hit- ler həbsxanalarında öldürülən, bir çoxları kimi əqidəli, dönməz alman kommunisti!

- Həəə...

- Hə!

- Bilalovu göndərmişdim sənin yanına. Gəldi?

- Hə.

- Nə dedin?

- Soruş özündən sənə deyər. Mən şeir yazı-ram, mane olma.

O durub getdi. Ancaq nə qədər elədim, ürə-yimə yatan bir şeir yaza bilmədim.

Bu gün də dünənki kimi kim nə vaxt istəsə, yata bilərdi. Eləcə paltarlı İlyasın çarpayısına uzanıb yatdım.

Günortadan sonra “dnevalnı” idim. Serjant Başa, mən, Sibartsev, filoloq Tofiq. Birinci növ- bə mən idim. “İnstruktaj”dan sonra növbəyə gəl- dim…

Bu gün çox uğursuz gün oldu. Qəmgin, da- rıxdırıcı idi. O, qədər fikirli olmuşam ki, bir də baxdım 12-yə 15 dəqiqə qalıb. 45 dəqiqə artıq durmuşam. Tez gedib serjant Başanı durquz- dum. Növbəni ona təhvil verdim.

03.05.1971, ***I gün.***

“Zaqatovka”ya getdik. Səhər yeməyindən sonra “uborka” elədik. Hamı işə getdi. Çerpa- sova dedim:

- Rodkinə desin ki, mən “dnevalnı”yam.

Saat 10:30-a qədər durub, sonra serjant Ba- şanı durquzub, növbəti dəfə növbəni təhvil ver- dim.

Günorta yeməyindən sonra Adil mənə üç məktub gətirdi. Bibim qızı Elza yazmışdı ki, məktubun içində 1 manat göndərir. Ancaq 1 manatlıq yox idi. (?) Bu bir manatı tapmaq ümidi ilə az qalırdım başımı boş “konvert”in içinə so-xam. İtik pis şey imiş...

Komsomolun qardaşı isə öz məktubunda ya- zıb, məndən Tahirin ünvanını istəyirdi. (?)

Gecə “starik”lər kartof soymağa getdi. Mən yerimə girdim.

Hələ də itən 1 manatlığı təəssüflə düşünür- düm...

04.05.1971, ***II gün.***

İşə getdim. Rodkin gec gəldi. Məni yeni for-mada görüb güldü… “Krokodil” jurnalı verdi. Şə-killər çəkməli idim. Çox çətin idi…

Otağıma gəlib stolumun siyirmələrinə baxdım. Hər şey yerində idi. 30 ədəd ağ rəngli, yaraşıqlı zərflərdən başqa! Məni dəhşət bürüdü. Deməli kimsə bura baxır? Ancaq təəccüblü bu idi ki, zərfi götürən 10 manat pula dəyməmişdi…

Xadimə götürməzdi. O götürsə, elə 10 ma- natı da götürərdi. Koşkin və Rodkin də ola bil- məzdi.

Qalırdı Sarıkirpikli. Yox, oçox sakit, kübar qızdır, həm də cavan idi, oğurluq eləməzdi! Nəysə, çox fikirləşdim, bir tərəfə çıxara bilmə- dim…

Tahirdən məktub aldım. Telavi şəhərindən göndərmişdi. Ancaq hərbi hissəsi tam məlum olmadığından yeni ünvan göstərməmişdi.

Rəfiqə mənə ikinci banderolu göndərib. Al- dım. Hamısı kitab, jurnal və qəzetlər idi. Rəfiqə sən demə atamın katibəsi imiş...

05.05.1971, ***III gün.***

İşə getdim. Elə bir iş yox idi. Komsomola bir məktub yazıb göndərdim. Ağ bir vərəqdə təy- yarə şəkli çəkdim. Təyyarənin üstünə "Pervo- maysk-Bərdə" sözü yazdım. Və zərfin içərisinə yenicə yazıb qurtardığım «Ayrılıq dərdi...» he- kayəsini də qoyub göndərdim...

"Reşotka" düzəltmək üçün yetmiş ədəd tax- tadan yonulub düzəldilmiş reykaları Rodkingilə daşıyıb qurtarana qədər qan-tərə batdım...

06.05.1971, ***IV gün.***

Bu gün 5 ayımız taman oldu. Remenlərdə beşinci deşiklər açıldı...

Artıq əsgərliyin uşaqlıq dövrünü başa vu- rurduq. Bir aydan sonra yeni "pokoleniya" gələcək. Biz "molodoy"luqdan çıxacağıq...

Bu gün bütün hərbi hissələrin komsomol aktivlərinin bizim klubda birgə iclası keçirildi. Generallar Qordiyenko, Krasik iştirak edirdilər. Onlar çıxış edəndə mən plakat qaldırdım: "Ya- şasın gənclik!"

Zeynəbdən, dayım arvadı Rənadan və Sü- leyman Zahidovdan məktublar aldım…

- Əslən mesxeti türkü olan orta məktəb yol- daşım Süleyman Özbəkistan SSR-nin Buxara şəhərində Engels küçəsi, ev 7-də yaşayırdı. Bərdədə qonşu olmuşduq. Çox sadə, düzgün, tərbiyəli oğlan idi. Dörd-beş bacının tək qar-daşıydı. Namuslu bir ailə idilər. Çox çətinlik çək- mişdilər. İ.V.Stalin onları köçürüb, "qaçqın" sal-mışdı. Qohum-əqrəbaları hərəsi bir yerə didər-gin düşmüşdü...

Onlar əslində axıska türkləri idilər. Gürcülər axıska sözünü gürcü dilində mesxeti ilə əvəz- ləyib, bu torpaqların gürcülərə məxsus olmasını əbədiləşdirmək üçün, işlətdikləri bir tarixi siya- sət imiş.

Bütün dünya müsəlmanları bunları axıska türkləri, gürcülər isə mesxeti türkləri adlandı- rırdı...

07.05.1971, V gün.

Səhər məni Boyko çağırtdırdı. Bryusov da yanında idi. Hərbi qaydada əsgəri təzim edib əmri gözlədim. Bryusov halımı xəbər aldı. Bir- başa da mətləbə keçdi.

- Bu gündən işə getməyəcəksən! Savelyev də bu gün gedir. Bütün "starik"lər də.

- Hara? – soruşdum.

- Odessaya gedirlər. "Akkord" götürüb işlə- yəcəklər. Oradan da kim nə vaxt qurtardı ev- lərinə!

Boyko söhbətə qoşuldu:

- Təkcə sən qalmısan. "Lenkomnata" it gü- nündədir. Rodkinlə özümüz danışarıq.

Bryusov əlavə elədi:

- Rodkin razı olmasa, "kombat"a deyərik. Sə- nə klubda bir iş verərik. Sən bizə lazımsan.

- Çeprasova tapşıracam, Rodkinə çatdırsın, – bunu da Boyko dedi.

Bir sözlə, bunlar deyəsən artıq tam qərara gəliblər. Mən heç bir söz deyə bilməzdim. Mat qalmışdım. Bryusov:

- Boyko, bu gündən tapşırarsan, Babayevə döşəmə yudurtmasınlar, “naryad”a da qoyma-sınlar...

Söhbət bitdi. Qalası oldum.

Əlvida, Sarıkirpikli!

Bütün “starik”lər çarpayılarını, döşəklərini yığışdırıb, “Kolxida” maşınına daşıyırdılar. Köç başlamışdı. Onlara baxıb həsəd aparırdım...

Boyko məni yenidən çağırıb, “Politbyuro”nun üzvlərinin fotoşəkillərini verdi:

- Başla, – dedi:

«SSRİ, MK-nin Siyasi Burosunun üzvləri» sözlərini böyük şriftlərlə yazıb, fotoşəkilləri bir-bir düzüb altından ad və soyadlarını yazmalı idim.

Hava günəşli idi. Hərə öz işində, öz qayğı- larıyla...

Qonşu rotalardan da xəstə-xüstələr, hansı səbəbdənsə işdən qalanlar yığışıb “köç” edən- lərə tamaşa edir və hərdən lazım olduqca kö- mək də göstərirdilər.

Quşlar şam ağaclarında çikkildəyir, yuva qu- rur, yerə qonub, torpaqdan eşib nəsə tapıb dimdikləyir, hərdən də bir-birləri ilə dimdikləşir- dilər.

Günəş torpağı qızdırdıqca həyat başlayırdı. Təbiət oyanmışdı.

Bir neçə əsgər köhnə "XB" paltarında əllə-rində əhəng dolu vedrə, şotka ağacların göv- dəsini, başqa bir dəstə isə səkilərin bardürlərini əhəngləyirdi...

Gedib mən də öz işimə başladım. Dayan- madan, günorta yeməyinə qədər işəlyib əla bir şey yaratdım... Boyko diqqətlə şriftlərə baxıb:

- Bunları bu yazıb? – yanımda duran Bandı- sikdən soruşdu.

Starşina təsdiqləyəndən sonra əlini çiynimə vurub:

- Afərin! – dedi.

Yemək vaxtı bərdəli, əslən mesxeti türkü olan Süleyman Zahidovun yerlisi Şükür gəldi.

- Məzuniyyətə gedirəm, – dedi.

Şükür uzun, qarayanız, sağlam idmançı bə- dənli, qoçaq bir oğlanıydı. Danışanda səsi tu- tulur, boğazında "nə isə" elə bil onun səsini boğurdu. Səs telləri sanki soyuqlamışdı. Səsi güclə çıxırdı.

Onunla bizim rotaya gəldik. Qırğız Ardjima- novun serjant paltarında çəkdirdiyim fotoşəkil- ləri də yol üstü aldım. Bərdə ünvanımı yazıb ona verdim. İki ədəd də yeni şəkildən. Başa saldım ki, bizə getsin, bizimkilərlə söhbət eləsin, məni məzuniyyətə gətirtsinlər. Şükür danışanda da gözləri balacalaşır, elə bil gülürdü. Onlar Bərdənin "Bakı" kolxozu ərazisində, Quşçuluq deyilən tərəflərdə yaşayırdılar...

Şükür gedəndən sonra, poçtu alanda mənə teleqram verdilər. "Pereqovor" üçün. Bərdə ilə! Axşam 21:00-da. Lap yerinə düşmüşdü. Həm kartof soymaqdan azad olacaqdım, həm də mə- zuniyyət məsələsini özüm təkidlə valideynlərimə deyəcəkdim. Komandirlərimlə bu günkü söhbə- timə və gördüyüm işlərin keyfiyyətinə görə onlar məni buraxmaya bilməzdilər.

Şamxorlu üzü prişikli Vahidə iki teleqram gəl-mişdi. Onu buraxmamışdılar.

Teleqramı Stepanoviçə verdim.

O, teleqramı leytenant Boykoya göstərəndə üzə düşüb, razılıq verib. Stepanoviç elə beləcə də mənə dedi.

Hazırlaşmağa başladım. Axşama hələ çox qalsa da, Turabxana üzümü, boynumun arxa- sını qaydaya saldırdım.

Tələsik “UNR”-ə getdim. “Voyenni bilet”im orada idi. Nə Koşkin vardı, nə də Rodkin.

Sarıkirpikli gəldi ki, bəs Çeprasov deyir, daha səni bura buraxmayacaqlar?

- Hə, - dedim, sonra onu dinləməmiş söhbə- timə davam elədim:

- Ümid Rodkinə qalıb. Görək Rodkin nə edə- cək? Bəlkə bizimkilərə gücü çatdı.

- Səninlə bir söhbətim vardı...

- Mənimlə? – təəccüblə soruşdum.

Canımdan elə bil cərəyan keçdi. O, başını tərpətdi. Bildirdim ki, teleqram gəlib “pereqo- vornu”ya gedirəm. Odur ki, tələsirəm. Lap bura- dan işdən çıxarsalar da, gələrəm. Söhbət edərik.

- Gözləyəcəm, – dedi.

- Sağ ol, Nataşa, – deyib ilk dəfə ona adıyla müraciət elədim və otaqdan çıxdım.

Boyko gəldi ki, heç bir yanda “uvolnitelni” yoxdur.

Starşinanın evinə qədər gedib ki, bəlkə onda təsadüfən ola. Olmayıb! Başqa rotalardan da soruşub. Hamı “blank” yoxdur, – deyib.

- Axşama hələ vaxtımız var. Qoy görək nə edirəm, – deyib ümidimi qırmadı.

Boyko da yaxşı adam imiş. Bu yaşıl göz Boykonu mən ancaq “alkaş” kimi tanıyırdım...

Axşam 19:20 olmuşdu.

Qorxuya düşməyə başladım. Bəlkə məni aldadır? Beynimdən bu fikir keçdi.

Uşaqlar kartofa getdi. Mən gözləyirdim. Bir- dən Boyko gəldi:

- Təcili, Denisenkonu yanıma!

“Dnevalnı” Denisenkonun dalınca götürüldü. Çönüb mənə də:

- Hazırlaş! – dedi.

Serjant Denisenko gələndə mən artıq hazır idim. Boyko Denisenkoya baxıb:

- Hazırlaş, apar bunu şəhərə “Pereqovor-nu”ya teleqramı var,- deyib dili ilə dodağını ya-ladı.

Boyko gecə 23:00-a qədər serjant Denisen- konun möhürlü yol vərəqinə hər ikimizin adına “pereqovor” sözü yazıb qolladı.

- “Patrul”lara da zəng vurub tapşırmışam, yalan-gerçək bu sözü də – dedi.

Saat 20:30-da xidmətimin altıncı ayında ikinci dəfə olaraq hərbi hissənin həyətindən çıxdım. KPP-dən keçəndə elə sevinirdim...

Şəhərə çatanda qaranlıq idi. Kinonun qaba- ğında insanlar qaynaşırdı. Biz “pereqovornu”ya girəndə vaxta hələ üç dəqiqəmiz vardı. Yol boyu tələsik gəlmişdik, tərləmişdim. Denisenko da çox yaxşı adamdır deyəsən. Yol boyu da heç yanda ləngimədik. İyirmi dəqiqə gözlədik.

Azərbaycan susurdu... Vaxt bitirdi. Həyəcan- lanır, çölə çıxıb içəri qayıdırdım. Denisenko və- ziyyətimi görüb, hərdən kommutatora xatırla- dırdı:

- “Barda”, “Azerbaydjan” ...

Birdən ötən dəfəki o iki qızı gördüm. Heç mə-nə salam da vermədilər. Telefonla danışıb get-dilər. Baxa-baxa qaldım. Niyə rus qızları belə etibarsızdı? – düşündüm.

Denisenko yol vərəqəsində vaxtı 24:00-a qədər uzatdı.

22:50-də “Azerbaydjan, Barda, kabina 3” de-yiləndə yazıq Denisenko məndən qabaq şüşəli kabinaya cumdu.

Atamla, anamla, Əvəz əmimlə, dayım Sabirlə danışdım. Yazıq nənəmlə danışanda səs ta-mam kəsildi. Elə əvvəldən telefon xışıldayırdı. Az qala çığıra-çığıra danışırdım.

Denisenko da mənimlə kabinanın içərisinə girmişdi. Bütün kabinanın içi elə biz əsgərliyə gələndə qatar-eşalondakı kimi bıçaqla doğram-doğram idi. Burada da deyəsən elə əlli ildir ya-zan yazanındır. Hər yan–şəhər, kənd, respub-lika adları ilə doluydu.

Onu da deyim ki, elə ləzzət də bunda idi.

Hər yan tər-təmiz olsa, bəlkə də ləzzətsiz olardı. Bu da təbii idi. “Pereqovornu”nun divar-ları da beləcə, yazılarla doluydu. Adam adları, millət adları, qız adları.., ürək şəkilləri, ortasın-dan keçən oxlar...

Atama deyəndə ki, məzuniyyətə gəlmək istəyirəm, dedi:

- Hələ tezdir, nə olub? Qoy ilin tamam olsun, sonra.

- Yox! – dedim və bir az da ərklə səsimi qal- dırıb, – sonra istəmirəm. Bax elə bu ay məni gətizdirin. Darıxıram... Gündə bir uşaq gedir...

Anam da, nənəm də yandan onu razı salır-dılar. Səslərini eşidirdim. Sonda atam razılaşdı.

Sevincimdən uçurdum. Sonra da danışıq ya- rımçıq kəsildi...

Denisenko taksi saxlatdı.

08.05.1971, VI gün.

Səhər “podyom”dan otuz dəqiqə qabaq dur- dum. Altının yarısı idi. Saat 10:00-da iclas vardı. Plakat hazırlamalı idim. İşimə başladım. Əvvəl eskizini cızdım.

«Komsomolets!

Vsyo silı na vıpolneniye reşeniy XXIV syezda KPSS»

Uşaqlar cədvəllə görüləsi işləri yerinə yetirib, “politzanyatiya”ya girdilər.

Mən öz işimdə idim. Qurtarıb Boykonu çağır- dım. O da Dolqiyerlə birlikdə gəldi. Baxdılar. Bəyəndilər. Sonra plakatı “Lenkomnata”da di- vara vurdurdular.

“Komsomol iclası” 10:00-da başladı. İclasa Qladkov da gəldi. Serjant Başanın yerinə Tel- manı qoymuşdular.

Başa Odessaya “akkord” götürüb, işləməyə getmişdi.

Telman əyri çənəsi ilə ikiqat əyilib əlində tut- duğu vərəqdən üzünə oxuya bilmirdi. Lap bia- bırçı bir vəziyyət yaranmışdı.

Qladkov onu yerinə oturtdu. Sonra Bilalova söz verdilər. Bilalov da üzündən oxuya bilmir, sözləri heca-heca, kəkildəyə-kəkildəyə tələffüz edir, səsi sinədən xırıldayırdı. Birdən Adil yer- dən qışqırdı:

- Firəngiz!

Yerdən gülüş səsləri qopdu. Bilalov dayanıb:

- Canına azzar!

Uşaqlar bir-birinə qarışdı. Firəngiz, Firəngiz...

Qladkov, Bryusov, Boyko mat qalmışdılar. “Tixo, tixo!” deyə-deyə starşina Adili çölə çıxa- randa Boyko dedi:

- “Çto takoye Firanqis?”

Filoloq Tofiq məsələni tərcümə eləyəndə Qladkovla Bryusov da gülməyə başladılar. Çox ruh yüksəkliyi ilə komsomol iclası başa çatdı.

Yenə hamam... Yenə həmişəki kimi “gene- ralnı uborka”... Yenə tərsməssəf görülən işlər...

Mən “uborka”dan azad idim.

Poçt gəldi. Zeynəbdən on üçüncü, Süleyman Zahidovdan on ikinci, Tahir Ağayevdən əlli be- şinci, Ələsgər Qanboy oğlundan üçüncü, Vaqif Həsənovdan dördüncü məktublar aldım. Mənim Ələsgərə yazdığım məktub ona bərk təsir edib və yazdığına görə onu ağladıb da.

Zeynəb yazıb ki, "son məktubları hələ də komsomol götürməyib. Zeynəb komsomolun qonşuları Maral xalanın qızı, Əlövsətin bacısı Rəna ilə dostlaşıb. Onun əli ilə verəcəyəm, na- rahat olma". Yaman pis oldum. Yenə dilxorçu- luq başladı.

Tahir yazırdı: "Gürcüstanın Tsiteli –Tskaro şəhərində "stroybata" düşüb. Komandir "vzvod" işləyir. Starşinaları azərbaycanlıdır. Nə vaxt is-təsən, sənə məzuniyyət verərəm deyib. Zaqa- taladan 15-20 km aralıdadırlar. Bərdədən oraya cəmi 200 km-dir. Nə var belə yerdə xidmət elə-məyə! Gecə get, səhər qayıt."

"UNR"-ə getdim. Nataşa yox idi. Növbətçi ilə dalaşdıq. O, mənə dedi:

- Otağını yu, təhvil ver.

Mən yumadım. Gündəliyimi götürüb, rotaya qayıtdım. Rəfiqəyə, bibim qızı Elzaya, Zeynəbə cavab məktubları yazdım.

Axşam Telmanı da götürüb, “UNR”-ə getdim. Rodkin yaxşı adamdır, ona olan hörmətimə gö- rə könüllü surətdə otağımı çiçək kimi təmizlə- dim...

Gecə kinoda yatdıq.

Q əl əb ə g ün ü

09.05.1971, Bazar gụnụ.

Səhər “prosedura”larından sonra on üç nə-fər ən yaxşı xidmət edən əsgərlərin adlarını yazdılar.

Bu gün qələbə günü idi. Hitler Almaniyasının qoşunları darmadağın edilmişdi. Vətən müha- ribəsində həlak olanların qəbirlərini ziyarət et- məyə gedəcəyik.

Mənim də adım siyahıdakı on üç nəfərin ara- sında idi, Oqanesyan və Ambarsumyanın da. Bizi həyətdə dəstəyə düzdülər. Boyko mənə və bir neçə əsgərə «blaqodarnost» elan elədi.

Hava tutulmuşdu. Əclaf Ələkbər gedib, ser- janta deyib ki, mənim 1 manatımı, Hüseynin də 6 manatını oğurlayıblar. Serjant soruşub ki, kim- dən şübhələnirsən? O deyib:

- Babayevlə Telman Mamedovdan.

Onlar gecə nə isə pıçıldaşırdılar.

“Kanselyariya”ya yığışdıq. Yana-yana qal-mışdım.

Bu gic nə danışır? Mən ya 1 manat, ya 1000 manat olsun, heç götürərəmmi? Mənə məgər belə tərbiyə veriblər? Bu şərə heç kim – nə serjantlar, nə starşina, nə də komandirlər inan- madı...

10:00-da o biri hərbi hissələrdən də əsgərlər gəldi. Gül-çiçəklərdən böyük çələnglər hazırlan- mışdı.

Orkestr də gəldi. Narın-narın yağış səpirdi...

Xiyabanda qız, oğlan, arvad, kişi əlindən tər- pənmək olmurdu. Biz orkestr marşları ilə "stro-yevoy şaq"la xiyabana girəndə sanki hamı don-du. Bizim ayaq tappıltılarımız və orkestrin sə-sindən başqa heç nə eşidilmir, heç nə hərəkət eləmirdi.

Bax burda da təsirləndim!

Özümü vətənini qoruyan əsgər kimi hiss elə- yib, qürurla, şəstlə təpiklərimi yerə döyürdüm... Məsuliyyət hissi hamını bürümüşdü.

Himn çalındı. Nitq söyləndi.

Bütün yol boyu və himndən, nitqdən sonra Oqanesyanla bu əclaf, itə oxşayan Ambarsum- yan elə hey danışır, Boyko və Bryusova xırda- layırdılar: - O vaxt bütün Kiyev "okruq"unun hər-bi komandiri erməni marşal Baqramyan (bu Ki-rovabaddan idi) olub, bir sözlə, ermənilər – So-vet İttifaqı qəhrəmanları Manukyan Andronik Aleksandroviç, Melikyan Xaçatur Bəyləroviç, İonesyan Vladimir Abramoviç, Danilyants Ye- rem (bu şuşalı idi) İvanoviç, Petrosyan Suren Qriqoryeviç, Martirosyan Sərkis Soqomonoviç, Zaxaryan Vaçenak Selyenoviç hamısı Ukraina uğrunda şəhid olublar.

Sonra Oqanesyan and içdi ki, mənim yerlim, Şamxorun Çardaxlı kəndindən olan Amazasp Xaçaturoviç Babacanyan marşal, özü də tank qoşunları üzrə marşal və Sovet İttifaqı qəhrə-manı olub.

Bu yerdə özümü saxlaya bilməyib dedim:

-Bu marşal Babacanyan bizim Azərbaycanda doğulub. Bəli, Oqanesyan düz deyir ki, o, şam- xorludur, Çardaxlı kəndindəndir. Ancaq orasını demir ki, onu 1925-ci ildə bizim azərbaycanlılar komsomol "putyovka"sı ilə silahlı qüvvələrə göndəriblər. O, 1969-cu ildə Şamxora, doğma Çardaxlı kəndinə də gəlmişdi.

Sonra o, marşal Baqramyandan danışdı. An- caq Baqramyan da Azərbaycanda, Kirovabad şəhərində doğulub, boya-başa çatmışdı. Marşal Baqramyan da 1959, 1964, hətta biz əsgərliyə gəlməzdən bir az əvvəl 1970-ci ildə də Kirova-bada gəlmişdi. O, uşaqlıq dostu Ağalar kən- dinin sakini Nağı Mustafa oğlu Bayramovla qu- caqlaşıb, şəkil də çəkdirmişdi. Hər yanda məni Azərbaycan yetişdirib deyirdi...

Tank qoşunları general-mayoru, Sovet İttifaqı qəhrəmanı azərbaycanlı Həzi Aslanovdan heç danışmırlar. Kiyevin cənub hissələrini, Taqan- roq şəhərini o azad edib. O, müharibənin qur- tarmasına cəmi üç ay qalmış müharibə mey- danında qəhrəmancasına həlak oldu. Bəzi ge- nerallar kimi qaçıb gizlənməyib...

Boyko birdən mənim sözümü kəsib:

-Siz elə danışırsınız ki, elə bil heç bizim rus-lar vuruşmayıb.

- Yox, niyə marşal Jukov, Rokossovski, gür- cü Stalin və minlərlə sizin rus generalları, mar- şalları olmasaydı, Hitlerə qalib gəlmək olmazdı.

Ancaq onu da bilin ki, bütün müharibə boyu təyyarələrin, tankların yanacağı Bakıdan gəlirdi, Hitler ona görə Bakıya divan tutacaqdı...

Bryusov da gülüb, məni sakitləşdirdi. Sa- vadımla və millətçiliyimlə Oqanesyan və Ambar- sumyanı bir az tormozladım. Yaman bərk ge- dirdilər. Pərt oldular. Bryusov mənə dedi:

- Abidənin önünə çələngi apar, sən qoy...

Bu, böyük şərəf idi!

Mən çələngi orkestrin sədaları altında “Me- muar-abidə kompleksi”nin qarşısına qoyanda bir çox yerdən şəklimi çəkirdilər. Yəqin sabahkı qəzetlərdə çıxar.

... Qayıdanda da “stroyevoy” getdik. Marş çalındı. Yağış elə səhərki qaydada narın-narın səpirdi. Bir az duman da gəlmişdi.

Bu gün hesablamışdım. Komsomolu sevdi- yim gündən düz 550 gün keçirdi.

Axşam kino oldu. Getmədim. Yuxum gəlmir- di...

Sonra yenə kazarmada, klubda, “UNR”-də, ştabda “uborka”ya başladılar. Mən azad idim...

Gecə yerimə girəndə bir də xatırladım ki, er- məni Oqanesyan və Ambarsumyan elə danı- şırdılar ki, guya Hitler Almaniyasını ermənilər darmadağın edib.

10.05.1971, ***I gün.***

Səhər durmaq əmri veriləndə uşaqlar çox sərbəst idilər. Tələsən yoxuydu. Sıraya düzü- ləndə qabaq cərgələri özümüz tuturduq. Daha “starik” yoxdur...

Özbaşıma, Boykoya və Bryusova demədən “UNR”-ə gəldim. Məni bura dartıb gətirən Sa- rıkirpiklinin sözləri idi. Koşkin onunla yanaşı oturmuşdu... Rodkin günortaya qədər gəlib çıx- madı.

“Qapını döyürlər” povestini oxuyub qurtardım. Gözlədiyim qədər də xoşuma gəlmədi.

Sarıkirpikli mənim otağıma keçmədi. Başa düşdüm onu. Yazıq qız durub tualetə getdi. Yə- qin siqaret çəkəcək. Mən də dursaydım, Koşkin yüz faiz başa düşəcəkdi. Odur ki, getmədim...

Tahirdən məktub aldım. Yazırdı ki, məzuniy- yətə gəlsən, mənim yanıma gəl – Zaqatala, Mu- ğanlı kəndi.

Bura Azərbaycandır ki!

-Getsəm, mütləq gedəcəyəm, – ürəyimdə de- dim.

Tahirə, komsomolun balaca qardaşına mək- tublar yazdım.

Rodkin gəlmədi. Odur ki, Nataşa və Koşkinlə sağollaşıb, rotaya qayıtdım. Mamışevlə nərd oynadıq. Onun 1 manatını udub sonra qaytar- dım.

Hava çox gözəl idi. Voleybol oynadıq. Ruslar və bizimkilər. Özümü həlak eləsəm də, uduzduq. Mamışev də ürəkdən və yaxşı oynadı. Ancaq nə filoloq Tofiq, nə Mürşüd, nə də o biriləri oynaya bilmir, özlərini fəda etməyi bacarmırdılar.

Bu işə ürək, bir az da qeyrət lazımdır...

Xəbər verdilər ki, sabahdan “UNR”-ə gedə-cəksən.

Sevindiyimdən yata bilmirdim...

Birinci kitabın sonu

Мцндяриъат

1. Биляъяри……..3
2. Гатар-ешалон……7
3. Рервомайск……...16
4. Карантин……..……23
5. Щ/щ 11741 «Б»……..43
6. Йени ил……..……60
7. 20 йаш……..……..…102
8. Кишилярин байрамы……..122
9. Гадынлар байрамы……..…152
10. Бащар байрамы……168
11. Йаз эялди……..175

12. Алдатма эцнц……..……190
13. 1 Май байрамы……..……245
14. Гялябя эцнц……...……270

Tofiq Xəzər

“Bərdədən görünən dünya...”

(Azərbaycan dilində)

Redaktor: Tamella Əliqızı

Korrektor: Zərif Şuşalı

Dizayner: Orxan Quliyev

Kompüter yığımı: Mehriban Ramanalı

Yığılmağa verilib: 06.11.2010

Çapa imzalanıb: 14.01.2011

Kağız formatı: 84x108

Həcmi: 274 səh. 18.25 ç.v.

Tiraj: 300, Sifariş 76.

Qiyməti 6 manat